**Vüqar Dadaşov**

# BİZİM TARİX

**Bakı - 2021**

**Vüqar Dadaşov**
**BİZİM TARİX**
**Bakı – "Red N Line" MMC – 2021, 170 səh.**

Redaktor: **Mübariz Məsimoğlu**
*şair-publisist, Azərbaycan Yazıçılar Birliyinin üzvü*

Məsləhətçilər: **Seyfəddin Qəniyev**
*Filologiya elmləri doktoru, professor*

**Dilavər Əzimli**
*AMEA Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri üzrə fəlsəfə doktoru*

**Polad Xəlilov**
*AMEA "Azərbaycanın yeni tarixi" şöbəsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru*

Rəyçi: **Tural İrfan (Tural Əhmədov)**
*AYB, AJB-nin üzvü, AMEA-nın Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun dissertantı*

Tarixi, milli-ideoloji, elmi-fəlsəfi, siyasi mövzuda yazılmış bu kitabda müəllif Azərbaycan xalqının, türk etnosunun problemləri, problemlərdən qurtuluş yolları, həyat mübarizəsi, haqq savaşı barədə, həmçinin digər vacib məsələlər haqqında etibarlı mənbə və məxəzlərə əsaslanaraq habelə şəxsi mülahizələrini də qeyd etməklə dolğun şəkildə fikirlərini təqdim etmişdir. Həmçinin əsərdə qalib Azərbaycan xalqının 44 günlük Vətən müharibəsində nümunəvi birliyi, yüksək döyüş ruhu, qəhrəmanlığı, əzmkarlığı, dostu və düşmənləri, müharibədə gizli tərəflər və gizlinlər haqqında mötəbər mənbələrə əsaslanan məlumatlar əksini tapmışdır. Kitab yeni nəslin maariflənməsində, tədrisində və vətənpərvərlik hisslərinin aşılanmasında xüsusi əhəmiyyət kəsb etməsi baxımından geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN: 978 9952 414 03 5

© Vüqar Dadaşov
© "Red N Line" MMC

# RƏY

Ömər Xəyyam deyirdi ki, tarix kainatın vicdanıdır. Yəni, tarixi proseslər kainatın hərəkət sxemində zaman axarının son nəticəsi etibarı ilə dəyərləndirilir. Tarix və zaman hərəkət edir. Sükunətdə deyil. Böyük sosioloq - alim İbn Xəldun isə yazır ki, hər bir tarixi proses davam etdiyi sürəcə onu qiymətləndirmək mümkün deyil. Hökmən həmin tarixi proses başa çatmalıdır ki, obyektiv dəyərləndirilsin. Əgər tələsik qiymət verilərsə bu, naqis olacaqdır. Qarabağ problemi də artıq başa çatma mərhələsində olduğu üçün bu tarixə ən doğru qiymət müasir dövrümüzdə verilən tarixi qiymətdir.

Qarabağ savaşının iştirakçısı olaraq Azərbaycanın müasir tarixinə əyani şahid olan hüquqşünas Vüqar Dadaşov "Bizim tarix" kitabında davam edən tariximizi məhz bu nəzərdən analiz edərək, hadisələrin xronoloji mərhələlərinə ayrı-ayrılıqda işıq tutmuşdur. Siyasi, elmi, publisistik fəaliyyəti, təcrübələri hüquqşünas kimi hadisələri qiymətləndirməkdə ona geniş yaratmış, milli tariximizin dürüst şəkildə gələcək nəsillərə çatdırılması amalında ona uğur bəxş etmişdir. Belə ki, ilk elmi, publisistik əsəri “Mənim düşüncəm” adı ilə işıq üzü görmüş, həqiqətləri cəmiyyətə çatdırmaq baxımından müəllifə geniş rəğbət qazandırmışdır.

Habelə bu əsər də, tarixi, İbn Xəldunun meyarı ilə dəyərləndirmək baxımından əvvəlki əsərin xronoloji davamı sayıla bilər. Çünki bu əsərdə ikinci Qarabağ savaşı, xalqımızın, dövlətimizin müasir problemləri, dünyadakı mövqeyi, qonşularla münasibətləri fonunda qarşıda duran amallar və məqsədlər işıqlandırılmış, xalqımızın inancı, millətimizin milli ruhuna uyğun olan, dünya və dünyəvilik ilə ayaqlaşan İslam anlayışına güzgü tutulmuşdur.

Əsərdə əsasən, istila altında olduğumuz zamanlarda yazılan və təbliğ olunan saxta tarixin tənqidi, əsl tariximizin obyektiv təhlili və təcəssümü müstəsna yer tutur.

Müəllif qeyd etdiyi məlumatları araşdırmış, əsaslandırmış,

dəlil-sübutlar təqdim edərək elmi şəkildə qeyd etmişdir. Hüquqşünas olması, müəllifi bu kimi məsələlərdə daha diqqətli olmağa sövq etmişdir.

Ümumilikdə əsər nəşr edilərək, geniş oxucu kütləsinə təqdim olunması üçün qənaətbəxşdir. Müasir və əsl tariximizin obyektiv şəkildə cəmiyyətə çatdırılması yolunda bu əsər müstəsna rol oynayacaqdır. Müəllifə bu yolda uğurlar arzu edirəm.

***Tural İrfan***

# MÜƏLLİFDƏN

Siyasi proseslərin, tarixi hadisələrin, ölkə üçün əhəmiyyətli faktların tarixin yaddaşına köçürülməsi siyasi idarə üsulundan asılı olmayaraq müəyyən olunmuş ideoloji xəttə uyğun həyata keçirilir. Tarixin üz səhifəsinə adını yazmağı bacaran, siyasi quruluşundan və siyasi rəhbərindən asılı olmayaraq dövlətlər və xalqlar müəyyən olunmuş həmin ideoloji xətti davam etdirir. Sözsüz ki, səbəb və məqsəd bir etnos, bir dövlət olaraq mövcudluğunu qorumaq və öz təsir dairəsini genişləndirməkdir. Həmin məqsədə çatmaq və ya əldə edilmiş mövqeyi qorumaq, möhkəmləndirmək üçün, tarixin saxtalaşdırılması, dəyişdirilməsi, gizlədilməsi əsas vasitə olaraq qalır. Böyük dövlətlər tərəfindən saxta tarix, məqsədli layihə və proqramlar rəqib xalqlar və dövlətlərə qarşı məharətlə istifadə olunur. İran-fars tarixi, rus dövlətinin tarixi, erməni tarixi əsasən saxta süni faktlar, əsassız dəlilər və araşdırmalar üzərində qurulub. Dünya miqyasında da eyni proses gedir, bəzi etnoslar aliləşdirilir, bəzi etnoslar isə məhv edilir, tarixi silinir və ya saxtalaşdırılır, tarixi faktlar gizlədilir, nəticə etibarı ilə assimilyasiya edilir. Rusiya, ABŞ, Çin kimi dövlətlər xüsusi orqanlarının hazırladıqları müəyyən layihə və proqramlardan istifadə etməklə digər dövlətlərə təsir edir, eləcə də daxildə digər xalqların milli kimliyini məhv etmək üçün istifadə edirlər.

Bir neçə misal, qeyd etdiyim fikrə aydınlıq gətirər: Almaniyada Afolf Hitlerin hakimiyyətə gəlməsindən əvvəl 1929-cu ildə indiki İranda hakim partiya “İrane Novin” faşist svastikası kimi tanıdığımız nişanı öz emblemi qəbul edir. Ali irq ideologiyasına uyğun olaraq 1935-ci ildə Reza şah Pəhləvi xarici dillərdə, diplomatik və beynəlxalq sənədlərdə, rəsmi sənədlərdə “Farsiya”, “Fars” dövlət adının “İran” adı ilə əvəz edilməsini tələb edir. “İran” sözünün mənası Avestanın (Zərdüştiliyin müqəddəs kitablar külliyyatı) "Eran-vej" sözündəndir, mənaca "Aryanların ölkəsi", yəni ali irq ölkəsi deməkdir. Bundan sonra

“Aryanlar ölkəsi” ideologiyası və anlayışı rəsmi sənədlərdə və dərsliklərdə yerləşdirilir. Reza şah Pəhləvi bu dəyişiklikləri Almaniyadan diplomatik nümayəndə heyətinin məsləhət və tövsiyəsi ilə həyata keçirib. 2-ci dünya müharibəsində də Reza şah Pəhləvinin rəhbərliyi ilə İranın Hitler Almaniyasının müttəfiqi olmasının səbəbi də məhz hər birinin faşist ideologiyasını rəhbər tutması idi. Maraqlıdır, Almaniya farslara niyə belə bir təklif verdi ki?

Sovet Sosialist Respublikaları İttifaqının(SSRİ) Kommunist Partiyası Mərkəzi Komitəsinin (KPMK) 09 avqust 1944-cü il tarixli Qərarı ilə ölkə üzrə türk xalqlarına öz tarixini öyrənməsi və məktəblərdə tədrisi qadağan edilir. Bundan sonra Çingizxanın türk dövləti, monqol dövləti kimi, türk tayfaları skiflər isə fars mənşəli kimi təqdim olunur. Türk Xaqanlıqlar və Xaqanlar haqqında tarixi məlumatlar gizlədilir.

44 günlük Vətən Müharibəsindən sonra Rusiya tarix dərsliklərində 1828-ci il Türkmənçay müqaviləsi ilə bağlı həqiqəti əks etdirən düzəlişlər etdiyini elan etdi, yəni, artıq rus tarix dərsliklərində “Ermənistan” sözü çıxarılaraq “İrəvan xanlığı” sözü ilə əvəz edilib.

Ardınca da illər boyu gizlədilən Rusiya Dövlət Arxivindən Qarabağ və Zəngəzurun Azərbaycana məxsusluğunu göstərən 1920-ci il V.İ.Leninə Teleqramı ortaya çıxarıldı.

Bu kimi faktlar bütün illər boyu tarixçilərdən və geniş ictimaiyyətdən gizlədilib. Təkcə bu iki fakt onu göstərir ki, Rusiya Azərbaycana və ümumən türk etnosuna qarşı bütün mümkün vasitələrdən istifadə etməklə türk etnosunun tarixini silməyə, onu köksüz göstərməyə və nəhayət assimilyasiya etməyə çalışıb. Rus fars tandemi türk etnosuna qarşı həmişə əlbir və koordinasiyalı hərəkət edib. Maraqlı bir məqamı xatırlasaq yerinə düşər. Sovet Sosialist Respublikaları İttifaqının (SSRİ) Kommunist Partiyası Mərkəzi Komitəsinin (KPMK) 09 avqust 1944-cü il tarixli Qərarı, Stalinin rəhbərliyi Tehran Konfransından (28 noyabr – 1 dekabr 1943-cü il tarixində ilk dəfə olaraq üç

böyük dövlətin – SSRİ, ABŞ və Böyük Britaniyanın rəhbərləri: İ.Stalin, F.Ruzvelt və U.Çörcil Tehranda görüşüblər) sonra imzalanıb.

SSRİ-nin dəstəyi ilə 1945-ci ilin noyabr ayında İranda Sosialist Azərbaycan Milli Hökuməti qurulur. Milli Hökumətin rəhbəri Seyyid Cəfər Pişəvəri olur, ancaq 1946-cı ilin dekabr ayında Azərbaycan Milli Hökuməti süqut edir. Cənubi Azərbaycanda qurulmuş Azərbaycan Milli Hökumətinin süqutuna səbəb Stalinin bu hökümətə dəstəyindən imtina etməsi və Sovet Ordusunun Cənubi Azərbaycandan çıxarılması idi.

Stalinin belə bir qərar verməsi 2-ci dünya müharibəsinin gedişi ilə əlaqəli olsa da əsas şərt Şimali və Cənubi Azərbaycanın birləşərək böyük türk respublikası yaranma ehtimalı idi. Stalinin belə bir qərar verməsinə eyni zamanda da başqa bir məqam, daha doğrusu İran şahının davranışları təsir etmişdir.

Tehran konfransı zamanı İran şahı Məhəmməd Reza Pəhləvi Ruzvelt və Çörçillə görüşmək üçün qapıda çox gözləmişdi, ancaq ABŞ və Böyük Britaniya rəhbərləri İran şahını qəbul xahişini rədd etmişdilər. Kor-peşman qalan İran şahı Məhəmməd Reza Pəhləvi SSRİ rəhbəri Stalinlə görüşəcəyinə ümidini itirsə də səlahiyyətli nümayəndəsi Sovet səfirliyinə zəng vurub "İran şahı, Marşal Stalini, – əgər müsaid zamanları varsa, – ziyarət etməyi rica edir. Marşal Stalin şahənşahı qəbul etmək istərmi?" – deyə soruşanda, İ.V.Stalin gözlənilməz cavab verir: "İran şahı İ.V.Stalini nə zaman qəbul etmək istəyir?"

Cavab o qədər gözlənilməz olur ki, şahın səlahiyyətli nümayəndəsi özünü itirir və sovet səfirliyi əməkdaşlarının onu yanlış anladıqlarını zənn edir. Təkrar eyni cümləni söylədikdə, Stalinin bu dəfəki cavabı şahın nümayəndəsini şoka salır: "Şah, İ.V.Stalini indi qəbul edə bilərmi?"

Az sonra İ.V.Stalin öz heyəti ilə bərabər şahın sarayına gəlir. 01 dekabr 1943-cü il tarixdə İ.V.Stalinin zala daxil olduğunu görəndə, Məhəmməd Reza Pəhləvi diz çökür, onun əlini öpmək istəyir. Sovet lideri İ.V.Stalin buna müsaidə etmir.

1946-cı ilin yanvarında İranın baş naziri seçilən Qəvvam Əs-Səltənə Azərbaycan Milli Höküməti ilə bağlı məsələni həll etmək üçün Moskvaya İosif Stalinlə rəsmi görüşə gəlir. İran baş naziri Qəvvam Əs-Səltənə Stalinin qəbul otağına girər-girməz onun ayaqlarına uzanıb yalvarmağa başlayır. İrandan Sovet ordusunun çıxarılmasın və Azərbaycan Milli Hökumətinə dəstəyə son verməyi xahiş edir.

İ.Stalin deyir: "Bir halda ki məsləhət istədiniz, əlbəttə, bu, mənim məsləhətimdir. Razılaşmaq, ya razılaşmamaq Qəvvamın öz işidir. Hesab edirəm ki, azərbaycanlıları sakitləşdirmək üçün nəsə vermək lazımdır". Qəvvam muxtariyyət təklifi ilə də razılaşmır, bildirir ki, oxşar hərəkat başqa yaşayış məntəqələrində də başlayar və İranın dağılmasına səbəb ola bilər. Beləliklə iran-fars liderlərinin Stalinin ayaqlarından öpmə ənənəsi İranın işinə yarayır və Azərbaycan Milli Hökuməti 1946-cı ilin dekabrında sovet ordusu çıxandan sonra süqut edir. SSRİ-nin siyasi ideoloji sütunu olan bolşevik ideologiyasının və inqilabının yayılmasını İosuf Stalin türklər birləşməsin deyə qurban verir.

44 günlük Vətən Müharibəsi həqiqətən Azərbaycanın həqiqətən dostunu da, düşmənini də açıq tanıtdı, baxmayaraq ki, dost da, düşmən də bəlli idi, sadəcə olaraq düşmənlərimizin adını dilə gətirmirdik. Dünyaya səs salan Azərbaycanın möhtəşəm Qələbəsi sözün əsl mənasında Azərbaycan xalqının, türk birliyinin böyüklüyünü, qəhrəmanlığını göstərdi və əzəmətli tariximizə dönüş etdi. Bu kitabda oxucularıma müharibənin yaranma səbəblərindən başlamış, danışıqlar prosesi də daxil olmaqla, 2-ci Qarabağ savaşı dövründə və müharibədən sonra da Şimal və Cənub qonşularımız başda olmaqla digər ölkələrin düşmən mövqeyi, gizli və xəyanətkar fəaliyyəti, təxribatları barədə əsaslandırıcı faktlar əksini tapıb. Hətta daxili düşmənlərin xəyanətkar əməlləri də Azərbaycan xalqının birliyini, qələbə əzmini, yüksək döyüş ruhunu sındıra bilmədi, əksinə, Azərbaycan xalqının birliyi, qəhrəmanlığı dünya xalqlarının dilində əfsanəyə çevrildi. Kitabda geniş ictimayyətə məlum olmayan proseslər, faktlar

haqqında materialların analizi göstərir ki, Azərbaycan xalqının əldə etdiyi bu möhtəşəm qələbə ağıla gəlməz dərəcədə mümkünsüzlüyün mümkünlüyüdür.

İllər öncə rus dilinin Azərbaycanda xüsusi statusla tədrisinin dövlətçiliyimizə təhlükə mənbəyi olduğu barədə yazmışdım. Bu məsələdə dəqiqləşmə edim ki, rus dilinin xarici dillər kimi Azərbaycan tədris ocaqlarında ali məktəblərində öyrənilməsinin əleyhinə deyiləm, əksinə rus dilini bilməyimiz bizə ancaq üstünlük gətirə bilər, ancaq söhbət rus məktəblərinin müstəqil fəaliyyətindən gedir. Həmin rus sektoru adlandırdığımız məktəblərdə rus dili deyil, həmin o saxta rus tarixi, rus mental dəyərləri, rus "böyüklüyü", rus şovinizmi tədris edilir. Bir sözlə, bu məktəblərdə azərbaycanlı görünüşü ilə rus düşüncə tərzli insanlar yetişdirilir, milli kimliyi zəiflədilir və nəticə etibarı ilə istər-istəməz Azərbaycanın rus maraq dairəsində qalmasına xidmət edən "ordu" yaradılır. Bütün bunlar Rusiyanın Azərbaycana təsirinə, müdaxiləsinə və hətta hərbi müdaxiləsinə (rus dilli əhalinin qorunması adı altında) imkan yaradır.

Əziz oxucu, kitabın əsas hissəsi ümumi qənaətimizdən ibarətdir, Azərbaycan xalqının, dövlətinin gələcək inkişaf istiqaməti, hədəf və məqsədlərimiz, türk birliyinin perspektivinin mümkün yolları, dini birlik kimi olduqca vacib məsələlər müzakirə edilir. Əminəm ki, kitab real tariximizi əks etdirməklə gələcəkdə mümkün təhlükələrin qarşısını almağa hazırlıqlı olmağımızı, hədəflərimizə çatmaq üçün yaddaşımızı iti saxlamağa kömək etmiş olacaq.

Unutmayaq ki, həqiqət, onu qəbul edənlər üçün yox, onu dərk edənlər üçün həqiqətdir!

**Vüqar Dadaşov**

# Birinci fəsil
## Rusiya İkinci Qarabağ müharibəsində

### Rusiya Qarabağa bir başa hərbi müdaxilə edə bilmədi

SSRİ-nin süqutunda, sözsüz, Rusiyanın birinci prezidenti Boris Yeltsin hakimiyyətinin əvəzsiz rolu var və Yeltsin öz hakimiyyəti dövründə SSRİ-nin dağılmasından sonra Rusiya Federasiyasının da dağılma ehtimalının yüksəldiyini görə bildi. Sözsüz ki, Qərb Rusiyanı hərb yolu ilə deyil, ancaq daxili sosial narazılıqlar və etnik qarşıdurmalarla parçalamaq niyyətində idi və Qərb Rusiyanın özünün də parçalanması prosesinin Yeltsin hakimiyyəti dövründə həyata keçirəcəyinə çalışırdı, Şimali Qafqazda, Çeçenistanda baş verən müharibədə qərbin "xidməti" danılmazdır.

Ancaq Yeltsin Qərbin ona isti münasibətinin əsl mahiyyətinə varmışdı, baxmayaraq ki, bunu büruzə vermirdi. Yeltsin sərxoş halda hakimiyyəti idarə etsə də belə məqsədi, Rusiyanın dağılmasının qarşısını ala biləcək bir fiqur tapmaq idi. Ancaq bu elə bir fiqur olmalı idi ki, hakimiyyətin həmin fiqura ötürülməsi qərbin, daha doğrusu, ABŞ-ın razılığı ilə olsun. Yeltsin öz hərəkət və davranışı ilə Klinitonun sayıqlığını azalda bilmişdi və qərb, həmçinin ,ABŞ prezidenti Klinton Yeltsinə inandığından düşünürdülər ki, Yeltsinin hakimiyyətə gətirəcəyi adam Yeltsin siyasi kursunun davamçısı kimi, ipə-sapa yatan biri olacaq. Sonradan ABŞ tərəfindən üzəridən dövlət sirri qrifi götürülmüş və ictimailəşdirilmiş 1999-cu ilin sentyabr ayında Rusiya prezidenti Yeltsinin ABŞ prezidenti B. Klintonla arasında keçirilmiş danışıqlarda Yeltsin Putini "etibarlı insan" kimi təqdim edir və Klintonu Putinin "demokratiyanın gücləndirilməsində seçdiyim istiqamətə davam edəcəyinə" inandırır. Yeri gəlmişkən, qeyd edim ki, ABŞ tərəfindən Bill Klintonla Boris Yeltsinin danışıqlarının ictimailəşdirilən 56 yazısında çoxlu maraqlı məqamlar

var hansı ki, Yeltsinin ABŞ-ın adamı olduğu tam aşkar şəkildə təsdiqlənir və hətta 30 avqust 1993-cü ilə Rusiya parlamentinin atəşə tutulması da ABŞ tərəfinin razılığı ilə həyata keçirilməsi məlum olur.

Bu fakt bir daha onu sübut edir ki, Rusiya Prezidenti Boris Yeltsin hakimiyyəti tamamilə qərb ölkələrindən əsasən də, ABŞ-dan asılı idi və ABŞ Rusiyanın idarəçiliyində yaxından iştirak edərək onun xarici və daxili siyasət kursunu müəyyənləşdirirdi. Ruslar üçün bu nəticə nə qədər xoş olmasa da faktiki siyasi vəziyyət belə idi.

Digər bir məlumata əsasən, Yeltsin hakimiyyəti dövründə Prezident administrasiyasının rəhbəri Valentin Yumaşov da Putinin təyinatına qədər Rusiya siyasi elitasında hakimiyyətin Putinə ötürülməsində konsensus əldə olunduğunu və "Liberallar onda "Yeltsin ideyasının davamçısı", konservatorlar və güc strukturları "keçmiş çekist", insanlar isə "nələrinsə Rusiyaya qaytaracağını" görürdülər"- deyə belə bir fikir səsləndirmişdir.

Əminliklə demək olar ki, Yeltsin öz hakimiyyəti dövründə artıq anlayırdı ki, onun tutduğu siyasi kurs Rusiya Federasiyasının özünün məhvinə aparır və hakimiyyəti tezliklə elə bir məqbul fiqura verməlidir ki, Rusiya Federasiyasının dağılmasının qarşısını alsın. Sözsüz ki, Yeltsin Putinin daxilən SSRİ-nin dağılmasından çox narahat olduğunu və buna heyfsiləndiyi haqda məlumatlı idi. Yeltsin Kintonu aldada bildi və Putinin hakimiyyətə gəlməsinə mane ola biləcək qüvvələri neytrallaşdırmağı bacardı.

1999-cu ilin dekabrın 31-də yeni il gecəsi Yeltsin hakimiyyəti Vladimir Putinə ötürə bildi. Bəzi məlumatlara görə Yeltsin Putin hakimiyyəti dövründə dəfələrlə "ruslar Putinə görə mənə minnətdardılar" – deyə belə bir fikir səsləndirib. İnkar edilməzdir ki, Putin qərbin istədikləri siyasi fiqur olmadı və Rusiya Federasiyasının faktiki dağılmasının qarşısını aldı, hərbi potensialını bərpa etdi, iqtisadi və sosial vəziyyəti normal hala gətirdi. Bütün bunlar rusların Putinə böyük etimadını yaratdı. Ancaq

Putin Rusiya xalqının ona qarşı olan sevgisini şəxsiyyətə pərəstiş və kulta çevirdi. Putin siyasətinin analizi göstərir ki, Putin sovet dövrünün siyasi elitasının tipik nümayəndəsi kimi, konkret çərçivə daxilində və müəyyən etdiyi konkret formulu üzrə hərəkət edən, etibarsız, ədalətsiz, şovinist və şəxsi mənada isə dostu olmayan bir siyasi liderdir. Putin Rusiyanın dünyada və eləcədə keçmiş SSRİ respublikalarda öz mövqeyini saxlamaq üçün ənənəvi güc siyasətini və süni yaradılmış etnik zəmində konfliktlərlə saxlamaq niyyətində idi.

Ancaq Rusiyanın daxilində və dünyada gedən proseslər Rusiyanın parçalanmasının zaman məsələsi olduğunu göstərir. Vladimir Putinin təklif etdiyi layihə üzrə Rusiya Federasiyasının Konstitusiyasına edilmiş dəyişikliklər Rusiyanın parçalanmasının qarşısını almağa hesablanıb. 2020-ci ilin iyul ayında başa çatmış səsvermə ilə Rusiya Federasiyası Konstitusiyasına edilmiş dəyişikliklərin məhz Rusiya daxilində digər dövlətçilik ənənələri olan və hal-hazırda da müxtəlif formalı yerli idarəetmə üsulu olan milli regionların ruslaşdırılmasına, həmin millətlərin dilinin və mədəniyyətinin ləğv edilməsinə yönəldilmişdir. Putin bu dəyişikliklərlə öz prezident müddətlərini sıfırlamış və faktiki olaraq 2036-cı ilə qədər hakimiyyətdə qalamaq imkanlarını rəsmiləşdirmişdir. Ən maraqlı məqamlardan bir də budur ki, 15 müttəfiq respublikalardan ibarət SSRİ-nin hansı ki, ümumilikdə 26 milyondan artıq insan itkisi hesabına ikinci dünya müharibəsində qazandığı misilsiz qələbəni Rusiya mənimsəyir və SSRİ-nin qələbəsini rusların qələbəsi kimi konstitusiyaya həkk etdirir. Əlbəttə ki, Rusiya Konstitusiyasına edilmiş dəyişikliklərin kompleksdə hədəfi rusları aliləşdirmək və Rusiya daxilində milli muxtariyyət formalı dövlət quruluşlarının etnosunu ruslaşdırmaq və bununla da Rusiyanın parçalanma ehtimalının qarşısını almaqdır.

***Yeni dəyişikliklərdən sonra Rusiya Federasiyasının Konstitusiyasının 86-ci maddəsinin 1-ci bəndinə görə rus xalqı dövlət qurucu xalq elan olunur və bütün Rusiya üzrə rus***

***dilinin dövlət dili kimi işlədilməsi məcburidir. Əsas məqamlardan da biri budur ki, Putin Rusiya Konstitusiyasının 81-ci maddəsinin 3-cü bəndində göstərilmiş Prezidentlik müddətini sıfırladı, bu isə o deməkdir ki, Putin yenə də iki dəfə ardıcıl olaraq Prezident seçilə bilər və faktiki 2000-ci ildən hakimiyyətdə olan Putin 2036-ci ilə kimi də hakimiyyətdə qalmasına hüquqi baza yaradılıb. Yeri gəlmişkən qeyd edim ki, 2008-2012-ci illərdə Rusiya prezidenti kimi seçilmiş daha doğrusu, Putin tərəfindən bu vəzifəyə təyin edilmiş Dmitri Medvedev bir mənalı olaraq formal prezident kimi tam şəkildə Putinin tabeliyində idi. Putin Prezidentliyi dövründə ən çox inandığı və hazırladığı fiquru-Dmitri Medvedevi baş nazir təyin etmişdi hansı ki, hakimiyyətin əldə saxlanması üçün formal olaraq Medvedevlə də yerdəyişmə edərək hakimiyyətini tam olaraq əlində saxlaya bildi. ABŞ prezidenti Barak Obama öz xatirələrində qeyd edir ki, Rusiya prezidenti kimi Dmitri Medvedevin prezidentliyi formal xarakterli idi və bütün məsələlərin həlli məhz Vladimir Putindən keçirdi. ABŞ prezidenti Barak Obamanın prezidentlik dövrü 20.01.2009 – 20.11.2017-ci illəri əhatə etdiyindən onun Rusiya prezidentləri kimi həm Medvedevlə, həm də Putinlə bir başa təmasları olmuşdur.***

Putini yaxından tanıyan şəxslər və onunla əlaqəsi olmuş siyasi liderlər ümumilikdə bu qənaətdədirlər ki, Putinin düşüncəsinə görə dünyada və ölkəsində baş verən bütün məsələlərin həlli üçün əsas faktor güc faktorudur və bu vasitədən yerli-yersiz istifadə edir. Təbii ki, Rusiya dünyanın ən güclü hərbi potensiala malik ölkələrindən biridir və daima hərbi fokusda durmaqla öz varlığını qoruyur. Ancaq Putinin və ümumilikdə Rusiyanın güc siyasəti daha ağır nəticələr verərək Rusiyanın özünə daha böyük problemlər yaratmasını artıq Rusiya siyasi elitası və o cümlədən, Putin özü yaxşı anlayırlar. 08.08.2008-ci ildə Gürcüstan prezidenti Mixail Saakaşvili öz suveren ərazilərində, Rusiyanın sülhməramlıları yerləşdirilmiş Abxaziya və Cənubi Osetiyada anti - terror əməliyyatlarına başladı. Qeyd etsək ədalətli olar ki,

Gürcüstanın Rusiya sülhməramlıları yerləşdirilmiş öz suveren ərazisində Abxaziya və Osetiyada hərbi əməliyyatlara başlaması Rusiya provokasiyasının, təxribatının və siyasətinin nəticəsi idi. Qısası, Rusiya Gürcüstanı bu əməliyyatlara başlamağa təhrik etdi. Rusiya isə sülhməramlı kimi Gürcüstanın Abxaziyasında və Osetiyasında yerli əhaliyə Rusiya vətəndaşlığı verərək rus pasportları ilə təmin etmişdi. Gürcüstan öz ərazisində Abxaziyada və Osetiyada hərbi əməliyyatlara başlayan kimi Rusiya bunu rus sülhməramlılarına hücum kimi dəyərləndirdi və yerli rus vətəndaşlarının qorunması adı ilə Rusiyadan əlavə qüvvə ilə Gürcüstana hücum etdi. Qərb ölkələrinin vasitəçiliyi ilə Rusiya Tbilisiyə hücumunu dayandırdı. Ancaq Abxaziya və Osetiyanı müstəqil dövlət kimi tanıdı və o ərazilərdə öz hərbi bazalarını yaratdı. Rusiyanın Gürcüstana qarşı bu addımına səbəb nə idi? Əlbəttə ki, Gürcüstanda Saakaşvili hakimiyyətinin qərb yönümlü siyasəti, NATO-ya inteqrasiyası planları. Sözsüz ki, Rusiya Rusiyaya qarşı qərb (NATO) koalisiyasının onun sərhədlərinə yaxınlaşmasdan bərk narahat idi. Rusiya Gürcüstana qarşı müharibəyə başlayanda, Abxaziyanı və Osetiyanı müstəqil dövlət kimi tanıyanda əmin idi ki, Gürcüstan Rusiyanın şərtləri ilə razılaşacaq və Qərbə inteqrasiyadan imtina edəcək. Proseslər isə tam əks effekt verdi, Gürcüstan qərb yönümlü siyasətini davam etdirdi, Rusiya Gürcüstanı tam olaraq itirdi və faktiki olaraq öz cənub sərhədlərinə Qərb hərbi koalisiyasını buraxmış oldu.

Rusiya demək olar ki, eyni ssenari üzrə Ukraynada artan qərbə inteqrasiya meylini boğmaq istədi və Ukraynada rus yönümlü Yanukoviç hakimiyyətinin devrilməsindən dərhal sonra Ukrayna Krımını ilhaq etdi, Ukraynanın qərbində Donetski və Luqanski separatçı respublikalar qurdu, ancaq Ukrayna öz yolundan dönmədi və hakimiyyətə gələn Poroşenko iqtidarı ölkənin qərb yönümlü siyasətini daha israrla inkişaf etdirdi. Nəticədə, Rusiya Ukraynanı tamam ilə itirdi və Qərbin anti Rusiya koalisiyası həm Ukraynanın quru ərazisindən, həm də

Qara Dənizdən Rusiyaya daha da yaxınlaşdırdı.

Sözsüz ki, Rusiyanın öz maraq dairəsi hesab etdiyi post sovet respublikalarına qarşı etdiyi hərbi təcavüz siyasi baxımdan Rusiyanın maraqlarını uzunmüddətli perspektivdə, nəinki təmin etmədi əksinə, strateji baxımdan Rusiyaya uğursuzluq gətirdi. Rusiyanın Gürcüstana, Ukraynaya qarşı etdiyi hərbi təcavüz əsl həqiqətdə Rusiya üçün məğlubiyyətə bərabər nəticə verdi. Faktiki olaraq, Rusiya Gürcüstanı və Ukraynanı tamamilə itirdi və onları Rusiyaya qarşı Qərb koalisiyasının tərkibinə çevirdi. Psixoloji və ideoloji baxımdan isə Rusiyanın təcavüzü Gürcüstan və Rusiya, Ukrayna və Rusiya millətləri arasında milli yaddaşa həkk olan psixoloji nifrət və sədd yaratdı, nəticə olaraq, bu sədd Ukrayna-Rusiya və Gürcüstan-Rusiya siyasi yaxınlaşmasına böyük əngəl törətdi. Eləcə də, digər xalqlar üçün nümunə və dərs oldu. Əlbəttə ki, Rusiya post sovet ölkələrinə qarşı apardığı siyasətin strateji baxımdan zərərli olduğunu anlayırdı, ancaq post sovet respublikalarına qarşı formalaşmış ağalıq stereotipindən imtina edə bilmirdi və onlarla bərabər-hüquqlu ölkələr kimi davranmağı özü üçün qəbul edilməz hesab edirdi. Rusiyanın bu siyasəti bumeranq kimi özünə zərbə vurduğu və beynəlxalq siyasi arenada mövqeyinin daha da ağırlaşması, yeni dünya güclərinin meydanda söz və güc sahibinə çevrilməsi Rusiyanın post sovet respublikalarına qarşı siyasətinin müəyyən qədər dəyişməyinə səbəb oldu.

27 sentyabr 2020-ci il tarixdən Azərbaycan Rusiyanın köməyi ilə Ermənistanın işğal etdiyi Dağlıq Qarabağın və onun ətrafında yeddi rayonun azad edilməsi üçün başladığı (Dəmir yumruq) əməliyyatları zamanı Rusiyanın formal olaraq neytral qalmasının səbəblərindən biri də məhz yuxarıda qeyd etdiyimiz Gürcüstan və Ukrayna təcrübəsi idi. Sözsüz ki, Dağlıq Qarabağın və yeddi ətraf rayonların azad edilməsinə Rusiyanın formal da olsa neytral mövqe göstərməsinin və aktiv hərbi müdaxiləyə keçməməsinin həlledici səbəblərindən biri məhz Türkiyə faktoru idi. Türkiyə Azərbaycanın qardaş ölkəsi və

müttəfiqi kimi Rusiyanı neytrallaşdıra bildi.

Digər vacib səbəb isə, Rusiyanın ikinci Qarabağ müharibəsində neytral qalmasına qərar verməsinə Gürcüstan və Ukrayna təcrübəsinin də böyük təsiri idi. Təbii ki, Rusiya Azərbaycanı da birdəfəlik itirmək istəmədi və Qarabağda Azərbaycana qarşı analoji siyasətindən imtina etdi. Bununla da, Rusiya keçmiş SSRİ respublikalarına qarşı yürütdüyü aqressiv, şovinist və imperialist siyasətinin Rusiyanın özü üçün zərərli və dağıdıcı olduğunu artıq anlamış olduğunu və bu istiqamətdə siyasətində müəyyən korrektə etdiyini göstərmiş oldu. Sözsüz ki, bu Rusiya üçün keçmiş SSRi respublikalarına qarşı siyasətinin tam dəyişməsi demək deyil, sadəcə Rusiya üçün əlverişsiz şəraitə görə məcburi siyasi gediş idi. Rusiyanın çox qədim olmayan tarixinin, dövlətçilik ənənəsinin, xalq düşüncəsinin apardığı uğurlu müharibələr fonunda formallaşdına görə güc faktoru Rusiyanın milli düşüncəsinin və dövlətçilik siyasətin tərkib hissəsinə çevrilib və ümumilikdə Rusiyanın könüllü olaraq güc faktorundan imtina edəcəyi mümkünsüzdür. Deməli, hədəf Rusiyanın özüdür.

## Rusiya post sovet ölkələrində də mövqeyini itirib

Rusiya öz mövqeyini asanlıqla təhvil vermir. Sözsüz ki, Rusiyanın dünyada görünən gücü, əsasən onun post sovet ölkələrindəki mövqeyi ilə ölçülür və təbii ki, Rusiyanı narahat edən ən başlıca məsələ onun məhz post sovet məkanında da mövqeyinin zəifləməsidir.

SSRİ dağıldıqdan sonra Rusiyanın ən güclü mövqeyi Orta Asiya dövlətlərində Qazaxıstan, Tacikistan, Qırğızıstan, Özbəkistan və Türkmənistanda olub. Ancaq son dövrlərdə baş verən əsaslı siyasi proseslər Rusiyanın bu regiona da təsir imkanların azaldır.

Qazaxıstanla Rusiyanın müttəfiqlik səviyyəsində olan

münasibəti qarşılıqlı ərazi iddialarının yüksək səviyyədə səsləndirilməsi ilə Qazaxıstan prezidenti Qasım-Jomard Tokayevin Rusiyaya "tarix dərsi" ilə kəskin şəkildə korlanmışdır. Təbii ki, bu iki ölkə arasında münasibətin pozulmasına gətirib çıxaran səbəblər var. Qazaxıstanla Rusiyanın münasibətinin indiki vəziyyəti Türkiyənin regionda və o cümlədən Qazaxıstanda güclənən mövqeyinin nəticəsidir. Post sovet məkanında Tacikistandan başqa Orta Asiya dövlətlərinin hamısı türkdilli xalqlara və türk etnosuna mənsubdur. Bu dövlətlərin rus kiril əlifbasından imtinası, Türkiyə və Azərbaycanla ortaq latın əlifbasına, ortaq türk dilinə keçidin son dərəcədə aktuallaşması və artıq reallaşması astanasında Rusiyanın Özbəkistanda, Qazaxıstanda, Qırğızıstanda və nəhayət Türkmənistanda çox illik mövqeyinin sovrulmasının göstəricisidir.

Türkmənistanla bağlı məsələ isə olduqca maraqlı görünür. 21 yanvar 2021-ci ilə Azərbaycan və Türkmənistan arasında Xəzər dənizində Azərbaycanın "Kəpəz", Türkmənistanın isə "Sərdar" adlandırdığı bu yataqın "Dostluq" adı ilə karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumunun imzalanması Rusiyanın maraqlarına böyük zərbədir hansı ki, İran və Rusiyanın təsiri ilə illərlə həlli mümkünsüz idi. Bu razılaşma Rusiya dövlətinin Avropa ölkələrinə qarşı "qaz siyasəti"nin neytrallaşdırılması və eləcə də, Avropanın enerji təhlükəsizliyinin təminatı üçün vacib Cənub Qaz Dəhlizi layihəsi üzrə TANAP və TAP-la bağlı Hökumətlərarası Sazişlərlə birlikdə uzunmüddətli qaz satış müqavilələri üçün zəmin yardır. Bu isə o deməkdir ki, Rusiya Türkmənistanda da mövqeyini itirib ki, bu vacib memorandum imzalanıb.

Şərqi Avropada yerləşən post sovet respublikalarında - Moldovada, Ukraynada və Belarusiyada da Rusiyanın mövqeyi gərgin siyasi və hərbi proseslərlə müşahidə edilir. Moldovanın yeni seçilmiş prezidenti qərb yönümlü Maya Sandu rusmeyilli prezident İqor Dodon üzərində qələbəsi və xanım prezidentin

“Rusiya sülhməramlıları dərhal ölkədən çıxarılmalıdır” bəyanatını verdi. Rusiya Ukraynanın Krımını və Dombasını işğal edib. Ukrayna Azərbaycanın Qarabağdakı qazandığı qələbənin təcrübəsini öyrənməyə başlayıb və bu iki ölkə arasında müharibənin yenidən qızışacağı real görünür. Göründüyü kimi, Rusiya Moldovada, Ukraynada hərbi konflikt və real müharibə şəraitindədir. Belarusiya ilə vəziyyət 2020-ci ilin prezident seçkilərindən sonra məhz Rusiyanın müdaxiləsi ilə Aleksandr Lukaşenkonun hakimiyyətdə qalması ilə təmin edildi. Rusiya Belarus xalqının seçimini tapdalayaraq, faktiki Belarusiya prezidenti seçilmiş Svetlana Tixanovskanın hakimiyyətə gəlməsini əngəllədi. Təbii olaraq, Belarus xalqı baş verənlərə və Rusiyanın müdaxiləsinə narazılıqlarını uzun müddətli etirazlarda göstərdi. Rusiyanın hakimiyyət səviyyəsində Belarusiyada mövqeyi məcburi, iki təcrid olunmuş dövlətin və iki dövlət başçısının sövdələşməsi çərçivəsindədir.

O ki, qaldı Baltikyanı keçmiş üç sovet respublikalarına Latviya, Litva və Estoniya bu ölkələrdə rus mövqeyindən söhbət belə gedə bilməz. Hər üç dövlət Avropa İttifaqının və NATO-nun üzvüdür.

Rusiyanın Cənubi Qafqazda mövqeyi digər sadaladığım regionlardan ilkin baxışda məqbul görünür. Ancaq real vəziyyət budur ki, Azərbaycan 44 günlük müharibədə Ermənistan üzərində qələbə qazandıqdan sonra Rusiya Cənubi Qafqazda lider mövqeyini Türkiyə ilə bölüşməli olub. 2008-ci ildə Rusiya Gürcüstan müharibəsində Rusiya Gürcüstanın Abxaziyasını və Osetiyasını işğal etdikdən sonra bu iki ölkə arasında heç bir münasibət mövcud deyil.

Digər Cənubi Qafqaz respublikaları - Azərbaycan və Ermənistanda vəziyyət tam fərli məcradadır.

Rusiyanın hərbi müttəfiqlik münasibətində olduğu Ermənistanda da mövqeyi əsaslı şəkildə laxlayıb ona görə ki, 44 günlük Azərbaycanla müharibədə Rusiya Ermənistana bir başa açıq canlı qüvvə ilə kömək etmədi, daha doğrusu, siyasi şərait buna imkan

vermədi. Ermənistan Azərbaycan qarşısında acı məğlubiyyətə uğradı. Biabırçı məğlubiyyətdən sarsılan erməni cəmiyyəti Rusiyanı xəyanətdə ittiham edir. Rusiya prezidenti Putinlə Ermənistan baş naziri Paşinyan arasında heç bir insani ünsiyyət belə yoxdur. Qərb yönümlü Paşinyan Azərbaycan qarşısında məğlub olduğu halda hakimiyyətini saxlaya bildi. Rusiya Ermənistanda rusmeyilli Qarabağ klanının heç bir nümayəndəsini hakimiyyətə gətirə bilmədiyindən Paşinyanla iş birliyinə gedir və artıq müəyyən vaxta qədər olsun Paşinyana hakimiyyətini saxlamaq üçün dəstək verir. Rusiya ehtiyat edir ki, Paşinyanın əvəzində daha radikal qərb yönümlü siyasətçi hakimiyyətə gələ bilər. Nokol Paşinyan ara-sıra Rusiyanın maraqlarına kəskin toxunan açıqlamalar verir nüfuzdan salmaqda davam edir.

Hətta 22 fevral 2021-ci il tarixdə Ermənistan baş naziri Nikol paşinyan ölkə KİV-nə müsahibəsində etiraf edib ki, bəli Ermənistan Azərbaycana qarşı Rusiyanın "İsgəndər" raketindən istifadə edib, lakin raketlər partlamayıb. Bu açıqlama ilə Paşinyan bir daha anti-Rusiya mövqeyini göstərərək, Rusiyanın müasir silahlarından biri olan və fəxr etdikləri "İskəndər"in nüfuzunu yerlə yeksan etdi.

Rusiyanın Ermənistanda mövqeyinin olduqca zəifləməsinin bir görüntüsü də odur ki, Rusiya Qarabağın özünə, daha doğrusu, Qarabağda separatçı ermənilərə "stavka" edir, orada separatçıların əli ilə "rus dili" ssenarisini işə salıb. Bu isə onu göstərir ki, Rusiya Ermənistana hal-hazırda etibar etmir, orada mövqeyi olduqca zəifdir və haçansa, Ermənistanı itirə biləcəyi ehtimalı görünür.

Azərbaycanda sözsüz ki, Rusiyanın müəyyən mövqeyi var. Ancaq bu mövqeyin duruşu mümkünsüz görünür. Rusiya 09 noyabr 2020-ci il müəmmalı rus vertolyotunun vurulması bəhanəsi ilə şantaj və təzyiqlə Azərbaycana öz ordusunu yeridərək Ermənistan üzərində Azərbaycanın qələbəsinin tamamlanmasına imkan vermədi. Təbii ki, Azərbaycanın yüksək dövlət rəsmiləri bu məsələyə münasibət bildirilməsə də bütün Azərbaycan xalqı Rusiyanın Azərbaycana qarşı ənənəvi işğalçılıq, hökmran-

lıq siyasətini davam etdirməsindən xəbərdardır. Rusiya öz ordusunu sülhməramlı adı ilə Azərbaycana, Qarabağa yeritməsi ilkin baxışda onun uğuru sayıla bilər.

Ancaq rus sülhməramlılarının Azərbaycanda Qarabağa yerləşdirilməsində də Azərbaycan çox vacib qazanclarını əldə etdi, dünyanın, daha doğrusu, xristian dünyasının Azərbaycana basqısını neytrallaşdıra bildi, Qarabağla bağlı ən pis mümkün variantların Azərbaycana qarşı tətbiq edilməsi real göründüyü halda əhəmiyyətini itirmiş oldu.

Paralel olaraq Türkiyə rəsmən Azərbaycanda yəni, Rusiyanın "arxa baxçası" saydığı Cənubi Qafqaza oturuşdu. Rusiya Qafqazda Türkiyənin mövcudluğunu qəbul etdi. 44 günlük müharibədə rus hərb elminin, hərb sənayesinin yararsızlığı Rusiyanın Azərbaycanda mövqeyinin güclənməsi yox, hərb nüfuzunun sıfıra enməsi deməkdir. Digər tərəfdən, Azərbaycanda yüksək hakimiyyət postlarında təmsil olan rusmeyilli məmurların və hərbçilərin vəzifədən uzaqlaşdırılması 44 günlük müharibə ərəfəsində və sonradan da prosesin davam etdirilməsi Rusiyanın Azərbaycanda siyasi ideoloji təsirinin zərərsizləşdirib. Bir mənalı demək olar ki, Rusiyanın müdaxilə etdiyi konfliktlər onu işğalçılıq siyasətinin sübutu kimi həm yerli xalqların gözündə, həm də dünya dövlətləri üçün təhlükə mənbəyi kimi arzuolunmaz dövlətə çevirib.

14 fevral 2021-ci ildə Rusiya prezidenti Vladimir Putin ölkə mediasının redaktorları ilə görüşdə "Rusiyanın postsovet məkanında artan təsiri narahatlıq doğurur, ölkənin əleyhdarları dünyada gərginliyin azaldılması barədə danışıqlar çərçivəsində Rusiyanı iddialı və hakimiyyətə həsrət qalan insanlardan istifadə edərək MDB məkanından çıxarmağa çalışacaqlar. Postsovet məkanındakı təsirimiz, nə qədər olsa da, artır. Bütün çətinliklərə baxmayaraq. Axı, ittifaqı (Sovet İttifaqı-Red) dağıdanda, sonrakı bütün nəticələri ilə müstəqil dövlətlərin qurulmasını anlamalı idilər. Ancaq buna baxmayaraq, son illərdə burada təsir gücümüz artmaqdadır. Həm də bu, narahatlığa səbəb olur"- deyə

bir fikir səsləndirdi. Bu baxımdan Putinin belə bir açıqlaması onu göstərdi ki, həqiqətən Rusiyanı narahat edən ən başlıca məsələ onun məhz postsovet məkanında da mövqeyinin zəifləməsidir. Rusların özünün belə bir atalar məsəli var: “Kimin nəyi ağrıyırsa, elə ondan da danışar.”

Təbii ki, belə bir dövlətin postsovet ölkələrində və ümumən dünyada mövqeyinin güclənməsindən danışmaq siyasi riyakarlıqdır. Əsl həqiqət budur ki, Rusiya Putinin siyasi idarəçilik üsulu həmin dövrə (2000-ci illər) real vəziyyətə uyğun və yararlı olduğundan Rusiyaya müəyyən qədər gücünü bərpa etməyə imkan verdi. Ancaq Putin Rusiyanı yeni şəraitdə də anladığı və mənsub olduğu siyasi düşüncə ilə eyni tərzdə idarə etməyə davam etdi. Təbii ki, Putin yeni şəraitdə idarə üsulunu da, xarici siyasətində də korrektə etməli idi.

Bu arada ABŞ-nın keçmiş prezidenti Barak Obamanın “Vəd edilmiş torpaq” adlı kitabında Rusiya Prezidenti Vladimir Putin haqqında yazdıqlarnı qeyd etmək yerinə düşər: “Putin mənə vaxtilə Çikaqo siyasətini və ya Timmani Hall-u (19-cu əsrdə və 20-ci əsrin ortalarına qədər Nyu-Yorkda fəaliyyət göstərən, namizədlərin irəli sürülməsini tənzimləyən və s. Demokratik siyasi cəmiyyət) rəhbərlik edən kişilərin tipini xatırlatdı - küçə tərbiyəsi görmüş, sərt, dar təcrübəli, məhdud təcrübəsindən heç vaxt kənara çıxmayan və himayədar (krışa), rüşvət, şantaj, hiylə və qeyri- qanuni fəaliyyət üsulu ilə fəaliyyət göstərən biri kimi”- deyə ABŞ-ın keçmiş prezidenti yazır.

Barak Obama yazır ki, ilk dəfə Rusiya lideri V. Putinlə görüşü onun Çikaqodakı vaxtları yeni siyasətlə məşğul olmağa başladığı vaxtları xatırladıb və Putini “rayon banda bosu, ancaq nüvə silahı və BMT-nin TŞ-da veto hüququ olan” biri kimi xarakterizə edib. Barak Obamanın fikirlərinə heç bir əlavəvəm yoxdur.

Müəyyən zaman məsələsi olsa da artıq Vladimir Putin haqqında keçmiş zamanda danışmaq daha düzgün olardı. Rusiyada hakimiyyətin dəyişməsi zəruriliyini Putinin özü də

dərk edir və Putinin özü tərəfindən hakimiyyətin ötürülməsi Rusiya üçün ən optimal variantdır və çox güman ki, Putin hakimiyyəti seçdiyi varisinə hakimiyyəti ötürə biləcək. Düşünürəm ki, Putinin 14 fevralda verdiyi açıqlama bir növ hesabat xarakterlidir və əsasən də daxili auditoriyaya hesablanıb. Bir vacib məqamı da qeyd edim ki, ruslar ümumən şovinist və işğalçı meylli olduğundan rus cəmiyyəti üçün Putinin Rusiyanın postsovet məkanında mövqeyinin güclənməsi kimi mesajları siyasi məqsədləri üçün olduqca əhəmiyyətlidir.

**Dünya bölünüb, Rusiya artıq göründüyü kimi elə də güclü deyil, öz bütövlü sual altındadı...**



Rusiya sülhməramlılarının Qarabağda mandatından kənar fəaliyyətinin, dağıdıcı və yenidən müharibənin alovlanmasına maraqlı olmasının bir çox səbəbləri var. Ən əsas səbəb isə, qlobal masştabda Rusiyanın yeni dünya düzənində aparıcı

iştirakına yerin ayrılmamasıdır. Bu məsləyə müəyyən qədər də olsun aydınlıq gətirməzdən öncə bir neçə məqamı xatırlatmaq istərdim.

Rusiyanın Azərbaycana qarşı ənənəvi yəni, güc və imperialist siyasəti dəyişməyib. Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini sual altına alan və müstəqilliyimizə ən başlıca təhdid olan məhz Rusiyadır. Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti Rusiyanın dirijorluğu və bir başa iştirakı ilə aparılır. Azərbaycanın Ermənistan üzərində qələbəsi faktiki olaraq Azərbaycanın Rusiyanın aqressiv siyasəti və təcavüzü üzərində qələbəsidir. Təbii ki, Bakının Zəfər paradında qənimət kimi nümayiş etdirdiyi hərb texnikası Rusiyanın gücsüzlüyünün nümayişi idi. Əsl həqiqət də budur ki, Azərbaycanın Ermənistan üzərində parlaq və mübaliğəsiz 100%-lik qələbəsi Rusiyanın qüdrətli hərb dövləti kimi stereotipini məhv etdi, Rusiyanın dünyada imicini əsaslı laxlatdı. 44 günlük müharibənin gedişi Rusiya üçün gözlənilməz nəticələr verirdi. 2020-ci il noyabr ayının 9-da Azərbaycan tərəfindən Rusiyanın Ermənistanda 102-ci hərbi bazasına məxsus Mİ-24 vertolyotunun vurulmasından Rusiya şantaj və təzyiq kimi istifadə edərək müharibəni dayandıra bildi və özünün Qafqazdan çıxmasını təmin edə biləcək qələbənin tamamlanmasına mane ola bildi. Rusiya yaranmış vəziyyətdən istifadə edərək Azərbaycan ərazisinə, Qarabağa öz sülhməramlılarını yeritməyə nail oldu. Əminliklə demək olar ki, bu nəticə Rusiyanın böyük strateji səhvi idi.

Qarabağda yerləşən Rusiya sülhməramlıların mandatından kənar və Azərbaycanı təhdidedici provokativ fəaliyyəti, boğulanın saman çöpündən yapışması kimidir. Rusiya Qarabağ konfliktini canlandırmaqda məqsədi təbii ki, Cənubi Qafqazı itirməməklə yanaşı, yeni dünya düzənində Rusiyaya aparıcı rollardan birini əldə etməkdir. Məsələ göründüyündən də mürəkkəbdir.

Artıq əminliklə qeyd etmək olar ki, 2-ci dünya müharibə-

sindən sonra formalaşmış dünya düzəni pozulmuşdur. Meydanda yeni konfiqurasiyalı düzən özünü büruzə verir. Hal-hazırda dünyanın yeni düzənini bu dövlətlər müəyyən edir: Çin, ABŞ, İngilis-türk və İsrail biliyi. Avropa birliyi formal olaraq mövcuddur və nəinki, dünya masştabında və eləcədə Avropa ittifaqı üzrə məsələlərin həllində yekdillik nümayiş etdirə bilmir və qəbul etdiyi qərarlar faktiki olaraq heç bir təsir qüvvəsinə malik deyil.

İngilis-Türk birliyinə Azərbaycan, İsrail, Ukrayna daxildir və Almaniyanın da bu qrupda yer alacağı da şübhəsizdir. Yeni dünya düzənində Azərbaycana xüsusi mövqenin ayrılması Azərbaycan dövləti və xalqı üçün uğurlu nəticələr vəd edir. 44 günlük Vətən müharibəsi zamanı Rusiyanın və Fransanın təqdimatı və dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının Azərbaycana qarşı qətnaməsinə məhz BMT TŞ-nın 5 daimi üzvlərindən biri olan Böyük Britaniya veto qoyaraq həmin qətnamənin qəbul edilməsini mümkünsüz etdi. İsraillə Türkiyə arasında gizli razılaşmaların mövcudluğu haqqında fikirlərimi bölüşmüşdüm. Bir daha qeyd edim ki, İsrail Azərbaycan əməkdaşlığı isə dünyada nümunəvi strateji müttəfiqlik səviyyəsindədir. Nəinki, İsrail dövləti bütün dünya yəhudiləri Azərbaycanın maraqlarını öz dövlətlərinin maraqları kimi qoruyur. Türkiyə Azərbaycan müttəfiqliyi isə "bir millət iki dövlət" parametləri üzərində qurulan tarixi, milli və etnik köklərə bağlıdır. 2015-ci ildə 24 apreldə İngilis Şahzadə Çarlzın Çanaqqala zəfərinin 100 illiyinə həsr edilmiş mərasimdə iştirak etməsi, həmin birliyin ilkin aşkar nümunəsi idi. Yeri gəlmişkən həmin mərasimdə Azərbaycan prezidenti İlham Əliyev, Türkmənistan prezidenti Qurbanqulu Berdımuhammadov, Pakistan prezidenti Məmnun Hüseyn, İrlandiya prezidenti Maykl Hiqqins, İraq prezidenti Fuad Məsum, Qatarın əmiri Tamim bin Həmad əl-Tani, Avstraliyanın baş naziri Toni Ebbot, Yeni Zelandiyanın baş naziri Con Key və digər xarici liderlər iştirak etmişdilər. Siyahıya fikir versək görərik ki, mərasimdə iştirak edən dövlətlər Türkiyəyə və Böyük

Britaniyaya siyasi baxımdan yaxın ölkələrdir. Çanaqqala zəfərinin 100 illiyindən bir il sonra Böyük Britaniya 23 iyunda keçirdiyi referendumla Avropa İttifaqından çıxmasını (Brexit) təsdiqlədi. Bununla da Böyük Britaniya Avropa İttifaqı formatında müəyyən edilmiş iqtisadi əlaqələrinə, siyasi birliyinə və Avropa ittifaqı ilə razılaşdırılmalı olduğu xarici siyasətinə son vermiş oldu.

29.12.2020-ci il tarixdə isə Türkiyə ilə Böyük Britaniya arasında sərbəst ticarət haqqında sazişi imzalandı. Türkiyə və İngilis kəşfiyyatının birgə və əlaqələndirici fəaliyyətini təsdiq edən çoxlu sübutlar mövcuddur, Türkiyənin və İngiltərənin dövlət maraqları qarşılıqlı şəkildə qorunur. Almaniyanın da bu ittifaqda yer aldığı aşkar görünür. Ümumiyyətlə, Avropa ittifaqının və onunla bağlı təşkilatların Türkiyəyə qarşı təhdidləri və mümkün sanksiyaları ittifaqın aparıcı dövləti Almaniya tərəfindən qarşısı alınır. Almaniyanın Türkiyəyə qarşı loyallığı bütün siyasi məsəllərdə özünü göstərir, bu həm Yunanıstanla bağlı, həm yaxın Şərqlə bağlı, həm də Avropa İttifaqının ümumi məsələlərə yanaşmasında təsdiqini tapır.

Yeni dünya düzəninin əsas oyunçuları artıq yerini tutmuş, maraq dairələri müəyyən edilmişdir. Bu bölgüdə nə Rusiyaya, nə də İrana yer yoxdur. Regionumuzla bağlı bu iki dövlətin indiki sərhədləri daxilində mövcudluğu olduqca qaranlıq görünür. Təbii ki, Cənubi Qafqazda Ermənistanın gələcək mövcudluğu da onun dövlət siyasətində və milli düşüncə tərzində edə biləcəyi mümkün dəyişiliklərdən asılıdır, ancaq yekun olaraq, Ermənistanın taleyi İngiltərə, Türkiyə, Azərbaycan, İsrailin birliyinin siyasi qərarının əhatəsinə daxildir. Rusiyanın Qarabağda hansı təxribata əl atmasından asılı olmayaraq axır nəticəni dəyişə bilməyəcək və siyasi vəziyyət onun iradəsindən aşlı olmayaraq məntiqi nəticəsini alacaq yəni, Azərbaycan tam olaraq öz ərazi bütövlüyünü, suverenliyin bərpa edəcək, rus sülhməramlılarını ərazisindən çıxaracaq. Buna Azərbaycanın həm siyasi, həm də hərbi gücü yetərli olacaq. Rusiyanın özünün gələcək taleyini isə ABŞ, Çin,

İngiltərə-Türkiyə Bloku müəyyən edəcək.

Rusiya bütün bunları görür ancaq ki, tarixi zərurət deyilən prosesin qarsısın almaq mümkün olmayacaq. Rusiya ərazilərinin olduqca böyük hissəsi ilə vidalaşmaq məcburiyyətində qalacaq. Rusiyanın dağılma ehtimalının reallaşması Çinin razılığına söykənir. Baxmayaraq ki, Çin Rusiya ərazilərinə artıq "sülh ekspansiya" edib. SSRİ-də olduğu kimi, eyni ilə Rusiyanın nüvə silahına malik olması onun parçalanmasına əngəl ola bilməyəcəyi də məlum məsələdir. Dünyanın inkişafı yeni mərhələdə yenilənmiş tərkibdə gedəcək. Sevindirici odur ki, artıq türk birliyi, bloku dünyanın inkişafında aparıcı rola malikdir.

## Rusiya BMT-də struktur dəyişikliklərə qarşı çıxır

Sentyabrın 21-də 2020-ci ildə BMT Baş Assambleyasının 75-ci Sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclas keçirilib. İclasda Rusiya Prezidenti Vladimir Putin də çıxış edib və onun bu çıxışı əsl həqiqətdə Rusiyanın itirməkdə olduğu mövqeyini qorumaq daha doğrusu, artıq formalaşmış yeni dünya düzəninə qarşı Birləşmiş Millətlər Təşkilatının (BMT) Təhlükəsizlik Şurasının (TŞ) daimi beş üzvünü öz maraqları naminə həmrəyliyə çağırış edib.

Putin çıxışında BMT-nin Beynəlxalq siyasi arenada əsas təşkilat kimi qalmalı olduğunu bildirərək, BMT Təhlükəsizlik Şurasının üzvlərinin artırılmasına qarşı mövqedən çıxış etmişdir. Rusiya Prezidenti əsas vurğuladığı hal isə, rəsmən tanınmış və qəbul edilmiş nüvə silahına malik BMT TŞ-nın beş daimi üzvlərinin veto hüququnun saxlanmasının vacibliyi qeyd etməsi və bu normanın dünya hərbi-siyasi balansı kimi qiymətləndirməsi idi.

Ancaq Azərbaycan dövləti, Türkiyə, Pakistan və bir sıra digər dövlətlər Putindən fərqli olaraq, BMT-də struktur islahatların vacibliyini dəfələrlə müxtəlif tribunalardan səsləndirmişlər. Təbii ki, 200-dən çox dünya dövlətinin taleyi rəsmən

nüvə silahına malik BMT TŞ-nın beş daimi üzvnün əlində və marağında ola bilməz. BMT Təhlükəsizlik Şurasının daimi üzvlərinin "VETO" hüququ ilə faktiki olaraq "lobbi" fəaliyyəti göstərdiyindən və öz maraqları naminə TŞ-nı marionet qurum kimi istifadə edilməsi BMT TŞ-nın nüfuzunu və təsir imkanlarını zəiflətmişdir.

Artıq heç kimə gizli deyil ki, nüvə silahına malik dövlətlərin sayı beşdən çoxdur və eləcədə Türkiyə, Pakistan kimi qlobal hərbi-siyasi güc və nüfuza malik beynəlxalq oyunçular var. BMT-də islahatlar keçirilməsi zamanın və artıq formalaşmış müasir siyasi düzənin tələbi və gerçəkliyidir.

Danılmaz faktdır ki, BMT Beynəlxalq siyasi təşkilatdan humanitar amorf edib və faktiki olaraq dişsiz, siyasi nüfuzsuz bir qurumdur. Bu qurum özünün qəbul etdiyi qətnamələri icra edə biləcək və ya icra etdirə bilən bir təşkilatdır. Maraqlısı isə odur ki, "nədənsə" BMT TŞ-nın qəbul etdiyi müsəlman dövlətlərinin lehinə olan Qətnamələr (Pakistanın xeyrinə Kəşmirə dair, Azərbaycanın xeyrinə dörd Qarabağa dair və sair) icra edilmədi.

Təbii ki, BMT-nin siyasi təşkilat kimi fəaliyyətindən əksər dünya dövlətləri narazıdır və bu narazılıqlar özünə güvənən dövlətlər və dövlət başçıları tərəfindən səsləndirilir, BMT-də struktur islahatların aparılmasının vacibliyi deyilir.

Bildiyimiz kimi, Sentyabrın 21-də BMT Baş Assambleyasının 75-ci Sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclasda Azərbaycan Respublikasının Prezidenti, Qoşulmama Hərəkatının sədri İlham Əliyev iclasda video formatda çıxış edib. Cənab Prezidentin çıxışı isə daha maraqlı və diqqəti çəkən olub.

Belə ki, Prezident İlham Əliyev: "Yaranmasının 75-ci il dönümündə biz BMT-nin gücləndirilməsi və müasirləşdirilməsi, Baş Assambleyanın canlandırılması, beynəlxalq sülh və təhlükəsizlik sahəsində təşkilatın demokratik, məsuliyyətli, universal və təmsilçiliyi təmin edən orqanı kimi nüfuzunun möhkəmləndirilməsi, habelə müasir geosiyasi reallıqlara cavab verən daha

demokratik, məhsuldar, səmərəli, şəffaf və təmsilçiliyi təmin edən orqana çevrilməsi üçün BMT Təhlükəsizlik Şurasında islahatların aparılmasına çağırırıq.” -deyib.

Rusiya Prezidenti Putin isə tam əksinə, 2-ci dünya müharibəsindən sonra qurulmuş dünya düzənini qorumaq istəyi ilə BMT-də struktur islahatların əleyhinədir. Rusiya özünü SSRİ-nin varisi kimi, o vaxtı SSRİ-nin nüfuz dairəsinə daxil olan əraziləri və dövlətləri öz arxa bağçası kimi görmək istəyindən vaz keçməyib.

Bizim öhdəmizə düşən isə odur ki, nüfuzlu hərbi-siyasi gücə malik qüdrətli dövlətimizi qurmalıyıq, Rusiya timsalında bir sıra dövlətləri və o cümlədən dünya dövlətlərini fakt qarşısında qoyub, reallığı qəbul etdirməliyik. Onda BMT-nin varlığı bizi o qədər də maraqlandırmayacaq.

## 10 noyabr Bəyanatından sonra Rusiyanın “status” oyunu

2020-ci il 10 noyabr üç tərəfli bəyanatından sonra, Rusiya Qarabağ konfliktinin tarixə qovuşmasına hər vasitə ilə mane olmağa çalışır. Rusiyanın siyasi rəhbərliyi tərəfindən dəfələrlə Qarabağın statusu barədə “nəbz yoxlayan” açıqlamalar verilib. Rusiya prezidenti Vladimir Putinin və eləcə də digər Rusiya rəsmilərinin “Qarabağın statusu” ilə bağlı ikibaşlı açıqlamaları 2021-ci il yanvar ayının 11-də Moskvada keçirilmiş üç tərəfli görüş ərəfəsi daha çox narahatlıq doğururdu. Ancaq məsləyə ümumi kontekstdən baxanda aydın idi ki, ümumiyyətlə, Qarabağın status məsələsini gündəmə gətirməyə çalışan Rusiyanın Azərbaycana təzyiq vasitələri neytrallaşdırılıb və demək olar ki, təsirsizdir.

Əvvəla, qeyd edim ki, Rusiya Avropa ölkələrinə təsirli gücə malik “ qaz siyasəti”ndən məhrum olmaq üzrədir. Avropaya Rusiya qazının əsas tranzit xətti olan Ukrayna istiqaməti demək olar ki, Rusiya-Ukrayna arasındakı mövcud konfliktlərə görə

həm iqtisadi, həm də siyasi effektliyini itirmiş haldadır. Məhz, buna görə də, Rusiya Avropanın onun monopoliyasından çıxmağının qarşısını almaq üçün əlavə proyektlər üzrə işləmək məcburiyyətində qalıb, hətta hərbi variantlardan da açıq və gizli şəkildə istifadə edir. Yeri gəlmişkən, Putinin Belarusiyada simpatiyası olmayan Lukaşenko hakimiyyətini qorumağının əsas səbəblərdən biri də Belorus qaz tranzit xəttini qoruyub saxlamaq idi. Türkiyə Rusiya arasında iqtisadi cəhətdən ağır qaz müqaviləsi müddətinin 01 yanvar 2021-ci ildə başa çatması, Rusiyanı Türkiyə diktəsinə tabe edib . Qara dənizdə, Türkiyəyə aid hissədə olduqca böyük qaz ehtiyatlarının kəşfi, Türkiyəni faktiki olaraq qaz idxalçısından, qaz ixracatçısına çevirib.

Ən çox Rusiyanın ümid etdiyi "Türk axını" layihəsi üzrə Türkiyə Rusiya qazından istifadəsini demək olar ki, sıfıra endirib. Həmin "Türk axını" layihəsi Türkiyə üçün əhəmiyyətsiz hala düşüb, Rusiya üçün isə tranzit xətti kimi mövcud vəziyyətdə əhəmiyyətini daha da artırıb. Rusiyaya qarşı sanksiyalar tətbiq edilir. Rusiyanın qərb dünyasına qarşı "qaz siyasəti" zərərsizləşdirilir. Norveçin "Det Norske Veritas" beynəlxalq sertifikasiya şirkəti Rusiyanın Şimal Axını-2 qaz kəmərinə, ABŞ-ın yeni sanksiyalarına görə sertifikat verilməsini dayandırıb. ABŞ-ın yeni prezidenti Co Bayden administrasiyası "Şimal axını – 2" qaz kəmərinə qarşı əlavə sanksiyalar tətbiq edəcəyini də açıqlayıb. Fakt göz qabağındadır. Yəni, Türkiyə Rusiya üçün son nəfəslikdir. Yeri gəlmişkən qeyd edim ki, Rusiyanın Ermənistan sifəti ilə uğursuz Tovuz təxribatının əsas hədəfi, Türkiyəni Rusiya qazından istifadəsinə məcburiyyət yaratmaq, ən başlıcası Avropanın enerji təchizatı alternativini nəzarətə götürmək, təhlükəsizlik baxımından Azərbaycan və regiondan qazın ixrac mümkünlüyünü və səmərəliyini sıfıra endirmək idi.

Əlavə olaraq, bir neçə məqamı qeyd etmək mənzərəni daha aydın göstərər. Yaxın Şərqdə Rusiya Türkiyə əməkdaşlığı Rusiyanın regionda mövcudluğuna şərait və zəmanət yaradan əsas amillərdəndir. Türkiyə-Yunanıstan qarşıdurmasından

Türkiyənin qalib ayrılması, Qətər böhranından da qalib çıxması Türk dövlətinin qlobal miqyasında özünün və müttəfiqlərinin maraqlarını qorumaq imkanında olmasını bir daha təsdiqləyir. Türkiyə-Ukrayna hər tərəfli əməkdaşlığı Rusiyanı narahat edən ən vacib məsələlərdəndir. Keçmiş SSRİ respublikalarının qərb yönümlü siyasəti Rusiya ətrafında halqanı olduqca daraltmışdır. Elə Ermənistanın özü də daxil olmaqla, Gürcüstan, Moldova, Ukraynanın qərbə inteqrasiyası və Belarusiyada hakimiyyətin qeyri - stabil meyliləri Rusiyanın daha da təklənməsini gücləndirir. Rusiya ilə ömürlük müttəfiqlik görünüşündə olan Qazaxıstanın Rusiya ilə münasibətinin kəskinləşməsi Rusiyanı güzəştli davranmağını labüd edir. Rusiyanın patronajında KTMT, Kömrük İttifaqı və bu kimi digər təşkilatların üzv dövlətlərinin çoxunun türk mənşəli olması Rusiyanı Türkiyə ilə hesablaşmağa məcbur edən vacib amillərdəndir. Nəzərə alsaq ki, Rusiyanın tərkibində türk dilli dövlət quruluşları var və onların rəsmi ümumi əhali sayı 20 milyondan artıqdır, onda Türkiyənin Rusiyaya təsir imkanlarının görünənlərdən də daha geniş olduğunu əminliklə deyə bilərik. Yuxarıda qeyd edilənləri nəzərə alaraq, Rusiya Türkiyənin müttəfiqi Azərbaycana təzyiqinə qırmızı xətti görərik. Ancaq Rusiya hər zaman mümkün fürsət gözləyir ki, Qarabağ konfliktini canlandırsın.

Ümumiyyətlə, Qarabağ konfliktinin mövcudluğu ən çox Rusiyanın maraqlarına xidmət edib və uzunmüddətli "status quo" saxlanılması da əsasən bu səbəbdən idi. "Armvoice" Teleqram kanalının Ermənistan baş naziri Nikol Paşinyanın 07 aprel 2021-ci il Moskva səfəri çərçivəsində Moskvada yaşayan erməni əsilli hüquqşünaslarla qapalı görüşündən yaydığı hissəsində Paşinyan "...Ona görə də birbaşa demək lazımdır ki, bizdə olan status-kvo o həddə qədər qaldı ki, onun mövcudluğu Rusiyanın maraqlarına uyğun gəlirdi. Konyuktura dəyişəndə hər şey dəyişdi və nəyə görəsə haqq ödəmək zamanı gələndə bəlli oldu ki, ya biz bunu edə bilmirik, ya ödəmək istəmirik, ya da ödəməyə heç nəyimiz yoxdur, çünki biz müflisik..." - deyə

bildirir. Məlum faktın Ermənistan baş naziri tərəfindən etiraf edilməsi Azərbaycan xalqı üçün yeni məlumat olmasa da, Rusiyanın Azərbaycana qarşı daimi düşmən mövqeyinin yeni bir sübutudur.

2010-cu ilin may ayında Rusiya Türkiyə arasında imzalanmış razılaşmaya əsasən Rusiyanın "Rosatom" şirkəti dəyəri 20 milyard ABŞ dolları məbləğində Türkiyədə ilk "Akkuyu" atom elektrik stansiyası (AES) inşa edir və başa çatması 2023-cü ilə planlaşdırılıb. 10 mart 2021-ci il tarixdə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan və Rusiya prezidenti Vladimir Putin "Akkuyu" atom elektrik stansiyasının üçüncü nüvə reaktorunun təməlqoyma mərasimində videkonfrans formatında iştirak etdi. Bu layihənin həyata keçməsinə böyük maneələrin olmasına baxmayaraq Rusiya Türkiyə əlaqələri daha da güclənmiş oldu. Rusiya ətrafında baş verən proseslər fonunda Rusiya üçün Türkiyə həm iqtisadi,həm də siyasi sığınacaq kimi görünür və Rusiya Türkiyə ilə razılaşmaq məcburiyyətindədir.

Digər tərəfdən isə Azərbaycan faktorunun özü həll edici mövqeyə malikdir. Müharibədən sonra, Azərbaycan qalib dövlət kimi danışıqları aparır. Həmin Azərbaycan hansı ki, yüksək döyüş qabiliyyəti, taktikası, şücaəti ilə Rusiya başda olmaqla, digər dünya nəhənglərinə də XXI-ci əsrin müharibə modelini təqdim edir.

2021-ci il 04 yanvarda Ermənistan Baş Naziri Paşinyanın məqaləsi isə təkrar-təkrar göstərdi ki, 2011-ci ildə, 2014-cü ildə və 2016-cı ildə Ermənistan Qarabağ razılaşmasına (Madrid prinsipləri, Kazan formulu üzrə və sair) razı olduğu halda, Qarabağın statusu ilə bağlı məsələdə İlham Əliyev prinsipial və güzəştsiz mövqe tutmuş, hər dəfə Azərbaycanın daha çox istədiyini və hər dəfə də, İlham Əliyev məqsədlərinə nail olduğunu qeyd edir. Bütün danışıqlar boyu, 2020-ci ilin 10 noyabr tarixinə qədər Azərbaycan tərəfi bütün səviyyəli danışıqlarda məğlub tərəf kimi masaya otururdu. Bu vəziyyətdə İlham Əliyev, ümumilikdə, Qarabağ məsələsində və eləcə də,

status məsələsində heç cürə güzəştə getmədiyi və istədiyinə nail olduğu halda, müharibədə qalib Ordunun Ali Baş Komandanı kimi hər hansı bir güzəştə gedəcəyi təbii ki, mümkünsüzdür.

O ki, qaldı ümumən Moskvanın Azərbaycana təzyiqinə, artıq qeyd etdiyim kimi, Moskvanın Azərbaycana nəticə verə biləcək təzyiq imkanları olduqca kasaddır. 10 dekabrda Bakıdakı Zəfər paradı göstərdi ki, Rusiyanın güvəndiyi hərb sənayesi və hərb maşını artıq zibillikdir və müasir ordu səviyyəsindən olduqca geridədir. Rusiya ancaq uzun müddətli perspektivdə Azərbaycan hansısa bir real təzyiq imkanları əldə edə bilər, ancaq bu da o halda mümkün ola bilər ki, Azərbaycan və Türkiyə inkişafımızı dayandırsın, məqsədlərindən imtina etsin.

Rusiyaya beynəlxalq təzyiqin artması, onun "qaz siyasəti"nin zərərsizləşdirilməsi, MDB ölkələrinin Rusiyaya münasibəti, Türkiyə faktoru-Türkiyənin Rusiya üçün nəfəslik rolu və Türkiyənin Azərbaycanda hərbi mövcudluğu, Azərbaycanın qələbəsi və yuxarıda qeyd etdiyim digər hallar deməyə əsas verir ki, Rusiyanın Azərbaycana qarşı istədiyi nəticəni verə biləcək təzyiqlər artıq yoxdur. 11 yanvar 2021-ci il tarixdə Moskvada baş tutmuş Azərbaycan, Rusiya və Ermənistan liderlərinin görüşündən sonra, Rusiya prezidenti Vladimir Putinin dediyi o "Qarabağın statusu" mələsi gündəmdən düşdü. Ancaq görünən odur ki, Rusiya Azərbaycana təsir edə biləcək vasitə əldə etmək üçün çalışır.

## Ruslar Qarabağda senzura tətbiq etdi

11 Yanvar 2021-ci il Azərbaycan, Ermənistan, Rusiya rəhbərlərinin üç tərəfli Moskva görüşündən sonra, Qarabağda Rusiya sülhməramlıların fəaliyyətinin işıqlandırılmaşına senzura tətbiq edilib. Bölgədən sülhməramlılarla bağlı hər hansı bir məlumat tam rəsmi xarakterlidir və artıq rus əsgərlərinə də fərdi qayda da məlumatları gizlətməyi və yayımlamamaq tapşırığının verildiyi məlumdur. Rus sülhməramlılarının Qarabağ-

dakı fəaliyyətinin məxfiliyi təbii ki, məlum 11 yanvar Moskva görüşündən sonra tətbiqi onu göstərir ki, Azərbaycan Prezidenti İlham Əliyev həmin görüşdə rus sülhməramlılarının missiyasından kənar fəaliyyətinə narzanlılığı və kəskin etirazı rusları informasiya məsələsində daha diqqətli olmağa məcbur edib.

Ancaq ki, bu o demək deyil ki, rus sülhməramlıları öz çirkin niyyətindən əl çəkib, sadəcə olaraq, rus sülhməramlıları həmin Moskva görüşündən sonra erməni azərbaycanlı düşmənçiliyinin dərinləşməsinə xidmət edən əməllərini Azərbaycan cəmiyyətindən gizlətməyə qərar veriblər. Son dövrlərdə baş vermiş proseslər göstərir ki, Kreml hakimiyyəti heç bir razılaşmaya əməl etmək fikrində deyil və həmin razılaşmaları təhrif edirlər. Rusiya xarici işlər naziri Lavrov Rusiya sülhməramlılarının Azərbaycanda Qarabağda fəaliyyətinin konkret parametrlərinin müəyyən olunmasına dair açıqlamasında bu məsələnin üçtərəfli format çərçivəsində mümkünlüyünü bildirib. Azərbaycan ərazisində hər hansı bir ordunun yerləşdirilməsi və fəaliyyəti üçüncü tərəflə-Ermənistanla razılaşdırılması heç bir normaya və məntiqə uyğun deyil. Ermənistan Azərbaycan ərazilərində hansı hüquqa malikdir ki, onunla hər hansı bir razılaşma olsun? Aydındır ki, Lavrovun bu açıqlaması 10 noyabr üçtərəfli Bəyanatının 4-cü bəndini (tərəflərdən hər hansı birin istəyi əsasında sülhməramlılar bölgəni tərk etməlidir) təsirdən salmağa hesablanıb.

Siyasi nəticəyə və hədəfə hesablanmış rus təxribatlarının biri də Azərbaycan Respublikasının işğaldan azad olunmuş Kəlbəcər rayonunun işğal zamanı "Drmbon" adlandırılmış Heyvalı kəndindəki ermənilər yolu bağlayaraq Azərbaycanın yük maşınlarından ibarət kolonunun qarşısını kəsməklə keçirdiyi etiraz aksiyası idi. Ermənilər aksiyalarının heç bir münaqişə yaratmaq məqsədi daşımadığını bildirərək sülhməramlılardan tələb ediblər ki, azərbaycanlılar istifadə etdiyi kimi, onların da Kəlbəcərdən Ermənistana keçən yolla "Vardenis"ə (Basarkeçər) getməyinə şərait yaradılsın. Aksiyanın mahiyyəti odur ki, ruslar ermənilərin dili ilə Azərbaycan sərhədlərini və suverenliyini

tanımadıqlarını bildirirdilər. Təbii ki, rusların razılığı olmadan bu aksiyaların təşkili və keçirilməsi mümkünsüzdür. Həmin aksiyaçılar qarşısına çıxan məsul rus zabitinin "artsax" kəlməsi, həmin o aksiyada kimin nə məqsədini, hansı hədəfini göstərmiş oldu.

Sözü gedən Moskva görüşündən sonra Rusiya rəsmiləri "Qarabağın statusu" məsələsini səsləndirməkdən imtina etsələr də, "Dağlıq Qarabağın Azərbaycan daxilində statusu mümkün deyil və qəbuledilməzdir" kəlməsini Arayik Arutyunyanın dili ilə Karen Sarkisyanın Daxili İşlər Nazirliyinin personalına təqdimatı zamanı səsləndirdi. Bu isə bir daha onu göstərdi ki, ruslar artıq Ermənistanla deyil, özlərinin yaratmış olduğu separatçı rejimlə Azərbaycanda daimi mövcudluğunu təmin etmək fikrindədir. Bəllidir ki, beynəlxalq axtarışda olan Araik Ermənistanın və bütün dünya ermənilərinin məğlubiyyətindən sonra belə ürəkli, qorxmaz açıqlama ilə çıxış etməsi ruslara arxayınlığına bağlıdır. Rusların Ermənistanla deyil separatçı rejimlə iş birliyinə üstünlük verməsi rusların "b" planıdır, daha doğrusu, Ermənistan haçansa Rusiya təsirindən çıxmış olsa da Qarabağ separatçılarının vasitəsi ilə bölgədə mövcudluğunu təmin etmiş olsunlar. Əlavə olaraq bu vəziyyət bir daha onu göstərir ki, ruslar, ümumiyyətlə, Ermənistanın rus təsirində qalacağına, qərbə və ya Türkiyəyə inteqrasiya etməyəcəyinə əmin deyillər.

Daha bir məlumat ondan ibarətdir ki, hələ Azərbaycanın nəzarətində olmayan ərazilərdə hava müşahidəsi ruslar tərəfindən "qadağan" edilib. Əminliklə demək olar ki, rusların sürprizləri hələ qabaqdadır, onlar Qarabağ konfliktini dirçəldəcək və bu konfliktin tarixə qovuşmasına mane ola biləcək ən məkrli planlardan belə istifadə edəcəklər.

Tarixi analiz göstərir ki, ruslarla "müdafiə və bərabərlik" siyasəti effektli deyil və bunu yadda saxlamaq lazımdır ki, ruslar həmişə "hücum" və "güc" siyasətinə loyallıq edibdir. Azərbaycan dövlətinin hərbi və iqtisadi potensialı, Türkiyə faktoru,

bütünlüklə dünyada və dövlətlərdə baş verən proseslər deməyə əsas verir ki, Azərbaycan xalqı rusların yeni növ məkrli planlarını da poza biləcək imkan və gücə malikdir.

## Zəfər paradı öncəsi Rusiya Azərbaycana qarşı sanksiya tətbiq etdi

Bu arada Rusiya Azərbaycana qarşı "pomidor" adlı kənd təsərrüfatı mallarına iqtisadi sanksiya, bəli məhz sanksiya, tətbiq etdi. Bakıda "Zəfər paradı"nda düşməndən hərbi qənimət kimi götürdüyümüz hərbi texnikanın daha doğrusu, rus metalomunun nümayişi, özünü dünyaya güclü ordu kimi təqdim etməkdə davam edən və SSRİ-nin varisi kimi, keçmişindən bərk-bərk yapışan Rusiyanın real döyüş meydanında acınacaqlı məğlubiyyətinin sübutudur.

Azərbaycan kənd təsərrüfatı məhsullarının Rusiyaya idxalına qadağa tətbiq edən "Rosselxoznadzor" adlanan federal icra hakimiyyəti orqanı funksiyasını yerinə yetirən inzibati orqandır. Hüquqi baxımdan "Rosselxoznadzor"un fəaliyyət dairəsinə ölkəyə daxil olan qida məhsullarının və dərman preparatlarının keyfiyyətinə nəzarətdir. Ancaq bu təşkilat Rusiya tərəfindən daha çox siyasi təşkilat kimi, daha doğrusu, təsir və şantaj aləti kimi istifadə olunur. Artıq məlumdur ki, Rusiya "Rosselxoznadzor"u xarici dövlətlərə siyasi məqsədlərə istifadə edir və hətta bu təsirin mümkünlüyünü yaratmaq üçün Rusiya qabaqcadan xarici ölkələrin əsasən də, postsovet respublikalarının ixrac sahələrini əhatə edən məhsulları Rusiya daxili bazarlarına cəlb etməklə həmin məhsulların yeganə bazarına çevirir. Rusiya əsasən bu üsullardan Baltik yanı dövlətlərin dəniz məhsullarına, Gürcüstanın şərab məhsullarına, Belarusiyanın kənd təsərrüfatı məhsullarına və texnikalarına, Ukrayna qida sənayesi məhsullarına və sair ölkələrə qarşı siyasi nəticəyə hesablanmış məqsədə istifadə etmişdir. Yadımıza salaq ki, 2015-ci ildə Türkiyə Suriyada Rusiyaya məxsus SU-24 bombardmançı təyyarəni vurandan

sonra, həmin "Rosselxoznadzor" Türkiyə kənd təsərrüfatı məhsullarının Rusiyaya idxalına qadağa qoymuşdu və bu proseslər Rusiya –Türkiyə arasında "pomidor müharibəsi" kimi yadda qalıb. Həmin vaxt Rusiya Türkiyəyə qarşı digər sanksiyalar və eləcədə "turist" sanksiyası da tətbiq etmişdi. Qeyd edim ki, Rusiyada digər istehsal məhsulları üzrə "Rosselxoznadzor" tipli fəaliyyət göstərən digər təşkilatlar vardır hansı ki, eyni zamanda da siyasi məqsədlərə istifadə edilir.

Rusiya öz ampluasında davam etməkdədir, Azərbaycan Ermənistanın simasında rus hərbi maşınını üstələdikdən sonra və Zəfər paradı keçirəcəyi gündən öncəsi bu sanksiyanı tətbiq etməklə Azərbaycanın Vətən müharibəsində apardığı ədalətli müharibəsində Rusiyanın əsl məqsədini göstərmiş oldu. Sözsüz ki, Azərbaycanın 10 milyondan çox əhalisi var və həmin məhsulların daxili bazarda rahatlıqla realizə olunacağı da şübhəsizdir. Ancaq düşmən öz xislətini büruzə verdi. Sözsüz ki, Rusiyanın belə təzyiqlərinin əsas hədəfi var, məqsəd Azərbaycanı öz məlum orbitinə çəkmək və öz siyasi maraqlarını təmin etməkdir.

Bəli, Rusiya - Ermənistan birliyi Azərbaycan - Türkiyə qardaşlığına məğlub oldu. Vətən müharibəsində Azərbaycan Ordusunun faktiki rus hərbi sistemini, maşınını və silahını məğlub etdi. Həm Paşinyan, həm də Putin dəfələrlə etiraf etdilər ki, Rusiya Ermənistana bütün öhdəlikləri üzrə tam şəkildə kömək edib, eləcə də, bunu hər iki dövlətin hərbi rəhbərliyi də təsdiq etdilər fəqət, Azərbaycan zəfər qazandı və bu gün də yəni, 10 dekabrda da Zəfər paradı keçirir. Sözsüz ki, Parad öncəsi Rusiyanın Azərbaycana qarşı "pomidor, alma" sanksiya tətbiqi Azərbaycanın şanlı qələbəsinə qısqanclığı ilə yanaşı rus hərb maşının iflasının etirafıdır.

Bu ilin iyul ayında Moskvada ikinci dünya müharibəsində SSRİ-nin qazandığı qələbənin 75 iliyinə həsr edilmiş və pandemiyaya görə gecikmiş paradda Azərbaycan Prezidenti İlham Əliyev iştirak etmədi. Yeri gəlmişkən qeyd edim ki, bu il Rusiyada Konstitusiyaya edilmiş dəyişikliklərlə Rusiya ikinci

dünya müharibəsində SSRİ-nin faşizm üzərində qazandığı qələbəni rəsmən "özəlləşdirdi".

Sözsüz ki, Putin Azərbaycanın Zəfər paradına gələ bilməzdi, axı o, özünün öyündüyü texnikanın yararsızlığına necə baxa bilərdi... Bu, sözün əsl mənasında Rusiyanın hərb gücünün, hərb sənayesinin və güc dili ilə danışan xarici siyasətinin sonuna tutarlı göstəricidir.

Azərbaycanın dövlətçiliyinə, ərazi bütövlüyünə, suverenliyinə təhdid və təhlükə mənbəyi ilk növbədə, məhz, Rusiya olduğu danılmaz faktdır və Rusiyanın Azərbaycana qarşı aqressiv siyasəti bundan sonra da dəyişən deyil. Azərbaycanın Rusiyadan distansiyası onun müstəqilliyinin, suverenliyinin möhkəmlənməsi deməkdir.

## Rusların Qarabağda “rus dili” oyunu

Rus dilinin Qarabağda qondarma rejm rəhbəri tərəfindən rəsmi dil elan edilməsi Rusiyanın uzunmüddətli perspektivə hesablanmış gedişidir və nə Ermənistanla, nə də o Araiklə bağlı məsələ deyil. Təbii ki, Rusiyanın məsuliyyət zonasında razılığı olmadan Araikin belə bir addımı mümkünsüzdür. Qarabağda “rus dili” ilə bağlı şahidi olduğumuz proses ümumən Rusiya dövlət siyasətinin tərkib elementi kimi, ən sərfəli və uzun müddətli perspektivə hesablanmış siyasi hədəfli yeni mərhələdir hansı ki, Rusiya bu məlum "dil" kartından Qarabağda da istifadə etmək niyyətindədir. Əlavə olaraq, yadımıza salaq ki, Rusiya postsovet ölkələri ərazisində siyasi məqsədləri üçün ən əlverişli vasitə kimi məhz "rus dilli əhalinin müdafiəsi" adı altında faktiki işğalçılıq siyasətini gerçəkləşdirib. Rusiyanın Moldovanın Dnestryanı əyalətinə, Gürcüstanın Abxaziya və Osetiyasına, Ukraynanın Krımına və Donbasına ordu yeritməsi məhz rus dilli əhalinin müdafiə altında baş tutub.

Məlumdur ki, Azərbaycanda Qarabağda 44 günlük müharibədən öncə, Rusiyanın rus dilindən bir siyasi vasitə kimi

istifadəsi mümkünsüz idi baxmayaraq ki, məhz Rusiya Qarabağı erməni sifəti ilə 90-cı illərdə işğal etmişdi. Ancaq indi 44 günlük müharibədən sonra, Qarabağda 90-cı illərdən tam fərli bir situasiya meydana gəlib və strateji baxımdan Rusiyanın Qarabağda daimi mövcudluğu ancaq rus dilli əhalinin və Rusiya vətəndaşlarının təhlükəsizliyinin təmini adı ilə mümkün görünür. Qarabağda Rusiyanın mövcudluğu, onun həm Azərbaycana, həm də Ermənistana təsir imkanlarını təmin edən vasitədir, Ermənistan qərbə inteqrasiya etsə də belə. Rusiyanın Qarabağda "dil" variantından istifadəsi məhz Ermənistanın Rusiya orbitindən çıxması ehtimalında yaranacaq vəziyyətdə Ermənistanın özünə və Azərbaycana təsir gücünü qorumağa və regionda mövcudluğuna hesablanmışdır.

Məlum məslədir ki, Rusiya bundan sonra Qarabağda ermənilərə (açıq və ya gizli) rus vətəndaşlığı verəcək. Görünən odur ki, Rusiya daha təhlükəli prosesə start verib. Ümumiyyətlə tarix sübut edir ki, Rusiya dövləti öz siyasi məqsədləri üçün hər bir mümkün əxlaqi, qeyri - əxlaqi, mədəni, iqtisadi, sosial, elmi, dil və ədəbiyyatdan geniş istifadə edir. Rus dövləti öz qadınlarından belə siyasi məqsədlər üzrə istifadəsi artıq dünya miqyasında qəbul edilmiş faktdır. Bu baxımdan rusların Qarabağda rus dilindən siyasi hədəfləri üçün istifadə etməsi tam aydın və şübhəsizdir. Hələ 2019-cu ildə mətbuatda geniş yayımlanmış məqaləmdə rus dilinin Azərbaycan xalqı və dövləti üçün təhlükə mənbəyi olması haqqında yazmışdım və gördüyümüz kimi, heç də yanılmamışam.

Ancaq, o vaxtın və zamanın gələcəyinə əminəm ki, biz də bir dövlət, millət olaraq yolumuzdan dönməyəcək , məqsəd və hədəflərimizə addım-adım yaxınlaşacayıq necə ki, yaxınlaşırıq. Sadəcə, bir həqiqət var: Bütün tarix boyu Rusiya Azərbaycanın bir nömrəli problemi və baş ağrısı qalmaqda davam edir - bunu unutmamalıyıq.

## Rus sülhməramlıları Azərbaycandan çıxacaq?

Rusiyanın Azərbaycana sülhməramlı adı ilə ordu yeritməsi və bunun sonradan Gürcüstanda, Moldovadakı kimi böyük problemə çevrilməsi ehtimalı olduqca yüksəkdir. Rusiyanın Qarabağda mandatından kənar fəaliyyəti, təxribatları və fəaliyyətinə tətbiq etdiyi senzurası məhz rus ordusunun Qarabağda daimi əsasda mövcudluğuna hesablanıb ki, ümumən regionda və eləcədə Ermənistan və Azərbaycana daim təsirini saxlasın.

Moldovada keçirilən Prezident seçkilərində qərb yönümlü İnkişaf və Həmrəylik Partiyasının (İHP) sədri Maya Sandu, Rusiya adamı kimi tanınan Moldova Prezidenti İqor Dadaonu üstələyərək Moldovanın yeni Prezidenti seçildi. “Avropa həqiqətləri” adlı qəzetə müsahibə verən Maya Sandu Moldovada Dnestryanı konfliktin həlli üçün Rusiyanın bölgəyə yeritdiyi sülhməramlıların tam çıxarılmasından sonra mümkün olacağını deyib. Moldovanın keçmiş prezidenti İqor Dadon yeni seçilmiş Prezident Maya Sandunun bəyanatını “böyük səhv” adlandırıb. Yeni seçilmiş prezident Maya Sandunun bəyanatına Rusiya senatoru Aleksey Puşkov münasibət bildirərək: “Dnestryanı bölgədə yaşayanların 220 mini bizim vətəndaşlardır, onların maraqları və təhlükəsizliyi Moldova prezidentinin bəyanatından daha vacibdir”- deyə bildirmişdir.

Proseslər göstərir ki, Rusiya ətrafında halqa daha da daralır. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla və Ukrayna prezidenti Vladimir Zelenskinin görüşündə əldə edilmiş razılaşmaya görə, Türkiyə Ukraynanı öz müasir texnoloji silahları ilə təchiz etməyə başlayıb. Artıq Ukrayna Prezidenti Zelenskiy Rusiyanın faktiki işğal etdiyi Donbas və Krım məsələsini yeni yanaşma ilə daha doğrusu, müharibə yolu ilə həll etməyə israrlı olduğu göstərir.

Rusiyanın faktiki bir kalonuna çevrilmiş Ermənistanda da 44 günlük müharibədən sonra vəziyyət Rusiyanın əleyhinə işləyir. Ermənistanda kimin hakimiyyətdə olmasından asılı

olmayaraq avro inteqrasiyanı davam etdirəcəkdir. Xüsusən də bu proses, Ermənistanın Azərbaycan qarşısında faktiki olaraq kapitulyasiya sənədinə imza atdıqdan sonra daha da güclənib. Ermənistan əhalisinin müəyyən hissəsi Ermənistanın Azərbaycan qarşısında kapitulyasiya səbəbini Rusiyanın Ermənistana kömək etməməsi ucbatından məğlub edilməsi kimi qiymətləmdirməsidir. Digər tərəfdən, kapitulyasiya aktına imza atan Paşinyanın öz hakimiyyətini saxlaması onu göstərir ki, Paşinyanın avro inteqrasiya kursunu dəstəkləyənlər əhali arasında çoxluq təşkil edir və Rusiyadan birdəfəlik üzülüşmənin yolları axtarılır.

Rusiyanın Gürcüstanda, onsuz da, zəif mövqeyi tükənməkdədir. Gürcüstanda Parlament seçkilərinin nəticələrindən sonra keçirilən mitinqlər onu göstərdi ki, əhali Rusiya fiquru İvanaşvili partiyasına inamı tam itirib və Saakaşvilinin Gürcüstanda hakimiyyətə gəlmə ehtimalı artmaqdadır. Ümumiyyətlə, Gürcüstanda qərb yönümlü siyasətçilərin tam hakimiyyətə yenidən gəlmə ehtimalı olduqca yüksəkdir.

Putin Belarusiyada Prezident seçkisində faktiki olaraq qalib gəlmiş Tixanovskaya əvəzinə Lukaşenkonun qalmasını təmin etməklə belorus xalqının sözünü və seçimini əhəmiyyətsiz etdiyindən Rusiyaya qarşı narazı olanların sayını kəskin artırıb. Belarusiyanın və hətta Lukaşenkonun Rusiyaya loyallığı sözün əsl mənasında sabun köpüyünə bənzəyir. Göründüyü kimi, Rusiyanın öz maraq dairəsi hesab etdiyi keçmiş SSRİ ölkələrində siyasi mövqeyi tamamilə sarsılıb. Beynəlxalq arenada da Rusiya dövlətinin təcrid edilməsi davam etməkdədir.

ABŞ-da "qırğı siyasət" nümayəndəsi Co Baydenin Prezident seçilməsi, ABŞ dövlətinin anti- Rusiya siyasətini gücləndirib. Diqqət edək, Co Bayden keçmiş SSRİ ərazisində Rusiyanın yaratdığı konfliktlərin həmin dövlətlərin ərazi bütövlüyü daxilində həll edilməsinin vacibliyini vurğulaması Rusiya siyasətinin özünün hesab etdiyi “arxa bağçasından” qovulacağına işarədir.

Qərb mətbuatı, xüsusən də, Almaniya mətbuatı, Rusiya Prezidenti Vladimir Putinin hakimiyyətinin son dövrlərini yaşadığı barədə geniş analitik yazılar dərc edir. Verilən məlumata əsasən Putin yaxın bu il (2021) hakimiyyətdən gedəcəkdir. Sözsüz ki, Rusiya daxilində də Putinin aqressiv siyasəti, daha doğrusu, Barak Obama demişkən "himayədar (krışa), rüşvət, şantaj, hiylə və qeyri - qanuni üsul ilə fəaliyyət göstərən biri kim" əhalinin faktiki narazılığına səbəb olmuşdur. Narazılıqlar hədindən artıq özünü açıq şəkildə büruzə verir, narazılıqlar regionlarda isə daha çoxdur və əhali mitinqlər keçirməyə məcburdur. Xabarovskda, Vladivostokda aylarla keçirilən və hələ də sengiməyən mitinqlər buna misaldır. Xarici sorğulara əsasən Rusiyada müxalifətçi Navalnıy timsalında qərbyönlümü siyasəti dəstəkləyən əhalinin sayı 30%-dən çoxdur.

Rusiya SSRİ dövründən dünyada əsasən ağır silahları ilə mövqe tutmuşdur. Yeni texnoloji dövrdə və xüsusən də 44 günlük müharibədən sonra ağır silahların effektliyi böyük sual altına düşüb. Türkiyə Rusiyaya qarşı yaxın şərqdə nümayiş etdirdiyi hərbi üstünlüyü, eləcə də, Azərbaycanın Ermənistan üzərində, daha doğrusu rus silahı üzərində qələbəsi onu göstərir ki, Rusiya artıq adı çıxmış həmin hərbi potensiala malik deyil və siyasətini artıq güc dili aparmaq imkanı çox zəifləyib. Tarixi gedişat onu göstərir ki, Rusiya dünyada eləcə də keçmiş SSRİ ərazisində yaratdığı Abxaziya, Osetiya, Dnestryanı, Qarabağ, Krım, Donbas kimi konfliktlərlə özü öz hökmünü yazmışdır. Yeri gəlmişkən bir məqamı qeyd edim ki, 1-ci dünya müharibəsində çar Rusiyası qalib ölkələrdən olduğu halda, bolşevik inqilabı ilə faktiki məğlub tərəf kimi müharibədən çıxdı. İlk baxışdan Rusiya KİV-ləri Azərbaycana Qarabağa rus sülhməramlıların yeridilməsini Rusiyanın qələbəsi kimi təqdim və təbliğ etsələr də, əsl həqiqətdə Azərbaycan və Türkiyə öz istəklərini yerinə yetirdi, Azərbaycan torpaqlarını işğaldan azad etdi, Türkiyənin Qafqaza girməsi təmin edildi. Ən başlıcası isə, 10.11.2020-ci il tarixdə imzalanmış üç tərəfli bəyanatla

Azərbaycan Rusiyanın köməkliyi ilə Ermənistanı Azərbaycan ərazilərinin işğalçı tərəfi kimi təsdiq edən hüquqi sənədi əldə edə bildi. Bununla da, Ermənistanın hərbi təcavüzünə görə Azərbaycan Respublikasının təzminat tələbi hüquqi baza və tutarlı sübutla təmin edildi. Bundan başqa, Putin Qarabağda sülhməramlı prosesləri ilə bağlı müsahibələrində Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal edildiyini dəfələrlə səsləndirib. Təbii ki, Azərbaycan Ermənistana qarşı təzminat tələbi irəli sürərkən, ermənilər bu tutarlı sübutları yaratmaqda Rusiyanı günahlandıracaq və bu da öz növbəsində ermənilərin Rusiyaya qarşı nifrətini artırmış olacaq.

Ümumiyyətlə, Putinin daxili idarə etmə sistemində də beynəlxalq siyasi arenada da dar təcrübəli, məhdud təcrübəsindən heç vaxt kənara çıxmayan biri kimi özünü təsdiqləyib. Yeri gəlmişkən, ABŞ-ın keçmiş prezidenti Barak Obama prezidentliyi dövründə əlaqəsi olan dünya liderlərinin şəxsi xasiyyətləri və siyasi baxışları barədə olduqca maraqlı memuarında yazır ki, ilk dəfə Rusiya lideri V. Putinlə görüşü onun Çikaqodakı vaxtları yeni siyasətlə məşğul olmağa başladığı vaxtları xatırladıb və Putini "rayon banda bosu, ancaq nüvə silahı və BMT-nin TŞ-da veto hüququ olan" biri kimi xarakterizə edib. Obama qeyd edib: "Putin mənə vaxtilə Çikaqo siyasətini və ya Timmani Hall-u (19-cu əsrdə və 20-ci əsrin ortalarına qədər Nyu-Yorkda fəaliyyət göstərən, namizədlərin irəli sürülməsini tənzimləyən və s. Demokratik siyasi cəmiyyət) rəhbərlik edən kişilərin tipini xatırlatdı - küçə tərbiyəsi görmüş, sərt, dar təcrübəli, məhdud təcrübəsindən heç vaxt kənara çıxmayan və himayədar (krışa), rüşvət, şantaj, hiylə və qeyri qanuni üsul ilə fəaliyyət göstərən biri kimi" – deyə Obama yazıb.

Putinin Abxaziyada, Osetiyada, Krımda, Donbasda, eyni ssenari üzrə hərəkət etmişdir. Prezident seçkilərində Rusiyaya loyal rəhbərlərin Venesuelada, Belarusiyada hakimiyyətdə saxlanması üçün də eyni mexanizmlər tətbiq edilmişdir. Putin müxtəlif situasiyaları bir formul üzrə həll etməyə çalışdığından

hesablamış olduğu siyasi nəticəni əldə edə bilmir. Putinin əldə etdiyi, ancaq müvəqqəti xarakterli hərbi taktiki üstünlükləridir hansı ki, strateji baxımdan perspektivdə məğlub vəziyyətə gətirir.

Uzun müddətli perspektivdə Rusiyanın indiki sərhədləri daxilində mövcudluğu mümkünsüz görünür, ancaq hər bir halda yaranmış müasir geosiyasi vəziyyətdə də Azərbaycan dövlətinin öz milli maraqlarını qorumaq iqtidarında və regional güc mərkəzinə çevrilmək imkanları realdır. Dünya ölkələrini və əsasən də Rusiya, İran kimi qonşuları olan Azərbaycan dövləti ərazi bütövlüyünün qorunması üçün bu dövlətləri neytrallaşdıra bildisə, BMT TŞ-nın daimi üzvü ermənipərəst Fransanın mövqeyini tam dəyişdirə bildisə və müharibədən zəfərlə çıxıb dünya ictimaiyyətinə özünü qalib ölkə kimi təqdim etməyi bacardısa və eyni zamanda Avropanın enerji təhlükəsizliyinin təminatında xüsusi mövqeyə malikdirsə, təmənnasız və qarşılıqlı milli bağlara söykənən Türkiyə, Pakistan kimi müttəfiqləri varsa deməli, Azərbaycan dövləti öz milli maraqlarını qorumaq iqtidarındadır.

Odur ki, Azərbaycan dövləti nəinki Rusiya sülhməramlıların Azərbaycandan çıxarılmasını rahatlıqla təmin edə bilər və hətta Cənubi Qafqazın söz sahibinə çevrilə bilər. Nəzərdə tutulan məqsədləri əldə etmək üçün müvafiq siyasi şəraitin yetişməsi çox böyük olmayan mütləq zaman məsələsidir.

10 noyabr 2020-ci il tarixli Azərbaycan prezidentinin, Ermənistan baş nazirinin və Rusiya prezidentinin üç tərəfli Bəyanatının 4-cü müddəasının tələblərinə görə, rus sülhməramlılarının Qarabağda mövcudluq taleyi tərəflərin bir-birindən asılı olmayan istəklərinə bağlı məsələdir. Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri Məhərrəm Əliyevin açıqlamasında “5 ildən sonra münaqişə tərəflərindən biri sülhməramlıların xidmət apardıqları təmas xəttini tərk etməsini istəyərsə, həmin qərar dərhal icra olunacaq. Bu, həmin sənədin tərkib hissəsində

yer alan mühüm müddəadır.”- deyə bildirməklə Məhərrəm Əliyev rus sülhməramlılarının Azərbaycanda mövcudluğunun Azərbaycan xalqının və dövlətinin iradəsindən asılı olduğunu Moskvaya mesajını vermişdir. Əminliklə deyə bilərik ki, Azərbaycan rus sülhməramlılarının, daha doğrusu, rus ordusunun 1992-ci il və 2013-cı ildə olduğu kimi, Azərbaycandan çıxarılmasını 3-cü dəfə də bacaracaq.

# İkinci fəsil

## 44 günlük Vətən Müharibəsi
## Zəfər

### Azərbaycan məğlubiyyətlə barışmadı

44 günlük Vətən Müharibəsi kimi tarixə düşmüş və şanlı qələbəmizlə nəticələn savaşın başalnması səbəbi təbii ki, Rusiyanın dəstəyi ilə Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ona bitişik 7 rayonunun işğal faktı idi. 1994-cü ildən bu yana 26 il davam edən danışıqlar prosesinin əhəmiyyətsizliyi göz qabağında idi. Konfliktin həllinə beynəlxalq mandat sahibi Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Minsk qrupu hansı ki, üç ermənipərəst - Fransa, Rusiya, ABŞ dövlətlərindən ibarət həmsədrlərin faktiki Ermənistan mövqeyi ilə çıxış etməsi konfliktin həllinin bu qədər uzanmasına səbəb olmuşdu. Təbii ki, Minsk qrupunun əsas məqsədi status kvo-nun yəni, status kvo-hər şeyin olduğu kimi saxlanılması, bununla da Azərbaycanı fakt qarşısında qoymaqla reallıqla barışmağa məcbur etmək idi. Ancaq Azərbaycan xalqının, dövlətinin rusların köməyi ilə Ermənistanın işğal etdiyi torpaqlarından imtina etmək fikri yox idi, əksinə Azərbaycan durmadan hərbi, siyasi və iqtisadi gücünü paralel şəkildə artırırdı. Sözsüz ki, Ermənistanda əsas siyasi rəhbərlər düşünürdülər ki, danışıqlar prosesi nə qədər çox uzansa bu onların xeyrinədir. Ancaq Ermənistanda fərqli düşünən siyasətçilər və dövlət başçısı da olmuşdur. Ermənistanın sabiq prezidenti Ter Petrosyan hələ 1997-ci ildə belə bir fikir səsləndirmişdi: "Ermənistan və Qarabağ bu gün həmişəkindən daha güclüdürlər. Lakin münaqişə tənzimlənmədiyi halda artıq bir və bir neçə ildən sonra zəifləyəcəyik. Bu gün imtina etdiyimizi gələcəkdə əl açıb istəməli olacağıq, lakin ala bilməyəcəyik." Həqiqətən tarix

göstərdi ki, Ter Petrosyan haqlı imiş.

Uzun müddətli danışıqlar prosesində Azərbaycanın mövqeyinin güclənməsi və nəticə etibarı ilə torpaqlarımızın, məhz, hərb yolu ilə azad edilməsinin əsas hədəf idi, bəli, məhz, əsas hədəf hərb yolu olmalı idi. 2019-cu ildə yəni, 44 günlük müharibədən öncə çap edilmiş müəllifi olduğum "Mənim düşüncəm" kitabımda işğalda olan torpaqlarımızın danışıqlar yolu ilə deyil, məhz, hərb yolu ilə azad edilməsinin vacibliyini və hərb xalqına çevrilməyimizin tarixi zərurət olduğu barədə yazmışam. Müharibənin bir millət üçün nə qədər əhəmiyyətli proses olduğu danılmazdır. Sözsüz ki, müharibələr fəlakət, insan taleyinin ən acı mərhələsi olsa da, bir millətin dirçəlişinin başlanğıcı və təməlidir.

Bir mənalı olaraq qeyd etmək lazımdır ki, müharibə əmrini verən liderlərin həm avantürası, həm də ağıllı strateji hesablamaları müxtəlif düşüncə tərzinin məhsuludur. Qəbul edilmiş bir tezis var, adətən bir dövlətin, millətin tarixi onun dövrünə mövcud hakimiyyətin siyasi tələbatı (sifarişinə) əsasında yazılır. Ancaq tarixdə dövrümüzdə nəzərdən qaçırdığımız kiçik bir məqamlar olub hansı ki, dövlətin, millətin taleyinin dəyişəcəyinə işarə verib və milli hədəfin daha böyük olduğunu işarələyib. Sözsüz ki, Azərbaycan torpaqları işğal altında qalan dövrdə ölkə prezidenti İlham Əliyevi tənqid edənlər çox idi və hətta siyasətçilər, ziyalılar Qarabağın, işğal olunmuş ərazilərini işğaldan azad ediləcəyinin mümkünsüz olduğunu açıq ifadə edirdilər. Təbii ki, Azərbaycan torpaqlarını nəhəng Rusiya Ermənistan adı ilə işğal etmişdi, İran Azərbaycan torpaqlarının işğalda qalmasına olduqca maraqlı idi. Gürcüstana Azərbaycanla Ermənistan arasında normal münasibətlər heç də gərəkli deyildi. Nəhəng və amansız düşmənlər əhatəsində olan Azərbaycanın qurtulacağı mümkünsüz görünürdü. Ancaq şəxsimdə torpalarımızın məhz hərb yolu ilə azad edə biləcəyimizə inanırdım, məhz müharibənin xalqımız üçün vacib tarixi tələbat hesab edirdim və bu haqda fikirlərimi 2019-cu ildə çap edilmiş

kitabımda yəni, Vətən müharibəsindən öncə qeyd etmişdim.

Torpaqlarımızın erməni-rus işğalında qalmayacağına inamı qeyd etdiyim kimi nəzərdən qaçırdığımız bir məqam daha da gücləndirmişdi.

***

Ermənistanın keçmiş prezidenti Robert Koçaryanın Dağlıq Qarabağ konfliktinin həlli ətrafında Azərbaycanın mərhum prezidenti Heydər Əliyev ilə danşıqlar prosesi haqqında 2003-cü ilə çap olunmuş "Həyat və azadlıq" ktabında olduqca maraqlı xatirələrini bölüşüb. Robert Koçaryan yazır:

"…2000-ci ilin ortalarında danışıqlar prosesi bərpa olundu. Xüsusən də, bizim Heydər Əliyevlə Naxçıvan yaxınlığındakı Sədərək kəndində görüşümüz əhəmiyyətli oldu. Azərbaycan tərəfi danışıqlar üçün məxsusi kompakt düşərgə hazırlamışdı. Biz ənənəvi mövzunu müzakirə edirdik: biz necə uzlaşa bilərik?

Mən Azərbaycanın Naxçıvanla əlaqəyə malik olmaq arzusunu başa düşürdüm, amma başqa variant təklif etdim: əgər biz Azərbaycana Ermənistanın Mehri rayonundan keçməklə Naxçıvana birbaşa suveren yol təqdim etsək, onda nə olacaq?

Əliyev dedi ki, bunu necə gerçəkləşdirməyi təsəvvür edə bilmir və biz bu məsələ ilə bağlı uzun sürən danışıqlar apardıq…

Orada ərazi dağlıqdır, biz əsasən tunel və estakadalardan ibarət 50 km uzunluğunda magistral yol çəkməli idik. Bir sözlə, biz elə bir varianta yaxınlaşdıq ki, Azərbaycan Qarabağı Laçın dəhlizi ilə bir yerdə Ermənistanın bir hissəsi kimi tanıyır, əvəzində biz əlimizdə saxladığımız Azərbaycan torpaqlarını geri qaytarır və Mehri vasitəsilə Naxçıvana gedən yola beynəlxalq sülhməramlıların patrulluq edəcəyi xüsusi status verirdik…

Və budur, biz Floridanın ən gözəl yerlərindən biri olan Ki-Uestdəyik. Meksika körfəzinin sahilindəki hoteldə yerləşmişdik. Hava əla idi – günəşli gün idi; və mən ümid edirdim ki, üzməyə də vaxt tapacağam. Əhval-ruhiyyəm də yüksək idi – həm dəniz havasına görə, həm də və ən əsası ona görə ki, bir neçə saatdan sonra mənim vətənimin taleyi həll olunacaqdı.

Trumenin çox da böyük olmayan Kiçik Ağ Evinə gəlirik. Danışıqlar zalı dolu idi: bizim və Azərbaycan nümayəndə heyətləri, çoxdan gözlənilən tarixi hadisəni qeydə alıb işıqlandırmağa hazır olan xeyli sayda jurnalistlər. Otağın mərkəzində stol, stolun arxasında ABŞ dövlət katibi Pauell, sağında Əliyev, solunda mən, qarşımızda Minsk Qrupunun həmsədrləri, Dövlət Departamentinin işçiləri, jurnalistlər…

Görüşü Pauell açır, unikal tarixi an haqqında danışır və sözü Əliyevə verir. O isə qovluğunu açır və… oradan yazılı çıxışını götürür. Orada on səhifəni gördükdə, başa düşdüm ki, bu, artıq uğursuzluqdur.

Əliyev danışmağa başladı. Hamı onun necə həyəcanlı olduğunu görürdü. Mətndə vasitəçilərin danışıqları necə aparması barədə çox danışılırdı, amma onun yarım saatlıq çıxışının tam mənası bu idi: "Mən buna getməyə hazır deyiləm".

Əliyev çıxış edərkən mən Kavanoya (ATƏT-in Minsk Qrupunun o zamankı amerikalı həmsədri – tərc.) baxırdım. O, tər-suyun içində idi, köynəyi bədəninə yapışmışdı, üzü isə qızarmışdı: anlayırdı ki, bu, onun karyerasının sonudur…

Məni ikili hiss bürümüşdü: bir tərəfdən yüngülləşmişdim, anlayırdım ki, bu cür sülh sazişini reallaşdırmaq kifayət qədər mürəkkəb və riskli olardı. Digər tərəfdənsə, xəyal qırıqlığı və təəssüf hissi vardı: bu, tarixi an idi – biz əsrlərlə davam edə biləcək bağ yarada bilərdik. Əlbəttə, biz özümüzün danışıqlarla bağlı güclü mövqeyimizi qoruyub saxlayırdıq – axı, sülh sazişinin imzalanmasından biz imtina etməmişdik…

İki gün ərzində heç nə dəyişmədi. Bütün cəhdlərinə baxmayaraq, həmsədrlərə Əliyevi saziş layihəsini qəbul etməyə razı salmaq müyəssər olmadı.

Şam yeməyi vaxtı – Əliyevin məlum çıxışından sonra ilk dəfə mən onunla söhbət edə bildim. Soruşdum: "Heydər Əliyeviç, bütün bunlar nəyə lazım idi? Mən başa düşürəm, siz fikrinizi dəyişmisiniz. Amma səfərdən imtina edə bilərdiniz axı. Siz həm özünüzü, həm də amerikalıları pis vəziyyətə salmısınız. Niyə?"

O, cavab verdi: "Mən düşünürdüm ki, bacaracağam. Son ana qədər əmin deyildim ki, imtina edəcəyəm".

Bizim ikimiz üçün də bu qərar çox çətin idi, amma düşünürəm ki, onun üçün bu, lap çətin idi.

Soruşdum ki, nə baş verib? Əliyev cavab verdi: "Bilirsən, mən yəqin ki, öz imkanlarımı çox yüksək qiymətləndirmişəm. Mən öz ailəmi inandıra bilmədim ki, bu lazımdır".

Daha sonra o danışdı ki, səfərdən öncə, bütün doğmaları bir yerə toplaşıb və yekdilliklə onu sazişdən imtina etməyə inandırmağa çalışıblar. Bildiriblər ki, hazırda Əliyev milli əfsanədir və əgər o, Qarabağı versə, Azərbaycan xalqı bunu başa düşməyəcək: bu ləkə onun və bütün ailəsinin üzərində qalacaq. Hamıdan daha çox israr edən isə onun oğlu İlham olub və Əliyev yola çıxarkən ona söz verib ki, sazişi imzalamayacaq: "Və mən başa düşdüm ki, əgər öz ailəmi inandıra bilmirəmsə, Azərbaycan xalqını heç vaxt inandıra bilməyəcəyəm".

Ki-Uestdən biz dərhal Vaşinqtona uçduq, orada bizi Kondoliza Rays və prezident Buş gözləyirdi. Ağ Evin yeni administrasiyası bizi tanışlıq xarakterli protokol görüşünə dəvət etmişdi, amma bu da heç nəyi dəyişə bilmədi.

Bununla da, bizim razılığa gəlmək cəhdlərimiz bitdi. Əliyev saziş layihəsini qəbul etmədən getdi, ancaq ondan imtina da etmədi. Bunu o, bir neçə gün sonra Bakıda etdi. Kavanonu dəvət edib dedi ki, bu cür saziş onun üçün qəbuledilməzdir və layihəni tamamilə yenidən işləmək lazımdır.

Ki-Uestdən bir müddət sonra danışıqlar davam etsə də, biz bir daha oradakı kimi sülh sazişi imzalamağa yaxın olmadıq.

Biz Əliyevlə başa düşürdük ki, bizim prezidentliyimiz zamanında münaqişə həll olunmayacaq. Söhbətlərimizin birində o, belə də dedi: "Biz tarixi şansımızı əldən buraxdıq. Əgər bizdə alınmadısa, çətin ki, kimsə bu problemi həll edə bilsin".

Heydər Əliyevin ölümündən sonra İlham Əliyevlə ilk görüşümüzdə mən ondan soruşdum ki, həqiqətənmi, Ki-Uest görüşü ərəfəsində ailədə belə bir söhbət olub, ya yox? O

təsdiqlədi ki, hər şey məhz bu cür olub və o, atasını inandırıb, o da söz verib ki, sazişi imzalamayacaq…”

Bəli, Pobert Koçaryan həmin bu yazısı ilə özü də bilmədən işarə verdi ki, məhz İlham Əliyev heç bir zaman güzəştə gedən deyil və onun hədəfi bütöv Qarabağ, bütöv Azərbaycan idi. Ermənistanın sabiq prezidenti Robert Koşaryanın bu kitabı təbii ki, mənim inamıma xeyli güc verdi.

## Rusiya Azərbaycana qarşı həmişə xəyanətkar olub

Ümumiyyətlə, Rusiya Azərbaycana qarşı zaman-zaman müxtəlif təxribat və su qəsdlərdən istifadə etməklə Azərbaycanın, dövlətinin özünə inamını qırmaq, ruhdan salmaq üçün əməliyyatlar keçirib. Rusiya tərəfindən keçirilən əməliyyatlar həm yüksək rütbəli hərbçilərimizə qarşı, dövlət əhəmiyyətli istehsal və sənaye obyektlərinə qarşı, saf düşüncəli ziyalılarımıza qarşı tətbiq edilib. Düzdür, Rusiyanın bütün bu tipli əməliyyatlarını sadalamaq mümkün deyil, ancaq müasir dövrümüzü əhatə edən bir neçə hadisələri yadımıza salsaq yaxşı olar.

General-leytenant Rail Rzayevin 2009-cu ildə evinin önündə qətlə yetirilməsi, 2019-cu ildə pilot polkovnik-leytenant Rəşad Atakişiyev Xəzər dənizində MiQ-29 qırıcı təyyarəsi ilə təlim keçdiyi zaman məhv edilməsi, 12 iyul 2020-ci ildə Tovuz istiqamətində general Polad Həşimovun öldürülməsi bir başa Rusiya tərəfindən həyata keçirilən əməliyyatlardır.

Sadaladığımız qətillərin günahkarının Rusiya olmasına aid dəlil və sübutların məhv edilməsinə baxmayaraq Azərbaycan xalqı yüksək rütbəli zabitlərimizə qarşı sui - qəsdlərin, terror aktlarının, təxribatların Rusiya tərəfindən keçirilməsinə əmindir.

03 iyul 2018-ci ildə Mingəçevir şəhərində fəaliyyət göstərən ölkənin ən böyük elektrik stansiyası olan Azərbaycan SES 6-cı enerji blokunda partlayış baş verdi, Azərbaycan zülmətə qərq oldu, ölkə sənaye sistemi, sağlamlıq tibb müəssisələri, dövlət əhəmiyyətli obyektlər iflic hala düşdü. Ölkəmizə küllü

miqdarda ziyan dəydi. Həmin bu partlayışın Rusiya xüsusi xidmət orqanları tərəfindən həyata keçirilməsi rəsmi şəkildə elan edilməsə də bəllidir ki, hadisəyə səbəbkar, məhz, Rusiya idi. Bəli, sadaladıqlarımız qısa zaman daxilində Rusiyanın Azərbaycana qarşı nifrətinin cüzi bir hissəsidir. Ancaq baş verən təxribatlar Azərbaycan dövlətini dayandıra bilmədi əksinə, bizi daha hazırlıqlı olmağa məcbur etdi. Mümkün neqativ proseslərin qarşısını almaq üçün alternativ yollar müəyyən edildi və ölkəmiz daha da gücələndi.

Rusiya dövlət siyasətinin publik formasını elə qurmuşdu ki, Azərbaycan cəmiyyəti və dövləti əmin olmalı idi ki, Ermənistan Azərbaycan arasında müharibə zamanı Rusiya neytrallığı saxlayacaq. Ancaq buna nə Azərbaycan dövləti, nə də xalq inanmırdı.

Rusların azərbaycanlılara qarşı xəyanəti, qəddarlığı, amansızlığı keçmiş tariximizdən bəllidir. Müasir tariximizdə də Rusiya öz ənənəsinə sadiq qalıb və hətta **Rusiya Azərbaycan xalqına qarşı insanlıq əleyhinə ən dəhşətli cinayətdə-azərbaycanlıların soyqırımında da iştirak edib. Ermənistan baş naziri Nikol Paşinyan fevralın 20-də 2020-ci il tarixdə öz sosial hesabında 1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə Azərbaycanın Xocalı şəhərində törədilmiş azərbaycanlıların soyqırımını faktiki olaraq etiraf edən yazı ilə çıxış etmişdi:** "Fakt fakt olaraq qalır: Xocalıda azərbaycanlıların qırğınının Azərbaycandakı ermənilərlə ortaq heç nəyi yoxdur, bunu Rusiyanın 366-cı alayı edib. Bu faciədə bizim günahımız yoxdur". Bu yazının sonradan silinməsinə baxmayaraq, bu fakt bir daha onu təsdiq etdi ki, bəli, ruslar və ermənilər Xocalıda azərbaycanlıların soyqırımını birgə təşkil edib və törədiblər. Qeyd etmək lazımdır ki, Ermənistan Baş naziri Paşinyanın Rusiya ilə bağlı yazdıqları onu da sübut edir ki, Rusiyanın 366-cı alayının ermənilərə hərbi dəstəyi olmadan Xocalıda azərbaycanlıların soyqırımını törətmək mümkün olmazdı.




## Rusiya Ermənistanı Azərbaycan qarşısında tək qoymadı

Müharibədən öncə 09.07.2020-ci ilə çap edilmiş müəllifi olduğum “Rusiya Ermənistanı Azərbaycan qarşısında tək qoyacaq” fikirləri tam xəyaldır” adlı məqalədə rus riykarlığını açıq şəkildə göstərmişəm. Həmin yazının bir hissəsini diqqətinizə çatdırıram:

“Ermənistanın Baş Naziri Nikol Paşinyanın Rusiyanın nəhəng informasiya agentliyindən biri olan РБК-ya verdiyi müsahibədə diqqətimi çəkən əsas məqam və hamıya məlum bir aksiomanın bir daha səslənməsi idi. Bu dəfə, Nikol Paşinyan Rusiya-Ermənistan münasibətləri barədə qısa və konkret olaraq tam olan bir doğrunu səsləndirib.

N. Paşinyan deyib: “Rusiyada anlamalıdırlar ki, Rusiyanın Ermənistandakı müttəfiqi Paşinyan, Petrosyan, Poqosyan, Sarqsyan və ya Köçəryan deyil. Müttəfiq və tərəfdaş erməni xalqıdır. Bu, çox mühüm nüansdır"

Bu tezis və istiqamət, Rusiya İmperiyasının yaxın şərqdən Azərbaycan ərazilərinə köç etdirdiyi ermənilər barəsində xarici və daxili siyasətinin tərkib hissəsidir. Həmin bu siyasəti Rusiya, süni yaradılmış erməni dövlət qurluşunun tipindən və siyasi idarə formasından, rəhbərinin meyllərindən aşlı olmayaraq iki əsrdir ki, davam etdirir.

Rusiyaya Azərbaycan dövlətinin hansı dərəcədə loyallığından aşlı olmayaraq Rusiyanın Ermənistana və ermənilərə qarşı nə siyasəti, nə də münasibəti dəyişən deyil. Diqqət edin, Paşinyan hakimiyyəti Ermənistanda anti Rusiya kompaniyası aparmasına, faşizmi təbliğ etməsinə, qərb yönümlü siyasətinə, Rusiya rəqibləri ilə iş birliyinə və sair və sair baxmayaraq, Rusiya Ermənistanı Azərbaycana qarşı dəstəkləməkdə davam edir. Buna saysız sübutlar gətirmək olar, düşünürəm ki, ən əsas, 2016-cı il Aprel döyüşlərində, 2020-ci Tovuz döyüşlərində Rusiyanın Azərbaycana qarşı addımlarını xatırlamaq bəs edir. Bəzi siyasətçilərin, siyasi şərqçilərin, politoloqların və ümumiyyətlə, bəzi insanların Paşinyan hakimiyyətinə görə “Rusiya Ermənistan dövlətinə, xalqına arxa durmayacaq” kimi səsləndirdiyi fikirlərin nə qədər mənasız və əsasız olduğu göz qabağındadır.

Sözsüz ki, Ermənistan adlı dövlət Qafqazda Rusiya dövlətinin maraqlarına xidmət edən bir formal dövlət quruluşu kimi, türk coğrafiyasının parçalanması və fiziki əlaqəsinin qarşısını

alan anti türk vasitəsi kimi Rusiyanın bir kartıdır. Əsl həqiqətdə də ermənilər, Ermənistanın ruslar və Rusiya üçün nə qədər vacib olduğunu tam anlayır və məhz, bu səbəbdən də Rusiyaya qarşı müəyyən "şıltağlığa" gedir və əmindirlər ki, rusların geosiyasi maraqları fonunda erməni "şıltağlığı" ermənilər üçün təhlükəli heç nə vəd etmir. Əksinə, əlavə dividentlər gətirir.

Bu baxımdan, ümumiyyətlə, Paşinyan hakimiyyətinin anti rus kompaniyası "erməni şıltağlığından" başqa bir şey deyil. Odur ki, düşündüyümüz "Rusiya Ermənistanı Azərbaycan qarşısında tək qoyacaq" fikirləri boş xəyaldır. Əsl həqiqətdə də, bunu hər bir azərbaycanlı dərk edir. Ancaq dəhşətlisi odur ki, biz bilərəkdən özümüz-özümüzü aldadır və bu yalan fikirlərə özümüzü inandırmağa çalışırıq. Maraqlısı isə odur ki, Rusiya erməni bəlasının nə qədər böyük xətalı olduğuna görməməzlikdən gəlir. Yaxın tarixdə Rusiyanın cənubunda, daha doğrusu Qara dəniz ətrafında cəmləşməkdə olan ermənilər nəhəng bir imperiyanı - SSRİ-ni Qarabağ konflikti ilə məhv etdiyi kimi, Rusiyanın süqutunu, məhz, Rusiyanın cənubu ilə tarixə yazacaqlar-bu şübhəsizdir.

Ancaq, bu da o demək deyil ki, biz bir xalq olaraq oturub bu tarixi hadisələri gözləməliyik. Yox, biz işimizi davam etdirməli, güclü dövlət olmalıyıq, Türkiyə, Pakistan kimi hərbi müttəfiqlərimizlə hüquqi müstəvidə anlaşmalı, sazişlərimizi imzalamalıyıq. Dövlətimizin beynəlxalq siyasi təsir qüvvəsini artırmalı, əhalimizin sosial vəziyyətini yaxşılaşdırmalı, iqtisadiyyatımızı tam müstəqil şəkildə inkişaf etdirməli, özünü tam təminata keçməliyik. Bir xalq olaraq, bütünlüklə güclü dövlət ideologiyasına xidmət etməliyik.

Düşünürəm ki, ancaq bu halda, nəinki erməni problemindən qurtula bilərik hətta, dünyaya neçə-neçə imperiyalar bəxş etmiş xalqımızın şanlı tarixini təkrarlaya bilərik."

## Ermənistanın Tovuzdakı təxribatının ssenaristi Rusiyadır

Bir millət və bir dövlət olaraq bir dəfəlik bilməliyik ki, Rusiya Azərbaycan dövlətinin müstəqilliyini zamanından, dövründən və siyasi quruluşundan asılı olmayaraq heç vaxt qəbul edə bilmir. Rusiya Qafqaza girdiyi dövrdən bu yana hər zaman Azərbaycan dövlətçiliyinə qəsd edib. Hətta 1918-ci ildə qurduğumuz və beynəlxalq aləmdə müstəqil dövlət kimi tanınan Azərbaycan Xalq Cümhuriyyətini Rusiya 28 aprel 1920-ci ildə işğal etdi, müstəqil dövlətimiz süqut etdirib öz tərkibinə qatdı. Rusiyanın Azərbaycana qarşı təcavüzünün forması dəyişə bilər, ancaq mahiyyəti dəyişməz olaraq qalır. Vətən müharibəsi öncəsi Tovuz döyüşləri kimi tarixə düşən Ermənistanın Azərbaycana qarşı təcavüzünün ssenaristi də, məhz, Rusiya idi.

12 iyul 2020-ci ildə Ermənistan silahlı qüvvələri Ermənistan-Azərbaycan dövlət sərhəddində Azərbaycanın Tovuz rayonu istiqamətdə böyük qüvvə ilə hücuma keçdi. İşğalçı Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan dövlət sərhədində, Tovuz rayonu ərazisində avantürası Rusiyanın ssenarisi və nəzarəti ilə baş tutub və onun ağası Rusiyanın geosiyasi maraqlarının təmin edilməsinə hesablanmış idi. Belə bir qənaətimin izahlı əsaları var. Əvvəla onu deyim ki, Tovuz provokasiyasının hər iki tərəf: Ermənistan və Azərbaycan üçün nəticəsindən aşlı olmayaraq yekunda hər bir halda qazanan tərəf Rusiya olacaqdı.

Rusiya Azərbaycana qarşı niyə belə bir addım atmalı oldu və niyə məhz Tovuzda?

Fikrimcə, bu sualın cavabı çoxlarımıza bəllidir, ancaq bəzi məqamları xatırlasaq daha yaxşı fikrimi izah edə bilərəm. Düşünürəm ki, ikinci dünya müharibəsində (Böyük Vətən Müharibəsi 1941-1945) faşizm üzərində qələbənin 75 illiyinin qeyd edilməsi şanına Rusiyanın Moskvada pandemiyaya görə təxirə salınmış və iyunun 24-də keçirilmiş qələbə paradında Azərbaycan Prezidenti Cənab İlham Əliyevin şəxsən iştirak

etməməsi-Rusiya ilə Azərbaycan arasında bizə görünməyən fikir ayrılıqlarının mövcudluğunun göstəricisi idi. Azərbaycan hakimiyyətində Rusiya yönümlü kadrların ən yüksək dövlət postlardan uzaqlaşdırılması prosesinin başlanması, qeyd etdiyim Rusiya-Azərbaycan fikir ayrılıqlarının səbəblərindən biri ola bilər.

Rusiyanın Tovuz təxribatında maraqlı olmasının sübutlarından biri və ən başlıca səbəbi-Avropanın qazla təchizat məsələsidir yəni, Cənub Qaz Dəhlizi proyektidir. Bildiyimiz kimi, Cənub Qaz Dəhlizi proyektinin əsas məqsədi Avropanın enerji təhlükəsizliyinin təminatı və Avropanın rus qazından asılılığının ardan qaldırılmasıdır. Cənub Qaz Dəhlizi proyekti Azərbaycan qazının Xəzər dənizindən Avropaya ixracıdır. Bu proyektin inşası və gücü daha yüksək ötürücü qabiliyyəti qonşu Qazaxıstan, Türkmənistan qazının da bu proyekt vasitəsi ilə Avropa bazarına çıxarılması barədə danışıqların aparılması və hətta İranın bu proyektə maraqlı olması, nəticə etibarı ilə Avropanın rus qazından asılılığının aradan qaldırması gətirib çıxara bilər. Əsas bir məqamı da yadımıza salsaq yaxşı olar-dünya bazarında neftin qiymətinin kəskin düşməsi əsas neft ixracçılarından biri olan Rusiyanın gəlirlərini xeyli azaltmışdı. Qeyd edək ki, neft dünya bazarına qiymətini neft birjalarının yəni, qiymətin tələbata uyğun formalaşması neft gəlirlərin stabilliyinə qeyri-müəyyənlik yardır. Qaz isə dünya bazarında əsasən ölkələrə müqavilələrə uyğun qiymətə satılır. Bu baxımdan dünyanın nəhəng qaz ixracçısı Rusiya “Qazprom”un gəlirləri Rusiyanın əsas gəlir mənbələrindən biri sayılır və demək olar ki, Rusiya iqtisadiyyatının onurğa sütunudur. Ona görə də Cənub Qaz Dəhlizi proyektini ruslar Rusiya iqtisadiyyatı üçün təhlükə mənbəyi sayırlar.

Azərbaycanın Cənub Qaz Dəhlizi Proyekti üzrə və eləcə də, digər proyektlər üzrə enerji daşıyıcılarının faktiki yeganə ixrac yolu, məhz, Tovuz rayonu da daxil olmaqla qərb rayonlarımızdan həyata keçirilir, Türkiyə vasitəsi ilə elə Türkiyənin özünə və

Avropa ölkələrinə çatdırılır. Sözsüz ki, Rusiyanın Tovuz təxribatı ətrafında yaranmış sualların (təxribat kimə sərfəlidir və niyə məhz, Tovuz rayonu?) cavabı elə budur.

Bu cavabı yəni, Rusiyanın Tovuz təxribatının təşkilatçısı olduğunu təsdiqləyən digər məqamlar da var. Az qala 30 ilə yaxın bir dövrdə Ermənistan işğalına qarşı Azərbaycanı dəstəkləyən Türkiyə bu dəfə ilk olaraq ölkəsinin 1-ci şəxsləri səviyyəsində Azərbaycana mümkün ən yüksək dəstək verməsi, Tovuz təxribatının Rusiyaya aid olmasının sübutudur. Maraqlısı odur ki, Tovuz təxribatı zamanı Rusiya proseslərə müdaxilə etməyən kimi görünməyə çalışırdı və əgər, həqiqətən də, Rusiya neytrallığı saxlayan ölkə idisə onda, 2016-cı il Aprel döyüşlərində Azərbaycan ordusunun əks həmlələrini niyə durdurmağa çalışırdı?! Nəzərə alaq ki, 2016-cı il Aprel döyüşləri beynəlxalq hüquqla tanınmış Azərbaycanın daxili ərazilərində, Tovuz təxribatı isə Ermənistan-Azərbaycan dövlət sərhədində baş verən hərbi toqquşma idi. Qeyd edilənlərlə yanaşı Azərbaycan ordusunun General-mayoru Polad Həşimov vurulması da Rusiyanın xidmətidir.

Heç kəsə gizli deyil ki, Ermənistan Azərbaycan Generalının hərəkət trayektoriyasını, mövqeyini müəyyən etmək üçün texniki imkanlara malik deyil və sözsüz ki, Azərbaycan Generalının koordinatlarının müəyyən edilməsi Tovuz təxribatında maraqlı olan Rusiyanın imkanı daxilindədir və nəticədə göz qabağındadır.

Əgər, Rusiyanın Tovuz təxribatı ilə bağlı Paşinyan Ermənistanı qarşısında qoyduğu tapşırıq və hədəf baş tutsaydı-nələrin baş verəcəyini təxmin etmək tam mümkün deyildi. Ancaq müəyyən proseslərin mümkünlüyü sözsüzdür. Rusiyanın Tovuz təxribatının əsas hədəfi olan Cənub Qaz Dəhlizinin proyektinin əhəmiyyətsiz hala salınması olacaqdı. Bundan başqa, Rusiyanın müəllifi və dirijoru olduğu layihələrdə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına, Avrasiya İqtisadi Birliyinə, Avrasiya Kömrük İttifaqı bu kimi layihələrə Azərbaycanın üzvlük

məsələləri qaçılmaz olacaqdı. Hətta Azərbaycan dövlət sərhədinin qorunması məsələsində rusların istəyi də artıq gizli deyil. Rusların Tovuz təxribatı baş tutduğu halda Paşinyan hakimiyyəti Rusiya sədaqətini sübut edəcəkdi, digər tərəfdən isə ümumən Ermənistanın Qarabağ məsələsində mövqeyi möhkəmlənmiş olacaqdı

Lakin Azərbaycan ordusu Rusiyanın planlarını puç edərək işğalçı Ermənistan ordusunun arzularını ürəyində qoydu. Biz bir xalq olaraq rus-erməni birliyinin Tovuz təxribatından qalib çıxdığımızın əsl mahiyyət və dəyərini, bəlkə də, hələ tam anlaya bilmirik ancaq ki, tarix bu hadisələri bir döyüşlə müstəqilliyimizin, suverenliyimizin qələbəsi kimi yazacaq. Bu qələbənin əsl dəyəri ölçüyə gəlməz dərəcədədir. Artıq düşmən kimliyindən aşlı olmayaraq, Azərbaycan ordusunun gücünü, milli maraqlarımız olan yerdə xalq, ordu və hakimiyyət birliyini, xalqımızın döyüş əzmini və döyüş ruhunun möhkəmliyini gördü.

Rus-erməni birliyinin Tovuz təxribatı əsl həqiqətdə Azərbaycan dövlətinə Qarabağda antiterror əməliyyatının üçün əlavə arqumentli siyasi, hüquqi əsaslar verdi. Təbii ki, Azərbaycan ordusunun Tovuz döyüşündən qalib çıxması artıq 44 günlük müharibə kimi tarixə düşmüş Vətən müharibəsində qazandığımız qələbəni yaxınlaşdırmış oldu. General Polad Həşimovun xaincəsinə vurulması və onun şəhadəti Zəfərimizin tezliklə baş tutacağını göstərirdi. Bütün Azərbaycan intiqam hissi ilə haqq savaşımıza dövlət-xalq-ordu vəhdətini daha da möhkəmləndirdi -Azərbaycan xalqı ancaq müharibə istəyi ilə yaşayırdı.

Tovuz təxribatını hazırlayan və həyata keçirən Rusiyanın məğlub durumu, onun özündən başqa heç kimi dəyərləndirməməsi, kiçik dövlətlərə qarşı istədiyini həyata keçirə biləcəyinə sonsuz inamı və uğursuz güc siyasətinin nəticəsi idi. Əminliklə demək olar ki, Tovuz təxribatı ruslar üçün çaşqınlıq yaradan gözlənilməz mənfi nəticələr verdi, Azərbaycan isə olduqca vacib hərbi, siyasi, psixoloji üstünlüklər qazandı. Tovuz təxribatını hazırlayan rus strateqləri Rusiyanın Azərbaycana qarşı siyasə-

tində daha diqqətli olmağa və bir başa hərbi avantüradan çəkinməyin Rusiya üçün daha sərfəli olduğunu göstərmiş oldu. Rusiyanın 44 günlük Vətən müharibəsində Ermənistana hərbi, siyasi dəstəyinə baxmayaraq bir başa hərbi müdaxiləyə getməməsinə qərar verməsi Tovuz təxribatının nəticələrinin də təsiri danılmazdır.

Digər tərəfdən Rusiya Tovuz təxribatında uğursuzluğuna görə Azərbaycanı daha ağır cəzalandırmaq fikrinə düşdü. Ancaq Rusiyaya qarşı beynəlxalq geosiyasi situasiya və eləcə də regiondakı realı hərbi və siyasi vəziyyət Rusiyanı Azərbaycanın Qarabağ uğrunda, öz ərazi bütövlüyü uğrunda haqq savaşında işğalçı Ermənistan tərəfindən açıq şəkildə döyüşlərdə iştirak etməyi mümkünsüz etmişdi. Təkcə 44 günlük Vətən müharibəsi dövründə Rusiya Ermənistana heç bir danışıqlar aparmadan, müqavilə imzlamadan 1 milyard 200 milyon dollar həcmində silah yardımı göstərib hansı ki, həmin məbləğ silahın maya dəyərində olan hesabdır.

Azərbaycan üçün Tovuz döyüşlərinin dəyəri olduqca yüksək və əldə etdiyimiz Qələbəmizin açarı kimi tarixdə qalacağı heç şübhəsizdir baxmayaraq ki, hələ də Tovuz zəfərinin önəmi lazımınca qiymətləndirilməyib.

## Rusiya çox ağır durumda - məcburdur!

Rusiyanın uğursuz Tovuz təxribatı Rusiyanı çox ağır bir duruma saldı. 03 avqust 2020-ci il tarixdə çap edilmiş “Rusiya çox ağır durumda- məcburdur” adlı məqaləmdə Rusiyanın Tovuz təxribatının ağır nəticəlrinin görünən tərəflərindən söz açmışam. Həmin məqalənin bir hissəsini diqqətinizə təqdim edirəm:

"Ermənistanın Azərbaycan ərazisində Tovuz rayonundakı təxribatından sonra, daha doğrusu, yeni Azərbaycan əraziləri tutmaq istəyinin baş tutmamasından sonra, real olaraq üzləşdiyi yəni, həm Beynəlxalq aləmdə təkləndiyi eləcə də, onları bu

avantüraya həvəsləndirən və təkid edən havadarlarının ermənilərə arxa durmaması və ən nəhayət, Azərbaycan ərazisinə qardaş Türk ordusunun gələrək birgə geniş miqyaslı hərbi təlimlər keçirməsi Ermənistan Respublikası tərəfindən işğal edilmiş Azərbaycan ərazilərinin Dağlıq Qarabağ və ona bitişik 7 rayonun tezliklə azad olmasını göstərirdi.

Bu yerdə qeyd etmək istədiyim məqamlar Rusiya ilə bağlıdır. Qarabağın və digər ərazilərimizin işğalının ilk anlarından bizlərə eləcə də, dünya dövlətlərinə məlum idi ki, Azərbaycanın ərazilərini erməni görünüşü ilə işğal edən Rusiyadır. Qarabağ konflikti isə, məhz, Rusiya üçün-onun Cənubi Qafqazda mövcudluğunun təminatıdır. Qısası, Rusiya bu konfliktin həll olmasında heç bir halda maraqlı ola bilməzdi.

Geosiyasi baxımdan dünyada nə baş verdi ki, Rusiya bu Qarabağ kartını Türkiyə ilə bölüşməli oldu?

Hesab edirəm ki, buna çoxlu amillər təsir etmişdir.

Birincisi, keçmiş SSRİ ərazisində dondurulmuş konfliktlərlə yanaşı son dövrlərdə Rusiyanın Gürcüstanın Abxaziyasını və Osetiyasını işğal etməsi, Ukrayna Krımının ilhaqı eləcə də, Ukraynanın Donetski və Luqanski əyalətlərinin işğalı onun-Rusiyanın işğalçı statusunun təkrar təsdiqi kimi;

İkincisi, Rusiyanın yaxın şərqə girməsi ilə qərb dövlətlərinin maraqlarının reallaşmasına əngəl olması;

Üçüncüsü, ABŞ və digər qərb ölkələrinin Venesuelada etdikləri dövlət çevrilişinin Rusiya amilinə görə baş tutmaması və ən nəhayət

Dördüncüsü, Avropanın enerji təhlükəsizliyinə və eləcə də, alternativ təminatına əngəllər yaradan Rusiya özünə qarşı güc mərkəzlərinin birləşməsini qacılmaz etməsi nəticədə, Rusiyaya qarşı tətbiq edilən iqtisadi və siyasi sanksiyaların günü-gündən gücləndirilməsi ölkə daxilində sosial və siyasi vəziyyəti ağırlaşdırıb. Ölkədə durmadan artan xalq narazılığının pik həddə olması hərçənd ki, bu hadisələrin işıqlandırılmasına senzura tətbiq edilsə də, ardı-arası kəsilməyən mitinqlər ölkədə daxili sosial,

iqtisadı vəziyyətin nə qədər ağır olmasının sübutudur. Vəziyyət o həddə çatıb ki, Rusiya dövlət büdcəsinə təkrar dəyişikliklər edərək hərbə və müdafiə xərclərinin azaldılması məcburiyyətində qalıb. Xatırladım ki, Rusiyada, Yeltsin hakimiyyətindən sonra təsdiq edilmiş hərb və müdafiə xərclərini ilk dəfə azaldılır.

Bundan başqa, göründüyü kimi, yaxın şərqdə Rusiya-Türkiyə arasında geosiyasi maraqların qarşılıqlı qəbulu və bölüşdürülməsi eləcə də, Türkiyə daxilində müəyyən iqtisadi maraqları (AES kimi, Türk Axını kimi nəhəng meqalahiyələrin və sair) olduğundan, həmçinin, Rusiyanın Türkiyəyə gizli-NATO-nu parçalamaq kimi arzularının gerçəkləşdirə biləcək yeganə qüvvə hesab etməsi eyni zamanda da, Türkiyənin Rusiya daxili türkdilli xalqlara təsirini, eləcə də, Rusiyanın sahibi olduğu KTMK, Avrasiya, Gömrük birliklərində türk dövlətlərinini üzv olması kimi faktorlar Rusiyanın Türkiyə ilə hesablaşmasını məcburiyyət edib. Sadalananlara əlavə etmək istədiyim isə ən axrıncı faktorlardan biri, Ermənistanda anti rus ritorikası ilə hakimiyyətə gələn Paşinyanın qərb siyasəti və bu fonda isə Azərbaycanın Rusiyaya loyal münasibəti yuxarıda qeyd etdiklərimin səbəbindən Rusiya Türkiyə ilə Qarabağ məsələsində məcburən razılaşacağına inanmağa əsas verir.

Sözün düzü, mən ona da inanıram ki, Rusiya belə aciz durumda qeyri-adekvat hərəkətlərə yol verə bilər. Ancaq hesab edirəm ki, Rusiya Ermənistan və ermənilər üçün ağır riskli hərəkətlərə getməyəcək. Rusları narahat edən daha bir məqam isə, ermənilərin Rusiyanın cənubuna iddialı olacağına artıq inanmalarıdır. Çünki Rusiya cənubunda artıq ermənilər yerli rusları sıxışdırıb çıxarıblar və faktiki olaraq, özlərini Rusiya cənubunun sahibi görürlər. Ruslar üçün də erməni məsələsi artıq bir həll edilməz problemə çevrildiyindən çox güman ki, Ruslar Türkiyəni və Azərbaycanı daha asan anlaya biləcəklər."

Təbii ki, proseslərin gedişi göstərirdi ki, Rusiya Türkiyə ilə məcburi ittifaqa getmək məcburiyyətindədir.

## Rusiya-Türkiyə məcburi ittifaqı

19 Avqust 2020-ci il tarixli "Rusiya-Türkiyə məcburi ittifaqı, Qurd və Ayı dost ola bilərmi?" məqaləmdə fikirlərimə aydınlıq gətirmişəm: Erməni havadarı Rusiyanın dirijorluğu ilə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Tovuz rayonunda törətdiyi təxribatdan sonra, Türkiyə ordusunun 10 minlik heyətlə Azərbaycana gələrək Azərbaycan ordusu ilə birgə keçirdiyi geniş miqyaslı hərbi təlimlərin müzakirəsi hələ də gündəmdədir. Bu məsələnin geniş və ardıcıllıqla müzakirə edilməsi onun sübutudur ki, Beynəlxalq aləmdə yeni dünya düzənində hakim və həlledici sayılan dövlətlərin sırasında yeni bir dövlət öz yerini tutmuşdur. Sözsüz ki, söhbət, məhz, Türkiyədən gedir.

Türkiyənin yaxın şərqdə və Cənubi Qafqazda siyasi və hərbi gedişləri barədə çoxlu məlumatımız var və bir daha bunları xatırlatmaqla sözçülüyə yol vermək istəmirəm. Bütün bunlarla yanaşı, ABŞ Prezidenti Donald Trampın son etirafları daha doğrusu, Türkiyə Prezidentinin bir nömrəli dünya liderlərindən olduğunu və hətta onu şahmat oyunçusuna bənzətməsi həmçinin, digər dünya liderlərinin Trampa "Ərdoğanla anacaq siz danışa bilərsiz" xahişlərinin Tramp tərəfindən səslənməsi Türkiyənin və Ərdoğanın artıq dünya siyasi düzənində xüsusi mövqeyə sahibliyinin daha bir təsdiqidir.

Bu arada hər ikisi NATO-nun üzvü olduğu Türkiyə-Yunanıstan qarşıdurması fonunda, tərəflərin siyasi tərəzi gözünə yığılan dövlətlərin siyahısı çox maraqlı görünür. Yunanıstan KİV-nin verdiyi məlumatlar isə daha maraqlıdır, məlumata görə, Rusiya Türkiyəyə Yunanıstan sualtı qayıqlarının izləməsində yardımçı olur.

Dünyada baş verən siyasi proseslərə regional bucaqdan baxılması düzgün olmazdı. Birləşmiş Ərəb Əmirliyinin İsraillə yaxınlaşması sözsüz ki, digər aparıcı ərəb dövlətləri üçün də İsraillə münasibətlərinin normallaşmaşına kömək edəcək. Bu arada da yəhudi-ərəb yaxınlaşmasından narahat olan teokratik

İran rejiminin sərsəm bəyanatları və bu bəyanatlara BƏƏ-nin cavabı onu göstərir ki, artıq dünya siyasətində və yeni dünya düzənində artıq müəyyənləşmə olub.

Bir məqamı da xatırlasaq yerinə düşər, Ankarada Rəcəb Tayyib Ərdoğan öz sarayında ABŞ-ın ən nüfuzlu yəhudi təşkilatlarını birləşdirən "Böyük Amerika Yəhudi Təşkilatları Prezidentləri Konfransı"nın (Conference of Presidents of Major American Jewish Organizations) nümayəndə heyətini qəbul edib. Konfransın rəhbəri Malkolm Hoenleynin (Malcolm Hoenlein) rəhbərliyi ilə Ankaraya səfərin təşkil olunması Türkiyə-İsrail yaxınlaşmasına təkcə İsrail hökumətinin yox, həm də dünya yəhudilərinin nə qədər önəm verdiklərinin göstəricisidir. Bu yəhudi təşkilatı İsrailin dövlət siyasətinin və dünya yəhudilərinin istiqamətverici beyin mərkəzi kimi tanındığı da heç kəsə gizli deyil. Yeri gəlmişkən, Türkiyə-İsrail yaxınlaşması onların ortaq və qarşılıqlı maraqlarının da nəzərə alındığının dolayısı göstəricisi kimi, Aralıq dənizində Türkiyə-Yunanıstan qarşıdurmasında İsrailin neytral mövqe sərgiləməsini qeyd etmək olar.

Sözsüz ki, bizlər dünya siyasətində baş verən geosiyasi proseslərə qiymətimiz, əldə etdiyimiz məlumatların məcmuəsindən asılıdır və təbii ki, bizlərə çoxlu məlum olmayan hal və məqamlar var. Bu baxımdan məlum olan məlumat və siyasi proseslərin analizi göstərir ki, Türkiyə yeni dünya düzənində öz lider mövqeyini əldə edib və bir sıra vacib dünya oyunçuları ilə öz dairəsini yarada bilib.

Bu dairə baxımından və Türkiyə-Azərbaycan faktiki müttəfiqliyi fonunda, əvvəlki yazımda qeyd etdiyim kimi, Rusiya düşdüyü siyasi vəziyyətə görə məcburən Türkiyə ilə münasibətlərini qorumalıdır. Düşünürəm ki, Rusiya ilə Türkiyə arasında Qarabağ anlaşması da mövcuddur və bu razılaşma əsasında da Türkiyə Ermənistanın Tovuz təxribatından sonra qəti mövqeyini ortaya qoydu. Türkiyənin qətiyyətli mövqeyi faktiki olaraq Rusiya tərəfində təbii qəbul edildi. Hadisələrdən sonra Azərbaycan ərazisində Azərbaycan və Türkiyə ordularının birgə

geniş miqyaslı təlimlərini Rusiya sükutla izlədi. Yeri gəlmişkən, Azərbaycanda Azərbaycan-Türkiyə birgə təlimlərindən sonra Rusiya hərbi gəmilərinin Azərbaycana, Bakıya gəlməsi qeyd edilənlərın təsdiqi kimi qiymətləndirilə bilər.

Düşünürəm ki, güclənmiş Türkiyə və dünyada baş verən siyasi proseslər fonunda, Rusiya mövcudluğunu qorumaq üçün məcburən Türkiyə ilə tərəfdaş kimi bir dairəyə aid olmağa maraqlıdır. Təbii ki, Rusiya tədricən mövqeyini itirdiyindən ara-sıra Tovuz təxribatı kimi sunamilərə gedəcək, itirdiyi mövqeni geri qaytarmağa şansını və əlverişli siyasi şəraiti gözləyəcək. Ancaq bu gün Rusiya hələ ki, məcburən Türkiyə maraqlarını qəbul etmək məcburiyyətindədir."

Ümumən, Azərbaycan xalqı, elə bir əzəmətli dövr və tarix yaşadı ki, bir sözlə, əhali demək olar ki, bütövlükdə vahid siyasi düşüncə çərçivəsində düşünürdü, gedən prosesləri çox yaxından izləyirdi. Gələcək nəsillərimiz bilməlidir ki, şanlı qələbəmiz öncəsi və müharibə dövründə xalqımız vahid siyasi düşüncəyə malik idi, bütöv Azərbaycan vahid orqanizm kimi işləyirdi, xalqımız elə bir nümunə göstərə bildi ki, özünün keçmiş türk tarixini təkrarladı, dünyanın nəhəng dövlətlərini Azərbaycanla hesablaşmağa məcbur etdi. Bu Azərbaycan xalqının böyüklüyünün, qədimliyinin və aliliyinin sübutu idi.

## Tovuz təxribatından sonra Lavrovun "məxfi və ədalətli" planı

Uğursuz Tovuz təxribatından sonra Rusiya dövlət rəsmilərinin müxtəlif tribunalardan səsləndirdikləri fikirlərin əsl məqsədi elə özünün dirijoru olduğu Tovuz təxribatının məntiqi nəticələrini zərərsizləşdirmək idi, hansı ki, Rusiyanın Azərbaycana qarşı xəyanətkar siyasəti tam çılpaqlığı ilə təkzibi mümkün olmayan şəkildə ortaya çıxmışdı. İlham Əliyevin Vladimir Putindən publik izah tələb etməsinin elanı, Rusiyanın fakt qarşısında qalmağına sübutdur.

Rusiya tərəfindən Azərbaycan ordusunun qiymətləndirilməmiş peşəkarlığı sayəsində, Rusiyanın ssenarisi üzə hesablanmış Tovuz təxribatı Rusiyaya gözlədiyi nəticəni vermədi. Rusiyanın Tovuz təxribatının əsl hədəfi Avropanın enerji təchizatının Rusiyanın monopoliyasında saxlanması idi. Ancaq Tovuz təxribatı nəinki Rusiya üçün hədəflənmiş nəticəni vermədi, hətta Rusiyanın siyasi manevr dairəsini azaltdı, Qafqazda mövqeyinin zəifləməsinə səbəb ola bilən amilləri ortaya çıxartdı.

Rusiyanın Tovuz təxribatının müsbət sonluğu halında yəni, Ermənistan silahlı qüvvələri Azərbaycanın Tovuz rayonu ilə həmsərhəd ərazilərdə müəyyən strateji nöqtələri tuta bilsəydi, Paşinyan hakimiyyəti ilə Putinin "barışması" Azərbaycanın Rusiyadan asılılığının dərinləşməsi, Avropanın enerji təchizatının Rusiyadan asılılığının saxlanması təmin ediləcəkdi.

Vəziyyət Rusiyanın əleyhinə işlədi, üstəlik Türkiyənin məsələyə məlum müdaxiləsi Rusiyanın Cənubi Qafqazda mövcudluğunu sual altına aldı. Rusiyanın maraqlarına tam zidd olan Qarabağ məsələsinin həllinin hərb variantını ön plana çıxartdı. Ermənistana Rusiyanın gərəkliyi onun Azərbaycan və Türkiyəyə qarşı ərazi iddialarının təmin edilməsinə hesablanıb və təbii ki, Azərbaycanın işğal edilmiş torpaqlarının azad edilməsindən sonra, Ermənistan faktiki düşdüyü bermud üçbucağından çıxaraq qərbə üz tutacaq-Rusiya Ermənistan üçün arzu olunmaz və düşmən dövlətə çevriləcək. Azərbaycan isə torpaqlarını azad edəndən sonra Türkiyə ilə daha yaxınlaşaraq, ortaq maraqlarla qlobal planlı birgə inkişafını davam etdirə bilər. Göründüyü kimi, Rusiya son iki Qafqaz dövlətini də və ümumilikdə isə Cənubi Qafqazı itirə bilər və buna ehtimal çox yüksəkdir. Türkiyənin Azərbaycanda oturuşu Rusiya qarşı halqanın daralması deməkdir.

Bu ssenari üzrə və ümumiyyətlə, Rusiyaya Qarabağ məsələsinin tam həllində maraqlı ola bilərmi?!...

Bu baxımdan Rusiyanın son canfəşanlığının əsl həqiqətdə məqsədi Qarabağla bağlı məsələni nəzarətdə saxlamaq, məsələnin tam həllini əngəlləməkdi. Sözsüz ki, Rusiya Tovuz təxriba-

tından sonra Azərbaycanda itirdiyi mövqeyinin bərpa etməsi üçün Azərbaycanın işğal edimiş ərazilərin azad edilməsi üçün başladığı hərbi əməliyyatlara göz yummaq məcburiyyətində qalmışdı. Yeri gəlmişkən Lavrovun da dediyi "məxfi və ədalətli" planın elə məxfi hissəsi bu idi.

## Müharibə xəbəri

27 sentyabr 2020-ci il. Bu tarix Azərbaycan xalqının illərlə həsrətində olduğu əzəmətli və qurur verici dövrün başlanğıc tarixidir. Nəhayət, haqq savaşımız, müharibəmiz başladı. Gələcək nəsillərimiz bilməlidir ki, bütün Azərbaycan müharibənin başlanması xəbərini böyük sevinclə, fərəh göz yasaları ilə alqışlayır, əhali bir-birlərini təbrik edirdi. Müharibənin nə qədər fəlakətli olması bizim üçün ikinci dərəcəli idi, əsas o idi ki, mənfur düşmənin başını əzməyin zamanı yetişmişdi. Dünyanın heç bir xalqı, milləti müharibə xəbərini Azərbaycan xalqı və milləti kimi sevincə qarşılamayıb, müharibə Azərbaycan xalqına ruhi azadlıq gətirdi, 10 milyonluq əhali sel axınına dönərək, döyüşə yollanmaq üçün növbəyə dururdu, döyüşə getmək, müharibədə iştirak etmək hər bir azərbaycanlının ən böyük arzusu idi, nəinki gəclərimiz, qocalarımız, qadınlarımız döyüşə can atırdı. Əziz və doğma millətim elə bir döyüş ruh yüksəkliyi göstərdi hansı ki, dünya belə bir mənzərənin şahid olmamışdı. Azərbaycan milləti dünyanın yeganə millətidir ki, müharibə xəbərinə və müharibənin başlanmasına sevinirdi.

Şahidi olduğumuz, Azərbaycan ordusunun qızıl həriflərlə yazdığı şanlı hərb tarixi milli kimliyimizin sübutu kimi həm də, milli birliyimizin nümunəsi olaraq gələcək nəsillərimizə qürur və fəxarət hissi yaşadacaq. Az qala 30 illik düşmən tapdağı altında qalan, inildəyən, yarası sızağa dönmüş doğma Qarabağımızın işğaldan azad edilməsi üçün Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə başladığımız mübarizə sevinc göz yaşlarımız ilə müşayiət olunurdu. Düşmən üzərində QƏLƏBƏ xəbərlərinin

dalba-dal gəlməsi ilə yaşadığımız hissi heç bir sözlə ifadə etmək mümkün deyil. Sadəcə deyirəm, mən bu millətin övladı olduğuma fəxr duyuram, mən şanlı və zəfər nişanı daşıyan Azərbaycan ordusu və xalqı qarşısında baş əyirəm. Başladığımız müharibə bizə hava və su kimi lazım idi, bu başladığımız zəfərli döyüşlər özümüzü bir xalq olaraq yenidən tanımağa, 1990-cı illərin acı nəticələrini aradan qaldırmağa və qalib xalq hissini özümüzə geri qaytarmağa imkan verdi.

Hər bir insan həyat yolunda xoşbəxt olmağa çalışır. Xoşbəxtlik hissini insanlar fərdi və qrup halında yaşayır. Qrup halında yəni, bir cəmiyyət olaraq, bir dövlət olaraq. Normal düşüncəli insanın dövlətinin məğlub durumda olması və bu sindromla yaşaması o insanın xoşbəxt olmasına mane olur. Ona görə də, hər birimizin fərdi xoşbəxtliyinin əsasında güclü, məğlubedilməz dövlətin nümayəndəsi olmağımız durur. Bu hissləri isə bizə ancaq müharibə qaytara bilərdi.

Müharibə nə qədər ağır olsa da, o qədər də xilaskardır, müharibələr milli kimliyin təsdiqi, əbədi dövlətçiliyin dayağı və yeni başlanğıcın təməlidir. Mən bir qazı olaraq 1-ci Qarabağ müharibəsi veteranı kimi 90-cı illərin ağır hissi ilə barışmadan yaşayırdım, rahatlıq, xoşbəxtlik hissinə həsrət idim və hər an itirilmiş doğma torpaqlarımız uğrunda döyüşlərə başlayacağımızı səbirsizliklə gözləyirdim. Sözün düzü, son dövrlərdə də ölməyə qorxurdum, qorxumun da səbəbi torpaqlarımızın azad edilməsini görmədən məğlub xiffət ilə ölmək idi.

Cənab Ali Baş Komandana, Şanlı Azərbaycan Ordusuna, Şəhidi ilə fəxr edən qalib Azərbaycan xalqıma böyük ehtiramımı bildirirəm! Mən artıq xoşbəxtəm!

## Qafqazın Stalinqradı -Tərtər

Azərbaycan Ordusunun uğurlu əks hücum əməliyyatlarına start verdiyi andan işğalçı Ermənistan Ordusu ağır məğlubiyyətlərə uğrayırdı. Ard-ardınca qələbə, işğaldan azad edilmiş

ərazilərimizin sayının günün-gündən artması Ermənistan dövlət rəhbərliyinin vahiməsinə səbəb olmuşdu. Döyüş meydanında Azərbaycan Ordusuna biabırçı şəkildə məğlub olan, silahını, texnikasını qoyub qaçan, kütləvi fərarilik edən Ermənistan ordusu və onun siyasi-hərbi rəhbərliyinin təslim olmaqdan başqa vəziyyətdən çıxış yolu qalmamışdı. Bundan azğınlaşan, havadarlarından təsirli dəstək ala bilməyən və Azərbaycan Ordusu ilə döyüş meydanında təkbətək qalan Ermənistan öz genetik xislətlərinə uyğun olaraq uşaq və qadınları, dinc sakinləri, cəbhə xəttindən xeyli uzaq mülki əhalini hədəfə götürmüşdü. Ermənistan silahlı qüvvələri Gəncə, Mingəçevir, Tərtər, Ağdam, Goranboy, Ordubad, Xızı, hətta Abşeronu belə və digər Azərbaycan şəhərlərini və onun dinc sakinlərini hədəfə götürüb Beynəlxalq normalara görə qadağan olunmuş silahlarla vururdu.

Oktyabrın 17-si gecə saat 00:55-də Ermənistan silahlı qüvvələri Vardenis rayonu ərazisindən Azərbaycanın Gəncə şəhərinə növbəti dəfə ballistik raketlərlə (Elburus 9K72) zərbə endirdi. Nəticədə 2-si uşaq olmaqla 15 nəfər dinc sakin ölmüş, 50-dən çox insan yaralanmış, 20-dən çox mülki ev dağıdılmış və şəhər infrastrukturuna güclü ziyan dəymişdir. Azərbaycanın ikinci ən böyük şəhəri Gəncəni və onun dinc sakinlərini Ermənistan ərazisindən ballistik raketlərlə vurulmasını demək olar ki, dünyanın sivil ölkələri və dünya liderləri tərəfindən kəskin qınanıb. Ümumiyyətlə, təkcə Gəncə şəhəri 44 günlük Vətən müharibəsi dövründə Ermənistan ordusu tərəfində 5 (beş) dəfə ağır raket zərbələrinə tuş gəlib. Nəticədə, 30 yaxın mülki şəxs qətlə yetirilib, 150 nəfər mülki şəxs yaralanmışdı. Acınacaqlı duruma düşən, məğlubiyyəti qaçılmaz olan Ermənistan ordusu Azərbaycan ordusunuz zəfər yürüşünün qarşısını almaq üçüm cəbhə xəttindən xeyli uzaq dinc şəhərlərə, mülki əhaliyə ağır raket zərbələri eydirməkdə davam edirdi. Bir mənalı qeyd etmək lazımdır ki, Ermənistan dövləti Azərbaycan Respublikasına qarşı müharibə cinayətləri törədir, dövlət terroru həyata keçirirdi.

Ermənistan dövlət və onun havadarları müharibənin məlum nəticəsini dəyişdirməyə çalışır, əhali içində panika yaratmağa və dinc sakinlərin öz evlərini tərk etməyə məcbur etməyə çalışırdı. Bəzi beynəlxalq mətbuat orqanları Azərbaycanın Tərtər rayonunu haqlı olaraq “Qafqazın Stalinqradı” adlandırır, əhalinin qorxmazlığına heyranlığını bildirirdilər. Demək olar ki, cəbhə xətdindən kənar dinc Tərtər rayonunda zərər çəkməmiş bir tikili qalmamışdı.

2020-ci il Sentyabrın 27-dən atəşkəs sazişinin imzalandığı noyabrın 10-dək yəni, 44 gün müddətində Ermənistan Tərtər şəhərinə 16 277 raket və top, minaatan mərmisi, 21 ədəd isə qadağan olunmuş “Smerç” raketi atıb.

Ermənistanın Azərbaycana qarşı növbəti xain hücumu nəticəsində Tərtər şəhərində 17 dinc sakin həlak olmuş, 63 dinc sakin isə yaralanıb. Rayon ərazisində olan 102 ictimai yaşayış binasının 83-ü zərər görüb, 2-si isə tamamilə dağılıb. Ümumilikdə, 4004 ailəyə ziyan dəyib. Həmin ailələrdən isə 271-nin evi tamamilə dağılıb. Hətta bir evə ardıcıl olaraq 7 mərmi düşüb. Tərtər əhalisinin nümunəsində Azərbaycan xalqı qəhrəmanlıq, mərdlik, dözümlük, vətənpərvərlik, torpağa bağlılıq, ölçüyə gəlməz dərəcədə yüksək döyüş ruhu və sarılmaz qələbə əzmini nümayiş etdirdi. Əhali dağılmış evlərinin üzərinə üçrəngli Azərbaycan bayrağını taxaraq elə uçuq tikililər arasında yaşayır, doğma torpaqlarını tərk etmədi. Ermənistanın ağır ballistik raket zərbələrinə məruz qalan Azərbaycanın dinc şəhər və rayonlarında əhalinin mərdliyi dünya xristian aləmini çaşdırmışdı. Azərbaycan xalqının qəhrəmanlığı, dözümlüyü hər şey vətən üçün, hər şey qələbə üçün, hər şey Qarabağ üçün istəyi düşmənlərimizi çox qorxutmuşdu. Sözün əsl mənasında Tərtər rayonu ikinci Qarabağ müharibəsində yüksək qəhrəmanlıq nümunəsi göstərərək, ikinci dünya müharibəsində alınmaz qalaya çevrilən sovet Stalinqradın taleyini təkrarladı və “Qafqazın Stalinqradı - Tərtər” kimi tarixə düşdü.

## KTMT üzv Dövlətlərinə Ermənistanın Təşkilatdan xaric edilməsi barədə müraciət edildi

44 günlük Vətən müharibəsi dövründə hər bir vətənpərvər Azərbaycan vətəndaşı gücünü, bilik və bacarığını, maddi və mənəvi dəstəyini qələbəmiz üçün səfərbər etmişdi. Hər kəs öz sahəsində qələbəmizin yaxınlaşmasında əzmlə çalışırdı. Təbii ki, mənim də bir vətəndaş olaraq əlimdən gələni etmək, sözün əsl mənasında, bir başa vətəndaşlıq və mənəvi borcum idi.

Döyüş meydanında müzəffər Azərbaycan Ordusu qarşında sarsıdıcı məğlubiyyətə uğrayan işğalçı Ermənistan respublikasının silahlı qüvvələrinin cəbhə xətindən xeyli uzaq yerləşən Azərbaycanın dinc şəhərlərinə, mülki əhaliyə gecə vaxtında güclü dağıdıcı qüvvəyə malik ballistik raket sistemləri ilə zərbə endirməsi müharibə cinayətləri və insanlıq əleyhinə cinayətdir və sözsüz ki, dinc sakinlərə atəş zərbəsi əmri verən Ermənistanının siyasi-hərbi rəhbərliyi Beynəlxalq Cinayət Məhkəməsinə cəlb edilməlidir.

Ermənistanın belə azğınlaşmasının səbəb sözsüz ki, döyüş meydanında məğlubiyyəti və onun hərbi blok Kollektiv Təhlükəsizlik Təşkilatı Müqaviləsinin (KTMT) üzvü olması idi. Azərbaycana qarşı 30 ilə yaxın işğalçılıq siyasəti aparan Ermənistanın KTMK-na üzv olma səbəbi məhz işğalçılıq siyasətini qorumaq və gücləndirməkdir. Artıq məlumdur ki, Ermənistan müxtəlif provokasiya, manipulyasiyalarla eləcə də, “feke” informasiyalarla Ermənistan-Azərbaycan müharibəsinə üçüncü tərəfi daha doğrusu KTMT-nı cəlb etmək istəyirdi.

Ermənistan KTMK-nın tənzimləyici normalarını kobud şəkildə pozmaqla işğalçılıq siyasəti aparır və nəinki regional sülhə və hətta qlobal müharibə yaratmaq cəhdləri göstərməklə təhlükəli dövlət siyasəti aparırdı.

KTMK müqaviləsinin 1-ci müdəasında "iştirakçı dövlətlər dövlətlərarası münasibətlərdə güc tətbiq etmə və ya güc təhdidindən çəkinmək borcunu təsdiqləyir". Həmin təşkilatın

Nizamnaməsinin 3-cü müddəasında "Təşkilatın məqsədləri sülhü, beynəlxalq və regional təhlükəsizliyi və sabitliyi gücləndirməkdir" - deyə göstərilib. Həmin Nizamnamənin 20-ci maddəsində isə "Üzv bir dövlət bu Nizamnamənin müddəalarına, Şuranın qərarlarına və Təşkilatın digər qurumlarının icrasında qəbul edilmiş qərarlarına əməl etmədikdə, Şura Təşkilat orqanlarının fəaliyyətində iştirakını dayandıra bilər. Üzv Dövlət bu öhdəliklərini yerinə yetirməməyə davam edərsə, Şura həmin Dövlətin Təşkilatdan xaric olmasına qərar verə bilər. Bu məsələdə barəsində belə bir qərarın qəbul edilməsində həmin Dövlətin səsi nəzərə alınmır."

KTMK-nın tənzimləyici normalarından göründüyü kimi, üzv Dövlətlər Ermənistanın davamlı işğalçılıq siyasətinə və regional sülhə təhlükə yaratdığına görə Təşkilatdakı üzvlüyünə xitam verə bilərdi.

Qeyd edilənləri nəzərə alaraq, 20 oktyabr 2020-ci il tarixdə tərəfimdən KTMT-nın rəhbərliyinə, üzv Dövlətlərə, yəni Rusiya, Belarusiya, Qazaxıstan, Qırğızıstan, Tacikistan Prezidentlərinə, eləcə də, həmin dövlətlərin Xarici İşlər Nazirliyinə, Müdafiə Nazirliklərinə və Qanunverici orqanlarına Ermənistanın KTMT-nın üzvlüyündən xaric edilməsi məsələsinin qaldırılması barədə müraciət ünvanladım. Müraciətin ünvanlanması barədə ölkə mətbuatında geniş məlumatlar da verilmişdi. KTMT-dan aldığım cavabda müraciətimin qəbul edildiyi və məsələnin diqqətdə saxlanıldığı qeyd edilmişdi.

## Rus vertolyotunun vurulması, 10 noyabr bəyanatı və rus sülhməramlıları...

Noyabrın 9-da Naxçıvan istiqamətində Azərbaycan Ermənistan dövlət sərhədində Rusiyaya məxsus Mİ-24 vertolyotunun vurulması, Noyabrın 9-dan 10-na keçən gecədə Azərbaycan prezidenti İlham Əliyev, Rusiya prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyan arasında üç tərəfli razı-

laşmanın gecə vaxtında tələsik imzalanması, (Ermənistan prezidenti Armen Sarkisyan həmin gecə bu razılaşmadan xəbərsiz olduğunu və bu razılaşmanın ona mətbuatdan məlum olduğunu bildirib) paralel olaraq, Azərbaycanın vurduğu Rusiya məxsus vertolyota görə üzrxahlığın Rusiya tərəfindən heç nə olmamış kimi, rahatlıqla qəbul etməsi (hansı ki, 24 noyabr 2015-ci il tarixində Türkiyə ilə Suriya sərhədinin yaxınlığında Türkiyə hərbi hava qüvvələrinin F-16 qırıcı təyyarəsi tərəfindən Rusiyanın SU-24 bombardmançı təyyarəsinin vurulması bu iki dövlət arasında münasibətlərin kəskin korlamasına səbəb olmuş, Rusiya Türkiyəyə qarşı iqtisad sanksiyalar tətbiq etmişdi), sözü gedən üç tərəfli razılaşmanın imzalanması ilə Dağlıq Qarabağa Rusiya sülhməramlıların yeridilməsi bir başa əlaqəlidir.

Yeri gəlmişkən, Rusiyalı politoloq Vladislav Şuriqin müsahibəsində Azərbaycanın Şuşanı azad edəndən sonra, Laçın koridoruna nəzarəti əla alandan sonra və bütün Qarabağı mühasirəyə salandan sonra Rusiyaya məxsus Mİ-24 vertolyotunu vurmağına böyük şübhə ilə yanaşdığını bildirib. Oxşar fikri, Rusiyalı tanınmış jurnalist, politoloq Maksim Şevçenko da səsləndirib. O, həmin vertolyotun sərhəd xəttinə, atəş altına gəlməsini "müəmmalı" adlandırıb.

Rusiyalı bir sıra siyasi icmalçıların fikrincə Azərbaycan tərəfindən Rusiyaya məxsus Mİ-24 həmin o vertolyotun vurulmasını ikinci Qarabağ müharibəsinin gedişini dəyişən başlıca səbəbdir. Politoloq Nikolay Starikov Qarabağda gedən müharibə barəsində müsahibəsində bildirir ki, müharibənin gedişində Rusiyanın səsləndirdiyi "qırmızı xətt" məhz sözü gedən vertolyotun vurulması idi. Starikov qeyd edir ki, Rusiyaya məxsus vertolyotun vurulması Rusiyanın Azərbaycan ərazisinə girməsinə və faktiki olaraq orada hərbi baza yaratmasına imkan verib. Politoloq müsahibədə dolayısı bildirir ki, Rusiya vertolyotun vurulmasını Azərbaycana qarşı təhdid kimi istifadə edərək Azərbaycanı fakt qarşısında qoymuş və gecə yarı belə bir razılaşmanın imzalanmasına daha doğrusu, Rusiya ordusunun

Azərbaycan ərazisinə girməyinə nail olmuşdur.

Azərbaycan Qarabağda sülhməramlılar missiyasında Türkiyənin də cəlb edildiyi, Rusiyanın isə bunu inkar etdiyi hal (Rusiya XİN-nin sözçüsü Mariya Zaxarova 10.11.2020 verdiyi açıqlamada kontingentin ancaq Rusiya əsgərlərində ibarət olduğunu bəyan etməsidir) dərin mətləblərdən və qaranlıq məqamlardan xəbər verir. 11.11.2020-ci tarixdə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Rusiya-Türkiyə arasında Dağlıq Qarabağda sülhməramlılarının fəaliyyətinə və atəşkəsə nəzarət mərkəzində prosesdə iştirakı barədə razılaşmanın imzalamasını elan etdi. Sülhməramlılarının ştabının Xankəndində, Türkiyənin iştirakçısı olduğu nəzarət monitorinq Mərkəzinin isə Azərbaycanın azad etdiyi ərazilərdə (Ağdam rayonunda) olacağı barədə məlumat onu deməyə əsas verir ki, ruslar 90-cı ildən arzuladıqları Azərbaycan ərazisində hərbi kontingentə sahib olmaq kimi istəklərini gerçəkləşdirə biliblər.

Sözü gedən razılaşmanın imzalanması Rusiya KİV-də siyasi tok-şou kimi güclü müzakirə olunur və Rusiyanın nəhayət ki, Azərbaycana ordu yeritməyə nail olması Rusiyanın növbəti qələbəsi kimi təqdim edilirdi. Həmişəki kimi, Rusiya siyasi elitası Ermənistana simpatiyasını gizlətmir və "Ermənistanı tam məğlubiyyətdən yenə də ruslar xilas etdi"- deyə car çəkir, Azərbaycanı və Türkiyəni isə hədələyirdilər. Bu arada Putinin məşhur ironiyalı "Rusiyanın sərhədi yoxdur" sitatını tez-tez xatırladırlar.

Rusiya Federasiyası rəsmiləri Azərbaycan ünvanına da təhdidlər edir. Dövlət Dumasının vitse-spikeri Pyotr Tolstoy deyir ki, "Rus sülhməramlısının həyatına təhlükə törədən kimsə olsa, Saakaşvilinin yuxusunda görmədiyi cavabı alacaq. Yəni, keçən dəfə biz Tiflisi götürmədik, ancaq bu dəfə hər şey keçən dəfəkindən xeyli ciddi olacaq." Eyni fikirləri rusiyalı politoloq İvan Konovalov da səsləndirib və deyir ki, Rusiyanın sülhməramlılarına qarşı hər hansı bir təhlükə olarsa, Abxaziya və Osetiyadakı proseslər təkrarlanacaq.

Rusiya generalı Yevqeniy Bujinskiy Qarabağa yerləşdirilən sülhməramlıların əsl həqiqətdə müqavilə əsasında xidmət edən 15-ci briqadanın yüksək döyüş qabiliyyətli desant qüvvəsindən ibarət olduğunu və onların Qarabağda 10 illərlə qalacağını bildirib.

Sözsüz ki, Rusiya həmin vertolyotun vurulmasında özü olduqca maraqlı olub və yaratdığı nəticəni Azərbaycana qarşı şantaj və təhdid kimi istifadə edərək Azərbaycanı fakt qarşısında qoymuş və vaxt itirmədən sülhməramlı adı ilə Azərbaycan ərazisinə daxil olmağa nail olmuşdur. Həmin o vertolyotun vurulmasından bir neçə saat sonra, Türkiyənin iştirakı olmadan, 10 noyabr 2020-ci il tarixli üç tərəfli bəyannamənin gecə vaxtı, təxirə salınmadan imzalanması, sülhməramlı kontingentinin bir neçə saat ərzində Azərbaycan ərazisinə yeridilməsi onu bir mənalı olaraq göstərir ki, rus vertolyotunun vurulması Rusiyanın öz "xidmətinin" nəticəsidir və görünən nəticəyə hesablanan əvvəlcədən hazırlanmış plandır. Rusiya Prezidenti Vladimir Putinin sabiq müşaviri Andrey İllarionov UKRLİFE.TV-yə müsahibəsində eyni qənaətlə çıxış etmişdir.

Qısası, həmin o vertolyotun vurulması Azərbaycanın haqq savaşında, vətən müharibəsinin gedişini dəyişərək yeni siyasi şərait yaratmış oldu, daha doğrusu, Rusiya özü bu şəraiti yaratdı. Rusiyanın həmin o vertolyotun vurulmasını bir başa özünün təşkil etməsi ehtimalı olduqca yüksəkdir və demək olar ki, bu mövzu qapalı mövzu olaraq qalır. Ancaq hadisə barədə Azərbaycan dövlət rəsmiləri mahiyyəti üzrə heç bir açıalama verməmişdir, verilən açıqlamalar isə ancaq publik və diplomatik xarakterli olmuşdur.

Bir məqamı da xatırlasaq "vertolyot" məsələsi daha aydın görünər. Müharibədən 3 gün əvvəl, yəni 23 sentyabr 2020-ci il tarixli Rusiya xarici işlər naziri Serqey Lavrovun Azərbaycan Respublikasının Milli Məclisinin sədri Qafarova ilə Moskva görüşündən sonra səsləndirdiyi işğal edilmiş rayonlarımızdan beşinin azad edilməsi müqabilində bölgəyə Rusiya sülhməramlıla-

rının yeridilməsi təklifini vermişdi. Azərbaycanın bu təklifi qəbul edib-etmədiyinin cavabı Rus vertolyotunun "vurulması" ilə rədd etdiyini göstərdi.

Hal-hazırda görünən də odur ki, Rusiya Qarabağ kartından daha doğrusu, özünün yaratmış olduğu vəziyyətdən uzun müddət istifadə etmək niyyətindədir, bu isə o deməkdir ki, Rusiya Qarabağ məsələsinin tam həllinə həmişəki kimi mane olacaq. Rus sülhməramlılarının Qarabağdan çıxarılması isə rus siyasi elitası tərəfindən regionda Rusiya maraqlarının itirilməsi kimi dəyərləndirildiyindən, mümkün və ağlagəlməz problemlərimizin yaradılması ehtimalı çox yüksək görünür. Bir dəyişməz həqiqət var, Rusiya Azərbaycanın başlıca problemi olaraq qalmaqda davam edir.

## Rusiyanın Qarabağa sülhməramlı yeritməsi hətta öz qanunlarına belə uyğun deyildi

18.11.2020-ci il tarixdə Rusiya Federal Məclisinin Yuxarı Palatası Rusiya Prezidenti Vladimir Putinə Dağlıq Qarabağa Rusiya ordu birləşmələrinin yeridilməsinə razılıq verdi. Prosesdən səkkiz gün sonra bu sənədin ortaya çıxması 10.11.2020-ci il tarixdə Azərbaycan, Rusiya və Ermənistan arsında imzalanmış bəyanata uyğun Rusiya öz sülhməramlılarının Azərbaycana yeridilməsinin qaranlıq məqamların mövcudluğunun əlamətləridir.

Qeyd edim ki, bir gün öncə yəni, 17.11.2020-ci il tarixdə Türkiyə Böyük Millət Məclisinin müvafiq qanununun qəbulundan sonra, Türkiyə silahlı qüvvələri Azərbaycanda Qarabağda sülhməramlı missiyada iştirak etməsinə hüquqi imkan yarandı. Türkiyə BMM-nin qəbul etdiyi müvafiq qanundan sonra Türkiyə öz hərbi kontingentini Azərbaycana, Qarabağa göndərməyə başlası. Bu fakt onu göstərir ki, Türkiyə hüquqi dövlət kimi, həm beynəlxalq, həm də öz daxili qanunları çərçivəsində hərəkət edib. Rusiya isə tam əksinə olaraq, heç bir qanuna əməl

etmədən, Putinin siyasi qərarına əsasən Azərbaycanın Qarabağına ordu yeridib. Bu fakt bir daha sübut edir ki, Rusiya, nəinki, beynəlxalq qanunlara hətta öz daxili qanunlarına belə əməl etməyən, anacaq güc dili ilə davranan dövlətdir.

Türkiyə ilə birlikdə Azərbaycanda Qarabağda eyni sülhməramlı missiyasını yerinə yetirən Rusiya, Türkiyənin Azərbaycana ordu göndərməsindən öncə qanuni proseduralara əməl etməsi Rusiya qarşı müəyyən suallar doğurduğundan Rusiya bir gün sonra yəni, 18.11.2020-ci il tarixdə Federal Məclisinin Yuxarı Palatası arxa tarixdə yəni, 10.11.2020-ci il tarixdə Rusiyanın Qarabağa sülhməramlılarının yeridilməsini qanuniləşdirməyə çalışıb.

Bu vəziyyətin özü də Rusiyanın siyasi ictimai elitasında fikir ayrılığına səbəb olmuş, çoxlu suallar ortaya çıxmışdı. Rusiya prezidentinin sözçüsü Peskov isə Putinin Rusiya silahlı qüvvələrinin Qarabağda istifadə etməsinə Federal Məclisinin Yuxarı Palatasının razılığına ehtiyacın olmadığını bildirmişdi. Vəziyyətlə bağlı Peskovun dedikləri qanuna uyğun idisə onda, Rusiya Federal Məclisinin Yuxarı Palatası Rusiya Prezidenti Vladimir Putinə Dağlıq Qarabağa Rusiya hərbi ordu birləşmələrinin yeridilməsinə arxa tarixə razılıq verməsinin hansı adı var və hansı hüquqi qüvvəyə malikdir?

Yaranmış gülünc vəziyyətə aydınlıq gətirməyə çalışan Rusiya Federal Məclisinin Yuxarı Palatasının konstitusiya qanunvericiliyi və dövlət quruculuğu komitəsinin sədri Andrey Klişas "İnterfaks"a müsahibəsində "Azərbaycan Rusiya vertolyotunu Ermənistanın üzərində vurdu, iki hərbiçimiz öldü. Müdafiə haqqında qanuna və Federal Məclisinin 2009-cu il Qərarına əsasən, prezident Federal Məclisinin razılığı olmadan əməliyyat məsələlərini həll etmək üçün qoşun göndərmək hüququna malikdir." - deyə bildirmişdir. Ancaq, Andrey Klişas bilməmiş deyildi ki, Azərbaycan Rusiyaya məxsus vertolyotu vurandan dərhal sonra, Rusiyadan üzrxahlıq edib, kompensasiya ödəməyə hazır olduğunu bildirib və Rusiya üzrxahlığı qəbul etmişdi. Ona görə də vurulan vertolyotla bağlı heç bir hərbi

əməliyyat hərəkətlərinə ehtiyac qalmamışdı. Bu baxımdan, məsələ ilə bağlı Andrey Klişasın göstərdiyi hüquqi əsas etibarsız olsa da deyilənlər onun sübutudur ki, Rusiya 09.11.2020-ci il tarixdə Azərbaycan sərhədində vurulan həmin o vertolyot məsələsindən Azərbaycana qarşı şantaj, təzyiq kimi istifadə etmiş və Azərbaycanı fakt qarşısında qoyaraq müharibəni dayandırmağa və ən əsası da Azərbaycan ərazisinə rus ordusunu yeritməyə nail olub.

Açıq görünən odur ki, hər iki halda, Rusiyanın Qarabağa sülhməramlılar yeritməsi nəinki beynəlxalq qanunlara eləcə də, Rusiyanın öz qanunlarına belə tam ziddir və Rusiya şantaj, güc dili ilə danışan, işğalçılıq siyasəti aparan və heç bir qanun normasına əməl etməyən, sülh və əmin-amanlıq yaradan yox, konfliktlər yaradan və ondan öz məqsədi üçün istifadə edən ölkədir.

## Rusiya prezidentinə və Rusiya aparıcı mətbuat orqanlarına etiraz ünvanlandı

10 noyabr 2020-ci il tarixli üç tərəfli Azərbaycan, Ermənistan və Rusiyanın imzaladığı bəyanatdan da sonra Rusiya prezidenti Vladimir Putinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsi ətrafında başlanan konfliktlə bağlı bir neçə dəfə hüquqi və tarixi faktlara ziddiyyətli açıqlamalar verdi, belə ki, Putin hər mümkün şəraitdə Qarabağ konfliktinin yaranma səbəbi kimi 1988-ci il Sumqayıt hadisələrini göstərir və bu hadisələrin nəticəsi olaraq ermənilərin silah götürməyə məcbur qaldıqları kimi fikirlər bildirirdi.

Xüsusi ilə qeyd edim ki, Rusiya prezidenti qısa müddət daxilində 22 oktyabr 2020-ci il tarixdə "Valday" Beynəlxalq Diskussiya Klubu, 29 oktyabr 2020-ci il tarixdə "VTB İnvestisiya forumu" çərçivəsində çıxışı zamanı və eləcə də 17 dekabr 2020-ci il mətbuat konfransında 1988-ci il Sumqayıt hadisələrini yanlış və özünə məxsus formada təqdim etmişdir.

20 dekabr 2020-ci il tarixdə Rusiya prezidenti Vladimir Putinə müraciət edərək ona öz etirazımı ünvanladım və

etirazımda 1988-ci il Sumqayıt hadisələri ilə bağlı tarixi və hüquqi faktları, SSRİ dövründə müvafiq cinayət işinin yekunu barədə eləcə də cinayət işini araşdırmış yüksək vəzifəli rus əsilli müstəntiqlərinin xatirələrini, hadisə ilə bağlı digər vacib məlumatları onun diqqətinə çatdırmağa çalışdım.

Əlavə olaraq qeyd edim ki, Sumqayıt hadisələri barədə əsl həqiqətləri Rusiyanın 6 (altı) ən yüksək reytinqli mətbuat orqanlarına "Moskovskiy komsomoleç", "Rossiyskaya qazeta", "Kommersant", "İzvestiya", "Arqumentı i faktı" və "Ekspres qazeta"-ya ünvanladım və Sumqayıt hadisələri ilə bağlı həqiqətlər barədə düzgün və dolğun məlumat verəcəklərinə ümid etdiyimi bildirdim.

Rusiya prezidenti Vladimir Putinin 1988-ci il Sumqayıt hadisələri barədə açıqlamalarına qarşı ünvanladığım etirazıma Rusiya Federasiyası Prezident Administrasiyasından cavab aldım. Həmin № A26-20-И-5456271 saylı cavabda "Rusiya Prezidentinə müraciətiniz qəbul olunub. Verdiyiniz məlumat və fikirləriniz nəzərə alınıb" - deyə göstərilmişdir. Həmçinin, etirazımla bağlı müraciət etdiyim Rusiyanın aparıcı mətbuat orqanlarının isə bəziləri 1988-ci il Sumqayıt hadisələri barədə onlara ünvanladığım məlumatların nəzərə alınacağı barədə cavab verildi.

АДМИНИСТРАЦИЯ ПРЕЗИДЕНТА
РОССИЙСКОЙ ФЕДЕРАЦИИ

**УПРАВЛЕНИЕ
ПРЕЗИДЕНТА РОССИЙСКОЙ ФЕДЕРАЦИИ
ПО РАБОТЕ С ОБРАЩЕНИЯМИ ГРАЖДАН
И ОРГАНИЗАЦИЙ**

ул. Ильинка, д. 23, Москва, Российская Федерация, 103132

ДАДАШОВУ В.П.

iqush72@mail.ru

И-
54562

«21» декабря 2020 г.

№ А26-20-И-5456271

Ваше сообщение на имя Президента Российской Федерации получено.
Информация и высказанное Вами мнение приняты к сведению.

Главный советник департамента
письменных обращений граждан и
организаций

Байло Е.Ю.

## 44 günlük müharibədə din faktoru da oynalındı

27 sentyabr 2020-ci il tarixdən Azərbaycan Ordusunun başladığı hərbi əməliyyatların surəti və qazandığı uğurlar nəinki Ermənistanı və onun havadarlarını çıxılmaz vəziyyətə qoydu. Ermənistan vəziyyətdən çıxış üçün müharibə cinayətləri törədirdi, Ermənistan ərazisindən Azərbaycanın dinc şəhərlərinə nüvə başlığı daşıya bilən ballistik raket zərbələri endirirdi ki, Azərbaycan da Ermənistan ərazisinə cavab atəşi açsın və nəticədə Rusiya başda olmaqla onun üzv olduğu KTMT-nı (Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı) müharibəyə qoşulmaq məcburiyyətində olsun və beləliklə, Azərbaycana qarşı müharibədə bəlli məğlubiyyətinin qarşısını ala bilsin. Ancaq Azərbaycan müdrik davranaraq KTMT-nin müharibədə iştirakına imkan vermədi.

Digər tərəfdən də Ermənistan Azərbaycanla müharibədə din faktorunu da önə çəkməyə çalışırdı və dünyaya Ermənistan-Azərbaycan müharibəsini dinlər arası yəni, xristian-müsəlman qarşıdurması kimi təqdim edirdi. Ermənistan 1988-ci ildən bu yana Qarabağ konfliktinin yarandığı ilk andan din faktorundan istifadə etməklə yaratdığı konflikti öz xeyrinə həll etməyə çalışırdı və 90-cı illərdə Ermənistanın ilk uğurları da məhz bu şəbədən reallaşa bilmişdi.

44 günlük müharibə dövründə Ermənistan yenə də xristiandin təəssübkeşliyinə nail olmağa çalışırdı. Ermənistana bu görünüşün yaranması üçün ən çox Fransa, Rusiya və İran yardımçı idi.

23 oktyabr 2020-cil tarixdə Ermənistan prezidenti Armen Sakisyan Fransada səfəri çərçivəsində prezident Emmanuel Makronla görüşü zamanı davam etməkdə olan Ermənistan Azərbaycan müharibəsini xristian-müsəlman davası kimi təqdim etdi və Fransa mətbuatı ənənəsinə sadiq qalaraq Azərbaycanın öz ərazi bütövlüyü uğrunda başladığı mübarizəni xristian-müsəlman davası kimi daha əzmlə tirajlamağa davam etdi. Bütün müharibə dövründə Rusiya mətbuatı, televiziyası isə kütləvi şəkildə anti Azərbaycan, anti Türkiyə türkəfobiya, islamafobiya təbliğ edir, Ermənistan Azərbaycan müharibəsini Rusiya-Türkiyə, xristian-müsəlman davası kimi təqdim edirdi. Qısası, Rusiya Azərbaycana qarşı ənənəvi siyasətini informasiya meydanında daha sərtləşdirmişdi.

Müsəlman İran dövlətinə məxsus terror təşkilatı "Hizbullah"-ın lideri Həsən Nəsrullahın Qarabağ barədə açıqlamalarının əsl məqsədi Azərbaycanı xristian aləminin hədəfinə çevirmək idi. İran parlamentinin xarici siyasət və milli təhlükəsizlik komitəsinin rəhbəri Müctəba Zönnuri 44 günlük müharibə zamanı Dağlıq Qarabağda İŞİD terrorçuları axtarırdı. Ermənistanın İrandakı səfiri Artaşes Tumanyanla görüşən M. Zönnuri bildirmişdi ki, onun ölkəsi təfrikçilərin terror aktlarının alət kimi istifadəsindən və Suriyadan İŞİD terrorçularının Dağlıq Qarabağa gətirilmə-

sindən narahatdır: **"Son münaqişələrdə Suriyadan göndərilən İŞİD terrorçularının istifadəsinə dair açıqlanan xəbərlər narahatlığa səbəb olur"**, - Zönnuri erməni diplomata belə deyərək Dağlıq Qarabağda Azərbaycan xalqının haqq savaşına kölgə salmağa çalışaraq Qarabağda radikal islamçı terroristlərin vuruşduğu mənzərəsini yaratmağa çalışdı.

**26 fevral 2021-ci il tarixdə Xocalı soyqırımının ildönümü günündə Azərbaycan Prezidenti İlham Əliyevin bu gün yerli və xarici jurnalistlər üçün video formatda keçirdiyi mətbuat konfransında İranın "Mehr" xəbər agentliyinin müxbiri Azərbaycan Prezidentinə "Cənab Prezident, hazırda terrorçuluq beynəlxalq icma üçün böyük bir çağırışdır. Dağlıq Qarabağ müharibəsində terrorçu qrupların iştirakı barədə xəbərlər yayılmışdı və bu da regional ölkələrə təsir göstərib. Hansı kollektiv şəkildə tədbirlər aparılmalıdır ki, bu cür çağırışa cavab verilsin və Azərbaycan Respublikası bu konteksdə hansı tədbirləri atmalıdır?"** sualını verdi.

Prezident əvvəlcə "sualı" aydınlaşıdırmaq istəyib: "Siz terrorçu qruplar barədə "hesabatlar" dedikdə bəzi istinadlar vermisiniz. Siz dəqiqləşdirə bilərsiniz hansı "hesabatlar" barədə danışırsınız?"

Daha sonra Prezident mikrofonun həmin "jurnalist"ə ötürülməsini istəyib.

Jurnalist isə deyib: "Biz bəzi "hesabatlar"da, regional xəbər agentliklərindən bunu eşitmişik. İcazə versəniz, mən onları söyləməzdim".

Daha sonra çıxış edən Prezident İlham Əliyev deyib ki, "sizin "sualınız" bir növ ittihama bənzəyir. Ona görə mən bilmək istəyirəm, hansı "hesabatlar"a istinad edirsiniz? Çünki bəzi hesabatlar sözünü hamı deyə bilər. Siz mənə mənbə verə bilərsiniz? Heç olmasa, bir mənbə".

Jurnalist daha sonra Prezident İlham Əliyevin ona ünvanladığı sualdan boyun qaçıraraq, Prezidentdən növbəti sualına cavab verməyi xahiş edib.

President İlham Əliyev sonra "terrorçu"larla bağlı iran jurnalistinə "…Varmı belə bir məlumat? Xeyr. Ona görə sizə tövsiyəm odur ki, spekulyasiya ilə məşğul olmayın. Dediyim kimi, siz bir xanım olaraq dost ölkədən gəlmisiniz, ona görə də mən mövzunun dərinliyinə getmək istəməzdim. Ancaq xahiş edirəm, belə şayiələr yayarkən daha məsuliyyətli olun."-deyə tövsiyə verdi.

Maraqlı məqam ondadır ki, İranın "Mehr" agentliyinin təsisçisi İslam İdeologiyasını Təbliği Təşkikatıdır (Islamic Ideology Dissemination Organization) hansı ki, Təşkilat mərhum Ruhulla Xomeyninin "İslam mədəniyyətini və ideologiyasını inkişaf etdirmək və təbliğ etmək məqsədi ilə" verdiyi bir fərmanından sonra 22 iyun 1981-ci ildə qurulub və hal-hazırda da birbaşa ali dini rəhbərə tabedir.

Ermənistanın Azərbaycanla arasında müharibəni dinlər arası, xristian-müsəlman davası kimi təbliğatı bu dəfə də müəyyən effekt verdi, Lüksemburq, Niderland, Fransa, Belçika kimi Avropanın xristian ölkələri Azərbaycan əleyhinə qətnamələr qəbul edərək Azərbaycana təzyiq göstərmək istədilər. Ancaq nəticəni dəyişə bilmədilər, Azərbaycanın şanlı qələbəsindən sonra, hətta bəzi ölkələr Azərbaycana qarşı xarici siyasətində korreksiya etməli oldular.

20.11.2020-ci il tarixdə Putinin ermənidən çox erməni kimi özünü göstərən Fransa Prezidenti Makronla telefon danışığından sonra 22.11.2020-ci il tarixdə Fransa prezidenti Makron - "Beynəlxalq hüquqa əsasən Dağlıq Qarabağ və ətraf 7 rayon BMT tərəfindən Azərbaycan ərazisi kimi tanınır" – deyə bəyan etdi. Əlbəttə Putin Makronu belə bir bəyanat verməyə inandırması və bu barədə danışması onun Azərbaycana qarşı sevgisindən irəli gəlmirdi, sadəcə olaraq, Putin Azərbaycanı tam itirməkdən və cənub sərhədlərini anti Rusiya hərbi birləşmələrin təhlükəsindən qorumaq istəyi və Putini narahat edən Qarabağa rus sülhməramlıların yerləşməsi haqqında razılaşmanın pozulması ehtimalı idi.

Müsəlman İran da müharibənin gedişində rəsmi səviyyədə gözləmə mövqeyində idi, ancaq Ermənistana hərbi kəşfiyyat məlumatları ötürürdü, silah, maddi yardım göstərirdi. Azərbaycanın qələbəsi açıq - aşkar bəlli olandan sonra İran rəsmi qaydada Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bildirdi.

04 noyabr 2020-ci il tarixdə yəni, Azərbaycan ordusunun düşmən üzərində qələbəsinin 10 noyabr 2020-ci tarixdə rəsmiləşməsindən beş gün əvvəl İran prezidenti Həsən Ruhani Nazirlər Kabinetinin iclasında "Ərazi bütövlüyünü bərpa etmək Azərbaycanın haqqıdır" –deyə İranın rəsmi mövqeyini bildirdi. 03 Noyabr 2020-ci il tarixdə isə, yəni bir gün əvvəl İranın Ali lideri Seyid Əli Xamenei Ermənistanın işğal etdiyi Azərbaycanın bütün ərazilərinin Azərbaycana qaytarılmasının vacibliyini dilə gətirdi. İran sonadək gözləyərək Ermənistan Azərbaycan müharibəsində vəziyyətin Ermənistanın xeyrinə dəyişəcəyinə ümid edir və Ermənistana mümkün hər bir köməkliyi ən yüksək səviyyədə edirdi.

***44 günlük müharibə bir daha onu sübut etdi ki, siyasi məqsədlərə çatmaq üçün bütün mümkün vasitələr olduğu kimi, din faktoru da bir siyasi alət kimi istifadə edilir. Ermənistan işğalçılıq niyyətini gerçəkləşdirmək üçün din faktorundan da yararlanmağa çalışırdı, insanların dini inancı siyasi məqsədlər üçün manipulyasiya edir.***

## Azərbaycan əsgərinin qəhrəmanlığı
## Şuşa zəfəri

Bütün Azərbaycanın incisi, Qarabağın ruhu Şuşanın işğaldan azad edilməsi dünya hərb tarixinin ən mükəmməl əməliyyatlarından biri kimi tarixə Azərbaycan xalqının və ordusunun yüksək peşəkarlığı, qəhrəmanlığı kimi qızıl hərflərlə yazılan fəxr dastanı olaraq əbədiləşdi. Ən mürəkkəb relyef şəraitində, sıldırım qayalara dırmaşaraq yüngül silahlarla və əlbəyaxa döyüşlərlə Şuşa şəhərinin azad edilməsi düşmənə vurulan ən böyük

zərbə idi. Şuşanın azad edilməsi həm də, ikinci Qarabağ müharibəsinin nəticəsini müəyyənləşdirdi. Məhz, bu səbəbdən də Şuşanın azad edilməsi tarixi yəni, 8 noyabr Azərbaycan Respublikasında Zəfər Günü kimi təsis edilib.

İkinci Qarabağ müharibəsində Azərbaycan əsgərinin qəhrəmanlığı dünya mətbuatında da geniş işıqlandırılırdı baxmayaraq ki, əsgərlərimizin göstərdiyi igidlik bəzi xarici ölkə mətbuatında qısqanclıqla da olsa baş vermiş fakt kimi verilirdi.

Fransanın **"Le Monde"** nəşri "Azərbaycan Ordusu erməniləri Şuşada pərən-pərən saldı" adlı yazıda "Azərbaycanlılar Şuşaya çatıblar, küçələrdə kalaşnikovlarla döyüşlər gedir", bunu Xankəndində əlillər üçün arabada oturmaqdan imtina edən və ayağından yaralanan, bağırmamaq üçün çənəsini tutmuş əsgər deyir. Bu yaralı əsgərin ətrafında xaos hökm sürür. Bu ərəfədə sırf güllə ilə yaralanmış 7 nəfəri gətirən yük maşını gəlir. Düzdür bomba zərbələri çox şiddətlidir, lakin yaralıların halı göstərir ki, əsasən qısa məsafəli üzbəüz döyüşlər gedir"– deyə qeyd edib. Nəşr sonra yazır ki, "Şuşadan gətirilən yaralı erməni hərbiçilər əsasən tapança və bıçaq yaraları ilə gətirilir."

**"New York Times" media orqanının rusiyalı müxbiri Anton Troyanovski cəbhədəki erməni hərbçilərdən müsahibə götürüb.** Müxbir yazır ki, Qarabağdakı döyüşlərdən danışan Tiqran Saakyan Anton Troyanovskiyə verdiyi müsahibəsində Azərbaycan Ordusu ilə mübarizə apara bilməyəcəklərini deyib: "O qədər sürətli hücum edirlər ki, onlarla mübarizə apara bilmirik. Demirəm ki, biz qorxmuruq, hamımız qorxuruq. Döyüş meydanından qaçmırlar. Birini vurursan, ikisini vurursan, üçünü vurursan, dayanmırlar yenə gəlməyə davam edirlər. Üstümüzə robot kimi gəlirlər"

**Almaniyalı hərbi ekspert Ulrike Franke** deyib: **"Azərbaycan İkinci Qarabağ müharibəsi ilə hərb tarixində ilkə imza atdı. Ənənəvi artilleriya hücumu ilə yanaşı, ilk dəfə İsrail və Türkiyə istehsalı olan pilotsuz uçuş aparatları – dronlardan istifadə etdi."** O, bildirib ki, Ermənistanla Azərbaycan arasında

baş verən İkinci Qarabağ müharibəsi tarixdə dronla qazanılmış ilk müharibədir: “Ermənistan döyüşdə ənənəvi artilleriyadan istifadə etdi. Azərbaycan isə, bir ilkə imza atdı. Təbii ki, Ermənistan bunu heç gözləmirdi. Təsəvvür edin, artilleriya qurğularını bir yerə toplayırsınız, hücum etməyə hazırlaşarkən qəfil başınızın üstündə bir dron peyda olur. Bir atışla bütün texnika və şəxsi heyət məhv olur”. Hərbi ekspert vurğulayıb ki, Azərbaycan Ordusunun şəxsi heyətinin Şuşa şəhərini işğaldan azad etmə əməliyyatı da indiyə kimi bir çox hərbi ekspertləri təəccüblənirir. “Bildiyiniz kimi, Şuşa olduqca strateji yerdə yerləşir, ərazi dağlıqdır. Şuşa əməliyyatı zamanı dumanlı hava dronların uçuşuna mane olmuşdu. Azərbaycan Ordusu xüsusi təyinatlılarının hesabına Şuşanı küçə döyüşü ilə geri aldı”, - hərbi ekspert vurğulayıb.

Rusiya mediası isə yazırdı: “Belə döyüş, dövlət, vətən sevgisi görən olubmu, demək çətindir?! Dağ yuxarı, şəhidi çiynində, döyüşə-döyüşə qan, tər içində qalxırdı Azərbaycan ordusu. Nə yaralını, nə şəhidi əldən buraxırdılar. Nəfəs almadan Şuşaya çıxdılar…” **Hərbi ekspert Aleksey Arestoviç** əlavə edir: “Azərbaycan Şuşanı azad etdi. Piyada döyüşləri ilə, sursatları üstündə daşıya-daşıya, duman altında, pis hava şəraitində dağları yararaq qaytardı. Rusiya mətbuatına müsahibə verən erməni əsgərlərdən biri azərbaycanlı döyüşçülərin yaylım atəşindən də qorxmadıqlarını bildirib: "Mən topçu kimi xidmət göstərirdim. Vəzifəm hədəfə olan məsafəni, koordinatları təyin etmək idi. Elə təəssürat yaranırdı ki, sanki dəniz dalğası ilə döyüşürük. 400 nəfərdən ibarət kolonu görüb atəş açırdıq. Amma onların ardınca iki dəfə çox qüvvə gəlirdi. Əsgərin çiyninə güllə dəyir, o isə bunu hiss etmir. Terminator kimi üzərinə gəlməkdə davam edir. Əlbəttə, bu cür qüvvəyə qarşı tab gətirmək mümkün deyil".

Fransadan könüllü olaraq Qarabağa gəlmiş erməni döyüşçünün döyüş xatirələrini **"Yerevan Today"**na kanalına danışıb. "Ən böyük qorxumuz dron və PUA - lar idi. PUA - ın səsini

eşitdinsə artıq ölmüsən. Onlardan qaçış mümkünsüzdür. Vızıltı eşitdinsə demək artıq nişangahdasan və nə etsən də, hara qaçsan da ölümdən qurtuluşun yoxdur. Onlar ən çox gecələr, dumanlı və çiskinli havalarda gəlirdilər. Əsgərlər səngərlərin qarşısına kartof çipsisi tökürdülər ki, onlar gələndə xışıltıdan bilsinlər. Onların gəlişi sanki ölüm mələyinin gəlişi kimiydi. 3 - 4 nəfərlə gəlib, səngərdəki silahlanmış 20 - 30 erməni əsgərini öldürərək, gəldikləri kimi də yoxa çıxırdılar. Gecələr ova çıxmış ac canavara bənzədirdik biz onları.

Bir az real çıxmasa da, bəzən düşünürdük ki, onlar, ümumiyyətlə, insan deyillər. Bəlkə də, ya zombi ya da robotuydular. Üstümüzə gələndə pulemyotla vururduq, yıxılırdılar, bir az yerdə eşələnib sonra yenə qalxıb üstümüzə şığıyırdılar. Hətta özüm dəfələrlə şahidi olmuşam ki, bu gün öldürdüyümüz əsgər sabah dirilərək yenə üstümüzə gəlirdi. Deyirlər ki, 1500 erməni əsgəri 5 - 6 Azərbaycan əsgərinin qarşısından qaçdı. Bəli, qaçırdıq. Çünki qaçmasaydın ölümün mütləqiydi. Yenə deyirəm, onlar insan deyildilər. Nəsə ölümsüz bir şeydilər. Öldürmək olmurdu, vurduqca yıxılıb, yenidən qalxırdılar.

Şuşa döyüşləri daha dəhşətliydi. Biz onları yoldan gözləyirdik, amma bir də ayıldıq ki, onlar artıq canavar sürüyə girən kimi içimizə giriblər, həm də yalın əllə. Çox dəhşətli bir döyüş idi. Erməni əsgərlərini dişləriylə parçalayırdılar. Xankəndinə gətirilən meyitlərin əksəriyyətinin boyunlarındakı şah damarları dişlə qoparılmışdı. İnsan bunu edə bilərmi? Əlbətdəki yox. Bunu ancaq zombilər edə bilər. Deyirlər ki, Arçaxı azad etmək üçün yenidən müharibə edəcəyik. Bu zombiləri görən əsgər ya zabit bir daha Arçaxda döyüşmək istəməz."

Erməni ordusunun döyüşçüsü Arman Qaranyanın Rusiyanın **RİA Novosti**-yə dedikləri : "Döyüşlərdən sağ çıxan dostlarımdan soruşun onlar da sizə deyəcək. Yaxın məsafədə gedən döyüşlərdə Azərbaycan Xüsusi Təyinatlılarını pulemyotla çiynindən vururduq, onlar terminator kimi irəliləməyə davam edirdilər. Onlar sanki robot idilər. Belə mübarizə olmaz ...” Erməni əsgər

davam edir: “Təxminən 400 əsgərlə hücuma keçmişdilər, vurduq, ardınca ikiqat, üçqat gücl gəldilər. Bir ölənin yerini ikisi, üçü tuturdu. Güllə vururduq, sanki ağrı hiss etmirdilər, “zombi” kimi üstümüzə gəlirdilər... Azərbaycan əsgərləri qanları axa-axa, şəhidlərini çiyinlərinə alaraq qayaları dırmaşıb, Şuşaya girdilər...”

ABŞ Ordusu Qərargahı nəzdindəki institutda şöbə müdiri işləmiş, hərbi ekspert **Con Spenser** Azərbaycan hərbçilərinə cəsarətli deyib, Şuşanın azad edilməsini isə unikal hərbi əməliyyat adlandırıb. “Şuşa klassik müharibə üsulu ilə azad edilməyib, orada dronlar və digər uçan aparatlar olmayıb, hansı ki, Şuşa hündür sıldırım qayalılar üzərində yerləşir və oranı fəth etmək olduqca çətindir. Ancaq Azərbaycan hərbiçiləri qeyri-adi üsuldan istifadə edərək şəhərin müdafiəsini qırdılar və bu cadugər bir tarixdir. Cüzi ehtiyyatla piyada hərəkət edən, kiçik qruplardan ibarət, təxminən 400 Azərbaycan xüsusi təyinatlıları qayalara dırmaşaraq şəhərin ətrafında mövqe tuturlar. Ancaq xüsusi təyinatlılardan istifadə etməklə şəhərin azad edilməsinə verilmiş qərar heyrətləndiricidir. Bu Azərbaycanın yaxşı düşünülmüş əməliyyatı idi. Əsgərlər heç bir müasir texnologiyadan istifadə etmədən səssiz-səmirsiz dağlara çıxaraq gizlicə şəhərə daxil ola biliblər. Mən çoxlu ekspertlərlə bu barədə müzakirələr aparmışam və hamısı da birmənalı olaraq qeyd edirlər ki, ağır silahlarla qayalara dırmaşmaq mümkün deyildi. Amma Azərbaycan xüsusi təyinatlıları şəhərə şimaldan başqa üç istiqamətdə daxil olublar. Mən şəxsən Şuşaya səfər etmək istəyirəm və görmək istəyirəm ki, əsgərlər buna necə nail olublar. Onların qəhrəmanlığı böyük ehtirama layiqdir. Şuşanı müdafiə etmək üçün ermənilərin şəhərdə böyük hərbi qüvvəsi var idi, onların ciddi hərbi texnikası, tankı, artilleriyası var idi. Digər tərəfdən də ermənilərin üstünlüyü havanın dumanlı olması idi və hansı ki, azərbaycanlılara PUA-dan istifadə etməyə imkan vermirdi. Orada döyüş həyat üçün yox, ölümcül idi. Əgər üçtərəfli bəyanat imzalanmasaydı Xankəndi 2 günə təslim

olacaqdı.”- deyə Con Spenser bildirib.

Ermənistanın baş naziri **Nikol Paşinyan** öz açıqlamasında bildirdi ki, Şuşaya ilk olaraq 50 nəfər Azərbaycan əsgəri girib, sonradan məlum oldu ki, Paşinyanın dediyi həmin o 50 nəfər əsgərin sayı 33 nəfər olub və yaxın məsafədən erməni əsgərlərinə dəhşət yaşadaraq tapança və bıçaqdan istifadə edərək şəhərin azad edilməsinə başlanılıb. Yeri gəlmişkən Fransanın **“Le Monde”** nəşrinin qeyd edib ki, Azərbaycan əsgərləri Şuşa şəhərinə 6 noyabrda daxil olaraq küçə döyüşləri aparıblar.

Bütün döyüş müddətində Azərbaycan əsgərləri Ermənistan əsgərlərində idarə olunmaz elə bir qorxu hissi yaratmışdı ki, bütöv hərbi hissələr fərarilik edirdi. Baş nazir Nikol Paşinyan 10 fevral 2021-ci il tarixdə Ermənistan parlamentində çıxışı zamanı 10 mindən çox fərarinin olduğunu etiraf etdi. Erməni general **Levon Stepanyan** da 10 mindən çox erməni əsgər fərarilik etdiyini bildirmişdi.

Yeri gəlmişkən, erməni bloqer **Roman Baqdasaryan** 44 günlük müharibə zamanı qadın paltarları geyərək, başlarına parik keçirib, dodaqlarına boya yaxıb, sinə taxıb döyüşlərdən qaçan 11 ermənінin Ermənistan ərazisində tutulduğunu bildirib. Bloqer Baqdasaryan həmçinin qeyd edib: “Qarabağdakı erməni kişilər ölü əsgərlərlə dolu olan maşınlara minərək cəsədlərin arasında gizlənirdilər”

Ermənistan Müdafiə nazirliyinin baş inspektoru, general Mases Akopyan öz açıqlamasında bildirdi ki Ermənistan silahlı qüvvələri Azərbaycana qarşı dövrümüzün ən dəhşətli silahından biri, nüvə başlığı daşıya bilən “İsgəndər” raket kompleksindən istifadə edib. Məlumat nəinki dünyanı hətta Ermənistanın özündə şok effekti yaratmış oldu. Ermənistanın siyasi-hərbi rəhbərliyi dərhal generalı vətən xainliyində günahlanıdıraraq barəsində cinayət işi açıldı. Ardınca Ermənistan Adekvat Partiyasının liderlərindən biri Artur Danielyan noyabr ayının 7-si saat 9:00-da Azərbaycanın faktiki azad etdiyi Şuşa şəhərinə Ermənistan ərazisindən “İsgəndər” raketləri ilə vurulmasını dilə

gətirərək müvafiq video görüntüləri təqdim etdi.

Britaniyanın **"Middle East Eye"** nəşrinin məlumatı sensasiyaya səbəb oldu. Nəşr yazır ki, ötən il noyabrın 9-dan 10-una keçən gecə, təxminən 1 radələrində Ermənistan Bakıya “İsgəndər” raketini atıb, lakin Azərbaycanın hərbi arsenalında olan, İsrailin istehsal etdiyi “Barak-8” raketdən müdafiə sistemi sayəsində raketi zərərsizləşdirib və “İsgəndər” raketi vurularaq Xırdalan şəhəri ərazisinə düşüb, hansı ki, yerli əhali Xırdalan ərazisində güclü partlayışın canlı şahidi olub. Məqalədə qeyd edilib ki, II Qarabağ müharibəsinin son saatlarında Rusiya Ermənistanı Azərbaycana “İskəndər” raketi atmağa təhrik edib. Digər tərəfdən, Bakıya atılan “İsgəndər” raketinin texniki göstəriciləri çox mətləblərin üstünü açır belə ki, Ermənistana verilən “İsgəndər E” raketin uçuş məsafəsi 250 km-dir və təbii ki, Ermənistandan Bakıya çatdırması mümkünsüzdür. Ancaq, Rusiyanın Ermənistanda hərbi bazasında öz istifadəsində olan “İsgəndər M” raketinin uçuş məsafəsi 500 km-ə yaxındır və təbii ki, Ermənistandan Bakıya atılan raket “İsgəndər M” modelidir. Bu texniki göstərici isə onu sübut edir ki, Bakıya atılan Rusiya ordusunun öz arsenalında olan “İsgəndər M” raketidir hansı ki, “Barak-8”lə Azərbaycan ordusu tərəfindən məhv edilib. Məsələnin bir maraqlı tərəfi də odur ki, Ermənistanın Bakıya “İsgəndər” raketini atdığı anda Rusiya prezidenti Vladimir Putinin vasitəçiliyi ilə 10 noyabr 2020-ci il tarixli üç tərəfli Bəyanatın imzalanması prosesi gedirdi.

Ermənistan televiziyasına müsahibəsində ölkənin sabiq prezidenti **Serj Sarkisyan**: **“Ötən il Qarabağ müharibəsinin sonlarına yaxın Ermənistan ordusu Şuşaya “İskəndər” raketi ilə zərbə endirib. Ermənistan həmçinin Gəncə şəhərində mülki binalara zərbə endirib”- deyə bildirib.** Ermənistanın hazırkı baş naziri **Nikol Paşinyan** isə erməni 24 fevral 2021-ci il tarixdə KİV-lərinə müsahibəsində Serj Sarkisyana cavab verib. Etiraf edib ki, bəli, Ermənistan Azərbaycana qarşı "İskəndər" raketindən istifadə edib, lakin

raket partlamayıb. Paşinyanın bu etirafı az qala dövlət çevrilişi ilə nəticələnmişdi.

Sonradan əldə edilmiş digər məlumat və faktlar isə "İsgəndər" operativ-taktiki raketlərin ruslar tərəfindən Şuşa şəhərinə atıldığını göstərir. Belə ki, ANAMA Şuşa şəhərində dörd ayrı-ayrı yerlərdə "İsgəndər" raketinin qalıqlarını aşkar etdi. Raketlərin Ermənistan ordusunun ixtiyarında olan "E" indeksli modelə deyil, məhz Rusiya Silahlı Qüvvələrinin istifadə etdiyi "M" modifikasiyasına aid olduğu üzə çıxdı. Bu iki növ raket arasında fərqi ondadır ki, "E" versiyasının məhz ixrac üçün, Şuşada qalıqları tapılan "İsgəndər"lərin üzərindəki "M" nişanları isə Rusiyanın özü üçün nəzərdə tutulub. Bu fakt isə onu deməyə əsas verir ki, Şuşaya atılan "İsgəndər"lər Rusiyanın Gümrüdəki 102-ci Rusiya hərbi bazasından atılıb. Elə rusiyalı hərbi ekspert Viktor Litovkin də açıqlamasında: **"Qarabağ müharibəsi zamanı "İsgəndər" raketləri Dağlıq Qarabağdan deyil, Ermənistan ərazisindən Azərbaycandakı hədəflərə atılıb" - deyə bildirib.**

Şuşaya atılan "İsgəndər" raketlərinin bəzilərinin partlamadığı faktı da foto video görüntülərlə təsdiqlənir. Bu isə o deməkdir ki, Paşinyanın "İsgəndər" raketləri haqqında dediyi "partlamadı" ifadəsi həqiqətdir. Yeri gəlmişkən, Şuşa şəhərində aşkar edilən "İsgəndər" raketlərinin qalıqları Gəncə, Mingəçevir şəhərinə, Xızı rayonuna atılan raket qalıqları ilə eynilik təşkil etməsi və eləcə də dağıdıcı masştabı deməyə əsas verir ki, Gəncəyə Mingəçevirə, Xızıya da rusların özünün istifadəsində olan "İsgəndər-M" raketləri atılıb. "İsgəndər M" raket kompleksləri Ermənistan ordusunun arsenalında yoxdur və hətta Ermənistan ordusunda "İsgəndər" raket komplekslərindən istifadə edə biləcək erməni hərbçiləri və mütəxəssisləri də yoxdur. Bu isə "İsgəndər"lərin Azərbaycan şəhərlərinə ruslar tərəfindən atıldığını deməyə əsas verir.

Azərbaycan Prezidenti İlham Əliyev 2021-ci il aprelin 12-də Bakıda Hərbi Qənimətlər Parkının açılışında iştirak edərkən

Şuşaya atılan "İsgəndər-M" raketlərinin həmin parkda nümayiş etdirilən qalıqları önündə: **"Şuşanı bax bu "İsgəndər-M" raketləri ilə ermənilər atəşə tutmuşdular. Hardandır bu raketlər Ermənistan ordusunda? Bu raketlər olmamalı idi. Artıq bu, əyani sübutdur. Ermənistanın hərbi cinayətinin sübutudur və biz cavab istəyirik. Bu ölümcül silah Ermənistanın əlinə necə düşdü? Hələ ki, cavab ala bilməmişik. Amma alacağıq. Hər kəs gəlsin, görsün"**- deyə bildirdi. Bir gün sonra yəni, 13 apreldə **İ**lham Əliyev ADA Universitetində keçirilən "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı konfransdakı çıxışında: **"Azərbaycan xalqı hər şeyi bilməlidir. Biz Rusiya Prezidenti Vladimir Putinlə İsgəndər-M raketi ilə bağlı məsələni müzakirə etmişik. Mənim tapşırığımla Azərbaycan Müdafiə Nazirliyi fotolarla birlikdə sübutların olduğu rəsmi məktub göndərib. Lakin hələlik biz heç bir cavab almamışıq."- deyə bildirdi. Artıq Azərbaycan şəhərlərinin Rusiyanın öz istifadəsində olan "İsgəndər-M" raketləri ilə vurulması və Rusiyanın bu işdə bir başa iştirakı təkzib olunmazdır. Bütün faktlar təkrar-təkrar onu sübut edir ki, bütün dövrlərdə Azərbaycana erməni sifəti ilə təcavüz edən məhz Rusiyadır.**

**Rusiyanın "Dojd" kanalında yayımlanan verlişlərin birində Rusiya hakimiyyətinin ən əsas təbliğatçılarından biri, Vladimir Solovyovun Ukrayna-Rusiya qarşıdurması barədə dedikləri səsləndirilib. Vladimir Solovyov çıxışında Ukraynanın təkcə Donbasa, Krıma deyil, ölkənin dərinliklərinə, hətta Kiyevə raket zərbəsinin endirilməsini, eləcədə Kiyevin işğalını təklif edir və bu zaman Rusiyanın Suriyada və Qarabağ müharibəsindəki təcrübəsinə istinad edir: "yox, bu artıq Suriyanın, Qarabağın ardınca növbəti variant olacaq. Bu Ukraynanın dərinliklərindəki infrastruktur, toplaşma yerləri və həyati əhəmiyyətli obyektlərə raket bomba zərbələrinin endirilməsinin mümkünlüyüdür..." -**

deyə bildirir. Göründüyü kimi, Kreml hakimiyyətinin əsas təbliğatçısı Vladimir Solovyov etiraf edir ki, bəli, Rusiya Suriyadakı kimi Azərbaycanın dərinliklərindəki şəhərlərinə də raket zərbələri endirib.

Rusiyanın, Ermənistanın hansı silahdan istifadə etməsinə baxmayaraq Azərbaycan əsgəri dastanlara çevrilən elə bir qəhrəmanlıq nümunəsi göstərərdi ki, şanlı tariximizi canlandıraraq dünyaya kim olduğumuzu xatırlatdı, vətənpərvərliyin, igidliyin, qorxmazlığın ən yüksək səviyyəsini göstərdi, dünyanı özünə heyran etdi. Bu arada bir faktı da xatırlatmaq yerinə düşər. Sözsüz və şübhəsiz, Ermənistanın 90-cı illərdəki uğurları məhz Rusiya faktoruna bağlıdır. Ermənistanın 1990-cı illərdə Baş naziri olmuş Qrant Baqratyan Qarabağ müharibəsi haqqında açıqlama verib. O, Dağlıq Qarabağı Rusiyanın dəstəyi ilə işğal etdiklərini söyləyib. Bildirib ki, Rusiyanın Baş naziri **Yeqor Qaydar** olmasaydı, Qarabağ indi ermənilərin əlində olmazdı. Qrant Baqratyan bunları Ermənistan televiziyasının "Profile" proqramına müsahibəsində danışıb.

Yeri gəlmişkən, 2021-ci ildə **"Europamapas"** sorğu mərkəzi Avropa dövlətləri arasında ən vətənpərvər əhalisi olan ölkələrin siyahısını müəyyən edib.

Hazırlanan infoqrafikada Azərbaycan əhalisi öz vətəni uğrunda döyüşməyə hər an hazır olan Avropa ölkələri arasında ilk sırada qərarlaşıb.

## Müttəfiqlik haqqında Şuşa Bəyannaməsi

İşğaldan azad etdiyimiz doğma Qarabağımıza səfər edən ilk dövlət başçısı qardaş Türkiyənin Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan oldu. 2021-ci il 15 iyunda, nəhayət, ümid və səbirsizliklə gözlədiklərimiz reallaşdı. Bu an bizlərə sevinc, həyəcan dolu hislər yaşatdı, iki qardaş xalq arasında növbəti yüzilliyin tarixi hadisəsi bu iki qardaş dövləti rəsmi şəkildə bir-birinə bağladı. Əhəmiyyətinin, vacibliyinin sözlə ifadəsi o qədər də

asan olmayan bu tarixi hadisənin şahidləri olmağımız da, mənfur düşmən üzərində qələbəmiz kimi möhtəşəmdir. Bu həm də bizim xoşbəxtliyimizdir.

Səfər zamanı Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşündən sonra "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" imzalandı.

Azərbaycan və Türkiyə arasında Müttəfiqlik Münasibətləri haqqında Şuşa Bəyannaməsində tarixi Qars bəyannaməsinə istinad edilir.

1. Türkiyənin Qarabağda Azərbaycanın müttəfiqi olması rəsmiləşdi;

2. Türkiyə Naxçıvanla yanaşı, bundan sonra Qarabağın da təhlükəsizliyinin rəsmi qarantıdır;

Şuşada imzalanan sənəd faşist Rusiyasının Azərbaycanda və regionda maraqlarına çox ağır zərbədir.

ŞUŞA bəyannaməsinin əsas müddəası:

"Tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, birgə məsləhətləşmələr aparılması, bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirilməsi, BMT Nizamnaməsinə uyğun olaraq bir-birinə lazımi yardım göstərməsi, Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyətinin təşkili nəzərdə tutulur".

Qısası, Türkiyə və Azərbaycan bir-birlərinin təhlükəsizliyinə eyni dərəcədə məsuliyyətli və borcludur.

Şuşa bəyannaməsini imzalayan Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan bir müddət sonra Azərbaycan ərazisində Türkiyə hərbi bazasının yerləşdirilməsini mümkün olduğunu deyib.

Qələbəmiz, uğurlarımız dostlarımızı sevindirir, düşmənlərimizi məyus edir.

Rusiya Prezidenti Vladimir Putinin sözçüsü Dmitri Peskov Türkiyə hərbi bazalarının Azərbaycanda qurula biləcəyi haqda xəbərləri diqqətlə izlədiklərini və Moskvanın öz milli təhlükəsizliyini təmin etmək üçün tədbirlər görməsinə səbəb olacağını deyib. Peskov "NATO ölkələrinin Rusiya sərhədləri yaxınlığında hərbi infrastrukturunun yaradılması Moskvanın xüsusi diqqət göstərməsi və milli təminat üçün addımlar atmasına səbəbdir"- deyə hədə-qorxu gəlib. Bəli, Şuşada imzalanan sənəd Rusiyasının Azərbaycanda və regionda işğalçılıq maraqlarına çox ağır zərbədir. Türkiyə ilə Azərbaycan arasında müttəfiqlik bəyannaməsinə ilk rəsmi neqativ reaksiya verən, məhz, Rusiya oldu.

## İlham Əliyev rəqiblərini necə üstələdi?

“Təbii ki, hər bir müharibənin yekun nəticəsinin ən vacib şərti müharibə aparan ölkənin Ali Baş Komandanının hərbi siyasi qərarlarıdır. Ölkənin müharibəyə hazırlanması, müharibə şəraitində idarə olunması, mümkün proseslərin variantının hesablanması, siyasi nəticələr, iqtisadi potensial, informasiya və ən nəhayət ordu və hərb mexanizminin təşkili ağır, yüksək peşəkarlıq, siyasi iradə tələb edən olduqca böyük məsuliyyətli, ölüm-qalım məsələsidir. Müharibələrin xalqların və dövlətlərin taleyində nə qədər vacib və gərəkli prosesin olduğu barədə 2019-cu ildə çap olunmuş “Mənim düşüncəm” adlı kitabımda yazmışam. Ümumiyyətlə müharibə aparan dövlətin Ali Baş Komandanın bütün mümkün nəticələri, siyasi prosesləri hesabladıqdan sonra gəldiyi düzgün qənaətə əsasən müharibəyə başlamaq əmrinin verməsi artıq qələbənin yarısına bərabərdir.

Sözsüz ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan işğal edilmiş ərazilərimizin azad edilməsi prosesinə xeyli əvvəl başlamışdı. Bu gün ki gün əldə etdiyimiz zəfər həmin o uzun illərin hazırlıqlarının nəticəsi və bəhrəsi idi.

Türkiyənin keçmiş baş naziri Binəli Yıldırım "Milli Məclis" jurnalına müsahibəsində: **"Odur ki, kimsənin qalxıb "bu zonada qəfil bir münaqişə başladı, Azərbaycan ordusu da öhdəsindən gəldi''**, - söyləməsi doğru olmazdı", - deyə bildirib. B.Yıldırım əlavə edib ki, geriyə baxaraq, ən azı 5-10 illik hazırlıq prosesini, doğru strateji qərarları sezmək önəmlidir.

Sabiq baş nazir qeyd edib ki, bu dövrdə Azərbaycan əsgərləri güclü təlimlər keçdilər və ordu möhtəşəm şəkildə təchiz edildi. Ancaq şəxsi qənaətimə görə İlham Əliyev Azərbaycanın işğal olunmuş ərazilərinin azad edilməsi prosesinə 2000-ci illərdən hazırlaşırdı. Bunun sübutu kimi Ermənistanın keçmiş prezidenti Robert Koçaryann Dağlıq Qarabağ konfliktinin həlli ətrafında Azərbaycanın mərhum prezidenti Heydər Əliyev ilə danışıqlar prosesi haqqında 2003-cü ilə çap olunmuş "Həyat və azadlıq" kitabındakı xatirələri yetərlidir.

İlham Əliyev hakimiyyətə gələndən sonra uzun müddətli nəticələrə hesablanmış siyasi gedişlərini edirdi. İlk baxışdan Azərbaycanın asılı mövqeyi kimi görsənən proseslərin nəticəsi qarşı tərəfi rahat salırdı və qarşı tərəf daha doğrusu, Rusiyanın Azərbaycanda hər şeyi nəzarətdə saxladığı illüziyasını qoruyurdu. İlham Əliyev qarşı rəqib tərəf üçün elə bir mənzərə yaratmışdı ki, həmin o mənzərə Rusiyanı və Ermənistanı aldatmışdı. Söhbət, məhz, Azərbaycanın hərbi imkanlarından gedir.

Azərbaycan prezidentinin rəqibləri üçün, onları rahatlaşdıran, gözlənilməz və hesablanması mümkünsüz olan gedişlər etmişdi hansı ki, 44 günlük müharibədə qələbənin əsas şərtlərinə çevrildi. İlham Əliyev elə bir situasiya və mənzərə yaratmışdı ki, Rusiya və Ermənistan Azərbaycanının bütün hərbi imkanlarından məlumatlı olduqlarını, müharibə şəraitində vəziyyətə tam nəzarət edəcəkləri illüziyasına əmin idi. Rusiya və Ermənistanın illüziyası əsasən aşağıda qeyd etdiyim mənzərəyə görə idi:

- İlham Əliyev uzun müddətli dövrdə müharibəyə hazırlaşdığını və müharibəni çox milyardlıq müqavilələr əsnasında

aldığı rus silahları ilə aparacağını göstərirdi. Rusiya və Putin başda olmaqla rus silahlarının necə uzaqdan idarə edə biləcəklərini, texniki göstəricilərini, imkanlarını bilirdi və Azərbaycanın müharibə aparacağı o silahlara hesab götürmüşdü. Rauf Atakişiyevin təyyarəsinin "kor" edilməsi həmin o rus "hesab-nəzarətin" bir nümunəsi və yoxlanması idi. Müharibə öncəsi Gəncədə Türkiyəyə məxsus 10 ədəd F-16 qırıcı təyyarələrin yerləşdirilməsi rus təyyarələrinə "etibarın" göstəricisi idi. Ruslar düşünürdü ki, əgər Azərbaycan işğal edilmiş ərazilərini hərb yolu ilə azad etməyə başlasa təbii ki, rusların silahlarından istifadə edəcək.

-İllərlə Rusiyanın Azərbaycanın ordu rəhbərliyinə oturduqları və qoruduqları adamların son ana kimi rəhbərlikdə saxlanılması Rusiyanı Azərbaycanın mümkün hərb planlarından məlumatlı olacaqlarına tam əminlik yaratmışdı.

-Digər vacib məsələ isə, ümumən, hərbi kadr məsələsi idi. Azərbaycan Rusiyanın hərbi məktəblərində öz hərbiçilərini oxutmağı ruslarda elə bir təəssürat yaratmışdı ki, Azərbaycan hərbçiləri də məhz döyüş əməliyyatlarında rus məktəbinə məxsus bilik və elmdən istifadə edəcəkdir hansı ki, ruslara həmin mümkün əməliyyatların da zərərsizləşdirməsi elmi də bəlli idi.

- II-ci Dünya müharibəsindən sonrakı dövrə uyğun klassik hərb sistem ümumən dəyişməz olaraq qalırdı. İlham Əliyev faktiki olaraq paralel şəkildə iki standartlı ordu yaratmışdı, rus standartına və "NATO" standartlarına yəni, Türkiyə modelinə uyğun. Nəinki Rusiya, dünyanın heç bir ölkəsi Azərbaycanın klassik müharibə üsulundan imtina edəcəyini görə bilmədi.

- Ümumiyyətlə, dövlətlər arası münasibətdə ən effektli üsullardan biri də dövlət başçılarının şəxsi münasibətləri, dost əlaqələridir. İlham Əliyev Qarabağ konfliktinin hərbi yolla həllində mümkün rəqib ola biləcək tərəf ölkələrlə (KTMT ölkələri) və həmin dövlətlərin başçılarının hamısı ilə etibarlı dost münasibətləri qura bilmişdi.

- Və nəhayət, müharibənin qısa müddətə hesablanması.

*Qeyd etdiyim vəziyyət ikinci Qarabağ müharibəsində Azərbaycanın Qələbəsini şərtləndirən əsas amillər idi hansı ki, ümumi görünüşdə Rusiya və Ermənistanın xeyrinə mənzərə yaratmışdı.*

*27 sentyabr 2020-ci il tarixdən İlham Əliyev Azərbaycan əsgərinə işğal olunmuş ərazilərimizin azad edilməsi üçün hərbi əməliyyatlara başlamaq əmri verdi. Azərbaycan ordusu hücum əməliyyatları zamanı çox milyardlıq müqavilələr əsasında aldığımız rus silahlarından demək olar ki, istifadə etmədi. Rusiyanın Azərbaycana satdıqları silahlara "hesab-nəzarəti"ni əhəmiyyətsiz etdi,*

*Rusiyanın Azərbaycanın ordu rəhbərliyində yerləşdirdiyi şəxslərin əməliyyatlar zamanı təcrid edilməsi Azərbaycanın hərbi planları barədə informasiyanın yayılmasının qarşısını əhəmiyyətli dərəcədə aldı,*

*Azərbaycan hərbçiləri döyüş əməliyyatlarında rus məktəbinə məxsus bilik və elmdən imtina edərək Azərbaycan ordusunun mümkün hərbi planlarının hesablanmasını mümkünsüz etdi, Azərbaycan XXI-ci əsrin müharibə modelini ilk olaraq tətbiq etməklə dünyanın müharibə anlayışını dəyişdirdi.*

*İlham Əliyevin Azərbaycanın haqq savaşında rəqib tərəf kimi KTMT-ya üzv dövlətlərin başçıları ilə etibarlı dost münasibəti müharibənin gedişində həmin dövlətlərin müharibəyə mümkün müdaxiləsinin qarşısını almağa yardımçı ola bilən əsas vasitələrdən birinə çevrildi.*

Bu baxımdan İlham Əliyev, faktiki olaraq, düşmən tərəfin bütün hesablamalarını əhəmiyyətsiz hala salaraq qələbə qazandı. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, Rusiyanın müharibəyə bir başa müdaxilə etməməsinin səbəbi məhz Rusiyanın yuxarıda qeyd etdiyim "hesablamalara" arxayınlaşması idi hansı ki, Rusiya Azərbaycanı uğursuz Tovuz təxribatına görə cəzalandırmaq niyyətində idi. Həm Putinin, həm də Paşinyanın etiraf etdiyi kimi, Rusiya Ermənistana mümkün bütün hərbi yardımlarını etdi.

Əminliklə qeyd etmək lazımdır ki, müharibənin gedişində Rusiyanın hesab götürdüyü vəziyyətin əhəmiyyətsizliyi qarşı tərəf üçün soyuq duş kimi çaşqınlıq yaratdı və müharibənin qısa müddətə hesablanması Rusiyanın mümkün manevr imkanlarına vaxt qoymadı. İlham Əliyev siyasi və hərbi strateq kimi intellekti ilə yaratdığı illüziya ilə rəqiblərini üstələdi və artıq baş tutmuş fakt qarşısında qoydu. Bu arada Belorus prezidenti Aleksandr Lukaşenkonun "İlham Əliyev postsovet məkanındakı prezidentlər arasında ən savadlı, ən mədəni insandır" ifadəsini də əlavə etmək yerinə düşər.

İnkar edilməz faktdır ki, Azərbaycanın 44 günlük müharibədə qələbəsindən ən çox hiddətlənən, qəzəblənən, məhz, Rusiya idi çünki, faktiki olaraq Azərbaycan Rusiyanın hərb elmini, hərb maşınını, hərb sənayesini məhv edərək Rusiyanın nüfuzunu sıfıra endirdi, hesablamalarını gülünc vəziyyətə saldı. Azərbaycan Rusiyanı sülhməramlı adı ilə Qarabağa buraxmaqla Rusiyanın müəyyən qədər də olsa nüfuzunu qorudu. Ancaq Azərbaycan bu gedişlə də dünya xristian təzyiqi neytrallaşdıra bildi və eyni zamanda da Rusiyanı öhdəlikli və məsuliyyətli tərəfə çevirdi. Əsl həqiqətdə də, Rusiya sülhməramlıları Azərbaycanın işinə yaradı baxmayaraq ki, rus sülhməramlılarla bağlı Azərbaycanda haqlı mənfi fikir mövcuddur. Ancaq fakt budur ki, Azərbaycan xristian dünyasının mümkün addımlarını rusların mövcudluğu il neytrallaşdırdı.

ABŞ-da Bayden administrasiyasının Rusiyaya qarşı ənənəvi ABŞ siyasətinin bərpası Rusiyanın Türkiyə və Azərbaycan birliyindən asılılığını artırdı. Odur ki, rus sülhməramlılarının Qarabağda mövcudluğu prezident İlham Əliyevin işarə etdiyi kimi müvəqqəti xarakterlidir.

Rusiya Prezidenti Vladimir Putinin müşaviri Andrey İllarionov UKRLİFE.TV-yə müsahibəsində Azərbaycanın 44 günlük müharibədə möhtəşəm qələbəsinin əsas faktoru kimi İlham Əliyevin olduğunu bildirib və qeyd edib ki, Azərbaycanın qələbəsi Vladimir Putinin Azərbaycan və İlham Əliyev qarşı-

sında ağrılı məğlubiyyətidir. “Bu vəziyyətdə Azərbaycan nəinki real qalibdir və həm də regionda diktatordur”- deyə İllarionov bildirib. İllarionov deyib: “Müharibədən əsas qənaət budur: Rusiyanın kürəyini yerə vuran nə Tramp, nə Makron, nə də Ərdoğandı, yerə vuran Əliyevdir”

İlham Əliyev çətin geosiyasi şəraitdə, mürəkkəb regionda, dünya nəhənglərinin maraqlarının toqquşduğu meydanda düşmənləri üstələyə bildi. Kiminsə etirafından asılı olmayaraq fakt, fakt olaraq qalır - İlham Əliyev düşmənlərini özünün yaratdığı mənzərəyə inandırdı və Azərbaycan dövlətinin, xalqının mövcudluğu üçün olduqca vacib qələbəni əldə etdi.

## Niyə Türk sülhməramlıları Qarabağa girmədi?

Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyev, Ermənistan Respublikasının baş naziri N.V.Paşinyan və Rusiya Federasiyasının Prezidenti V.V.Putinin 10 noyabr 2020-ci il tarixdə imzaladıqları Azərbaycan Respublikasının Ermənistan Respublikası üzərində qələbəsini fiksasiya edən Bəyanat 9 bəndən ibarətdir.

Həmin Bəyanatın 3-cü bəndində “Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyu Rusiya Federasiyasının 1960 sayda odlu silahlı hərbi qulluqçusundan, 90 hərbi zirehli texnika, 380 ədəd avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingenti yerləşdirilir.” göstərilmişdir. Bəyanatda Türkiyənin isə hər hansı bir şəkildə proseslərdə iştirakının göstərilməməsinin səbəbi təbii ki, Rusiyanın Ermənistanda maraqlarının qorunub saxlanılması məqsədi idi. Ancaq proseslər onu göstərirdi ki, 10 noyabr Bəyanatından kənar şifahi razılaşmalar mövcuddur. Bəyanatdan irəli gələn öhdəlik və tələblərin yerinə yetirilməsinə məsuliyyətli Rusiya ilə Türkiyənin də iştirakı Ermənistanda bir mənalı qəbul edilə bilməzdə və təbii ki, Rusiyanın bu ölkədə siyasi mövqeyini əsaslı sarsıda bilərdi. Rusiyanın Ermənistanda yerləşdirdiyi hərbi bazasının taleyi və ümumən, Ermənistanın

Rusiya orbitində qalması məsələsi risk altına düşə bilərdi. Azərbaycan qarşısında ağır məğlubiyyətə uğrayan Ermənistanda, Paşinyan hakimiyyətində Rusiyanın Ermənistanı itirmək ehtimalı olduqca yüksək görünürdü.

Türk hərbiçilərinin sülhməramlı qismində iştirakının Bəyanatda göstərilməməsinin başqa bir vacib səbəbi də var idi. Türkiyə-Rusiya əməkdaşlığını qısqanclıqla qəbul edən və əsasız olaraq Türkiyəni ermənilərə qarsı 1915-ci ildə hadisələrinə görə günahlandıran bəzi qərb dövlətləri, ermənilərə qarşı duran Türk ordusuna necə qiymət verərdilər? Yaxud, bu halda belə bir Bəyanatı beynəlxalq təşkilatlar dəstəkləyərdilərmi? Bu və digər mümkün neqativ variantları neytralaşdırmaq məqsədi ilə 10 noyabr Bəyanatında Türkiyənin proseslərdə iştirakı göstərilmədi. Ancaq Türkiyə proseslərdə bir başa iştirak edirdi və bəlli idi ki, həmin bəyanatdan kənar Türkiyə, Azərbaycan və Rusiya arasında razılaşma mövcuddur. 11 noyabr 2020-ci il tarixli Rusiya Türkiyə razılaşmasının imzalanması buna sübutdur hansı ki, 30 yanvar 2021-ci il tarixdə Ermənistan işğalından azad olunmuş Ağdam rayonunun ərazisində inşa edilən Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi də fəaliyyətinə başlayıb.

## Türkiyə prezidenti Ərdoğan necə dünya miqyaslı lider oldu?

Azərbaycanın düşmənləri üzərində qələbəsində qardaş Türkiyənin əvəzsiz xidməti var. Türkiyənin Azərbaycana qarşı faktiki qardaşlıq siyasətinin özəyi təbii ki, milli kimliyimizə, soy kökümüzə bağlıdır. Ancaq, müasir dövrümüzdə dövlətlər arası münasibətdə milli, dini mənsubiyyət o qədər də vacib rol oynamır. Elə İranın özündə 40 milyondan yuxarı etnik Azərbaycan türkləri aborigen xalq kimi yaşasa da və dini baxımdan eyni əqidəyə mənsub olsaq da müsəlman İran xristian Ermənistanı dəstəkləyirdi.

Türkiyənin Azərbaycana xüsusi münasibətdə mövqeyinə

görə Türkiyə prezidenti cənab Ərdoğanın böyük rolu var. Ümumiyyətlə, müasir dövrümüzün ən nüfuzlu liderlərindən biri olan Ərdoğanın şəxsi keyfiyyətləri onu dünya siyasətinin nəhənginə çevirib və faktiki olaraq Rəcəb Tayyib Ərdoğan artıq dünya liderləri sırasında ən nüfuzlu dövlət başçılarından biri kimi qəbul edilir. Bəs, Ərdoğan nə etdi və necə davrandı ki, dünya miqyaslı liderə çevrilə bildi?

Ərdoğanın siyasi fəaliyyətindəki uğurları sadalamaq fikrində deyiləm ancaq, onun siyasi uğuruna əsas verən mənəvi dəyərlər daha maraqlıdır. İlk növbədə, Ərdoğanı dünyanın ən nüfuzlu liderlərindən edən onun şəxsi keyfiyyətləridir. Onun əzəmətli türk tarixini yaxşı bilməsi və türk milli kimliyinə qürur verici inamı Ərdoğanı müasir dövrün sərkərdəsinə çevirib. Türkiyənin tarixi Milli kimliyinin müasir dövrlə uyğunsuzluğu sözsüz ki, Ərdoğanda yaratmış natamamlıq hissini onun stimuluna çevirib.

Ərdoğan dünya liderləri arasında siyasi dürüstlüyü ilə seçilən tək bir rəhbərlərdəndir. Vladimir Putinin Ərdoğan haqqında dediyi fikirləri onun xarakterinin izahıdır. Rusiya Prezidenti Ərdoğanı danışıqlarda razılaşdırılmışlara tam əməl edən, publik çıxışları ilə gizli danışıqları üst-üstə düşən lider kimi tanıdığı barədə söylədikləri var.

*17 dekabr 2020-ci il tarixdə Rusiya Prezidenti Vladimir Putin illik mətbuat konfransında Ərdoğan barədə "İndi Ərdoğan ilə bəzi məsələlərdə fikir ayrılığı var. Bəzən hətta tam əks fikirlərimiz olur. Amma o, dediyi sözün üstündə dayanan adamdır, kişidir. Öz ölkəsinin xeyrinə olduğunu düşünürsə, sona qədər gedir, daha "quyruq bulamır". - deyə bildirmişdir.*

*ABŞ-nın 44-cü Prezidenti Barak Obamanın 2020-ci ilin noyabra ayında çapdan çıxmış memuarında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın şəxsi keyfiyyətləri və idarəçilik bacarığı haqqında müsbət fikirlər səsləndirmişdir hansı ki, Obamanın siyasi fəaliyyəti dövründə ən çox məhz Ərdoğan ilə gərgin münasibəti olmuşdur.*

Siyasətdə əksər halda publik çıxışlarla gizli danışıqlar üst-

üstə düşmədiyi halda Ərdoğanda tam əksinədir yəni, publik çıxışı danışıqların mahiyyətini əks etdirən dürüst siyasətçidir. Yeri gəlmişkən, Ərdoğan səslənməsi mümkün olmayan informasiya barədə susmağı bacaran bir şəxs kimi tanınır. Bu davranışı Ərdoğanı dünya liderləri arşında inanılan etibarlı tərəf müqabili, sözü bütöv siyasətçi kimi təsdiqləyib və təbii ki, onu bir tam şəxsiyyət kimi hətta düşmənlərinə sevdirib. ABŞ Prezidenti Donald Trampın Ərdoğan haqqında "Ərdoğan dünya səviyyəli şahmatçıdır. Bəzi dövlət rəhbərləri mənə zəng edərək Ərdoğana zəng etməyimi istəyirlər" kimi fikirləri qeyd edilənlərə çoxlu sübutlardan biridir. Bu baxımdan Ərdoğan müasir dünya siyasətinə "siyasi dürüstlük" kimi anlayışı gətirən və onun effektli olduğunu praktik sübut etmiş ilk siyasətçidir.

Həzrəti Əlinin bir kəlamında deyilir: "Lideri lider edən onun ətrafıdır". Ərdoğan siyasi idarəçilikdə xüsusi hissiyyatı ilə seçilən komanda yığmaq bacarığına malikdir. Ərdoğanın komandası, onun bütün tapşırıqlarını və iradəsini tam qəbul edərək cızılmış xətdən kənara çıxmır. Ərdoğan şəraitə görə komandasnın aşağı çinli məmurlarının fikirlərini heç bir zaman təkzib etmədiyi ilə seçilir. Yəni, Ərdoğanın komandasının hər bir üzvü tam olaraq konkret müəyyən fikri səsləndirir və bütövlükdə həyata keçirir. Ərdoğanın sözçüsünün, Xarici İşlər Nazirliyinin, Müdafiə Nazirliyinin və sair dövlət orqanlarının rəsmi nümayəndələrinin və rəhbərlərinin səsləndirdikləri fikirlər tam şəkildə vəhdətlik təşkil edir. Onlardan hər hansı birinin səsləndirdiyi fikirlər dünya ictimaiyyəti tərəfindən tam ciddi və Türkiyə dövlət mövqeyi kimi qəbul edilir. Rusiyanın nüfuzlu RBK xəbər agentliyi Ərdoğanın sözçüsü İbrahim Kalını və ümumiyyətlə, Türkiyə rəhbərliyinin "sözü havaya demir" bildirmişdir. Dünya nəhəng dövlətlərinin, ABŞ, Rusiya, Fransa və sair dövlətlərinin rəsmilərinin eyni predmet üzrə bir-birini təkzib edən fikirləri mütəmadi xarakter alıb əsasən də, ABŞ-da və Rusiyada belə müxtəlifliyə geniş rast gəlinir. Ərdoğanın komandasında bir-birini təkzib edən fikirlərə demək olar ki, rast

gəlinmir. Bu göstərici isə onun sübutudur ki, Ərdoğan dövlət idarəçilik sistemində vahid düşüncəyə malik vəhdət idarəçilik sistemi yarada bilib. Təbii ki, bu onun ancaq şəxsi bacarığının nəticəsidir.

Türkiyə Prezidenti Ərdoğan beynəlxalq siyasi arenada "blef" deyilən vasitədən istifadə etmədiyi artıq təsdiqlənib. Bu qənaət isə o deməkdir ki, Ərdoğan praktik siyasətçi kimi, siyasi situasiyanı düzgün qiymətləndirib dəqiq proqnoza uyğun hərəkətini qabaqcadan elan edir.

Ərdoğanın kimliyi həm də nəhənglər qarşısında zəiflərin müdafiəsində durması ilə xarakterizə olunur. Dünya siyasətinin ədalətlə bağlılığı olmadığı halda Ərdoğan həmişə ədalət prinsipinə sadiq, beynəlxalq hüquq normalarına hörmətlə yanaşan bir liderdir. Ərdoğan kimliyindən və gücündən asılı olmayaraq dostluğa sadiq, haqqa, ədalətə söykənən mövqeyi ilə seçilir. Dünyanın bir nömrəli nəhəngi ABŞ-ın yeni prezidenti Co Bayden Rusiya prezidenti Vladimir Putini "qatil" adlandıranda Türkiyə prezidenti R.T. Ərdoğan Putinin müdafiəsinə qalxdı və dostluq, sadiqlik nümunəsi göstərdi. Yeri gəlmişkən, ABŞ prezidenti Co Bayden Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla və ümumiyyətlə, Türkiyə ilə isti münasibət qurmağa marağını dəfələrlə elan etmişdir.

Türkiyənin dünya hegemonlarından və Rəcəb Tayyib Ərdoğanı dünya liderlərindən birinə çevirilməyinin əsasında başlıca və əvəz edilməz faktor Türk Millət faktorudur. Bu mövzu olduqca genişdir. Ancaq, qısa şəkildə qeyd etmək istərdim ki, ümumiyyətlə, bəşər tarixində türk böyüklüyü, əzəmətli türk hərb tarixi kimi bir keçmişə malik bir millət əvvəl-axır özünün əzəmətli tarixini təkrarlamalı idi. Yəqin ki, çoxlarının rast gəldiyi belə bir deyim var: "türklər savaşa başlarsa cəhənnəmdə şeytanı əsir alar". Bu deyim, türk millətin döyüş əzminin nə qədər yüksək olduğunu cəmləşdirən bir fikir kimi qəbul edilir. Məhz, türk əsgəri, dünyanı lərzəyə gətirən və dünyanın 20-dən çox ən möhtəşəm imperiyalarını qurmuş,

dünyanın 4/3-nə sahib olmuş bir millətdir. Təbii ki, hər bir türkün şüur altı düşüncəsində bu qaliblik və möhtəşəmlik daima yaşayır. Dünya xalqları türk əsgərinin qalibiyyət hisinin, məğlubedilməzliyinin, dövlətçilik və imperiya hissinin ölçüyə gəlməz dərəcədə yüksək olduğunu tarix boyu səsləndirib. Türk əsgəri, türk ordusu türk dövlətçiliyinin tarix boyu qarantı olmuşdur. Təsadüfi deyil ki, Türkiyədə son dəyişikliklərə qədər Konstitusiyaya görə müasir türk dövlət hakimiyyətinin qarantı məhz ordu hesab edilirdi. Bir məqamı da qeyd edim ki, ümumiyyətlə, bəşər övladı iki cür xoşbəxt olur: fərdi və ya qrup şəklində. Qrup şəklində xoşbəxtlik insanın möhtəşəm bir dövlətə malik olması, onu təmsil etməsi ilə gələn bir hissdir. Türk qardaşlarımızda özünü möhtəşəm bir dövlətin nümayəndəsi olmaq hissi onun özünün xoşbəxt olması anlamıdır. Odur ki, türklərdə möhtəşəm dövlətçilik hissi özünü ifadə etmək hissidir.

Təbii ki, türk millətinin bəşər tarixində Rəcəb Tayyib Ərdoğan kimi yeni və növbəti lider yetişdirməsi türk milli kimliyinin daxili psixoloji tələbatının nəticəsidir, Türkiyənin dövlət kimi, yeni dünya tarixində söz sahibi kimi qəbul edilməsi, zaman məsələsi olsa da, çox ehtimal olunan idi. Türk qardaşlarımızın uğurlarına görə sevinməyə və qürur duymaq Azərbaycan türklərinin mənəvi haqqıdır.

# Üçüncü fəsil
## Daxili və xarici düşmənlər

### Düşmən heç vaxt yatmır

44 günlük müharibə Azərbaycan xalqının təkcə Ermənistanın üzərində deyil, həm də Rusiya, İran, Fransa və sair bəzi böyük dövlətlər üzərində dastanlara çevrilən, qəhrəmanlıq və igidlik nümunəsinə çevrilən əzəmətli, möhtəşəm qələbə qazandı. Bu qələbə bizə həm də daxili düşmənlərimizi tanıtdı, baxmayaraq ki, bu daxili düşmənlər nə dövlətimizin gücünə, nə də ordu-xalq birliyinə zərər verə bilmədi. Ancaq düşmən var gücü ilə çalışırdı...

SSRİ-nin dağılmasında müxtəlif faktorların kompleks təsiri var. Əsas səbəblər barədə isə müəllifi olduğum "MƏNİM DÜŞÜNCƏM" adlı kitabımda yazmışam. Ancaq tarixə “Dalles planı” adı ilə düşmüş uzunmüddətli plan haqqında demək olar ki, az məlumatlıyıq.

Əvvəla onu deyim ki, Allen Dalles ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin yaradıcı və aparıcı mütəxəssislərindən olmuş, 1942-1945-ci illər Avropada kəşfiyyatçı olmuşdur, 1947-ci ildən isə ABŞ MKİ-nin özündə fəaliyyətini davam etdirmişdir. 1953-1961-ci illərdə isə artıq ABŞ MKİ-nin rəhbəri vəzifəsində xidmət etmişdir. Alen Dalles planının mahiyyəti 1945-ci ildə çapdan çıxmış “SSRİ-yə qarşı Amerikanın müharibədən sonrakı doktrinasının həyata keçirilməsi barədə fikirlər” adlı kitabında açıqlanır. Həmin kitabdan və sonradan faktiki həyata keçmiş planın ən əsas məqamları və istiqamətləri haqqında A. Dalles yazır:

“Müharibə qurtaracaq, hər şey qaydasında olacaq. Və bizlər nəyimiz varsa – bütün maddi gücümüzü insanların ələ alınmasına, axmaq yerinə qoyulmasına və aldadılmasına yönəldəcəyik! İnsan beyni və təfəkkürü dəyişikliklərə istiqamətlidir.

Orada qarmaqarışıqlıq toxumları səpsək, biz nəzərə çarpmadan onların mənəvi dəyərlərini saxtası ilə əvəz edər və bu saxta dəyərlərə inanmağa məcbur edərik. Necə?

Biz SSRİ-də bizim tərəfdarlarımızı, müttəfiqlərimizi taparıq. Ədəbiyyat, teatr, kino ən alçaq insan hisslərini təsvir və tərif edəcəklər. İnsan beyninə seksi, sadizmi, xəyanətkarlığı – bir sözlə, hər bir mənəviyyatsızlığı yeridə biləcək rəssamları dəstəkləyəcək, onların adlarını yüksəldəcəyik. Dövlət idarəçikliyində qarmaqarışıqlıq, hərcmərclik yaradacağıq. Daima məmurların rüşvətxorluğuna, prinsipsizliyinə, yekəbaşlığına imkan yaradacağıq. Bürokratçılıq, süründürməçilik ən yüksək səviyyəyə qalxacaq, saflıq və vicdanlıq gülünc halına düşəcəkdir. Kobudluq və həyasızlıq, uydurma və aldatma, narkomanlıq və sərxoşluq, bir-birindən heyvani qorxuluq və utanmazlıq, xainlik, millətçilik və xalqının ədavəti, ilk növbədə rus xalqına (rus xalqı deyərkən ümumilikdə SSRİ əhalisi nəzərdə tutulur) qarşı ədavət və nifrət –bütün bunlar bizim tərəfdən çox asanlıqla tətbiq ediləcək, çiçəklənəcəkdir. Lakin lap çox az saylar nə baş verdiyini anlayacaq, dərk edəcəklər. Ancaq bu adamlar köməksiz hala salınacaq, gülünc vəziyyətə düçar ediləcəklər. Məhz, bu yolla nəsillər ardıcıl olaraq, zəiflədiləcəkcək, əsas qüvvəni gənclərə yönəldib, onları korlayacağıq, əxlaqını və mənəviyyatını pozacağıq. Onlardan yaltaqlar, ədəbsizlər, vətənpərvərliyini itirən nəsillər yaradacağıq."

Nəticə göz qabağındadır. SSRİ 1991-ci ildə süqut etdi. İndi də, hədəf Azərbaycandır, qalib Azərbaycan! Azərbaycana qarşı elə bir vasitə yoxdur istifadə edilməsin, din, siyasət, iqtisadiyyat, təcavüz və nələr, nələr...

Doğma vətənimiz Azərbaycanda dilə gətiriləsi belə mümkün olmayan, əxlaqsızlıq, mənəviyatsızlıq, sərhəddi bilinməyən harınlıq, ac gözlük elə bir səviyyədədir ki, milli və dövlət təhlükəssizliyimiz bir başa təhdiddə çevrilib. Mal-mülk naminə, namusu, əqidəni, dövlət, xalq maraqlarını qurban verənlər əldə

etdikləri ilə öyünür söz sahibinə çevriliblər. Əxlaqımızı, adət-ənənələrimizi, xalqımızı, dövlətimizi qorumaq hər birimizin borcu deyilmi? Yoxsa bizdə "Dalles planı"nın qurbanı olmaq istəyirik?! Qəsdimizə duran "qonşular"ın hiyləgər planlarından xəbərsizik-yoxsa, özümüzü xəbərsiz kimi aparırıq?

## Daxili düşmənlər (sapı bizdən olan baltalar)

27 sentyabr 2020-ci il tarixə kimi Azərbaycanın işğal edilmiş əraziləri ətrafında gedən proseslər yaxın zamanlarda Azərbaycanın işğal edilmiş ərazilərinin azad edilməsinə başlayacağına inamı artırmışdı. Təbii ki, Azərbaycan qardaş Türkiyənin dəstəyinə güvənərək müharibəyə başlaya bilərdi. Azərbaycan Türkiyə qardaşlığına kölgə salaraq Azərbaycanı bu addımdan çəkindirmək üçün Rusiya Azərbaycandakı "nümayəndələri"ni işə salmışdı.

Azərbaycan Sosial Demokrat Partiyasının (ASDP) sədri, Milli Məclisin deputatı Araz Əlizadənin ITV-də aparıcının "siz demisiniz ki, Nuru Paşa qızıl müqabilində Türkiyədən gələrək, Bakını azad edib. Hətta ermənilərlə aramızda olan münasibət Osmanlı türklərinə görə olub?"

Araz Əlizadə cavabında bildirib ki, Osmanlı ordusu muzdlu ordu idi. "Muzdlu ordu da pul olmasa, heç vaxt müharibəyə getməz və girişməz. Burda qəbahət bir şey yoxdur".

Deputat Türkiyə ilə Azərbaycanın qardaş ölkə olmadığını da söyləyib: "Türkiyə ilə Azərbaycan arasında olan qan qruplarındakı elementlərə nəzər salsaq görərik ki, bir birilərinə heç uyğun gəlmirlər. Türklər Asiyadan gəlmədirlər, onlar sarı irqə məxsusdur. Azərbaycanlılar isə, Hind-Avropa irqinə aiddir".

Sözsüz ki, Araz Əlizadənin çıxışının siyasi hədəfləri var idi. A.Əlizadə bütün dünya tərəfindən qəbul edilmiş tarixi, etnoqrafı, antropoloji, linqvistik elmi faktları təkzib edərək Azərbaycan xalqının milli kimliyini suala altına almağa cəhd etmişdir. Bununla yanaşı A.Əlizadə Azərbaycan dövlətinin

dövlət maraqlarına qarşı çıxış edərək öz sahiblərinə "vəfa"sını göstərdi. Onun, ümumiyyətlə, bütün siyasi və ictimai fəaliyyəti ancaq və ancaq Azərbaycan-Türkiyə münasibətlərinin korlanmasına və Azərbaycanın təklənməsinə köklənib hansı ki, axır nəticədə Azərbaycan Rusiya orbitində kənar çıxmasın.

Digər bir sabiq deputat Cümşüd Nuriyevin AzTV-nin "Əsas məsələ" verilişində 90-cı illərdə Qarabağ uğrunda döyüşlərdə iştirak etmiş qadınları təhqir etmişdi. Bu həmin Cümşüd Nuriyevdir hansı ki, Ramil Səfərovun Azərbaycan bayrağına görə qəhrəmanlığını da şübhə altına almağa çalışmışdı. Cümşüd Nuriyevin Azərbaycan qadınını səhvən və ya təsadüfən alçatmayıb, o, kifayət qədər elmli adamdı-siyasi elmlər doctorudur və onun Qarabağda döyüşmüş qadınlarımızı təhqir etməsi milli kimliyimizə, vətənpərvərliyimizə mənfi təsir edə biləcəyini görməyə bilməzdi.

Cümşüd Nuriyevlə bağlı digər və ən vacib məlumat, onun 1992-ci ildə İraqa səfəri ilə bağlıdır. Hansı ki, onun kimliyini açıq şəkildə göstərir.

Cümşüd Nuriyev Azərbaycan televiziyası ANS TV kanalına verdiyi müsahibəsində deyir: "Aprel ayının 28-i Səddam Hüseynin 55 yaşı tamam olurdu. Mən orda iştirak eləməyə dəvət almışdım, xüsusi dəvət. Və orda bir adət var ki, Səddam Hüseynlə görşməmişdən qabaq mütləq oğlu Udeylə (red. Udey Hüseyn) görüşəsən, onun bütün işlərini o yönəldirdi, çünki böyük oğlu müharibədə həlak olmuşdu və biz Udeylə görüşən vaxtı Udey nahar verdi və bu naharda Tələbani bir də Bərzani, biri Kürd Fəhlə Partiyası, biri də Kürd İşçi Partiyasının sədridir. Orda söhbət əsnasında, mən, bunlar danışırdı ərəbcə, hərdən bir tərcüməçi bəzi şeyləri mənə deyirdi, amma içəridə heç bir söz demədi bu mənə. Artıq biz səhər Səddamla görüşəcəkdik, çölə çıxanda Hüseyn məndən soruşdu ki, "sizdə Şuşa var?", deyirəm – var, "Laçın var?", deyirəm-var, o, məndən soruşdu ki, "onlar kürd şəhəridi?" deyirəm-yox. O mənə dedi ki, "bəs artıq sizdən Azərbaycandan olublar, uç nəfər danışığa gedib və bu danışıq

əsasında da Kürdüstan dövləti yaradılmalıdır və ona görə də 9 maya qədər Şuşa veriləcək və ondan bir həftə sonra Laçın veriləcək"-deyə bildirib.

Əvvəla, qeyd etmək vacibdir ki, Kürd Fəhlə və Kürd İşçi Partiyası terror təşkilatı kimi Sovet İttifaqının Dövlət Təhlükəsizlik Komitəsi (KQB) tərəfindən yaradılmış, regionda və əsasən də Türkiyəyə qarşı siyasi məqsədlərə istifadə edilib və bu günə kimi də Rusiya tərəfindən istifadə edilməkdədir. Qısası Cümşüd Nuriyevin dediyi həmin o kürd partiyaları Rusiyanın yaratdığı terror təşkilatıdır. Yeri gəlmişkən, bəllidir ki, bu partiya adı ilə terror təşkilatları Rusiya tərəfindən, əsasən Yevgeni Maksimoviç Primakovun rəhbərliyi ilə idarə olunub. Cümşüd Nuriyevə birinci sual odur ki, Səddam Hüseynə və İraq dövlətinə hansı xidmətlərinə görə Cümşüd Nuriyev xüsusi dəvətə layiq görülüb? Əgər Cümşüd Nuriyev kürd partiyalarının rəhbərləri ilə heç bir müzakirə mövzusu yox idisə Udey onu Təlabani və Bərzani ilə birlikdə niyə qəbul edib? Ümumiyyətlə, niyə Cümşüd Nuriyev İraqda Kürdüstan dövlətinin yaradılması ilə bağlı müzakirədə iştirak edib? Cümşüd Nuriyevin İraqda Səddam Hüseynlə görüşə getməsindən Azərbaycan dövlətinin xəbəri olubmu? Əgər ona Səddam Hüseyn tərəfindən xüsusi dəvət olubsa hansı kanalla olub və xüsusi dəvəti təsdiq edən sənəd hardadır? Cümşüd Nuriyevə kim icazə vermişdi ki, Azərbaycanın dövlət və milli təhlükəsizliyi ilə bağlı xarici səfərlər etsin? Ən başlıca sual isə açıq qalır. Udey Hüseyn İraqın dövlət maraqlarını təmin edə biləcək bir məlumatı niyə Cümşüd Nuriyevə ötürüb ki?

Mövzu ilə bağlı Cümşüd Nuriyevin 1992-ci il İraq səfərini araşdıran araşdırmaçı - yazar, Azərbaycan Jurnalistlər Birliyinin üzvü Tural İrfan belə bir qənaətdədir ki, "Cümşüd Nuriyev bu məsələdə səmimi deyil. Onun İraqa səfəri heç də Azərbaycanın xeyrinə olmayıb. Orada edilən söhbətləri də özünü sığortalamaq üçün başqa formada don geydirib danışır. Ad günü qonaqlığında heç zaman dövlət əhəmiyyətli, xarici siyasətə aid ciddi müzakirələr aparılmır. Cümşüd Nuriyev oradan məlumat gətirmə-

yib, ora məlumat aparıb. O dediyi işğal günləri də orada, adını çəkdiyi və çəkmədiyi adamlarla birlikdə müəyyənləşdirilib. Özünün də etiraf etdiyi, tarixi faktların da sübut etdiyi kimi Azərbaycana xəyanət etmiş Cümşüd Nuriyev özünü Rusiyanın xüsusi xidmət orqanının əməkdaşı kimi aparır. Səddam Hüseynin kürdlərin dövlət maraqlarını İraqdan uzaqlaşdırmaq siyasəti çərçivəsində Mütəllibovçular yenidən hakimiyyətə qayıtmaq üçün ola bilsin Şuşa, Laçını İraq kürdlərinə peşkəş edib, qalan torpaqları da qaytarmaq kartından bəhrələnmək istəyiblər..." Tural İrfanın açıqlaması Cümşüd Nuriyevin 1992-ci İraq səfərinə verilmiş ən doğru qiymətdir.

## İranın Azərbaycan "nümayəndəliyi"

2020-ci ilin may ayının əvvəli məlum oldu ki, Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadə ABŞ Prezidenti Donald Trampa müraciət edərək İrana (İran İslam Respublikası) qarşı tətbiq edilən sanksiyaların yumşaldılmasını xahiş edib.

Əsrlər boyu farsların biz Azərbaycan xalqına və dövlətçiliyinə olan nifrətinin, xəyanətinin şahidi məhz tarixin özüdür və bunları sadalamağa heç lüzumda yoxdur, heç zaman da yetməz. Tarixin hər mərhələsində farsların Azərbaycana qarşı sonsuz nifrəti açıq şəkildə özünü göstərib və göstərməkdədir.

Təkcə bir ayda (aprel-may 2020-ci il) İranın Azərbaycana qarşı çoxlu sayda xəyanətindən bir neçəsini üstü açılıb:

- İranın Ermənistanın işğal etdiyi Azərbaycanın Dağlıq Qarabağ ərazisində yaratdığı separatçı rejiminə yük maşınlarının daimi səfərlərinin bir daha üzə çıxması və sübutu bu məsələnin diplomatik səviyyədə müzakirəsi;

-İranın Ermənistana və Dağlıq Qarabağ separatçı rejiminə hümanitar köməyi;

-İranın Azərbaycanın işğal edilmiş ərazilərində Cəbrayıl rayonu istiqamətində Dağlıq Qarabağ separatçı rejimi ilə tikdiyi 3 körpü vasitəsi ilə əlaqəsi?

-İran Azərbaycan ərazisinə soxularaq Cəbrayıl rayonu ərazisində Azərbaycanın etirazına baxmayaraq su anbarının tikməsinin və işğalçı ermənilərə istifadəyə verməsinin sübut olunduğu qısa bir zaman daxilində və fonunda QMİ-nin rəhbəri Allahşükür Paşazadənin ABŞ Prezidenti Donald Trampdan İrana qarşı sanksiyaların yumuşaldılmasını xahiş etməsi heç bir məntiqə sığmır. Bu məsələdə dini həmrəyliyə əsaslanmaq həm gülünc, həm də özünə hörmətsizlikdir. Əgər İran üçün müsəlmançılıq vacib olsaydı, İran xristian Ermənistana Qarabağı işğal etməyə və işğalı qorumağa dəstək olmazdı, İran üçün müsəlmançılıq vacib olsaydı, Cənubi Azərbaycanda müsəlman xalqımızın dilini, mədəniyyətini, toponimlərini məhv etməzdi, İran üçün müsəlmançılıq vacib olsaydı, müsəlman torpaqlarını işğal edən xristian erməni dövlətinin işğalçılıq siyasətinə qarşı çıxan azərbaycanlıları zindanlarda çürütməzdi və sair və sair... Hamımıza da bəllidir ki, İran Azərbaycan müstəqilliyini həzm etmir, Şimali Azərbaycan torpaqlarına iddialıdır və hətta dövlət səviyyəsində bizləri türk dilində danışan farslar adlandırmaqdan da çəkinmirlər.

Müsəlman İranın, müsəlman Azərbaycana qarşı nifrətini saymaqla qurtarmaq olmaz. Bu halda QMİ-nin sədrinin ABŞ Prezidentindən İrana qarşı sanksiyaların yumşaldılmasını xahiş etməsi İranın dirçəlməsinə hesablanıbsa, onda da belə çıxır ki, biz özümüz özümüzə quyu qazırıq! İranı dəstəkləmək Azərbaycanı məhv etmək istəyən qüvvələri dəstəkləmək deməkdir. Bunun başqa adı yoxdur. QMİ-nin rəhbəri Allahşükür Paşazadə tərəfindən ABŞ Prezidenti Donald Trampa müraciət edilməsi diplomatik qaydalara da uyğun gəlmir ona görə ki, Allahşükür Paşazadə nə siyasi nə də diplomatik fiqur deyil, dini nümayəndədir və siyasi məsələlərə publik müdaxiləsi xoşagəlməz hal sayılır. Allahşükür Paşazadə Azərbaycanın, yoxsa İranın şeyxidir?

44 günlük müharibənin gedişində İran üçün narahat olan Azərbaycan Respublikasının dini rəhbəri Allahşükür Paşazadə öz ordusuna dəstəyini bildirmədi, bir dəfə də olsun qəhrəman

şəhidlərimizin yaş mərasimlərində iştirak etmədi, baş sağlığı vermədi. Ümumiyyətlə, müharibədən sonra da ölkədə baş verən proseslərdən yox imiş kimi kənarda qaldı. Yeri gəlmişkən, Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadənin bir sədr kimi qəbul günləri belə yoxdur.

## TƏRTƏR İŞİ

90-cı illərdə Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin və bu bölgəyə bitişik 7(yeddi) rayonun rus-erməni birliyi tərəfindən işğalına Azərbaycan Ordusu tərəfindən azad edilməsinə yol verməmək Rusiya üçün ən vacib məsələ olaraq qalırdı, çünki Rusiya üçün uzün müddətli danışıqlar prosesi onun həm Ermənistana, həm də Azərbaycana və ümumiyyətlə,regiona təsir imkanlarını, eləcə də onun regionda mövcudluğunu təmin edirdi. Rusiya üçün ən vacib və strateji əhəmiyyətli məsələ Azərbaycan cəmiyyətində və ordusunda işğal edilmiş Azərbaycan ərazilərinin hərbi yolla azad edilməsinin mümükünsüzlüyünü hakim fikrə çevirmək, Azərbaycan Ordusuna inamsızlıq yaratmaq idi. Azərbaycan ordusunun hətta təlimlərində idarə olunan "uğursuzluqları", yüksək rütbəli zabitlərinin qətli, Mingəçevir SES-dəki partlayış kimi əməliyyat və təxribatlarının bir hədəfi var idi - Azərbaycan işğal olunmuş ərzailərinin müharibə yolu ilə azad etməsin. Rusiya bütün mümükün imkanlardan istifadə etməklə Azərbaycan Ordusunda, xalqında ruh düşkünlüyünü yaratmaq, bu hissi qorumaq və dərinləşdirmək istəyirdi.

Tarixə "Tərtər işi" kimi düşən hadisələrdə məhz Rusiya tərəfindən hazırlanan, həyata keçirilən Azərbaycan xalqının başına gətirilən növbəti bəla və sınaq idi. Qeyd edək ki, sözü gedən hadisələrin əksəriyyətinin Tərtərdə baş verməsi səbəbindən mediada bu hadisələr və iddialara ümumi olaraq "Tərtər işi" adı verilib. Tərtər hadisələri 2016-cı il "Aprel döyüşlıri"ndən sonra baş verdi. Aprel döyüşləri, Aprel müharibəsi və ya

Dördgünlük müharibə - 2016-cı il aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq Azərbaycan və Ermənistan Silahlı Qüvvələrinin arasında baş vermiş hərbi toqquşmadır. Aprel döyüşləri Dağlıq Qarabağda 1994-cü ildə atəşkəs haqqında saziş imzalandıqdan bəri ən şiddətli döyüşlər idi. Döyüşlər Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi ilə nəticələnmiş və rəsmi məlumatlara əsasən Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər və Seysulan kəndi, Cəbrayıl rayonunun Lələ təpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Qazaxlar kəndi və Tərtər rayonunun Suqovuşan (Madaqiz) kəndi istiqamətində yollar düşməndən azad olunmuşdur. Bu döyüşlər nəticəsində ümumilikdə 2000 hektarlıq ərazi azad edilib. (Bəzi məlumatlara görə isə 800 hektarlıq ərazi azad edilib.)

Azərbaycan Ordusun 4 günülük müharibədə uğurları düşməni qorxuya saldı. Azərbaycan Ordusunun yüksək döyüş ruhu, əzmi, döyüş qalibiyyəti, dövlət-xalq-ordu birliyi Rusiyanı hərəkətə keçirdi.

"Tərtər işi" haqqında ilk rəhmi məlumat 07.05.2017-ci il tarixdə Azərbaycan Respublikası Baş Prokurorluğu, Dövlət Təhlükəsizliyi Xidməti, Müdafiə Nazirliyi və Daxili İşlər Nazirliyinin birgə bəyanatı ilə verildi. Həmin Bəyanatda deyilirdi: "Bəyan edirik ki, Ermənistan Silahlı Qüvvələrinin kəşfiyyat və xüsusi xidmət orqanları tərəfindən Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Tərtər rayonu istiqamətində yerləşən bölmələrinə və yaşayış məntəqələrimizə qarşı genişmiqyaslı təxribat fəaliyyətinin həyata keçirilməsinin planlaşdırıldığı barədə əldə edilmiş məlumat əsasında aparılmış tədbirlər nəticəsində müəyyən olunmuşdur ki, xalqına, vətəninə və dövlətinə xəyanət yolunu tutan iradəsi zəif, vətəndaşlıq ruhunu və vətəninə bağlılığını itirmiş bir qrup hərbi qulluqçular və digər mülki şəxslər Azərbaycan Respublikasının suverenliyi, ərazi toxunulmazlığı, dövlət təhlükəsizliyi və müdafiə qabiliyyəti zərərinə olaraq düşmən kəşfiyyatçıları ilə məxfi əməkdaşlığa cəlb edilərək

müxtəlif vaxtlarda maddi maraqları naminə hərbi sirr təşkil edən məlumatları əldə etməklə düşmən tərəfinə ötürmüşlər.

Toplanmış materiallar əsasında dövlətə xəyanət və digər faktlar üzrə 3 may 2017-ci il tarixdə Azərbaycan Respublikası Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin 274-cü maddəsi ilə cinayət işi başlanaraq Azərbaycan Respublikası Prokurorluğu, Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşlarından ibarət birgə istintaq-əməliyyat qrupu yaradılmış və ibtidai istintaq aparılır...”

2017-ci ildən bu yana kütləvi həbs olunmuş hərbiçilər barədə, onlara verilən işgəncələr haqqında və işin bəzi təfərrüatları Azərbaycan cəmiyyətinə anacaq 2019-cu illə məlum olub. İş üzrə məlumdur ki, 100-dən çox əsgər və zabitə işgəncə verilib, 25 nəfər uzun müddətə azadlıqdan məhrum edilib və ən azı doqquz nəfər işgəncədən ölüb. Bəzi mənbələrə əsasən ölənlərin sayı 11 nəfərdir. İstintaq zamanı ölən bəzi hərbi qulluqçuların ailələrinə "günahlarının sübuta yetirilmədiyini" bildirən sənədlər verilib. Lakin bu heç bir halda işgəncə verilmiş şəxslərin reabilitasiyası demək deyil. Tərtər işi ilə bağlı hazırda ABŞ-da yaşayan sabiq təhlükəsizlik xidməti əməkdaşı Ərəstun Oruclunun sözlərinə görə, istintaq məxfilik şəraitində aparılıb və hərbi qulluqçuların sayı, rəftarı, işgəncə ilə ölümləri barədə çox az məlumat var.

“Tərtər işi” bir müddətdir ki, ictimaiyyətin əsas müzakirə mövzularından birinə çevrilib. Qeyd edək ki, 2016-cı ildə uğurlu aprel müharibəsindən sonra Azərbaycan ordususunun yüzlərlə zabit və əsgəri ermənilərə casusluq etmək ittihamı ilə həbs edilib və onlara ağır işgəncələr verilib. Həbs olunanların bəziləri isə işgəncə altında həyatlarını itiriblər. Bəzilərinə də ölümündən sonra bəraət verilib. Təsdiqlənməmiş iddilara görə Azərbaycan ordusunda bu “təmizləmə işləri” sabiq Baş Qərargah rəisi Nəcməddin Sadıkovun əmri ilə həyata keçirilib və məqsəd Azərbaycan ordusu içində vətənpərvərlik ruhunu öldürmək olub. Ağlasığmaz işgəncələrə isə Nəcməddin Sadikovun bacısı

oğlu Ramil Əsgərovun rəhbərlik edib.

Həmçinin, iddilara əsasən "Tərtər işi"ndə hərbi prokuror Xanlar Vəliyevin də xüsusi rolu olub və bu qurum da saxta cinayət işlərinin tərtib olunmasında birbaşa iştirak edib."- deyə Ərəstun Oruclu bildirib.

Ümid partiyasının sədri, sabiq deputat İqbal Ağazadə Nəcməddin Sadıqov və onun bacısı oğlu Ramil Əsgərov barədə eyni fikiri səsləndirib."Nəcməddin Sadikovun bacısı oğlu Ramil Əsgərovun rəhbərlik etdiyi daxili istintaq oraya heç kəsi buraxmırdı." - deyə İqbal Ağazadə bildirib.

Ərəstun Oruclu bu işdə "düşmən əli"nin olduğu deyib və "bu iş xalqın orduya olan inamını sarsıtmaq üçün geniş bir məqsəd daşıyırdı və bu adi bir cinayət işi deyil" - deyə bildirib. Sabiq Təhlükəsizlik əməkdaşının qənaətinə görə, bu hadisə orduya qarşı sistemli düşmənçilikdir və Rusiya xüsusi xidmət orqanlarının əli ilə törədilib. Ekspertə görə, bu cinayətdə iştirakçı olanlar Azərbaycanın maraqlarına xidmət etməyiblər.

Azərbaycan Respublikası hərbi prokuroru Xanalar Vəliyevin "Tərtət işi"ndə rolu barədə Ərəstun Oruclu "Konkret Xanlar Vəliyevin həm Tərtər qətliamındakı, həm də Azərbaycan Ordusuna qarşı çoxsaylı cinayətlərdəki rolu haqqında bircə kəlmə deyə bilərəm. Xanlar Vəliyev bu cinayətləri törədənlərin arasında əsas fiqurlardandır və o, vəzifəsindən kanarlaşdırılmalıdır, onun barəsində ən qısa zamanda ciddi təhqiqata başlanılmalıdır" – deyə bildirib.

Hüquq müdafiəçisi, Bakı İnsan Hüquqları Klubunun təsisçilərindən biri Rəsul Cəfərov da "Tərtər işi" ilə bağlı analoji fikri səsləndirib. "Sadəcə aprel döyüşləri zamanı əldə edilmiş uğur kiçildilməliydi, onun əhəmiyyəti azaldılmalıydı, yaranmış döyüş ruhu, üstün psixaloji mənəvi durum zəiflədilməli idi. Ona görədə Müdafiə Nazirliyinin yuxarı komandanlığında böyük vəzifəyə malik şəxslərin vasitəsi ilə, o cümlədən də keçmiş Baş Qərargah rəisi Nəcməddin Sadıqovun vasitəsi ilə bu əməliyyat təşkil olunub ki, bax həmin üstünlüklər aradan qalxsın, yada

zəiflədilsin. Bü üstünlüklər harada əldə edilmişdi? Məhz Tərtər istiqamətində, çünki həm Lələtəpə yüksəkliyi, həm Talış kəndinin girəcək hissəsi hansı ki, 2016-cı ilin aprel ayında azad edilmişdi, məhz o istiqamətdi. Yəni, bu mənə elə gəlir ki, hər bir halda bir-biri ilə əlaqəli məsələdir və vaxtlara da baxsaq, üstündən çox vaxt keçmir yəni 2016-cı ilin aprelində bu hadisə baş verir 2017-ci ilin mayında yəni bir sonra bu məsələlər həyata keçirilir. Dəqiq necə olması üçün yenidən ciddi araşdırmalara ehtiyac var" – deyə Rəsul Cəfərov bildirmişdir.

Rəsul Cəfərovun fikrincə "Məqsəd əsl cinayətkarları gizlətmək və ya sadəcə, Azərbaycan Ordusuna zərbə vurmaq, daha konkret desək fəallıq nümayiş etdirmiş və fərqlənmiş hərbçiləri cəzalandırmaqla döyüş ruhuna xələl gətirmək, yaxud tamamilə başqa bir məqsəd ola bilər."

"Tərtər işi" ilə bağlı həqiqətlərin ictimayyətə çatdırılmasında və məlumatlandırılmasında hüquq müdafiəçisi Oktay Gülalıyev xüsusi fədakarlıq göstərib.

"İlk əvvəl heç valideynlərin də etirazı yox idi, insanlar qorxu içində yaşayırdı, həm də ki, həbs edilənlərin hamısının xain olduqları, ermənilərlə əməkdaşlıq etdikləri barədə məlumat yayılırdı, - hüquq müdafiəçisi deyib. - Biz bu məsələni araşdırmağa başladıq və işgəncəyə məruz qalanların qohumları ilə, keçən ildən başlayaraq, əlaqə saxlamağa çalışdıq".

Nəticədə, Gülalıyevin sözlərinə görə, təkcə məhkəməylə təsdiqlənmiş işgəncə qurbanlarının sayı azı 101 nəfərdir, onlardan doqquzu işgəncədən ölüb.

BBC-də üç müxtəlif hərbi məhkəmənin qərarlarının sürəti var - bu sənədlərdə zərərçəkənlərin geniş siyahısı yer alıb. Siyahılardakı bəzi adlar və soyadlar təkrarlanır, lakin söhbətin onlarla insandan getdiyini, həqiqətən də, iddia etmək olar.

Gülalıyev daha azı 25 nəfərin işgəncələrə məruz qaldığını və sonradan xəyanətə görə məhkum olunduğunu söyləyib.

"Tərtər işində" həmişə "ən azı" ifadəsini işlədirəm, çünki bunlar yalnız bizim tapa bildiyimiz insanlardır", - hüquq müda-

fiəçisi qeyd edib.

"Biz kütləvi qanun pozuntularını, qohumların və vəkillərin məhkəmələrə buraxılmadığını gördük və Müdafiə Nazirliyindəki yüksək rütbəli şəxslərin praktiki olaraq linç məhkəməsi qurduqlarını aşkar etdik", - Gülalıyev deyib.

Şahid və zərərçəkmiş şəxslərin, öldürülənlərin yaxınlarının ifadələrinə və hüquq müdafiəçilərinin dediklərinə görə həbs edilmiş hərbiçilərə verilən işgəncələr **“Ya öl, yada boynuna götür”** prinsipi ilə aparılıb.

Öldürülmüş hərbiçi gizir Ruslan Ocaqverdiyevin həyat yoldaşı Rəvanə Ocaqverdiyevin ifadələrinə görə "Onun ağzına köynəyini soxublar, boğublar, satqın olduğunu etiraf etməyini tələb ediblər və deyiblər ki, iki seçimin var: “ya öl, yada etiraf elə” Eqsqumasiya edilmiş hərbiçinin müayinəsi göstərib ki, gizir Ocaqverdiyev döş qəfəsində aldığı zədələr nəticəsində ölüb. Şahidlərin ifadələrinə və məhkəmə tibbi ekspertizasının məlumatlarına görə, Ocaqverdiyevə suda boğularaq müxtəlif dərmanlar vurulub. Bütün bunlar ölümün baş verməməsi üçün həkimin iştirakı ilə baş verib.

Öldürülmüş 39 yaşlı polkovnik-leytinant Saleh Qafarovun həyat yoldaşı Nətavan Qafarovun ifadəsinə görə Qafarovu edən aparıblar, işgəncələr nəticəsində həbsinin 2-ci günü öldürülüb, lakin meyidi 2 həftədən sonra verilib və hansı ki, tabutun açılmasına icazə verilməyibdi. Nətavan Qafarova deyib ki, ərinin əlini-qolunu bağlayıblar, suda boğublar, elektrik cəryanı ilə vurublar, dırnaqlarını çıxarıblar, çənəsini sındırıblar, 2-ci mərtəbədən yerə atıblar, sonra da Qafarov komaya düşənə qədər işgəncə verməyə davam ediblər.

“Tərtər işi” ilə bağlı baş verən qanunsuzluqları, özbaşnalıqları diqqət mərkəzinə gətirən hüquq müdafiəçisi Oktay Gülalıyevı 29 oktyabr 2019-cu il tarixdə

Bakının mərkəzində piyada keçidində bir maşın vurub. Hadisə nəticəsində o ağır xəsarət alıb, komaya düşüb, bir neçə dəfə əməliyyat olunub və hələ də fəaliyyət qabiliyyətində deyil. Hü-

quq müdafiəçiləri və vəkillər Gülalıyevin qəsdən vurulduğunu bildirirlər. Repressiya və İşgəncə Əleyhinə Komitənin üzvü Rövşən Əhmədli Oqtay Gülaliyevin avtomobillə vurulması ilə bağlı istintaqının obyektivliyinə şübhə ilə yanaşdığını bildirib. Qeyd edək ki, Azərbaycan Respublikası Baş Prokurorluğu sözü gedən hadisədən bir neçə ay öncə Oqtay Gülaliyevi sosial şəbəkələrdə “Tərtər işi” ilə bağlı paylaşımlara görə məsuliyyətə cəlb ediləcəyi haqda xəbərdarlıq edib. Həmin dövrdə Azərbaycan Respublikasının Baş Prokuroru Zakir Qaralov idi hansı ki, 20 il bu vəzifəni tuturdu, 2020-ci ilin aprelin 30-da isə vəzifədən azad ediliib, yerinə isə Kamran Əliyev Baş Prokuror təyin olunub.

“Tərtər işi” ilə bağlı hadisələrin ardıcıllığı və masştabı, proseslərin təhlili, analizlər, əldə edilmiş faklar onu deməyə əsas verir ki, Azərbaycan Ordusuna qarşı xain plan Rusiya xüsusi xidmət orqanları tərəfindən hazırlanıb və onların Azərbaycanda yüksək vəzifədə olan xidmətçiləri tərəfindən həyata keçirilib. Dəqiqliklə demək olar ki,Tərtər hadisələrinin çoxlu hədəfləri olub. Sözsüz ki, birinci hədəf: Azərbaycan Ordusunun yüksək döyüş ruhunu zəiflətmək, ordu daxilində şəxsi heyyətin bir-birinə inamsızlıq hissini yaratmaq, Azərbaycan ordusunun nüfuzuna xələl gətirmək, Azərbaycan Ordusunun ışğalda olan ərazilərinin müharibə yolu ila azad etmək planından çəkindirmək və nəticə etibarı Azərbaycanı Rusiyanın təsir dairəsindən çıxmağa imkan verməmək idi.

Sözsüz ki, digər səslənən versiyalar yuxarıda qeyd edilən hədəfin detalları və ya tərkib hissəsidir. Bəllidir ki, rus-erməni birliyinin işğal etdiyi və az qala 30 ilə qədər işğalda saxladığı ərazilərdə ən etibarlı hərbi müdafi sistemi, istehkamı, müdafiə xətti Ağdam rayonu istiqamətində qurulmuşdu. Tərtər istiqaməti isə Azərbaycan Ordusunun mümkün hərbi əməliyyatları üçün Ağdam rayonu istiqmətindən daha əlverişli idi hansı ki, 2016-cı il aprel döyüşlərində Azərbaycan Ordusunun əldə etdiyi uğur bunu təsdiqlədi. Ona görə də Tərtər hadisələrinin bir məqsədi də Azərbaycan Ordusunun mümkün hərbi əməliyyatlarını Tərtər

istiqmətindən yayındırmaq və Ağdam rayonu istiqmətinə yönəltmək idi ki, Azərbaycanın Ağdam istiqmətində hərbi əməliyytlarını, hücumlarını dəf etmək mümkün olsun.

44 günlük Vətən Müharibəsi öncəsi Azərbaycan Ordusunun Baş Qərargah rəisi Nəcmədin Sadıqov və bir sıra yüksək vəzifəli generallar vəzifəsindən kənarlaşdırıldı və müharibə anlayışına yeni yanaşma və tətbiqlər gətirən Azərbaycan düşmən üzərində möhtəşəm qələbəsini qazandı.

Ümumən "Tərtər işi" ilə bağlı Sabiq təhlükəsizlik xidməti əməkdaşı Ərəstun Oruclu hesab edir ki, bu məsələnin aydınlığa çıxması üçün dövlət rəhbərliyi səviyyəsində müdxailə lazım gəlir, çünki burada haqsızlıq edənlərin sayı o qədər çoxdur ki, elə fiqurların, adları çəkilir ki, bunu hansısa bir dövlət qurumu, istəsə belə, tam olaraq açıqlığa çıxara bilməz.

## Düşmən maraqlarına xidmət edən yüksək səlahiyyətlilər

Son iki əsrdə Azərbaycan xalqının və dövlətinin tarixinin ən qururverici dövrünü yaşadığımız bir zamanda, sapı bizdən olan baltalar dövlətçiliyimizə, xalqımıza xəyanətkar əməllərindən qalmır. Ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etdiyimiz bir dövrdə, hər bir azərbaycanlının məsuliyyətli olması olduqca son dərəcə vacib məsələdir. Tarix göstərir ki, Azərbaycan xalqı milli məsələlərdə həmişə məsuliyyətli davranmış, Milli Birliyimizi gücləndirtmiş və qorumağa çalışmışdır. Ancaq bəzi məmurlar isə, vətənə sədaqətli olması həm vətəndaş, həmdə vəzifə borcu olmasına rəğmən tam əksinə fəaliyyət göstərir.

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlunun, Azərbaycanın Ukraynadakı səfiri Elmira Axundovun, Milli Məclisin deputat mandatı əlində olan Rasim Musabəyovun xarici KİV-nə verdiyi açıqlamaları nəinki təəssüfedici, qəzəb doğuran, olduqca düşündürücüdür. Bir baxın, Azərbaycanın Rusiya Federasiyasındakı səfiri Polad Bülbüloğlu "Russia Today" xəbər

agentliyində keçirdiyi konfransında "Qarabağdakı ermənilərə mədəni muxtariyyət verilə bilər"- deyir və təmsil etdiyi Azərbaycan Respublikasının xarici və daxili siyasətini müəyyənləşdirən ölkə Prezidentinin Qarabağla bağlı verdiyi çox saylı açıqlamalarının tam əksini dilə gətirir. Bu nə deməkdir? Polad Bülbüloğlu ya ölkə Prezidentinin siyasətindən xəbərsizdir ya, məsələlərə öz siyasi baxışı var ya da, Ermənistanın dövlət və millət maraqlarına xidmət edir. Digər bir məqam: Polad Bülbüloğlu Azərbaycan tərəfindən vurulmuş rus vertolyotu barədə "müharibədə hər şey ola bilər"- deyə Rusiyada kəskin ictimai narazılığa səbəb olan açıqlama verir... Nə deyim... Mənə elə gəlir ki, Polad Bülbüloğlu ya icra etdiyi vəzifənin məsuliyyətini anlamır, ya danışdığı sözlərin nə mənasını və onların verə biləcək effektini dəyərləndirə bilmir. Ancaq görünən odur ki, Polad Bülbüloğlu Azərbaycanın Rusiyadakı səfiri kimi Azərbaycanın milli maraqlarını qorumaq əvəzinə, onun maraqlarına ziyan gətirməklə məşğuldur.

Daha bir səfirimiz, Azərbaycanın Ukraynadakı səfiri Elmira Axundova isə elə bil Türkiyəyə və türklərə qarşı düşmənçiliyi var. Ukraynada populyar olan Savik Şusterin "Svoboda Slova" verilişinə onlayn qatılan Elmira Axundova Türkiyənin Qarabağ münaqişəsinin həllindəki rolunu danmağa çalışıb. Şusterin "Bu gün Azərbaycanın əsas müttəfiqi Türkiyədir, Türkiyə həm də Zaqafqaziyada çox ciddi faktordur" replikasına səfir "ola bilər" deyərək, çox qısa formada cavab verib. Aparıcı Elmira Axundovanın ifadəsinə təəccübünü gizlətməyərək, onun "ola bilər" sözlərini bir neçə dəfə təkrar etdi. Əlavə olaraq, Elmira Axundova Azərbaycanın Ermənistan üzərində qələbəsinə görə Türkiyəyə yox, Rusiyaya təşəkkürünü bildirib. Xalqımız, dövlətimiz, dövlət başçısı isə Türkiyəyə cənab Ərdoğana bizi dəstəklədiyinə görə təşəkkür edir. Rusiya isə bu müharibə faktiki rəqib tərəf olaraq Azərbaycana qarşı bütün mümkün vasitələrdən istifadə etdi ki, Azərbaycan məğlub olsun. Ukraynanın suveren ərazisini işğal edən Rusiya, Azərbaycanın Ukraynadakı səfirinin

Rusiyaya simpatiyası, Ukraynanın Türkiyə ilə hərbi müttəfiqlik səviyyəsinə çatan əməkdaşlığı, Ukraynanın Azərbaycan ərazi bütövlüyünün bir mənalı dəstəyi, Ukraynanın öz ərazi bütövlüyünü pozan Rusiyaya qarşı mübarizə aparması fonunda Azərbaycanın Ukraynadakı səfiri Elmira Axundovanın Rusiya sevgisi, Türkiyəyə nifrəti Azərbaycan dövlətinə hansı təhlükələr yaradır? Azərbaycan-Türkiyə-Ukrayna münasibətlərinə necə təsir edir? Görünən isə odur ki, Elmira Axundova dövlətimizin elan etdiyi siyasətin əksinə gedir və onun üçün Rusiyanın siyasi maraqları Azərbaycanın və qardaş Türkiyənin maraqlarından üstündür. Təsəvvür edin publik şəkildə Rusiyanın maraqlarına xidmət edən açıqlama verən bir səfir gözdən, qulaqdan kənar vəziyyətdə necə Rusiyanın maraqlarına xidmət edir?!

Milli Məclisin deputat mandatı əlində olan Rasim Musabəyov Rusiyanın "NTV" kanalına Rusiya-Türkiyə sülhməramlıları ilə bağlı müsahibə verib və "Türkiyə əsgəri Qarabağda olmamalıdır" – deyə bildirib. Rasim Musabəyovun verdiyi açıqlama Azərbaycan xalqının olduqca kəskin etirazına səbəb oldu. Bir baxın, Rasim Musabəyovun "MediaPost"a verdiyi açıqlamasına görə, deyilən tənqidlərə belə münasibət bildirib - "Məndən əl çəkin. Heç özüm o müsahibəni görməmişəm, oxumamışam. Belə boş-boş məsələlərə görə məni narahat etməyin"- deyə cavab verib. Əməllərinə görə xalqa belə açıqlama verməkdən imtina edən Rasim Musabəyov məgər bilmir ki, onun cibində Azərbaycan xalqını təmsil etmək üçün deputat mandatı var. Bu Rasim Musabəyov bilmir ki, Azərbaycan dövlətinin və xalqının daxili, ruhi istəyinə uyğun olaraq türk qardaşalarımızı Azərbaycanda görmək istəyən xalqın necə istəyinə və seçiminə qarşı çıxa bilər? Rasim Musabəyov bilmir ki, deputat seçkisində xalqın istəyi və seçimi ilə deputat mandatına yiyələnmək olur? Əgər xalqın seçimi və istəyi sizin üçün önəmli və vacib deyilsə - siz onda necə deputat olmusuz? Rasim Musabəyov hər şeyi yaxşı bilir, sadəcə rus ağalarının əmrini və istəklərini yerinə yetirir, Azərbaycan dövlətinə xalqına qənim

kəsilmiş babası Qəzənfər Musabəyov kimi.

Bu Rasim, o həmin Qəzənfər Musabəyevin nəvəsidir hansı ki, 1918-ci il Mart qırğını-azərbaycanlıların soyqrımı zamanı Bakı Şəhər kommunasının sədri Şaumyanın əmrini həyata keçirən əsas təşkilatçılardan biri olub. Həmin vaxtda Qəzənfər Musabəyov Bakının hərbi komendantı idi. Dövrün gerçək hadisələrindən biri də Məmməd Əmin Rəsulzadənin yaratdığı Müsavat Partiyası ilə bağlıdır hansı ki, Müsavatın güclənməsi Bakı kommunasını daha doğrusu bolşevik Rusiyasını və erməni daşnaklarını bərk qorxuya salırdı, Şaumyanın başlıca məqsədi də məhz Müsavatı ləğv etmək idi. Bu işdə Qəzənfər Musabəyov Şaumyana misilsiz xidmət göstərib. 1918-ci ildə müstəqilliyini qazanmış 23 ay sonra aprel ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsində Qəzənfər Musabəyovun çox böyük xidməti var. Tarix təkrarlanır, 1992-ci ildə nəvə Rasim Musabəyov İsa Qəmbərin rəhbərliyi ilə təsis edilən Müsavat Partiyasının Divan üzvü idi, ancaq o da Musavatı tərk elədi. Azərbaycanın “ot kökü üstə bitər” məsələsi olduqca dəqiq deyilir. Bu həmin Musabəyovlar sülaləsidir ki, dövründən asılı olmayaraq müstəqil Azərbaycan Xalq Cümhuriyyətinə, müstəqil Azərbaycan Respublikasına, daha doğrusu, hər zaman Azərbaycan xalqının müstəqilliyinin qəsdinə durublar, Azərbaycanı Rusiyanın nəzarətində saxlamaq missiyasına xidmət edirlər.

Yeri gəlmişkən, Azərbaycan Respublikasının sabiq Xarici İşlər Naziri Tofiq Zülfüqarov Rasim Musabəyovu dəstəkləyərək Türkiyə hərbçilərinin gəlməsini istəyənləri “xroniki axmaq” adlandırdı, Tofiq Zülfüqarov sözsüz ki, savadlı və ağıllı adamdır, onun dediyi “Türkiyə hərbçilərinin Azərbaycan hərbçiləri ilə birlikdə münaqişənin Rusiya və Ermənistan iştirakçıları ilə üzbəüz yerləşdirilməsi fikri psixoloji baxımından qarşıdurma hissi və məhz bu konfiqurasiyaya uyğun olaraq soyuqluğun yaranmasına şərait yaradır” fikirlərində müəyyən dərəcədə həqiqət var, ancaq Tofiq müəllim bir az gecikib, ikinci dünya müharibəsindən sonrakı gördüyünüz dünyanın siyasi

düzəni dəyişib, dünya artıq iki qütblü deyil və reallıq budur ki, beynəlxalq məsələlərin, konfliktlərin həllində beynəlxalq humanizm və hüquq normaları artıq formal xarakter alıb, nəhayət prezident İlham Əliyev qeyd etdiyi kimi "güc faktoru" önə çıxıb. Azərbaycan dövləti məhz "güc faktoru"dan istifadə etdiyi üçün bu gün öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdi, indi kim deyə bilər ki, "güc faktoru" ədalətin bərpasına xidmət etmədi?!

Azərbaycan xalqının əzəli torpaqlarında erməni dövlətinin yaradılması, 1920-ci ildə müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin bolşevik Rusiya və erməni daşnakları tərəfindən işğal edilərək süqutu, 114000 kv.km ərazi ilə SSRİ tərkibinə zorla qatılaraq 1991-ci ildə 18 oktyabrda XX əsrdə ikinci dəfə müstəqillik qazanaraq SSRİ-ni 86600 kv.km ərazi ilə, daha doğrusu, 27400 kv.km ərazi itkisi ilə tərk etməsi, 1990-cı il 20 yanvar faciəsi, XX əsrdə ermənilərin Azərbaycan xalqına qarşı ən azı 4 dəfə soyqırım törətməsi, bir milyondan çox qaçqın və köçkünlərimizin dədə-baba yurdlarından qovulması, Qarabağımızı qədim erməni torpaqları adlandırmaqları, canımız, ruhumuz Şuşada şərəfimizin tapdalanması, təhqir edilməsi, rus-erməni birliyinin törətdiyi Xocalı soyqırımı kimi ağrımız, əsir götürülmüş qız-gəlinlərimiz, azərbaycanlıları qorxaq adlandıraraq Azərbaycana meydan oxumaqları, məscidlərimizdə donuzların saxlanması, "yeni müharibə, yeni ərazilər" hədələri, 44 günlük müharibə zamanı Ermənistan və Rusiyanın müharibə cinayətləri, Rusiyanın qadağan olunmuş nüvə başlığı daşıya bilən ballistik raketlərlə Azərbaycanın şəhərlərinin vurulması məgər 27-si sentyabra kimi "fikri psixoloji baxımından qarşıdurma hissi" yaratmırdımı? Biz hansı haqla "fikri psixoloji baxımından qarşıdurma hissi"ni nəzərə almalıyıq?!

## Büdcəni boşaldan "düşünülmüş" qərar verənlərin məqsədi

44 günlük müharibədə zəfər qazanan Azərbaycan üçün işğaldan azad edilmiş, ancaq faktiki yerlə yeksan edilən, bir salamat binası belə qalmayan dəhşətli bir mənzərə yaratmış erməni vəhşiliyinin qurbanı olmuş, necə deyərlər, 4 Luksenburq dövləti boyda olan ərazilərimizin bərpası, qaçqın və məcburi köçkünlərin qayıdışı, məskunlaşma ən vacib məsələdir. Sözüz ki, bütün layihələrin həyata keçməsi üçün Azərbaycana olduqca böyük milyardlarla vəsait lazımdır. Dünya iqtisadiyyatının məlum koronavirus pandemiyasına görə iflic vəziyyətə düşməsi Azərbaycanın gəlirlərinə xeyli zərbə vurub. Gizli deyil ki, Azərbaycan iqtisadiyyatı və ümimən dövlət büdcəsi əsasən enerji daşıyıcılarının ixracı üzərində qurulub və formalaşır. Dünya bazarında enerji daşıyıcılarının qiymətinin kəskin düşməsi Azərbaycan dövlətinə böyük çətinliklər yaradıb. Belə bir iqtisadi vəziyyətdə müharibədən sonrakı siyasi şəraitdə işğaldan azad etdiyimiz ərazilərimizin bərpası, yenidən qurulması və böyük qayıdış üçün hər bir manatın vacib xərəclərimizə yönəldilməsi əsl həqiqətdə Milli məsələ vacibliyi səviyyəsindədir. Bu tarix bizimdir və ölkəmizdə baş verənləri olduğu kimi də qeyd etmək lazımdır ki, vacib nəticələr çıxara bilək.

Azərbaycan dövləti və xalqı təkcə xarici düşmənlə vuruşmadı, daxili düşmənlərimiz xarici düşmənlərimizdən daha təhlükəli, gözə görünməz və güclü idi. Daxili düşmənlərimiz Azərbaycanın qazandığı qələbəni dəyərdən salmağa, qazandığımız qələbəni, qalib xalq hissini unutdurmağa çalışırdı. Elə bil ki, Azərbaycan xalqının sevinməsinə imkan vermək istəmirdilər. Daxili düşmənlərimiz hər vasitədən istifadə edərək xalqımızın həyat şəraitinin, sosial durumunun ağırlaşmasına çalışırdı ki, qalib Azərbaycan xalqı qazandığı qələbəyə görə peşman olsun. Ancaq, tarix dəfələrlə göstərib ki, Azərbaycan xalqı Milli maraqlar ətrafında birləşməyi və özünü qurban verməyi bacarıb və

növbəti dəfə də bacardı. Müharibənin bu göstəricisi düşməni daha da qorxudurdu, elə bir Azərbaycan xalqı yaşayırmış ki, torpaq uğrunda şəhid olsun! Ölümün özü Azərbaycan xalqından qorxmuşdu...

2021-ci il üçün işğaldan azad edilmiş ərazilərimizin bərpasına 2.2 milyard vəsait ayrıldığı halda Azərbaycan Mərkəzi Bankı ilkin layihəsi 218 milyon avro (436 milyon manat) dəyərində özünə yeni dəbdəbəli inzibati bina tikməyə başladı. Mərkəzi bankın qərarı cəmiyyətdə olduqca böyük narazılıq yaratdı ancaq, Mərkəzi Bank dediyindən əl çəkmədi. Mərkəzi Bank yarım milyard manatı işğaldan azad edilmiş ərazilərimizin bərpasına yox, özü üçün səmərəsiz, gərəksiz dəbdəbəli binaya xərcləməyi göstərməklə sübut etdi ki, Azərbaycan Mərkəzi bankı həqiqətən Milli Bank deyil.

Müharibədən qalib çıxmış silahlı qüvvələrimizin maddi texniki bazasının təminatı, şəhid və qazi ailələrinin maddi və sosial həyat şəraitinin yaxşılaşdırılması vacibdir, yoxsa yeni dəbdəbəli bina? O, həmin Mərkəzi Bank və həmin rəhbərlikdi ki, 2015-ci ildə iki dəfə Azərbaycan manatını devalvasiya etdi, nəticəsində yüzlərlə vətəndaşımız yeganə yaşayış yerindən məhrum oldu, evsiz - eşiksiz qaldı.

Azərbaycan dövlət neft şirkəti özünə tikdirdiyi və tikintisi 2015-ci ildə başa çatmış “SOCAR Tower” binasına 414 milyon 237 min ABŞ dolları xərcləyib. Hələ də tikintisi davam edən “Azərsu” özünün yeni binasının layihə dəyəri isə 120 milyon ABŞ dolları məbləğindədir. Azərbaycan dövlətinin əsas gəlirləri enerji daşıyıcılarının ixracından formalaşır. Mərkəzi Bankın müstəsna olaraq ölkənin milli valyutasının emissiya funksiyası, büdcənin formalaşması, ondan səmərəli istifadənin təşkili və maliyyə dövriyyəsinə nəzarət olduğu halda tam əksinə fəaliyyət göstərir, dövlət büdcəsinin boşalmasına, manatın dəyərdən düşməsinə səbəb olan əməliyyatlar keçirməklə Azərbaycan xalqına açıq düşmənçilik nümayiş etdirir.

2021-ci il başlar başlamaz, Qalib Azərbaycan xalqının

sosial, maddi durumunu ağırlaşdıran qərarlar sistematik halda işə düşdü. Tarif Şurası ölkə üzrə ən vacib yanacağın qiymətinin qaldırılması ilə bütün məhsulların qiymət artımına səbəb olan qərar verdi. Ardınca da Tarif Şurası Azərbaycanda suyun qiymətini qaldırdı.

Bütün Azərbaycanın narazılığına səbəb olan qərarlara qarşı ziyalılar, iqtisadçılar, bəzi deputatlar, ictimai-siyasi aktivlər çıxış etsələr də heç nə dəyişmədi. Hətta tənqidlərə məruz qalan Mərkəzi Bank çıxıb acıqlı bir açıqlama verdi: "öz pulumuzla tikirik"- dedi. Bəli, "Həyatda ən çətin iş, özünü bilərəkdən qanmazlığa vuran adamı qandırmaqdır". Büdcəni boşaldan iqtisadı və sosial baxımdan səmərəsiz, əhəmiyyətsiz, bahalı layihələr, əhalini müflisləşdirən, qıcıqlandıran xalq, dövlət və hakimiyyət arasında uçurum və nifrət yaradan qərarları verənlərin məqsədi tam aydındır - 44 günlük müharibədə Zəfər sevincimizi, Qalib Xalq olduğumuzu unutdurmağa, başladığımız işimizin tamamlamağı əngəlləməyə çalışırlar. Bu daha təhlükəli müharibənin bitmə tarixi isə görünmür, çünki məqsədindən əl çəkməyən Rusiya, İran və bir sıra ölkələrin maraqlarına xidmət edən daxili düşmənlərimizin çoxu hələ pusqudadır.

## İranın qatı Azərbaycan düşmənçiliyi

İranın, farsların Azərbaycana qarşı düşmənçiliyi bütün tarixlərdə özünü açıq səkildə göstərib. O qədər də uzaqda olmayan Rusiya ilə İran Qacar dövləti arasında bağlanan 1813-cü il Gülüstan və 1828-cil Türkmənçay müqavilələri Azərbaycanı yarıya bölən bir xəncərdir. Bu müqavilələrin özü düşmənlərimizin kim olduğuna sözsüz və söhbətsiz dəlili olaraq qalacaq. 1990-cı illərdə Şimali Azərbaycan öz müstəqilliyini qazandı. Bəli, tarix təkrarlanır. Həmin düşmənlər eyni rolunu davam etdirdilər və həmin illərdə də Azərbaycan torpaqlarını işğalı əsasən məhz Rusiya və İranın hərbi siyasi dəstəyi ilə baş tutmuşdu. Təbii ki, İran heç bir zaman Azərbaycanın güclü bir

dövlət olmasında maraqlı ola bilməz və sözsüz ki, Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarının azad edilməsini əngəlləyən mümkün hər bir vasitədən istifadə edirdi. Lakin Azərbaycan dövləti bütün işğal müddətində əsas məqsədinə çatmaq üçün işini davam etdirirdi. Nəhayət ki, tarixə 44 günlük müharibə kimi düşən və Azərbaycanın şanlı qələbəsi ilə nəticələnən müharibə dövründə də və müharibədən sonrakı dövrdə də İran Azərbaycana qarşı düşmən xislətini, niyyətini gizlədə bilmədi.

İkinci Qarabağ müharibəsinin balasalmasından günlər öncə İranın Azərbaycana qarşı növbəti xəyanətkar və düşmən mövqeyi İranın "Norduz" sərhəd keçid məntəqəsindən Rusiyaya məxsus silah və hərbi texnikanın Ermənistana daşınması faktı ilə təsdiqləndi və hətta İran İslam Respublikasının Azərbaycandakı səfirliyi İran ərazisindən Rusiyaya məxsus silah və hərbi texnikanın Ermənistana daşınması haqqında yayılan xəbərlərlə bağlı açıqlama verməyə məcbur oldu. 44 günlük müharibə zamanı İran Azərbaycanla sərhəddə xüsusi radar sistemləri və dinləmə stansiyaları quraşdıraraq əldə etdiyi məlumatları Ermənistan Baş Qərargahına ötürdüyü ortaya çıxdı. Müharibənin ilk günlərindən etibarən İran tərəfi 70-80 nəfərlik xüsusi avadanlıqlarla təchiz edilmiş qrup və texnikanın Qarabağ sərhədində yerləşdirmişdi. Cəbrayılda yerləşən Xudafərin körpüsünə paralel xətt üzərində mövqe tutan İran əsgər və texniki mütəxəssisləri PUA-lar, döyüş təyyarələri və vertolyotlarının hava hərəkətini, Azərbaycan əsgərlərinin radio frekanslarını izlədikləri faktı təsdiqini tapıb. Faktı İran mənbələri və eləcədə, Azərbaycandakı təlimlərdə iştirak etmiş yüksək rütbəli Türkiyə hərbiçisi təsdiqləyib. İranlı mənbə qeyd edib ki, həmin baza türklərin tamamilə türk kənd və qəsəbələri əhatəsində olduğundan İran əsgərləri təhlükəsizlik tədbirləri ilə baza ərazisini qoruyurdu.

İran hətta müharibədən sonra da öz qoşunlarını Qarabağ ərazisinə yerləşdirmək istəyirdi və bu planın həyata keçməsi üçün müxtəlif bəhanələr uydururdu. İran Məsləhət Şurasının katibi Möhsün Rzayi ölkəsinin Dağlıq Qarabağda atəşkəsə nəza-

rət üzrə Monitorinq Mərkəzində təmsil olunmasını təklif etdi. "İran Qarabağa girməli, Laçın dəhlizinə nəzarəti ələ almalı, kənar qüvvələri oradan qovmalıdır" - deyən Rzayinin bu iddiası Azərbaycan ərazilərinin faktiki işğalı demək idi.

Bütün müharibə dövründə olduğu kimi, İran müharibədən sonra da Azərbaycana qarşı düşmənçilik siyasətindən əl çəkmədi. İrandan yenə qanunsuz şəkildə içərisində silah-sursat və ərzaqla dolu olduğu güman edilən çox sayda yük maşınlarının Laçın dəhlizi vasitəsilə Dağlıq Qarabağa göndərilməsi faktı (video görüntülər) aşkarlaşdı. Məlumatı "Azad İran" teleqram kanalı təqdim edib.

İranın qatı düşmənçiliyinin səviyyəsini anlamaq üçün olduqca vacib bir məqamı diqqətimizdə saxlamalı və bunu heç vaxt unutmamalıyıq. İran Azərbaycana qarşı düşmənçiliyini ən iyrənc üsullarla aparır və əsasən Azərbaycan gəncliyini məhv etməyə çalışır. Hələ 1990-cı illərdən bu yana, Azərbaycan müstəqilliyini ilk vaxtlarında, erməni sifətli düşmənlərin işğalçılığına qarşı mübarizə aparıldığı çətin bir vaxtda İran Azərbaycan gəncliyini hədəfə almışdı, iki dövlət arasında sərhəd boşluğundan istifadə edərək İran molla rejimi Azərbaycana kütləvi narkotik maddələri ötürürdü. Dəhşətlisi də odur ki, Azərbaycan gənclərinin arasında narkotik maddələrdən istifadənin təbliği, yayılması və təmini, məhz, İran dövlətinin xüsusi xidmət orqanları tərəfindən aparılırdı.

Hal-hazırda da, müzəffər ordu və qalib xalq olaraq sərhədlərimizə nəzarətimizi bərpa etdikdən sonra, İran Azərbaycana qarşı düşmənçiliyini daha da sərtləşirib. İran xüsusi xidmət orqanlarının nəzarəti ilə qaçaqmal yolu ilə Azərbaycana narkotik maddələr ötürülür. Həmin qaçaqmalçılar İran xüsusi xidmət orqanlarının bilavasitə iştirakı ilə silah, xüsusi avadanlıqlarla təchiz olunur və Azərbaycan sərhədlərini pozaraq narkotik maddələrin ötürülməsinə cəhdlər davam etdirilir.

Düşmənlər üzərində şanlı qələbəsini qazanan Azərbaycan regionun söz sahibi kimi özünü təsdiqlədi. Müharibədən sonrakı

dövrdə İran gedən proseslərdən kənarda qaldığı üçün müxtəlif vasitələrdən, təzyiqlərdən istifadə edirdi ki, regionda öz varlığını göstərsin, proseslərdə iştirak etsin. İran bir neçə dəfə əhəmiyyətsiz təkliflərlə çıxış edərək öz vasitəçilik rolunu təklif etdi. Hətta İran xarici işlər naziri Cavad Zərif həm Bakıya, həm də İrəvana səfər etdi. (Yeri gəlmişkən Cavad Zərif May ayının 25-də Bakıya 26-sı isə İrəvana növbəti səfər etdi) İran Azərbaycana işğaldan azad edilmiş ərazilərdə quruculuq işlərində iştirak etmək üçün müraciətlər də edirdi. Azərbaycan isə siyasi və diplomatik qaydalara uyğun və mədəni şəkildə İranın Qarabağa aid bütün təkliflərini rədd edirdi. Təbii ki, İran öz məqsədindən imtina etmək niyyətində deyildi. Bu məqsədinə çatmaq üçün Azərbaycan dövlətinə və Prezident İlham Əliyevə qarşı müxtəlif formada təzyiq göstərməyə çalışırdı. İran dünya tarixində nümunəsi olmayan təxribata və təzyiqə əl ataraq öz düşmən mahiyyətini tam açıq şəkildə təqdim etdi.

16 noyabr 2020-ci il tarixdə Azərbaycan prezidenti İlham Əliyev həyat yoldaşı Mehriban xanımla işğaldan azad Cəbrayıl rayonuna səfər etdi. Səfər daxilində Azərbaycan İran sərhədində yerləşən bütöv Azərbaycanı ikiyə bölən Araz çayı üzərində tikilmiş Azərbaycanın qədim tarixinin şahidi Xudafərin körpüsünü ziyarət etdi. Noyabr ayının 17-si isə İranda sosial şəbəkələrdə Azərbaycan cəmiyyətini və eləcə də, dünya ictimaiyyətini dəhşətə gətirən İran tərəfindən Azərbaycan Prezidenti İlham Əliyevin nişangahdan çəkilmiş fotoları yayıldı. Hərbi ekspert Yuri Lyaminin fikrincə fotolarda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev optik görüntülü Draqunov snayper tüfəngi ilə (SVD) 1300 metrdən nişangaha alınıb.

İranda mətbuatın və sosial medianın güclü senzurada olduğunu nəzərə alsaq əminliklə demək olar ki, bu fotolar məqsədli şəkilidə yayımlanıb.

"Nişangahdan çəkilmiş fotolar İranın sosial şəbəkələrində eyni vaxta paylanıb. İran sosial şəbəkələrinə isə giriş ancaq anonimtordan mümkündür və hansı ki, Facebook-un "İslam

gözəllik konkurs" qrupunun üzvləri üç il həbs edilmişlər, oraya təsadüfən heç nə yüklənmir. Bu Azərbaycan üçün qorxunc bir işarədir"-deyə Rusiyalı hərbi müxbir Dmitri Steşin bildirib.




Ekspertlərin qənaətinə görə fotoların analizi onu göstərir ki, Azərbaycan Prezidenti İlham Əliyev və onun xanımı sərhədin o tayından, yəni İran tərəfdən nişangaha götürülüb.

İran Azərbaycan dövlətinə və onun atributu olan birinci şəxsinə qarşı xəyanətinin ən son həddini göstərdi. Təbii ki, Azərbaycan xalqı və dövləti İranın iyrənc, yolverilməz və bağışlanması mümkünsüz hərəkətini unudan deyil və lazımı nəticələr də çıxarılıb. Ancaq bu olay hər bir Azərbaycan vətəndaşının, hər bir türk etnosuna məxsus şəxsin yaddaşında qalmalıdır. İranın Azərbaycana qarşı hətta hər hansı bir neytrallığı mümkünsüzdür, İran Azərbaycan dövlətinin, xalqının qəsdinə hər an hazır duran tərəfdir.

İranın Azərbaycana qarşı düşmənçiliyinin, xəyanətinin həddi-səddi yoxdur. Vətən müharibəsi zamanı İran ordusu Azərbaycanın suveren ərazisinə soxularaq Ermənistanın məğlub

ordusuna dəstək verməyə çalışırdı. Azərbaycan ordusu Zəngilanı işğaldan azad etməyə doğru hərəkət edən vaxt bu istiqamətdə İran hərbi bölmələri Azərbaycan Ordusunun qarşısını kəsir. Məlum olur ki, İran İslam Respublikası Azərbaycanın ərazi bütövlüyünə məhəl qoymadan ölkəmizin suveren ərazisinə kobud şəkildə daxil olub. Kiçik çaplı silahlarla silahlanan və bir neçə pikapla hərəkət edən İran hərbçiləri, əvvəlcədən Azərbaycan hərbçilərinin yoluna beton sədlər qoyaraq, onların qarşısını kəsiblər. İranlıların izahı belə olub ki, guya beton səddi qoruyurlar. Bütün bunlar Azərbaycanın suveren ərazisində baş verib! Bu zaman Azərbaycan və İran komandirləri arasında yerdəki danışıqlar nəticəsiz başa çatıb və vəziyyət qızışıb. Bu səbəbdən ordumuzun Zəngilana istiqamətlənməsi bir neçə gün gecikib, Azərbaycan İran qüvvələri ilə döyüşə girməmək və ikinci cəbhə açmamaq üçün məcbur 14 km geri qayıdaraq Soltanlı kəndindən keçərək 20 km-lik E-002 yolu ilə getməli olurlar. Elə həmin gecə, oktyabrın 17-dən 18-nə keçən gecə diplomatik kanallarla İrana, Azərbaycan ərazisinə keçməsi barədə ciddi xəbərdarlıq edilir və bildirilir ki, əsgərlərini çəkməsə bunu cəmiyyətə açıqlayacaq. Bu da əlbəttə Güney Azərbaycandakı Azərbaycan türklərinin ciddi etiraz dalğasına səbəb olacaq. Aparılan gərgin danışıqlardan sonra İran hərbçiləri Azərbaycan ərazisini tərk edib. Ancaq İran müəyyən qədər də olsa istəyinə çatır, Azərbaycan Ordusunun surətli hücum əməliyyatlarına maneə olaraq geri çəkilməkdə olan Ermənistan ordusunun cəmləşməsinə, müdafiə xətti təşkil etməsinə şərait yarada bilir. Buna baxmayaraq, müzəffər Azərbaycan Ordusu düşməni məhv edərək Zəngilanı da işğaldan azad etdi. Məlumatı "Caliber” analitik "YouTube” kanalı, Azərbaycan dövlət televiziya kanalları verib. İran öz düşmən niyyətindən əl çəkmir və ardıcıl olaraq Azərbaycana qarşı silsiləli şəkildə düşmənçiliyini davam etdirir. Azərbaycan Ermənistan sərhədlərinin delimitasiyası və demarkasiyası prosesində Ermənistan tərəfinin əsasız yaratdığı qarşıdurmada 17 may 2021-ci il tarixdə erməni

mediasına müsahibə verən İran parlamentinin milli təhlükəsizlik və xarici siyasət komissiyasının sədri Mustaba Zonnuri Azərbaycana qarşı qərəzli açıqlama verərək məsələdə Ermənistanı dəstəklədiyini bildirdi. Məncə, əlavə şərhə ehtiyac yoxdur daha.

İran Azərbaycana qarşı düşmənçiliyini ən iyrənc üsullarla aparır və əsasən, Azərbaycan gəncliyini məhv etməyə çalışır. Hələ 1990-cı illərdən bu yana, Azərbaycan müstəqilliyini ilk vaxtlarında, erməni sifətli düşmənlərin işğalçılığına qarşı mübarizə apardığı çətin bir vaxtda İran Azərbaycan gəncliyini hədəfə almışdı, iki dövlət arasında sərhəd boşluğundan istifadə edərək İran molla rejimi Azərbaycana kütləvi narkotik maddələri ötürürdü. Dəhşətlisi də odur ki, Azərbaycan gənclərinin arasında narkotik maddələrdən istifadənin təbliği, yayılması və təmini məhz İran dövlətinin xüsusi xidmət orqanları tərəfindən aparılırdı.

Hal-hazırda da müzəffər ordu və qalib xalq olaraq sərhədlərimizə nəzarətimizi bərpa etdikdən sonra, İran Azərbaycana qarşı düşmənçiliyini daha sərtləşirib. İran xüsusi orqanlarının nəzarəti ilə qaçaqmal yolu ilə Azərbaycana narkotik maddələr ötürülür. Həmin qaçaqmalçılar İran xüsusi xidmət orqanlarının bilavasitə iştirakı ilə silah, xüsusi avadanlıqlarla təchiz olunur və Azərbaycan sərhədlərini pozaraq narkotik maddələrin ötürülməsinə cəhdlər davam etdirilir.

# Dördüncü fəsil
## Qənaət

### Azərbaycan birinci savaşı niyə uduzdu?

SSRİ adlı bir dövlət, qapalı cəmiyyət və imperiya idi. Bu dövlətin təbii ki, hər bir qapalı cəmiyyət kimi, hər bir imperiya kimi dağılması labüd idi. Belə dövlətləri "konservləşdirilmiş" dövlət adlandırırlar və təbii ki, saxlama müddəti müəyyən dövrə kimidir. ABŞ başda olmaqla qərb ölkələrinin SSRİ-nin dağılması üçün illər öncə hazırladığı plan nəhayət ki, baş tutdu. Əlbəttə ki, bu planın baş tutmasında 15 respublika da, milli azadlıq hərəkatları da müəyyən rol oynayıb, ancaq bu rol həlledici amil olmayıb. Sözsüz ki, mərkəz Moskvanın verdiyi və göz yumduğu boşluqlar boğulmuş milli azadlıq hərəkatlarının oyanmasına, dirçəlməsinə, vüsət almasına səbəb olub. Digər Sovet respublikaları sırasında öndə olanlardan biri də Azərbaycan idi. Ermənilərin Azərbaycandan torpaq iddiasına göz yuman SSRİ rəhbərliyi, ermənilərin Dağlıq Qarabağı Azərbaycandan qoparmaq istəklərini dəstəkləyən SSRİ, Rusiya rəhbərliyinin haqsız mövqeyinə görə Azərbaycan xalqının Milli Azadlıq Hərəkatı daha möhtəşəm və əyilməz oldu. 1990-cı ilin 19-20 yanvar gecəsi Sovet ordusunun Bakıda dinc Azərbaycan xalqına xəyanəti və qəsbkarlığı dünya tarixinə 20 Yanvar faciəsi kimi düşüb. Və sözsüz ki, 20 Yanvar qırğını SSRİ-nın dağılmasını tezləşdirən, Azərbaycanın müstəqilliyini qaçılmaz edən, Azərbaycan xalqının qəhrəmanlığının, müstəqillik hissinin ölməzliyinin sübutudur. Həmin dövrdə hər bir azəri türkü milli vəhdətin zərrəsinə çevrilmişdi. Bu vəhdət müstəqilliyimizi özümüzə qaytardı. Bu proseslərdə lider məhz xalqın özü idi.

XX əsrdə 2-ci dəfə müstəqilliyini əldə etmiş Azərbaycanda hakimiyyətə gəlmiş milli azadlıq hərəkatının rəhbərlərinin dövlət idarə etmə sistemində, ən əsası isə xarici siyasətdə bağış-

lanmaz səhvləri nəticəsində hakimiyyət boşluğu, hərc-mərclik baş alıb gedirdi. Müstəqil Azərbaycanın seçki yolu ilə ilk Prezidenti seçilmiş Əbülfəz Elçibəy Milli Azadlıq Hərəkatının ideoloji rəhbəri kimi siyasi rəhbər ola bilmədi, baxmayaraq ki, Əbülfəz Elçibəy Azərbaycan xalqının Milli Azadlıq hərəkatının ən parlaq nümayəndəsi və lideri idi.

Həqiqətən, bir Qarabağ müharibəsi veteranı kimi 1990-cı illərdə Qarabağ cəbhəsində uğursuzluğumuz məni rahat buraxmır, bunun səbəblərini hələ axtarmaqdayam. Ancaq, gəldiyim qənaət var və həmin qənaət də budur ki, o illərdə ən əsas uğursuzluqlarımızın səbəbi Azərbaycan hakimiyyətində səriştəsiz, bacarıqsızların hakimiyyətdə olması və onların buraxdığı siyasi səhvlərdir. İlk öncə onu deyim ki, Əbülfəz Elçibəy hakimiyyəti dövründə xarici siyasətdə buraxılan səhvlər bizi köməksiz etdi. Qarabağda müharibə getdiyi halda sovet-rus ordusunun Azərbaycandan təcili çıxarılması bizi ruslarla düşmən etdi, ermənilər buraxdığımız səhvlərdən istifadə edərək rus ordusunu Ermənistan ərazisinə dəvət etdi, onları özlərinə real müttəfiqə və bizə qarşı vuruşan orduya çevirdilər. Əlbəttə və sözsüz ki, rus ordusunun Azərbaycanda qalması müstəqilliyimizə bir başa təhdid idi. Ancaq ki, həmin siyasi şəraitdə rus ordusunun çıxarılmasının nəticəsini hesablamadan, təcili şəkildə aparılması təbii ki, gördüyümüz nəticələri verməli idi. Həmin dövrdə Qarabağ məsələsini xeyrimizə həll etdikdən sonra rus ordusunun çıxarılması məsələsi qaldırılmalı idi. Fikir verin, Qarabağ və ətraf rayonlarımızın işğalı məhz rus ordusunun Azərbaycandan çıxarılaraq Ermənistanda yerləşməsindən sonra baş tutub.

Fikrimcə ikinci vacib bir səhv o idi ki, Qarabağda müharibə getdiyi bir zaman, Rusiya və Ermənistan ilə ağır bir siyasi şəraitdə Əbülfəz Elçibəy Cənubi Azərbaycan məsələsini qaldıraraq qonşu İranla münasibətlərimizi korladı. Nəticədə, İran gizli, açıq-aşkar Ermənistanı dəstəkləməklə, hərbi və iqtisadi yardım etməklə Azərbaycana ağır zərbələr vurdu ki, cənubi Azərbaycan məsələsi gündəmdən düşsün. Məhz bu iki taleyüklü səhv

Qarabağ konfliktində əsas və həlledici amillərdən oldu. Azərbaycan prezidenti Əbülfəz Elçibəy bu iki əsas siyasi tələskənliklə Azərbaycana qarşı rus, fars, yəni, 2-ci və 3-cü cəbhələri açmağa səbəb oldu. Yenə də qeyd edim ki, Azərbaycan həmin tarixi şəraitdə gücünü səfərbər etmək əvəzinə gücünü parçaladı. İnkar edilməzdir ki, müstəqilliyimizə təhdid olan rus ordusunun Azərbaycandan çıxarılması ən vacib məsələlərdən idi, ancaq həmin tarixi, siyasi və hərbi şərait bizə əlverişli deyildi. Həmçinin, Cənubi Azərbaycan məsələsi də publik siyasi məsələ deyildi, tələsik həlli mümkün olmadığından təbii ki, cənub məsələsini qabartmaq, bununla da düşməni ayıltmaq, tədbirlər görməyə vadar etmək siyasi savadsızlıq və siyasi səhv idi.

Əbülfəz Elçibəy hakimiyyəti yenicə kövrək müstəqilliyini bərpa etmiş, müharibə aparan Azərbaycan Respublikasının ordu quruculuğunun təşkilini və orduya rəhbərliyi peşəkar hərbiçilərə deyil, mülki şəxslərə həvalə etmişdi. Heç bir hərbi təhsili olmayan Rəhim Qazıyev adlı bir mülki şəxsə müdafiə naziri postunun həvalə edilməsi əlbəttə ağır nəticələr verməli idi. Bunu isə qabaqcadan görməmək mümkün deyildi. Təkcə əqidə yoldaşlığına görə ölkənin taleyinin belə bir bacarıqsız insana həvalə edilməsini ən yumşaq halda səhv adlandırmaq olar. 1918 - ci ildə ilk müstəqilliyini əldə edən Azərbaycan, Milli Hökumət quruculuğunu məhz peşəkarlara həvalə etməklə qısa bir müddətə mükəmməl dövlət idarə sistemi və ordu yarada bilmişdi. Hərb naziri general Səməd bəy Mehmandarov və onun müavini general-leytenant Əli ağa Şıxlinski peşəkarlıqla onlara həvalə edilmiş işin öhdəsindən gəldilər və yüksək döyüş qabiliyyətli nizami ordu yaratdılar. Əbülfəz Elçibəyin isə müharibə aparan ölkənin ordu quruculuğu və müdafiəsini mülki şəxsə həvalə etməsi heç bir məntiqə sığmır.

Yeri gəlmişkən Əbülfəz Elçibəy dövlət başçısı olduğu halda, müharibə şəraitində, Azərbaycanın parçalanma ehtimalının yüksək olduğu bir zamanda heç bir dövlət orqanına xəbərdarlıq etmədən, səlahiyyətlərini təhvil vermədən ölkəni başsız

qoyaraq doğma kəndinə getməsi onun siyasi lider olmamasının və siyasi məsuliyyətsizliyinin sübutudur.

Haqq üçün qeyd etmək lazımdır ki, Əbülfəz Elçibəy hakimiyyəti dövründə müstəqil Azərbaycan dövlətinin bərpası üçün vacib siyasi addımlar atılmış, demokratik əsaslara uyğun dövlət idarə orqanları təşkil edilmiş, dövlət atributları təsdiq edilmiş, müstəqil Azərbaycan dövlətinin fundamental əsasları bərpa edilmişdir.

Azərbaycanın siyasi, hərbi böhran yaşadığı bir şəraitdə idarəçilik təcrübəsi və bacarığı olan mərhum prezident Heydər Əliyevin siyasi peşəkarlığı, liderliyi, nüfuzu sayəsində Azərbaycanın parçalanmasının və daha böyük faciələrin qarşısı alındı.

Sözsüz ki, bütün qeyd edilənlər Əbülfəz Elçibəyin əsl Azərbaycan sevdalısı olmasına, vətənpərvərliyinə türkçülüyünə və dövlətçilik istəyinə şübhə yarada bilməz. Sadəcə, Əbülfəz Elçibəy siyasi rəhbər kimi liderlik xüsusiyyətlərinə malik deyildi.

Azərbaycan dövləti Rusiyanın, İranın və qərb xristian dövlətlərinin təzyiqi altında Ermənistanla müharibə apardığı halda, həqiqətən bu qısa bir müddətdə tam fəaliyyət qabiliyyətli ordu yaratmaqda çox vacib və ən çətin məsələlərdən biri idi. Bu həyati vacib ordu quruculuğu məsələsinin peşəkar hərbiçiyə deyil, mülki şəxs R.Qazıyevə həvalə olunması isə vəziyyəti ağırlaşdırmış və ordu quruculuğunu yanlış istiqamətə yönəltmişdi. Bu yanlışlıqlardan biri də müharibə gedən bölgələrimizin müdafiəsini təşkil etmək məqsədi ilə yerli əhalidən batalyonların təşkil edilməsi idi. Əlbəttə ki, yerli özünümüdafiə dəstələri onsuz da mövcud idi, ancaq yerli əhalidən hərbi hissələrin təşkil edilməsi hərbi intizama mənfi təsir edirdi. Şəxsən mən özüm Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlar tərkibində Zəngilan rayonunda Azərbaycan - Ermənistan dövlət sərhədində hərbi xidmət keçirdim. Bizimlə sərhəddə qonşu kəndlərdə yerləşən postlarda yerli əhalidən təşkil olunmuş hərbi hissənin əsgərləri dururdu. Başqa kəndlərdə döyüş başlayan

kimi yerli əsgərlər narahatlıq keçirdiyindən postlarını tərk edərək ailələrinin təhlükəsizliyinin təmini ilə məşğul olurdular və bu hal Daxili Qoşunların durduğu postlardan başqa hər bir posta baş verirdi. Nəticədə, postlar boş qalırdı. Ancaq başqa rayon əhalisindən təşkil olunmuş Daxili Qoşunlarda belə bir problem yox idi. Odur ki, yerli əhalidən təşkil olunmuş hərbi hissələr digər döyüş zonalarında xidmət keçməli idi.

Yeri gəlmişkən deyim ki, məhz bu səbəbdən də Azərbaycanda 1-ci Qarabağ müharibəsi veteranlarının sayı olduqca çoxdur. Bəzi məlumatlara görə bu say 200000-dən (iki yüz min) çoxdur. Yerli əhalidən hərbi hissələrin təşkili formal olaraq veteranların sayının çox olmasının səbəbidir. Dərd elə orasıdır ki, veteranların çoxu məhz işğaldan azad etdiyimiz rayonlarımızın əhalisinin hesabına düşür. Gəlin etiraf edək ki, yerli əhalinin çoxu orduya yazılsa da faktiki olaraq döyüşlərdə iştirak etmirdi. Ancaq formal olaraq, yerli əhali kimi yerli hərbi hissələrə yazıldıqlarından və həmin hərbi hissələr döyüşlərdə iştirak etdiyi üçün orduya formal yazılanlar da veteran statusunu ala biliblər. Müstəqilliyimizin ilk günlərində dövlət siyasətinin düzgün aparılmaması, ordu quruculuğunun peşəkarcasına qurulmaması 1-ci Qarabağ müharibəsinin ağır nəticəsinin səbəbidir.

## İran-fars şiəçiliyi niyə Azərbaycanda oturuşa bilmir?

İranın Azərbaycan xalqına və dövlətinə qarşı düşmənçiliyinin İran-fars şiəçiliyi və islam təəssübkeşliyi adı ilə reallaşdırmaq cəhdi ümumən nəticəsiz olaraq qalır. Tərəfsiz dinşünas və ilahiyyatçı alimlərin yekun bir fikri ondan ibarətdir ki, İranın təqdim etdiyi şiə modelinin islamla çox az uyğunluğu var və İran-fars şiəçiliyi həm İran daxilində, həm də xaricdə siyasi məqsədlər üçün bir vasitə kimi istifadə olunur. Məhz bu səbəbdən də İran-fars şiəliyi əsasən şiəçiliyə etiqad edən Azərbaycanda oturuşa bilmir.

Bu mövzu çox dərin siyasi təhlil və analiz tələb edən, eyni zamanda dini etiqaddan daha çox psixoloji məsələdir və məsələyə təkcə din azadlığı, islam təəssübkeşliyi, şiəçilik kontekstindən baxmaq düz deyil. Məsələ daha genişdir və din kölgədə qalmağa məcbur nəticədir.

Bəşər tarixində dövlətlər yaranır, dağılır, biri digəri ilə əvəz edilir. Prosesdə dinlər yaranır və müəyyən dövrdə hakim düşüncə tərzinə çevrilir, sonra mövqeyini itirir, yaxud zaman onu özü tarixdən silir. Birinci məqam odur ki, dövlətləri quranda, hər hansı bir dini hakim qüvvəyə çevirəndə etnos, millət və xalqlardı yəni, insanlar istədiyini qurur və yaşadır.

Tarix boyu bizim etnosumuz islamdan öncə neçə-neçə dinə sitayiş edib, dinləri dəyişib ancaq, özü dəyişməyib. Əslində, həqiqət də elə budur və göz qabağındadır, bizim düşündüyümüz dini etiqad sosial və ictimai tələbatdır, əgər bu tələbata ehtiyac hiss olunmursa demək, buna iki səbəb var: ya dinin mahiyyəti düzgün izah edilmir, ya da din sosial və ictimai həyatımızı tam əhatə gücünə malik deyil. (İkinci səbəbi islama aid etmək olmaz-İslam Allahın bizə bəxş etdiyi ən mükəmməl nicat yoludur.) Bu iki səbəbdən biri, dinin insanlar arasında nüfuzdan düşməyinə səbəbdir ki, hər kəs bu səbəbləri anladığı şəkildə izah edə bilər.

Bütün tarix boyu dinlər dövlət idarəçiliyində, daha doğrusu, qrupların idarə olunmasında bir vasitə kimi istifadə olunub və olunmaqdadır. Dövrümüzdə Ukraynada, Rusiyada, Birmada, Yunanıstanda, Çində, Hindistanda baş verən proseslərdə din faktorunun bir alət kimi gizli və ya aşkar istifadəsi buna misaldır. İran sadalanan və sadalamadığım dövlətlər arasında dini yəni, şiəçiliyi fars dövlət maraqlarına xidmətə ideal uyğunlaşdıran, elmi dillə desək teokratik rejimdir. Müasir İran-fars şiəliyinin islam ailəsinə bağlılığı üzülməkdədir səbəb də odur ki, farslar şiəçiliyi ümum İran miqyasında olan millətlərin milli kimliyini arxa plana keçirmək məqsədi ilə milli mənsubiyyəti sildirən dövlət ideologiyasına çeviriblər. Yəni, dini mənsubiyyət milli mənsubiyyətdən önə çıxarılaraq İran-fars dövlətçiliyin bir

qoruyucu funksiyası ilə yüklənib. Qısa desək fars şiəliyi İran teokratik rejiminin ideoloji bazası formasını alıb.

Bu baxımdan, Azərbaycanda İran-fars şiəçiliyi tam yerini tuta bilmir. Yəni, dinin mövqeyinin zəifləməsi yuxarıda qeyd etdiyim iki səbəbdən biri və birincisi-mahiyyətindən kənarlaşdırılmasıdır. Bu baxımdan, İran-fars şiəliyi əsl islam şiə mahiyyətindən kənarlaşaraq millətlərin milli azadlıq istəyinin boğucu bir vasitəsinə çevrilib, hətta bu İran-fars modelli şiəçilik digər ölkələrə qarşı təsir, təzyiq vasitəsi kimi istifadə edilir. Təbii ki, belə bir boğucu fars şiəliyi hər hansı bir cəmiyyətdə tam oturuşa bilməz. İran dövlətinin müasir sərhədlər daxilində mövcudluğunun qorunmasının yeganə vasitəsi kimi istifadə edilən İran-fars şiəçiliyi öz dəyərini və təsirini sürətlə itirməkdədir.

2020-ci ilin noyabr ayında İran Mədəniyyət Nazirliyinin əhali arasında apardığı sorğuya əsasən İranda din-şiə faktoru mövqeyini itirməkdədir. Bu tendensiya daha çox İran azərbaycanlıları arasında sürətlə yayılır. İranda, Cənubi Azərbaycanda din-şiə faktorunun mövqeyinin zəifləməsi fonunda 10 dekabrda Bakıda Zəfər paradında Türkiyə Prezidenti Cənab Ərdoğanın Azərbaycanın məşhur bayatısından səsləndirdiyi "Arazı ayırdılar, lil ilə doyurdular, mən səndən ayrılmazdım, zor ilə ayırdılar" misralarına İran xarici işlər naziri Cavad Zərifin kəskin etirazı onu göstərir ki, artıq İranda fars şiəçiliyi ilə Cənubi Azərbaycanın milli istiqlalını boğmaq mümkün deyil və proseslər İran fars-molla rejimini olduqca əsaslı şəkildə narahat edir.

Artıq məlumdur ki, İran nəticə olaraq Cənubi Azərbaycanın milli istiqlalına aparan prosesləri dayandıra bilməz, maksimum İran bu gedən proseslərin surətinə təsir edə bilər, ancaq nəticəni dəyişdirə bilməz.

Azərbaycan xalqı, türk etnosu hələ Tanrıcıqlıqdan bu yana (Tanrıcıqlığın da əsl mahiyyəti tək Allahlıq idi) öz dini inancı ilə mehriban qonşuluq, dözümlülük və ilahi qüvvəyə sitayiş etməklə özünəməxsus identik quruluşunu formalaşdırıb və nəticədə

əldə etdiyimiz Azərbaycanın tolerant həyat tərzi türk etnosunun ilkin və dəyişməz kimliyinə qarşı radikal mövqedə ola bilməz.

Bu arada Çingiz xanın ərəb elçiləri ilə maraqlı dialoqunu xatırlatsaq yerinə düşər.

Məlum olduğu kimi, ərəblər Çingiz xanın müsəlman olmağı üçün çox çalışdılar. Çingiz xan islamı qəbul etsəydi Orta Asiya qısa müddətdə müsəlman olacaqdı. Bu səbəbdən Çingiz xanın yanına gedən ərəb elçilərlə onun arasında belə bir danışıq olur:

-Xanlar xanı Çingiz xan, sizi İslama dəvət edirik.

-İslam dediyiniz nədir?

-Peyğəmbərimiz Məhəmməd vasitəsiylə insanlara təbliğ edilən dindir.

-Peyğəmbər kimdir?

-Yerin, göyün yaradıcısının yer üzündəki seçilmiş təmsilçisi.

-Ola bilər. Tenqrinin burdakı təmsilçisi də mənəm.

-Amma sizə bir kitab endirilmədi. Peyğəmbərimizə isə Quran endirildi.

-Kitabınızda nə yazılır?

Ərəblər İxlas surəsini oxudular. Çingiz xan surənin türkcəsini eşitmək istədi.

"De ki, Allah birdir. Allah heç bir şeyə möhtac deyildir. Hər şey ona möhtacdır. O doğulmamışdır və doğmamışdır. Heç bir şey ondan iznsiz hərəkət edə bilməz."

Bundan sonra Çingiz xan qəhqəhə çəkdi və dedi:

-Siz bunları hələ indi öyrənirsiniz? Biz min ildir bunu bilirik və belə dua edirik. Buyurun, gedə bilərsiniz.

...Çingiz xan atından enib bir məscidin qabağında dayandı. Atın yüyəsini mollaya tutdurdu və dedi:

-Bu kimin evidir?

Ordakılar cavab verdi:

-Bu, Allahın evidir.

Çingiz xan hiddətləndi.

-Susun, bütpərəstlər. Allahın evi qəlbinizdir. Onu qəlbiniz-

dən çıxarıb ona böyük-böyük evlər tikmisiniz. Qəlbinizə isə bütün murdarlıqları doldurmusunuz. Sizi elə burdaca atımın ayaqları altında əzərdim, amma buna belə dəyməzsiniz. Buradan da görünür ki, Çingiz xan əslində islam dininə yox, o dini təmsil etdiyini iddia edən saxtakarlara qarşı idi. Çünki o, özü də təsdiq etdi ki, məhz o özü də bu əqidəyə etiqad edir, yəni təkallahlıdır. Hətta sonralar Hulaku Xaqan da Bağdadı viran edəndə İslam dininə qarşı yox, bu dinin qiyafəsində gizlənən ərəb şovinistləri və riyakar ruhanilərə qarşı olduğunu göstərirdi. Hətta ərəblər özləri də sonralar etiraf edirdilər ki, onlar yollarını azdıqları üçün Hulakunu məhz Allah onların üstünə göndərib ki, yollarına qayıtsınlar.

## Çin təhlükəsi

Türk dünyasının hədəf və məqsədləri olduğu kimi, digər xalqların da öz məqsədləri var. Elə dövlətlər var ki, qoyduğu məqsədə güc tətbiq etmədən nail olmaq niyyətindədir. Nəinki region üçün, həm də bütün dünya üçün real təhlükəyə çevrilən və "yumuşaq güc" ilə dünyaya yiyələnmək istəyən Cin dünyanın siyasi və etnik xəritəsini dəyişə bilər və bu istiqamətdə də Çin artıq müəyyən uğurlar da əldə edib.

Çin faktiki olar "iqtisadi işğal" formulu ilə dünya iqtisadiyyatını udur və təbii ki, bunun əvvəl axır siyasi nəticələri olacaq.

Yüksək templə inkişaf edən Çin əhalisi və iqtisadiyyatı üçün daha geniş ərazilərə zəruri ehtiyacı var. Maraqlı faktlardan biri də odur ki, artıq Çin Rusiyanın Uzaq Şərqini, Sibirini "sülh və ya miqrasiya ekspansiyası" ilə nəzarətə götürüb və təbii ki, qeyd edilənlər Rusiyanı narahat etməyə bilməz. Elə bu səbəbdən də ABŞ-ın və Rusiyanın Çinə qarşı sövdələşməsi haqqında məlumatlar çoxalmaqdadır.

Hal-hazırda dünyada 7.8 milyard əhali var. Dünyanın ən çox əhalisi olan ölkə məhz Çindir və hansı ki, əhalinin sayı az qala 1.5 milyard nəfərə çatır. Yeri gəlmişkən, Hindistanda da

əhalinin sayı 1.4 milyard nəfərə yaxındır. Əhalisinin sayı ilə bağlı məlumatı Pekin hakimiyyəti ümumən gizli saxlayır. Əminliklə demək olar ki, Çin öz əhalisinin sayından məharətlə siyasi və iqtisadı məqsədlərdə istifadə edir. Əvvəla, onu qeyd etmək lazımdır ki, Çinin daxili demoqrafiya ilə bağlı siyasəti dünya ictimaiyyətindən gizlədilir və elan olunmuş demoqrafiya siyasəti həqiqəti əks etdirmir. Ailədə üç uşağa icazə verildiyi halda, Pekin hakimiyyəti əlavə olaraq qadınlardan uşaq doğmağı istəyir. Sözsüz ki, Çin dövləti əhalinin xarici dövlətlərə miqrasiya etməsinə və xaricdə onların kompakt yaşamasında maraqlıdır və buna dövlət tərəfindən də dəstək verilir. Xüsusi ilə qeyd etmək lazımdır ki, Çin dövləti ancaq çinlilərin artımında maraqlıdırlar. Çinlilər deyəndə dünyanın ən böyük xalqı "Han" xalqı nəzərdə tutulur. Çində yerli və qeyri çinlilərin və xüsusən də türk mənşəli xalqların təbii artımı müxtəlif iyrənc vasitələrlə əngələnir və hətta uyğur qadın kişilər cinsi orqan, hormonlarına tibbi müdaxilə ilə təbii artıma mane olunur. Uyğurların təbii artımını dayandırmaq və milli kimliyini məhv etmək üçün "maarifləndirmə düşərgələri" adlı və faktiki həbsxanalar fəaliyyət göstərir. Çində qeyri çinlilərə qarşı və xüsusən də türk mənşəli xalqlara qarşı Pekin hakimiyyətinin siyasətinə qarşı ABŞ, Türkiyə və bir sıra digər dövlətlər etirazını bildirmişlər və hətta məsələ BMT səviyyəsində müzakirə edilmişdir.

Çin dövləti "iqtisadi işğal" formulu, "sülh və ya miqrasiya ekspansiyası", etnik azlıqlara qarşı "təmizlənmə" üsulları ilə yanaşı dünya əhalisinə qarşı gizli bioloji müharibə aparır. Dünya iqtisadiyyatını iflic hala gətirən və trilyon dollarla ziyan vuran, insanlığın düşüncəsinə, məişətinə silinməz izlər salan "COVİD-19" kimi təqdim edilən virusun süni yaradılması və məqsədli yayılması da məhz Çin dövlətini adı ilə bağlıdır. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) yaydığı hesabatda "COVİD-19"-un Çinin Uhan şəhərindəki laboratoriyadan sızıntı nəticəsində yayıldığı bildirilib. ABŞ başda olmaqla dünyanın onlarla dövlətləri hesabatın dərc olunmasından narahatlığını bildirərək,

istintaqın xeyli yubanma ilə aparıldığını və ÜST ekspertlərinin Çində virusun yayılması ilə bağlı tam məlumat əldə edə bilmədiklərini qeyd ediblər. Təbii ki, "COVİD-19" pandemiyasına görə ən çox gəlir əldə edən də Çin dövlətidir. Dünya səhiyyə sistemi üçün qoruyucu vasitələrin 40 faizini Çin və ABŞ-la Almaniya istehsal edir hansı ki, qoruyucu vasitələrin dövriyyəsi 2 trilyon dollar civarında qiymətləndirilir. Bu rəqəm isə ki, bütün beynəlxalq mal ticarətinin 5 faizini təşkil edir. Ən vacib məsələlərdən biri də "COVİD-19"-a qarşı peyvəndin hazırlanması və istehsalı ilə bağlıdır belə ki, Çin də qısa müddətdə "Covid-19"-a qarşı peyvənd istehsal edə bildi və hal-hazırda da milyardlarla ölçülən dünya peyvənd bazarının 25 faizi Çinin payına düşür. Maraqlısı isə odur ki, Çin peyvəndindən ən çox istifadə edən isə qismən inkişaf etməmiş və kasıb dövlətlərdir. Yeri gəlmişkən, 2020-ci ildə Çində "Covid-19"-la bağlı araşdırma aparan 273 yazar həbs olunub. Cində etnik azlıqlarla, "Covid-19"-la və ümumiyyətlə, viruslarla bağlı mövzu qadağan edilmiş sahələrdir.

Göründüyü kimi, Çin öz iqtisadiyyatının gücündən, əhalisinin sayından hərb üsulundan istifadə etmədən dünyanı çinləşdirmək siyasətini təmkinlə həyata keçirir.

### *"Xarici düşmən" obrazının vacibliyi*

*Azərbaycan dövləti elə bir regionda yerləşir ki, onu faktiki əhatə edən dövlətlərin demək olar ki, heç biri onun müstəqilliyini həzm edə bilmir. Rusiya, İran bu baxımdan ən öndə istəkli dövlətlərdir. O ki, qaldı Ermənistana, sözsüz ki, Ermənistan formal bir dövlət quruluşu kimi Rusiyanın bir əyaləti olaraq qalır. Ermənilərin Qafqaza köçürülməsi prosesindən başalayaraq bu günə kimi, ruslar və ermənilər üçün siyasi idarə etmə üsulundan və dövlət quruluşundan asılı olmayaraq Ermənistan Rusiyanın Qafqaza və Türkiyəyə təsir vasitəsi rolunda heç bir dəyişiklik baş verməyib.*

*Qafqazda süni Ermənistan dövlətinin yaradılması ilə onun mövcudluğunu təmin etmək məqsədi ilə bütün ermənilər üçün türk düşmənçiliyi deyilən ideoloji və psixoloji "xarici dümən" obrazı yaradılıb. Təbii ki, bu mifin yaranmasının ən əsas səbəbi və hədəfi Osmanlı imperiyası idi. Dünyanın ən əzəmətli və qüdrətli türk imperiyasını zəiflətmək, dağıtmaq, məhv etmək bütün dünyanın xristian aləməmi gücünü səfərbər etmişdi, hər bir mümkün vasitədən istifadə olunurdu. Belə bir vasitə ilə Osmanlı imperiyası tərkibində, indiki Türkiyə ərazisində ermənilərin yaşadıqları dövlətə qarşı xəyanəti nəticəsində imperiyanı dağıtmaq planları idi. Ermənilərin xəyanətinə görə köçürülməsini xristian dövlətləri saxta "erməni soyqrımı" kimi formalaşdırmağa başladılar. Türkiyəyə qarşı düşmənçilik hissi keçirən dövlətlərin hədəfi yalançı "erməni soyqırımı"nı həqiqət kimi qəbul etdirmək yox, bu yalan informasiyadan siyasi məqsəd üçün istifadə etmək idi.*

*Ən məşhur klassik təbliğatçı kimi tanınan Jozef Qebels "Bizə həqiqəti deyil, təbliğatın verəcəyi effekt gərəkdir!"- deyə yalan təbliğatın fundamental tezislərini göstərmiş və onlardan məharətlə istifadə edə bilmişdir. "Yalan nə qədər dəhşətli və vahiməli olarsa, o qədər tez ona inanılır və tez də yayılır" tezisi Qebelsin həmin tezislərindən biridir.*

*Nəticədə ermənilər üçün türk "xarici düşmən" obrazı yaradılmış oldu. Təbii ki, ermənilər bu prosesdən böyük qazanc əldə etmiş oldular, onlar kütləvi şəkildə Cənubi Qafqaza köçürüldü və tarixi Azərbaycan türk torpaqlarında ilk dövlətini yarada bildilər. Birinci dünya müharibəsində satqınlıq və xəyanət nəticəsində ermənilər özlərinə tarixdə ilk dəfə dövlət qurdular və onların satqın davranışları ilə əldə etdikləri qazanclar bir toplum olaraq onların milli düşüncə tərzini bu istiqamətdə daha da inkişaf etdirdi. Ermənilər böyük Ermənistan xülyasına uyaraq regionda bütün xalqlara və dövlətlərə qarşı ərazi iddiaları irəli sürdülər. 1988-ci ildən Azərbaycana qarşı açıq ərazi iddiası ilə xristian aləminin 100 illik strategiyasına uyğun*

*olaraq dəstək alan ermənilər 1993-cü ilə qədər 1-ci Qarabağ müharibəsində müəyyən nəticə əldə etdilər, Azərbaycanın Dağlıq Qarabağ regionu da daxil olmaqla 20% ərazisinin işğalına nail ola bildilər. Azərbaycan xalqı məğlubiyyətlə barışmadı, 30 ilə yaxın bir dövr ərzində hərbi, siyasi gücünü artırdı və nəhayət tarixə 44 günlük müharibə (27.07.2020-10.11.2020) kimi həkk olan qanlı savaşda Azərbaycan Ermənistan üzərində şanlı qələbəsini qazandı, torpaqlarını azad etdi, Ermənistan kapitulyasiyaya məcbur edildi.*

*Ermənilərin Azərbaycana qarşı 1988-ci ildən başlayaraq açıq ərazi iddiasının 1-ci fazasında uğur qazanmasının müxtəlif səbəbləri var idi: Qərb dünyasının SSRİ-nı yıxmaq istəyi, Azərbaycan daxilində qeyri-stabil siyasi vəziyyət, dünya xristian dövlətlərinin Ermənistana maddi və informasiya dəstəyi, Rusiyanın Ermənistana açıq hərbi dəstəyi və sair. Ancaq ən başlıcası isə ermənilərin ideoloji və psixoloji hazırlığı idi. Daha doğrusu ermənilər 1915-ci ildən bu yana ümumən türk etnosuna qarşı nifrət dolu "xarici düşmən" obrazı, mifi yarada bilmişdir. Ona görə də ermənilər bir toplum olaraq Osmanlı imperiyasında baş vermiş 1915-ci il hadisələrinin tam yalan istiqamətdə təbliğ edilmiş, az qala 100 illik propaqanda nəticəsində yaranmış intiqam hissi ilə psixoloji cəhətdən hazırlıqlı idilər. Azərbaycan isə ermənilərdən tam fərli olaraq, həm on minilliklərlə formalaşmış multikultural dəyərlərinə və eləcədə sovetlər ittifaqının "proletar və xalqların dostluğu" ideologiyasına uyğun millət olaraq özü üçün "xarici düşmən" obrazı yaratmamışdı. Ermənilərin 1990-cı illərində uğurlarının əsas səbəbi məhz biz türklərdən özlərinə "xarici düşmən" obrazı yaratmaqları idi.*

*"Xarici düşmən" obrazı Azərbaycana daimi şəkildə lazımdırmı?*

*Bu sualın cavabını düzgün almaq üçün fikrimcə, müəyyən əlaqəli sualların da cavabını tapmalıyıq. İlk öncə "düşmən" anlayışına aydınlıq gətirək. Dövrümüzdə "düşmən" anlayışının ilkin mənası da müəyyən qədər deformasiyaya uğrayıb, ancaq*

*ümumən mahiyyətində qalıbdır. "Düşmən" anlayışının yaranışı ilkin insan cəmiyyətində sərt təbii, iqlim şəraitində mövcud olma məcburiyyətindən yaranmış məntiqi nəticədir. İbtidai icma dövrümdə sərt iqlim, təbiət, vəhşi heyvanlar kimi, təhlükələrdən qorunmaq üçün məcburi qruplaşma nəticəsində, qarşı yad tərəfi müəyyən etmək həyatı vacib məsələ idi. Həmin o qarşı tərəf "düşmən" anlayışını formalaşdırdı. Düşmən obrazı həm də ibtidai insan cəmiyyətində sosial bağlılıq yaradaraq ilkin dövlət əlamətlərini, onun lider şəxslərinin formalaşmasını və meydana çıxmasını təmin etdi. Məhz "düşmən" anlayışı insan qruplarının ilkin dövlətçilik əlamətlərini özündə birləşdirən identik bir cəmiyyət yaratmağa səbəb olub. İlkin dövlətçilik əlamətləri və prinsipləri də məhz "düşmən" qorxusu hissi altında meydana gəlmiş və formalaşmışdır.*

*Müasir dövrümüzdə də dövlətlər "xarici düşmən" anlayışından bir vasitə kimi istifadə edirlər. Təbii ki, bu vasitə əsasən siyasi məqsədlərə xidmət edir. Təcrübə göstərir ki, "xarici düşmən" anlayışı dövlətlər tərəfindən ya həqiqi ya da düşünülmüş şəkildə yaradılır, dövlət və milli maraqlar naminə istifadə olunur. Sözsüz ki, "xarici düşmən" anlayışı liderlər tərəfindən effektli siyasi vasitə kimi cəmiyyəti liderin və ya hakimiyyətin ətrafında birləşməyi, ona dəstəyi təmin edən kütləvi psixoloji vəziyyətdir və cəmiyyətin səfərbərliyini məcburiyyətə çevirir. Rusiya Strateji Analiz İnstitutunun Prezidenti Aleksandr Konavalov "Uğurlu daxili siyasət üçün – bizim xarici düşmənə ehtiyacımız var" - deyə qeyd edir. Eyni fikirləri rusiyalı alim, professor Gennadi Kozırev da səsləndirib.*

*Təcrübələr də göstərir ki, "xarici düşmən" obrazı ən çox müəyyən dar qruplar tərəfindən maraqlarını təmin etmək üçün bu anlayış praktik dövlət siyasətinə çevrilir və əsl həqiqətdə də düşünülmüş "xarici düşmən" obrazı həmin dar qrupun siyasi maraqlarına, daxildəki sosial-iqtisadi məsələlərin həll edilməməsinə bəraət, korrupsiyaya bulanmış təşkilat və qurumların fəaliyyətinin gizlədilməsinə xidmət edir.*

*Eyni zamanda da "xarici düşmən" obrazı böyük dövlətlər tərəfindən milli maraqlarını təmin etmək məqsədi ilə daha kiçik dövlət və xalqlar üçün düşünülmüş və uzun müddətli siyasi nəticəyə hesablanmış proyekt kimi, rəqib dövlətə qarşı istifadə edilən çox effektli vasitədir.*

*Elə yaxın şərqdən ermənilərin əzəli Azərbaycan türk torpaqlarına köçürülməsi, onlara dövlətin yaradılması Osmanlı türk imperiyasına və ümumiyyətlə türk mənşəli xalqlara qarşı daimi təzyiq vasitəsi kimi istifadəsini təmin etmək üçün qərb dövlətləri və Rusiya erməni xalqının milli şüuruna vahiməli türk "xarici düşmən" obrazı yeridə biliblər. Təbii ki, Qərb və Rusiya bunu ermənilərə sevgisindən deyil, rəqib hesab etdikləri türk dövlətinin zəifləməsinə və parçalanması naminə ermənilər üçün türk "xarici düşmən" obrazı düşünüb.*

*Başqa bir misal: Amerika (ABŞ) terrorçuluğu, avtoritar dövlətləri ABŞ-ın "xarici dümən"i, Rusiya Qərb dünyasını, xristian Qərb dünyası isə saxta "islam terrorizmi"ni "xarici düşmən" kimi təbliğ edir və milli maraqlarını təmin etməyə çalışırlar. Görünən də odur ki, dövlət quruculuğunda "xarici düşmən" anlayışı effektli bir siyasi vasitə kimi istifadə edilməkdədir. İtalyan filosof Nikkola Makiavellinin fikrincə "Qorxu, dövlət və qeyri- dövlət qurumları tərəfindən manipulyasiyaya daha çox uyğun gələn əsas insan instinktidir. Ancaq dövlət bir mənalı bilməlidir ki, uzunmüddətli perspektivdə qorxunun yaratdığı güc dövlətin özü üçün əks nəticə verir və çıxılmaz vəziyyətə gətirib çıxarır." Göründüyü kimi, Ermənistan dövləti Makiavellnin dediyi həmin dalana dirənib. Maraqlısı isə odur ki, ermənilər dövlət əldə etdikdən sonra ümumiyyətlə türk qorxusundan, yəni "xarici düşmən" siyasətindən imtina etmədi. Ona görə ki, ermənilər üçün türk "xarici düşmən" obrazı daha çox onların özünə yox, bu saxta qorxunu yaradan bəzi qərb dövlətlərə və ən başlıcası isə ruslara və farslara lazımdır. Bu səbəbdən də, ermənilərin türk "xarici düşmən" qorxusu siyasətindən imtinası hələ mümkünsüz görünür. Bəzi qərb dövlətlərinə,*

*İrana, Rusiyaya ermənilərin Türkiyəyə və ümumiyyətlə, türk xalqlarına qarşı "xarici düşmən" qorxusunun saxlanılması hələ də vacib siyasi vasitə olaraq qalır. Ermənistanın özünün inandığı türk "xarici düşmən" qorxusu və bu qorxunun saxlanılmasında maraqlı olan dövlətlərin ermənilərə təzyiqi faktiki olaraq Ermənistanı bu siyasətin əsirinə çevirmişdir. Təbii ki, bu dalandan çıxışın yeganə yolu Ermənistanın türk "xarici düşmən" qorxu siyasətindən imtina etməli, Türkiyə və Azərbaycan ilə hər bir istiqamətində inteqrasiya yoludur. Azərbaycanın 44 günlük müharibədə Ermənistan üzərində parlaq qələbəsi Ermənistanda yeni düşüncəli insanların, fərqli baxışların da meydana gəlməsinə səbəb və əsas olub. Odur ki, Ermənistanın gələcək taleyi, onun əsiri olduğu türk "xarici düşmən" qorxu siyasətindən imtinasından asılıdır. Ancaq görünən odur ki, ermənilərlə türk milləti arasında düşmənçiliyin saxlanılmasına maraqlı tərəflər bu vasitədən daima istifadə etmək niyyətindədir.*

*10.11.2020-ci il Azərbaycan, Rusiya Ermənistan üçtərəfli bəyanatına uyğun olaraq Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşmiş Rusiya sülhməramlılarının təxribatçı, təhrikedici fəaliyyəti, Rusiya dövlət rəsmilərinin yersiz və əsasız açıqlamaları bu qənaəti təsdiq edir və çox güman ki, gələcək nəsillərimiz də bu təsir və təzyiqə qarşı mübarizə aparmalı olacaqdır. Hətta ermənilər türk "xarici düşmən" qorxu siyasətindən imtina etməyi bacarsalar da belə ruslar, farslar və bəzi qərb dövlətləri hər hansı bir yeni düşünülmüş vasitə ilə Türkiyəyə, Azərbaycana qarşı təhdid və təzyiq siyasətindən əl çəkən deyillər. Bunun sadə izahı var, dünyada söz sahibi olmaq istəyən hər hansı bir millət, türk etnosu ilə hesablaşmağa məcburdur.*

*Ümumiyyətlə, bir vacib məqamı qeyd etmək lazımdır ki, 10 noyabr 1724-cü ildən başlayaraq rus çarı 1-ci Pyotrun məlum fərmanından sonra Ermənilərin yaxın şərqdən Cənubi Qafqaza, tarixi Azərbaycan torpaqlarına köçürülməsi faktiki olaraq 1920-ci ilə qədər davam etmişdir. Müxtəlif mənbələrə görə təkcə 1828-1920-ci illər ərzində Azərbaycan ərazisinə təxminən*

*600 000 erməni köçürülmüşdür. Xüsusi ilə qeyd etmək lazımdır ki, həmin köçürülmüş ermənilərə Azərbaycan Milli Şurası 1918-ci il may ayının 29-da ərazisi 301 kvadrat kilometr olan İrəvan şəhəri də daxil olmaqla ermənilərə güzəşt edilərək nəticədə tarixi Azərbaycan torpaqlarında ümumi 9000 kvadrat kilometr ərazidə erməni dövləti yarandı. Qısa müddət daxilində ermənilər bəzi sərhəd boyu əraziləri işğal edərək həmin dövlətin ərazisini 12000 kvadrat kilometrə çatdırdılar. Sovet hakimiyyəti isə ilk olaraq Azərbaycanın Zəngəzur bölgəsini qopararaq Ermənistana verdi. 1991-ci ildə Sovet ittifaqının dağılması gününə kimi rusların iradəsi ilə müxtəlif tarixlərdə Ermənistan respublikasının ərazisi Azərbaycan torpaqları hesabına 29.743 kvadrat kilometrə çatdırılıb. Erməni tarixçisi və kahin Hovannes Şahxatunyan yazır: "390 il (1441-1828) İrəvan xanlığını idarə edən 49 xanın hamısı Azərbaycan türkü olub. Hətta İrəvan xanlığının ərazisində yerləşən, bu gün də quldur yuvası kimi fəaliyyət göstərən erməni katolik kilsələrinin keşişlərini də İrəvan xanları təyin edirdilər. Xanların adları olan siyahı Erməni Sovet Ensiklopediyasında öz əksini tapıb".*

*XX-ci əsrdə ermənilər Azərbaycan xalqını 4 dəfə soyqırıma məruz qoyub. Ermənilər onlara ancaq yaxşılıq etmiş, qəbul edərək onlara dövlət yaratmağa imkan vermiş Azərbaycan xalqına nifrət və kinini 1915-ci ildə Osmanlı Türkiyəsində baş vermiş hadisələrlə əlaqələndirir. Erməni yazıçısı və ideoloqu Zori Balayan 1992-ci il fevral ayının 26-da Xocalıda azərbaycanlıların soyqırımını Osmanlı Türkiyəsində 1915-ci ildə saxta "erməni soyqrlmının" intiqamı kimi dilə gətirir.*

*44 günlük müharibədə Azərbaycan Ermənistan ordusu üzərində şanlı qələbə qazandı, işğalçı Ermənistan ordusunu ərazilərindən qovdu. Müharibə nəticəsində Ermənistan hərb texnikasının 80%-i, 20 minə yaxın canlı qüvvəsini məhv edərək, erməni milli təfəkkürünə, düşüncəsinə elə zərbə vurdu ki, bir toplum, bir dövlət olaraq reqressiyaya düçar oldu.*

*Azərbaycana heç bir aidiyyəti olmayan, ancaq türk*

*qardaşlarımıza görə 1915-ci il saxta "erməni soyqrımı"nın intiqamını Azərbaycan xalqından 4 dəfə alan toplum, 44 günlük Vətən müharibəsindən sonra hər bir ermənin Azərbaycana və azərbaycanlılara qarşı hansı qəzəb, nifrət, intiqam hisslə yanaşdıqlarını belə təəssüfdür etmək çətin deyil. Odur ki, 2-ci Qarabağ savaşından (Vətən müharibəsi) sonra ermənilərin azərbaycanlılara və ümumiyyətlə, türk etnosuna qarşı həqiqi türk "xarici düşmən" obrazı təsdiqlənmiş oldu.*

*Təbii ki, Azərbaycan və Türkiyə dövlətinə və ümumiyyətlə, türk etnosuna qarşı ermənilərin təsdiqlənmiş həqiqi türk "xarici düşmən" obrazı ruslar, farslar, fransızlar, ermənilər və sair bir sıra xalqlar tərəfindən siyasi məqsədlər üçün gələcəkdə də istifadəsi heç şübhəsizdir.*

*1724-cü ildən bu yana Azərbaycan dövlətinin, xalqının başına gəlmiş müsibətlərin təkrarlanmaması üçün tarixi zərurət kimi, bizim də "xarici düşmən" obrazını milli düşüncə tərzinə və ideologiyaya çevirməyimiz mövcudluğumuzun təminatıdır. Təbii ki, bir dövlət olaraq "xarici düşmən" obrazı dövlət siyasəti kimi publik şəkildə deyil, məhz ideoloji tərzdə milli düşüncəmizin tərkib hissəsi kimi genetik yaddaşımıza yeridilməlidir. Bizim üçün isə həqiqi "xarici düşmən" obrazını tarix özü müəyyənləşdirib. Rus alimi Pyotr Kozlov deyir ki, "Düşmənim var" deyə kədərlənmə! Düşməni olmayanın dəyəri də yoxdur."*

*Moskva Ali Sosial və İqtisadi Elmlər Məktəbinin professoru Qriqori Yudin qeyd edir ki, "Ümumiyyətlə, insan siyasi varlıqdır və buna görə də dövlətə insanların siyasi həmrəyliyi lazımdır ki, dövlət digər dövlətə qarşı dura bilsin."*

*Yeri gəlmişkən, qeyd edim ki, müasir dövrümüzdə dünyanın aparıcı tədris mərkəzləri "xarici düşmən" obrazı siyasi elmlər üzrə, xüsusən də konfliktalogiya sahəsində geniş öyrənilir və faktiki olaraq dövlətlər tərəfindən tətbiq edilir. Azərbaycanın isə özünün yox, tarixin müəyyən etdiyi bəlli düşmənləri var.*

## Tanrıçılıqığın islam dini ilə ortaq dəyərləri İslamın hansı məzhəbi Türk dünyasını birləşdirə bilər?

İran-fars şiəçiliyinin həqiqi şiəçiliklə və ümumən, islam dininə bağlığı yox səviyyəsindədir. Sual olunur, bəs Azərbaycan xalqının, türk etnosunun etiqad etdiyi hansı inanc olub və islamda saxta "inanc"ları məhzəb və təriqətləri necə ayırd etmək olar? Mayası, ruhu Tanrıçılıqla yoğrulmuş türk etnosunun islam dini ilə hansı ortaq dəyərləri var? İslamın hansı məzhəbi Türk dünyasını birləşdirə bilər? İlahiyyatçı-yazar, AMEA - nın Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun dissertantı Tural İrfanın (Əhmədov) "Türk və İslam dünyasını bölən saxta məzhəb və təriqətlər. Zeydi məzhəbi" adlı elmi məqaləsi qoyulmuş suallara aydınlıq gətirib. Tural İrfan yazır:

"Farslar Firdovsinin Şahnaməsində də yazıldığı kimi həmişə türklərə qarşı düşmən mövqedə olublar. Təəssüf ki, bu, islamı qəbul etdikdən sonra İslam hamını tək bir ümmət bayrağı altda birləşdirməsindən sonra da özünü göstərib. Farslar yenə də türklərlə eyni dini paylaşmağa dözmədilər. Xəlifə Ömərin məhz fars kölə Firuz tərəfindən şəhid edilməsi buna təkan verdi. Sünni - şiə parçalanmasına farslar qədər təkan verən ikinci millət olmayıb. Zaman-zaman xilafətin daxilində üsyanlar, guya Əhli Beyt bayrağı altda cürbəcür adlarla ayaqlanmalar meydana gətirirdilər. Səlcuqlu dövründəki Qərmətiləri buna misal vermək olar. Səfəvilər dövründə isə fars şiəliyi (əslində rafizilik) daha da vüsət aldı. Belə ki, türk millətinə xas Ələvi, Səfəvi mənəvi sufi təriqəti fars ideoloqlarının Livanın Cəbəl vilayətindən gətirdikləri mollalar tərəfindən tamamilə türkə və islama yad formaya salındı. Səfəvilik təriqəti artıq siyasiləşdi. Daha sonra isə farslaşdı. Vaxtilə Xəzər dənizinin cənubunda mövcud olmuş Zeydi şiə dövlətinin ideologiyasından da tam fərqləndi. Çünki Zeydilik həm türk milli ruhuna, həm də islamın orta xəttinə uyğun bir məzhəb idi. Fars şiəliyi isə qədim İran dinlərində olduğu kimi müqəddəsləri ilahiləşdirmək, ələmpərəstlik, qəbir-

lərə sitayiş və məzarlardan mədəd umma ayinlərini şiəlik adı altında dirçəltdilər. Türklər Çingiz Xanın da ərəb elçilərə dediyi kimi əzəldən tək Allaha sitayiş ediblər. Çoxtanrılıq farslarda olub tarixən. Məhz bu gün o çoxallahlılığı şiəlik adı altında yaşadırlar. On iki imamı, on dörd məsumu qədim tanrıçalar timsalında təqdim edirlər. Türk milli ruhuna uyğun olmayan şəkildə (əslində bu islamda da yoxdur) müvəqqəti evlilik, bir neçə saatlıq evlənmə (siğə), lazım gələndə ikiüzlülük, riyakarlıq etməyə icazə kimi əqidəyə etiqad edirlər. Lakin tarixən Azərbaycan xalqı Əhli Beytə sadiq qalaraq Zeydi məzhəbinin əsasları ilə yaşayıb. Digər əhli Sünnə məzhəbləri ilə yanaşı Güney və Quzey Azərbaycanda yaşayan soydaşlarımız Zeydi məzhəbinə etiqad və əməl edib.

İslam dini ilkin dövrlərdə, məzhəblərə bölünməmiş formada fəth edilən ərazilərdə yayılırdı. Soralar müxtəlif obyektiv və subyektiv səbəblərdən fiqhi (hüquqi) məzhəblər, siyasi cərəyanlar, təsəvvüfi təriqətlər, etiqadi, fəlsəfi qollar yarandı. Yaranmış bu cərəyanlara İslamı qəbul edən millətlərin ənənələri, milli - mənəvi dəyərləri də istər - istəməz qarışırdı. Xalqın milli ideologiyası ilə uyğunlaşan cərəyanlar sevilir, dəstəklənir, davamlı olur, xalqın inancında, təfəkküründə yaşayırdı. Amma zorla, qılıncla qəbul etdirilən məzhəblər isə unudulur, xalqın azadlığı bərqərar olan kimi sıradan çıxırdı. Məlumdur ki, Güney və Quzey Azərbaycan, İran və ətraf coğrafiyalar xəlifə Ömər bin Xəttab zamanında fəth edilib, İslamı qəbul edib, valilər təyin olunub və sair. Müəyyən qədər əhali Şimali Azərbaycan ərazisində, əsasən dağlıq yerlərdə yaşayanlar xristian dinində qalırdı. Alban hakimi Cavanşirin xəlifə Müaviyyə ilə müqavilə bağlaması, hədiyyələrlə onun qəbuluna getməsi və vergi qarşılığında xalqın öz dinində qalması razılığını alması tarixdə məlumdur. O da məlumdur ki, xəlifə Ömər zamanında məzhəbləşmə, təriqətləşmə hələ meydana gəlməmişdi. İndiki dillə desək bütün müsəlmanlar "sünni" idi və xilfafətin din yaydığı ərazilərin əhalisi də hələ təriqətlərə parçalanmamış vahid İslama etiqadı

qəbul etmişdilər. Artıq sonralar xilatəfin ilk yarandığı coğrafiyalarda müxtəlif siyasi və etiqadi problemlər səbəbi ilə məzhəblər, cərəyanlar meydana gəldi və bu, İslamı yeni qəbul edən qeyri - ərəb coğrafiyalarına da yayıldı. Məsələn, Azərbaycan ərazisində ilk İslam xətti olan sünnilikdən sonra (hələ 12 imamilik, cəfərilik yaranmamışdı) Zeydi şiəliyi, etiqadi, kəlami, yarı fəlsəfi cərəyan olan Mötəzilə məzhəbi, Xaricilik, Hənbəlilik və sair meydana çıxmağa başladı. Bərdə, Şirvan kimi mədəniyyət mərkəzlərindən xilafət mərkəzinə təhsil almağa ziyarətə, ticarətə gedənlər həmin təriqət və siyasi, fəlsəfi, hüquqi cərəyanları əxz edib qayıdır, Azərbaycanda bunu təbliğ edirdilər. Səfəvilər dövrünə qədər Azərbaycan ərazisində məzhəbçilik təəssübkeşliyindən yaranan fəsadlar baş verməyib. İslamın ilkin orijinal mətnlərinə, fəlsəfi, elmi dəlillərə əsaslanan Zeydilik kimi xalqımızın inancı üçün xarakterik olan cərəyanı siyasi məqsədlər üçün sıradan çıxardılar. Sünni İslama qarşı qoymaq üçün daha radikal olan, İslamı bu coğrafiyalara ilk yayan xəlifə Öməri lənətləyib təhqir edən, Peyğəmbərin arvadlarına iftira atan "rafizilik" məzhəbini yaydılar. Şübhəsiz ki, hazırda xalqın əksəriyyətinin inancına zorla Səfəvilər dövründə yeridilən bu məzhəb fars şüubiyyəsinin ideoloji məktəbi tərəfindən hazırlanmışdı və böyük məharətlə türk dünyasını dini əqidə cəhətdən parçalamağa xidmət edirdi. Səfəvilərin hakimiyyətinin sonunda artıq çox böyük "nailiyyətlər" əldə edildiyinin şahidi oluruq ki, bu yaraları heç Nadir Şah kimi güclü sərkərdə də sağalda bilmədi. Nadir Şahın Osmanlı ilə məzhəb dialoqu, Cəfəri şiəliyini beşinci məzhəb kimi qəbul etdirmək cəhdi boşa çıxdı. Çünki kökündə, yaranma amalında ikitirəlik, gizli fars millətçiliyi təəssübkeşliyi, Peyğəmbər arvadlarına, Peyğəmbər səhabələrinə lənət oxumaq kimi əsaslar olan, İmamlardan çox sonra İmamlar adına uydurulan bir siyasi cərəyanı Osmanlılar beşinci haq məzhəb kimi qəbul edə bilməzdilər. Fəqət Zeydi məzhəbi olsa idi, bunun qəbul ediləcəyi şübhəsiz idi. Çünki onun kökündə, bünövrəsində digər İslam məzhəbləri ilə təfriqə və düşmənçilik məramı yox idi. Lakin

Nadirin ömrünü tamamlayaraq bunları düşünmə fürsəti vermədilər. Zeydi məzhəbi sünniliyə qarşı heç bir qərəzi olmayan, müsəlmanların birliyi naminə yox, ümumiyyətlə, fundamental olaraq ixtilafa səbəb olan amillərdən çəkinməyi tövsiyə edən, elmə, hikmətə, tolerantlığa, siyasi və digər güzəştlərə önəm verən bir məzhəbdir. İlkin mənbə olaraq məzhəbin lideri sayılan İmam Zeydin özünə istinad edilən, əsasən hüquqa (fiqh) əsaslanan hədislər toplusunun - "Əl Məcmu" ("Müsnədi - İmam Zeyd") əsərinin bu günə qədər gəlib çıxması da bu məzhəbin nə qədər mötəbər olduğuna əyani sübutdur. Sünnilikdən fərqini bircə cümlə ilə ifadə edəsi olsaq belə demək olar: Zeydilər Əbu Bəkr və Ömərin xilafətini qanuni hesab etməklə yanaşı, xilafətə İmam Əlinin daha layiq və fəzilətli olduğunu düşünürlər.

Buradan da görünür ki, bu gün demək olar, bütün türk dünyasının etiqad etdiyi Hənəfi fiqhini (hüququnu) özünə əməli yol seçən (fəqət sonralar Zeydilər öz müstəqil hüquq məktəblərini yaratsalar da Əbu Hənifənin İmam Zeydin tələbəsi olmasına rəğmən Hənəfi məzhəbindən o qədər də fərqlənməyən bir fiqh meydana çıxdı) Zeydi məzhəbi milliyətcə türk olan şiə müsəlmanlar üçün daha münasibdir. Hətta bunun tarixi kökləri də vardır. Təbəristan Zeydi dövləti (əmirlik) əslində İmam Həsənin nəslindən olan şəriflərin dövləti idi. (864-928) 739-cu ildə İmam Muhəmməd Baqirin oğlu, İmam Zeydin qardaşı oğlu, İmam Cəfər Sadiqin qardaşı Gəncədə vəfat edən İbrahim bin Muhəmmədin 12 imamçı şiə məzhəbindən olmasını iddia etmək yanlış olardı. Çünki o özü imamiyyənin 12 imam kimi qəbul etdiyi imamların beşincisi olan Muhəmməd Baqirin oğlu idi. Yəni 12 imam məzhəbi ondan çox sonra meydana gələcəkdi... Səfəvilərə qədər Azərbaycan ərazisində İmamiyyə məzhəbi geniş yayılmamışdı. Əhalinin çoxu sünniliyə, zeydiliyə və yeni formalaşan məzhəblərə: xaricilik, Hənəfi və Hənbəli məzhəblərinə etiqad edirdilər. Az sayda Bərdə əhalisi və Şirvan əhalisi də Mötəzili idi. Zakir Məmmədov "Orta əsr Azərbaycan filosofları və mütəfəkkirləri" kitabının 8-ci səhifəsində bərdəli

böyük İslam alimi Məhəmməd Bərdəi (? - 961) haqda yazarkən qeyd edir: " Bir müddət Bağdadda yaşayan M.Bərdəi xaricilik və mötəzililik cərəyanının nümayəndəsidir. Məhəmməd Bərdəi ilə 951-ci ildə görüşmüş İbn ən Nədim onu xaricilərin hüquqşünas alimlərindən biri kimi təqdim edərək hüquqa aid on altı əsərinin adını çəkmişdir. Xaricilərin və mötəzililərin ideya istiqamətinə nəzərən güman etmək olar ki, Məhəmməd Bərdəinin əsərlərində mütərəqqi, demokratik fikirlər öz əksini tapmaya bilməzdi".

Qeyd edək ki, zeydilər mötəzililərin iradə azadlığı və Quranın Allah tərəfindən göndərilməsi haqqındakı ehkamlarını, xaricilərdən isə etiqadın hökmən əməli işlə uyğunluğunu qəbul etdilər. Sünnilərlə zeydiləri yaxınlaşdıran "qaib imama" etiqadın olmaması və hər ikisinin "təqiyyə" (özünü gizlətmə, təhlükə olduqda yaxud işin xeyri üçün əqidəsinin əksinə çıxış etmək) təcrübəsini tanımamasıdır. Lakin eyni zamanda zeydilər sünnilikdə geniş yayılmış olan müqəddəslərin təbliğ edilməsinin əleyhinədirlər. Onlar eləcə də sünnilər arasında yayılmış olan sufizmə, təkidünyalığa, ümumiyyətlə, guşənişinliyə mənfi münasibət bəsləyir və öz aralarında abidliyə yol vermirlər. Zeydilər bir çox şiə ayinlərinə əməl edirlər, lakin məişətdə isə onlar sünnilərə daha yaxındırlar. Büveyhilər tərəfindən qanuniləşdirilmiş, adət halına salınmış, sonralar Səfəvilər tərəfindən də daha təntənəli şəkilə gətirilmiş Aşura, Məhərrəmlik mərasimlərini zəncir vurmaq, baş yarmaq, ağlaşma və digər xurafatlarla dolu şəkildə keçirilməsinin qəti əleyhinədirlər və qeyd etmirlər. Öz məzhəb İmanları Zeyd bin Əlinin şəhadət gününü belə qeyd etmirlər. Çünki Peyğəmbərin dövründə belə ənənə olmayıb. Sünnilərdə olduğu kimi, onlar da şiələrdə tətbiq edilən qısa müddətli nikahların (mutə, siğə) icra edilməsini qəbuledilməz hesab edirlər. Onlar on iki imama inanan şiələrdən fərqli olaraq (Ömər, Osman, Əbu Bəkr, Aişə və sair) lənət oxumur və nifrət etmirlər, çünki onların fikrincə həmin xəlifələr xilafəti qanunsuz olaraq ələ keçirməyiblər. Zeydilər öz icmalarının başında Əli

tayfasından, Həsən və Hüseynin nəslindən olan hər hansı bir imamın olmasını məsləhət görməklə, ədalətli, imanlı, elmli, cəmiyyət tərəfindən qəbul edilən digərlərinin də rəhbər olma haqqının olduğunu qeyd edirlər. Həm də öz icmalarının imamsız da yaşaya biləcəyinə şübhə etmirlər. Eyni zamanda onların fikrincə bir vaxtda bir neçə imam yaşaya bilər ki, bunların da hər biri öz torpağında, öz dövlətində müstəqil hərəkət edə bilər. On iki imamçı və ismaili şiələrindən fərqi olaraq zeydilər imamlara və ya imam hesab etdikləri simalara ilahi xüsusiyyətlər, qeybi bilmə, xəlq etmə, məsumluq və sair mübaliğəli sifətlər şamil etmirlər. ("Müsəlman təriqətləri" kitabı, səh, 46)

Azərbaycanda ilkin İslam təriqət alimləri silsiləsinə nəzər salarkən şahid oluruq: Zakir Məmmədov sufiliyin dərinliyinə bələd olan dahilər siyahısından Məhəmməd Bakuvi (? - 1037) haqqında eyni adlı əsərinin 9-cu səhifəsində yazır: "... Abdulla Ənsari (1006-1086), Əbusəd Səmani və başqa müəlliflər yazırlar ki, o, çoxlu hədis və sufiliyə dair hekayətlər toplayan sufi alimlərdən idi. Bu Azərbaycan mütəfəkkiri bəzi mənbələrdə əşərilik kəlami məzhəbinin tərəfdarı sayılır."

Habelə həmin müəllif eyni adlı əsərində böyük Azərbaycan alimi Əbu Bəkr Əhməd Bərdici (? - 914) haqqında qeyd edir:" Əbu Bəkr Harun oğlu Bərdəi Bərdici görkəmli hədis alimlərindəndir. O, vaxtilə Kür çayı sahilində, Bərdənin 14 fərsəxliyində yerləşən Bərdic şəhərində anadan olmuşdur. Mütəfəkkir Yaxın Şərq ölkələrini gəzmiş, Nişapur, Bağdad və Məkkədə yaşamışdır. Əhməd Bərdici dövrünün məşhur alimlərindən dərs almış və müəllimlik etmişdir.

Əhməd Bərdicinin "Nadir adlar" kitabının əlyazması nüsxələrindən biri Qüdsün Xalidiyyə, digəri Dəməşqin Zahiriyyə kitabxanalarında saxlanılır. "

Həmçinin, Zakir Məmmədov Əbusəid Əhməd Bərdəi (? - 929) adlı başqa bir Azərbaycan İslam alimi haqda yazır:" Əbusəid Əhməd Hüseyn oğlu Bərdəi hüquqşünas və ilahiyyatçı alimdir, Bərdə şəhərində doğulub boya başa çatmışdır. Xətib

Bağdadi onun haqda xoş sözlər yazmışdır... Böyük alimin bir çox elmi əsərləri olmuşdur. Alim mənbələrdə hənəfiliyin və mötəzililiyin görkəmli nümayəndəsi kimi səciyyələndirilir. "

Qeyd etdiyim alimlərin mənsub olduqları məzhəblərdən aydın olur ki, mötəzili etiqadi məzhəbinə etiqad bəsləyən insan fiqhdə, hüquqda hənəfi, zeydi və ya digər hüquq məzhəbinə əməl edə bilər. Habelə, əhli sünnənin əsas iki etiqad məzhəbindən olan əşərilik cərəyanına etiqad edən kəs əməldə və hüquqda istədiyi fiqhi məzhəbə tabe ola bilər. İmam Zeydin mötəzili fəlsəfi - kəlami məzhəbinin banisi sayılan Vasil bin Ata ilə Bəsrədə görüşməsi, dost olmaları, hətta bir-birinə tələbə olmaları haqda məlumatlar var. Bu gün müsəlman və türk dövlətlərinin demək olar ki, hamısının əməli məzhəbi olan hənəfi məzhəbinin banisi Əbu Hənifənin İmam Zeydə tələbəlik etməsi, onun mübarizəsinə dəstək olaraq fətva və maddi dəstək verməsi kimi amillər onların necə sıx münasibətdə olduqlarının bariz nümunəsidir.

Təbəristanda, Xəzər dənizinin cənubunda Zeydi dövlətinin İmam Həsənin nəslinin nümayəndələri tərəfindən bərpa olunması yaxın coğrafiya baxımından Azərbaycana da böyük təsir göstərmiş və əhalinin Əhli Beyt məktəbinə tabe olan hissəsi demək olar ki, tamamilə zeydi məzhəbinin qaydalarına uyğun dinə riayət edirdi. Məsələn, təqiyyə, siğə nikahı, Peyğəmbər səhabələrinə söymək, lənət oxumaq, məhərrəmlikdə baş yarmaq, İmamları ilahiləşdirmək və s. kimi inanclar və əməllər yox idi. Gəlinən ümumi qənaət ondan ibarətdir ki, Azərbaycan əhalisi tarixən, Səfəvilərdən əvvəlki dövrdə (Qaraqoyunlular, Ağqoyunlular dövrü) əhli sünnənin əsasən ənənəvi hənəfi, şafii və şiəliyin zeydi mötədil məzhəblərinə etiqad və əməl edib. Səfəvilər dövründə zeydi şiəliyi (bu gün Yəməndə, sonradan yetişdirilən Husilər vasitəsi ilə zeydiləri döndərib imami - cəfəri məzhəbinə qoşduqları kimi) imamiyyə məzhəbi ilə əvəzləndi. Lakin insanlar hələ də öz mötədil, barışdırıcı, vəhdətçi tarixi əqidələrinin abu- havasında qalıblar. Müstəqillik əldə ediləndən

sonra xurafatçı cərəyanların təbliğatına yollar açılsa da xalqımız hələ də 30 ilə yaxındır ki, din, məzhəb adı altında təbliğ edilən, əslində xarici ölkələrin siyasətinə bükülü məqsədlərə xidmət edən mövhumat təbliğatının səmimiliyinə inana bilmir.

Təfriqəçilik, uzun əsrlik mübahisə və məzhəb münaqişəsi, xurafat, radikallıq, məzhəb təəssübkeşliyi bu məzhəbdən uzaqdır.

A.Belyayev "Müsəlman təriqətləri" kitabında (səh. 45) yazır:" Zeydilər öz ideologiyalarına görə, digər şiələrə nisbətən sünnilərə daha yaxındırlar. Zeydilər şiələrlə sünnilər arasında orta vəziyyət tutmaqla heç birinə qarşı rəqabət əlaməti göstərmirlər. Onları digər müsəlman təriqətlərindən fərqləndirən də budur... "

Tarixi mənbələrə görə İmam Zeydin anası Çin ərazisindən olan bir kəniz idi. Onu İmam Hüseynin intiqamını Əməvilərdən alıb Zebeyrilər tərəfindən öldürülən Muxtar Səqəfi İmam Əli Zeynəlabidinə bağışlamışdı. Xanımın Sind mənşəli olduğunu yazırlar. Ümumiyyətlə, bəzi fars hədisçilər, ərəb tarixçilər həmişə türk millətinə qarşı həsəd və qısqanclıqla yanaşıblar. Xanımın türk, Uyğur qızı olduğunu gizlətməyə çalışıblar. Doğrudur, İslamda millətçilik təəssübü qadağan edilir. Lakin buna rəğmən biz Əməvilər, Abbasilər xilafəti dövründə başqa millətlərə qarşı ayrı - seçkiliyi açıq görürük. "Cayda" və ya "Ceyda", ərəbcə uzun boylu, xoş üzlü qadın anlamındadır. Çox böyük ehtimalla bu ad xanıma sonradan verilmiş addır. Yəni ərəbləşdirilmiş adıdır. Çünki o zamanda türk vilayətlərində və türksoylu xalqlarda hələ ərəb-İslam adları geniş hal almamışdı. Digər tərəfdən, əgər Cayda xanım Çin qızı olsa idi ona uzun boylu, boy-buxunlu anlamına gələn ada verməzdilər. Çinlilər heç də ərəblərdən hündür boylu olmayıblar. Çinlilər, ümumiyyətlə, qısa boyludur. Qadınları isə daha qısa boyludur. Demək, Ceyda xanım ərəblərdən də uca boylu olub ki, ona məhz Ceyda adı veriblər. Digər mənbəyə görə isə Cayda xanımın adı uzun anlamına gələn "caydaq" sözündəndir. Bu söz hazırda Borçalı,

Göyçə camaatı və Azərbaycanın Qərb bölgəsi rayonlarında əhali arasında işlənir. Arıq, uzun, hündür adamlara "uzun caydaq" və ya "caydax" deyirlər. Sind mənşəli olsa belə həmin ərazilərdə də tarixən türk milləti geniş yaşayıb, hakimiyyət sürüb. Türk xatunları hər zaman uca boylu, İmam, Peyğəmbər ailəsinə yaraşan xanımlar olub. Muxtar Səqəfi İmam Zeynəlabidinə hər halda Çinlilərin qısa boylu, cılız bədənli əsir kənizini bağışlamazdı. Odur ki, həm adı, həm də mənsub olduğu ərazi baxımından Cayda xanımın türk - Uyğur mənşəli olduğu qənaətindəyik.

Bu, sonralar İmam Zeydin ərəb və fars millətçilyinin əleyhinə olan hərəkətlərində, onun türklərə xas əməl və davranışlarında da özünü göstərdi. Hətta dövrün Əməvi xəlifəsi Hişam bin Əbdülməlik onunla dialoqunda İmam Zeydə anasının kəniz olduğunu təhqiramiz şəkildə dilə gətirərək onun ərəb xilafətinə rəhbər olmaq imkanı olmadığını vurğulamışdır. İmam Zeyd digər mühüm məsələlərlə yanaşı, xəlifənin məhz onun anasını kəniz adlandıraraq digər millətləri alçaltmasına görə üsyan fikrinə daha da yaxınlaşmışdır. Kəskin etiraz bildirib İbrahim peyğəmbərin arvadı Həcərin də kəniz və başqa millətdən olduğunu əsas gətirərək onun oğlu İsmailin məhz Həcərdən olduğunu qeyd etmiş, xəlifəni susdurmuşdur. Qeyd edək ki, İbrahim peyğəmbər hazırda Türkiyə ərazisində yerləşən Urfa şəhərində doğulub, qədim mənbələrə görə şumer mənşəlidir. İlk həyat yoldaşı Saranın yəhudi, ikinci həyat yoldaşı Həcərin isə həbəş və ya türk mənşəli olduğu fikirləri mövcuddur. Həzrət Məhəmməd peyğəmbərin də məhz İbrahim oğlu İsmailin soyundan və Qüreyş tayfasından olması (hazırda Orta Asiyada "Türeyşilər" var), savaşlarda Türk çadırında oturması, yaxın dostu və eyni tayfadan olan Əbu Bəkrlə bəzən heç kəsin anlamadığı dildə danışması (türk dili) mənbələrdə var. Hətta Məkkə müşrikləri təbliğatının ilk illərində onun çıxıb türk torpaqlarına, ata - baba yurduna getməsi üçün ona işgəncələr verirdilər. Məlumdur ki, peyğəmbər ərəb dilində yazıb oxuya

bilmirdi. Amma qılıncının qəbzəsində türk dilində türk nişanları, rəmzləri vardı.

Zülfiqar qılıncı haqda tarixçi alim Əkbər Nəcəf "İnanc yaddaşı" kitabında yazır:

"Zu-fəkar", yəni "sahib və omurğa" sözlərindən meydana gələn zülfükar qılıncını Mərzuk əs-Sakil adlı bir usta düzəldib. Qılıncın həqiqi sahibi mübahisəlidir. Bir iddiaya görə Məkkədə Bəni Həccacdan Münəbbih ibn Həccac və ya Nəbih ibn Həccaca, başqa bir iddiaya görə isə As ibn Münəbbihə aiddir. Sonuncu iddia doğrudur, çünki Bədir döyüşündə qılınc onun əlində olub.

Zülfükar qılıncı Bədir döyüşündə qənimət olaraq ələ keçirilib və Peyğəmbər həmin qılıncı qənimət olaraq özü üçün götürüb. Uzunluğu 7 qarış, eni bir qarış idi. Qəbzəsinin ucu gümüşdən, bağında bir həlqəsi olan qılıncın ortasında gümüşdən bəzək olaraq qotaz yer alırdı.

Peyğəmbərimiz qılıncı imam Əliyə Uhud döyüşündən əvvəl verib və bu tarixdən sonra qılınc ona aid olub. Zülfükar adı da iki dilli olduğu üçün qılınca sonradan verilib. Qılınc Əlidən ailəsinə, daha sonra Abbasi və Fatımilərə keçmiş, 11 əsrdə itmişdir.

Ancaq iki dilli qılınclar mənşə etibarı ilə türklərə aiddir. Çünki ilan və ya əjdaha müharibəni simvolizə etdikləri üçün iki dilli qlınc düzəltmə ənənəsi türklərdə olub. Bir digər maraqlı cəhət isə ümumiyyətlə Orta şərqdə və Afrikada qılınc ustaları başqa ölkələrdən gətirilib. Səbəb qılınc haqqında dərin mistik inam idi. İstəyən hər kəs qılınc və ya dəmirçi ola bilməzdi. Uzun əsrlər Afrikada qılınc ustalarına yerli xalqlar qız verməyiblər.

Qeyd: Təbərinin "Tarix", Bəlazurinin "Ənsab", İbn Seyidünnasın, Uyunül-əşər, Diyanət İslam Ensiklopediyasında "Zülfikar" maddəsi, Mircea Eliadanın "Dəmirçilər və Simyaçılar" və Zəkəriya Kitapçının bir çox əsərlərində Məkkədəki dəmirçi türk ailələri haqqındakı qeydləri, Türklərdəki varlığı haqqında Emel Esen, "Türk kozmologiyası" kitablarına baxa bilərsiniz."

Əslində ərəblərin həzrət Məhəmmədi qəbul etməmələrinin,

liderliyini həzm edə bilməmələrinin ən dəqiq səbəbi, onun ərəb mənşəli olmaması idi. Faktiki olaraq sonradan İslam xilafətini ələ keçirib ərəb millətçiliyini bərpa edən Əməvilər peyğəmbər soyuna divan tutdular. İmam Hüseyni və nəslini qılıncdan keçirdilər. Həmçinin, sonralar İmam Zeydi şəhid etdilər. Məzarından çıxarıb başını kəsib illərlə şəhər darvazasından asılı saxladılar. Bədənini doğrayıb, sonra yandırıb göyə sovurdular. Bu, bir millətin öz millətinə etməsi mümkün olmayan cinayətlərdir.

Quranda ərəblər haqqındakı iradlar qəsdən bədəvilərə deyilmiş kimi tərcümə olunmuşdur. Əslində, Quranda ərəblər bir millət olaraq sərt şəkildə tənqid edilmişdir.

Ənənəvi Quran tərcümələrində bir çox ayədə bədəvilərdən bəhs edilir. Amma əslində bədəvi sözü Quranda bircə Əhzab surəsinin 20-ci ayəsində keçir. Ərəbpərəst tərcüməçilər isə "ərəb" sözü keçən Tövbə 90-97-98-99-101-120, Fəth-11-16, Hucurat-14 ayələri "bədəvi" kimi təhrif ediblər. Quranda işlədilən "ə'rab" sözü ərəb millətini, irqini bütünlüklə ifadə edən sözdür. Bütün məşhur dilçilər, qrammatika mütəxəssisləri də bunu təsdiq edir. "Ə'rab" sözü "ərəb" sözünün cəmidir. Ərəblərə aid olan həmin ayələrdən birini təqdim edirik:

NÜMUNƏ: Tövbə 97.

حَكِيمٌ عَلِيمٌ وَاللّهُ رَسُولِهِ عَلَى اللّهُ أَنزَلَ□ا حُدُودَ يَعْلَمُواْ أَلاَّ وَأَجْدَرُ وَنِفَاقًا كُفْرًا أَشَدُّ الأَعْرَابُ

"Əl a'râbu əşəddu kufran və nifâkan və əcdəru əllâ yə'ləmû hudûdə mâ ənzəlallâhu alâ rəsûlihî, vallâhu alîmun hakîm."

Əsl tərcümə: "Ərəblər küfr və nifaq baxımından daha şiddətlidirlər. Onlar Allahın öz elçisinə nazil etdiyi şeylərin sərhədlərini bilməməyə daha meyllidirlər. Allah biləndir, qərar verəndir."

Göründüyü kimi, ayədə "əl ə'rabu" keçməkdədir. İndi ənənəvi təcüməçilərimizin çevirilərinə baxaq:

Vasim Məmmədəliyev - Ziya Bünyadov: "Bədəvilər küfr və nifaq baxımından daha pis (qəliz) və Allahın öz Peyğəmbərinə nazil etdiyi hökmləri (cahillikləri üzündən) bilməməyə (başa düşməməyə) daha layiqdirlər. Allah (hər şeyi) biləndir, hikmət sahibidir!"

Əlixan Musayev: "Bədəvilər kafirlik və münafiqlik baxımından daha betər, Allahın öz elçisinə nazil etdiyi qanunları bilməməyə daha meyllidirlər. Allah Biləndir, Müdrikdir."

Ağabala Mehdiyev və Dürdanə Cəfərli: "(Cəmiyyətdən və mədəniyyətdən uzaq olduqları üçün) bədəvi ərəblərin küfr və nifaqları daha şiddətlidir və onlar Allahın öz peyğəmbərinə nazil etdiyinin hüdudlarını bilməməyə daha layiqdirlər. Allah bilən və hikmətlidir."

Nəriman Qasımoğlu: "Bədəvilər daha çox kafirdilər, riyakardılar. Daha çox onlar bilməyir Allahın Öz Rəsuluna göndərdiyinin qoyduğu yasaqları. Hər şeyi biləndir, müdrikdir Allah."

Nəticə etibarı ilə, tərcümələrini bəzi saxta hədislərlə möhkəmləndirməyə çalışıblar. Çünki, Əməvilərin şovinist səltənəti dövründə qondarılan hədislərdə ərəbçilik toxunulmaz və ərəb dili müqəddəs qələmə verilir. Buna görə də bunlar Allahın yaraşdırdığını ərəblərə yaraşdırmır, Allahın sözünü dəyişdirib təhrif etməklə cəhənnəmi qonarar pulu ilə satın alıblar.

Digər ayələrə də baxdıqda ərəblər haqda Allahın ən doğru qərarı verdiyinin şahidi oluruq. Və bunu ən gözəl şəkildə tarix təsdiq edir. Öz peyğəmbərini daşa basıb dişlərini sındıran, nəvələrini qılınclarla doğrayıb başlarını nizələrə taxıb bayram edən, qadın, qızlarını əsir edən, nəslini - soyunu işgəncələrlə qurudan ərəblər haqda Allahdan savayı ən düzgün qərarı kim verə bilər? Tərcüməni xarab etməklə Allahın qərarını gizlətmək olmaz!

...İmam Zeyd ibn Əli (İmam Hüseynin nəvəsi, İmam Zeynəlabidinin oğlu) xilafətdə peyğəmbər ailəsindən olmayanların da hakimiyyətlərini qanuni saymışdır. Bununla belə o deyirdi ki, xəlifənin əhli-beyt nümayəndələrindən seçilməsi daha yaxşıdır. Xəlifənin qanuniliyini təsdiqləyən əsas şərt onun xalq tərəfindən dəstəklənməsi və ədalət tərəfdarı olmasıdır.

Zeyd ibn Əli imamı, cəfəri şiələrdən fərqli olaraq ilk xəlifələr: Əbu Bəkr və Ömərin hakimiyyətlərini şəriətə uyğun hesab etmiş, amma Əli ibn Əbu Talibin xəlifə kimi Məhəmməd peyğəmbər tərəfindən təyin edilməsini təsdiqləməmişdir. Zeydə

görə, Həzrət Əli və Həzrət Fatimənin uşaqları olan Həzrət Həsən və Həzrət Hüseynin nəslindən hər bir ləyaqətli şəxs xəlifə seçilə bilər; bu seçim başqalarının seçilməsindən daha yaxşıdır. Lakin başqa adam seçilsə də, onun hakimiyyəti qanuni olur.

Şiələrin bir qismi əhli-beytin günahsız (məsum) olmasına inanırlar. Lakin Zeydin bunu təsdiq etməsi haqqında heç bir məlumat yoxdur.

Zeyd bin Əli Qiyamət hadisələrindən öncə dünyanı xilas edən "gizli" imamın (qaimin) gəlişi haqqında da heç bir şey söyləməmişdir.

Zeyd İlahi qərarın (bədə) "dəyişməsini" də qəbul etməmişdir. Lakin bu da bir çox şiə qrupları arasında yayılmışdır. Onlar deyirdilər ki, əgər imam eyni şey haqqında fərqli qərar verirdisə, deməli, onları ilhamlandıran Allah qərarını "dəyişdirmişdir".

Zeyd bin Əli böyük günah etmiş müsəlmanların küfrlə iman arasında olduqları fikrini dəstəkləmiş, bununla da mötəzililərin mövqelərinə yaxınlaşmışdır. Amma mötəzililərdən fərqli olaraq o, tövbə etməyən günahkarların əbədi olaraq Cəhənnəmdə qalması inancını qəbul etməmişdir. İlahi tale və insanın iradə azadlığı probleminə gəldikdə, Zeydin fikrincə, hər kəs etdiyi əməllərə görə məsuliyyət daşımalıdır. İnsan isə öz əməllərini Allahın ona verdiyi qüdrət vasitəsə ilə reallaşdırır. Etdiyi yaxşı işləri Allah dəstəkləyir, pisləri isə dəstəkləmir.”

## Daha böyük hədəflərə çata bilərik

Azərbaycan dövlətini əhatə edən hər bir qonşu dövlət Azərbaycan xalqının tarixi və əzəli torpaqları ilə ərazilərini genişləndirmisdir. İran və Rusiya Azərbaycan dövlətçiliyinin və xalqının məhv edilməsində və düşmənçiliyində ən böyük “xidmətə” malikdir. Rusiyanın Cənubi Qafqaza gəlişindən sonra Azərbaycan xalqının, türk etnosunun qanına susamış farslar və ruslar Azərbaycan xalqına məxsus torpaqları öz aralarında bölüşdürmüş və hətta İrandan, Türkiyədən və yaxın şərqdən ermə-

niləri Azərbaycan ərazilərinə kütləvi köçürərək türk etnosu arasında coğrafi bağlılığı kəsmək üçün Ermənistan adlı süni, qondarma dövlət yaradılmışdır. Proses türk etnosunun (azərbaycanlıların) qovulması və köçürülməsi ilə, soyqırımlarla həyata keçirilmişdir. Regionda Azərbaycan dövlətinə, xalqına və ümumən türk etnosuna qarşı fars, rus və erməni birliyi dövlət idarə sistemindən, siyasi quruluşundan, dini mənsubiyyətindən və siyasi rəhbərlərinin şəxsindən asılı olmayaraq üç əsrdi ki birlikdə fəaliyyət göstərir.

Bilmək mütləqdir ki, Cənubi Qafqazda süni yaradılmış Ermənistan nəticə etibarı ilə ümumən Rusiyanın proyektidir və Rusiya maraqlarına xidmət etməlidir. Qeyd etmək lazımdır ki, birinci dünya müharibəsi dövründə 1915-ci il Osmanlı İmperiyasında ermənilərin köçürülməsi ilə bağlı "Antanta sazişi"-nə daxil dövlətlər Osmanlı Türkiyəsi ərazisində erməni dövlətinin yaranmasını tələb edirdi. Ancaq, erməni dövləti tarixi Azərbaycan torpaqlarında yaradıldı. Hər bir halda bu gün ki gün Ermənistan bir dövlət olaraq Cənubi Qafqazda tarixi Azərbaycan torpaqlarında Rusiyanın əvəzsiz xidməti ilə mövcudluğunu davam etdirir. Əgər Rusiya süni yaradılmış Ermənistanı itirəcəyinə əmin olarsa, o zaman, Ermənistanın bir dövlət kimi məhv olması məhz Rusiyanın özü maraqlı olacaq. Ancaq erməni xisləti Krasnodar və Stavropol vilayətlərində Rusiyanın özü üçün də tam fərqli mənzərə yaradaraq onun öz suverenliyinə qarşı bir başa real təhlükəyə çevrilib.

Təbii ki, Azərbaycan dövlətçiliyi və xalqı üçün ilk növbədə təhlükə mənbəyi region dövlətləri İran və Rusiyadır. Sözsüz ki, erməni düşüncə tərzinin və Ermənistanın Azərbaycan, Türk düşmənçiliyi məqsədli və idarə olunandır. Ancaq 44 günlük müharibə də Azərbaycan Türkiyə birliyinin daha böyük məqsədlərə çata biləcəyini göstərdi. Azərbaycan erməni sifəti ilə rus, fars, fransız və digərlərinə qarşı müharibədən qalib ayrıldı. Təbii ki, türk dünyasını nə Dərbəndsiz, nə Təbrizsiz (Cənubi Azərbaycanı), nə Borçalısız, nə də İrəvansız təsəvvür etmək belə mümkünsüzdür. XXI-ci əsrin əvvəli böyük türk dünyasının öz

əzəmətli tarixinə, böyüklüyünə, birliyinə dönüşün başlanğıcıdır.

Əgər bir millət olaraq 44 günlük müharibədə göstərdiyimiz birlik və ruhda davam etsək daha böyük hədəflərə çata bilərik. Məqsəd və hədəflərimiz isə bəllidir - Bütöv Azərbaycan, Böyük Türk Dünyası!

## Qiyamət günü gələcəkmi?

Bəzən düşünürük ki, millətlər, dinlər məhv olacaq, insanlar fərdiləşəcək, qloballaşma gedəcək, bəli proses onu göstərsə də kainat, insanlıq canlı bir orqanizm kimi məhv olmadan özünü xilas etmək üçün ancaq geriyə dönüş edir. Müasir dövrümüzə kimi izləri gəlib çıxmış sivilizasiyaların məhv olma səbəbi məhz insan və insanlığın qorunması naminə baş verib ki, bağlılıq, vətən, torpaq, ailə, sevinc, kədər, mövqe, inanc, vicdan, ədalət və sair bu kimi ali hisləri özündə cəmləşdirən insan adlı varlığı qorunub saxlansın. İnsan təbiətə, ilahi qüvvəyə qalib gələ bilməz. Yaradan yaratdığına məsuliyyətlidir. İnsanlar şıltaqlıq edən uşaq kimi, valideyni tərəfindən cəzlandırılır və ilkin vəziyyətə yəni, başalanğıca qaytarılır. İnsanlıqda belədir İlahi qüvvə bizi şıltaqlığımıza görə cəzalandıracaq və bizi özmüzə qaytaracaq. İlahi qüvvə tərəfindən insanlara verilimiş müxtəlif-lik, daha doğrusu, etnik mənsubiyyət kimliyi torpaq, vətən, ailə, sevinc, kədər, ədalət və inam əbədi olaraq insanlığı yaşadan hissdir, əgər bu hislər ölərsə onda insanlıqda məhv olar - bax o gün qiyamət günüdür.

İnsan o qədər gözəl varlıqdır ki, Yaradan özü ona aşiqdir, Yaradan insanlığı onun işinə qarışmasına, özünün fərdiləşməsinə və nəhayət, heyvaniləşməsinə imkan verən deyil. Bütün ali hisləri özündə cəmləşdirən insan İlahi varlıq kimidir və bu Yaradanın da öz xoşuna gəlir və yaratdığından heyrandır.

Dahi Nəsiminin təbliğ etdiyi, dediyi o Kamil insan Yaradanın öz zərrəsindəndir və öz mahiyyətini anlayandır. Kamil insan təbii ki, insana və insanlığa qarşı ola bilməz. Ən böyük dəhşət isə kamil

olmayan insanın və qrupun əlində gücün və ya hakimiyyətin olmasıdır. Ən böyük faciələr də məhz bu halda yaşanır. Sözsüz ki, normal düşüncəyə malik hər bir insan qəbul edir ki, pis insan var, pis xalq və ya millət, etnos yoxdur. Ancaq tarix göstərir ki, insanlıq əleyhinə cinayətlərə meylli xalqlar, millətlər, etnoslar və nəhayət, qruplar var. Fransızlar, almanlar, ermənilər, çinlilər, birmalılar və bir sıra digərləri insanlıq əleyhinə cinayətlərə, soyqırımlara meyllidir.

Terroru və soyqırımını dövlət siyasəti kimi qəbul edən dövlətlərdən biri Fransa Əlcəzairdə 1,5 milyon insanı, həmçinin, Ruandada, Vyetnamda, Mərakeşdə, Cibutidə, Çadda, Qabonda, Tunisdə 100 minlərlə sakini məhv etmişdir. Faransa prezidenti Emanuel Makron isə 27 may 2021-ci il tarixdə Ruandadakı soyqırımı etiraf edərək üzr istədi. Almanlar yəhudilərə qarşı (holokost), qaraçılara qarşı soyqırım törədib və cinayətlərini etiraf edərək hətta təzminat da ödəyiblər. ABŞ dövləti, ümumiyyətlə, yerli əhalinin, hindu tayfalarının soyqırımı ilə qan üzərində qurulub. Ermənilər 1-ci dünya müharibəsi zamanı Osmanlıda yerli əhaliyə-türklərə qarşı, yunanlara qarşı, XX-ci əsrdə Cənubi Qafqazda isə təkcə azərbaycanlılara qarşı 4 soyqırım həyata keçiriblər. Yeri gəlmişkən, İsrail dövləti erməniləri və Ermənistanı dövlət səviyyəsində soyqırıma meylli xalq kimi elan edib. Çin uyğurlara, müsəlmanlara qarşı, Birma vəhşiliyi ilə yaddaşlara hopmuş müsəlmanlara qarşı soyqırım həyata keçirməkdə davam edir.

Həyat və dünyanın quruluşu məcbur edir ki, bu dünyada bir millət, dövlət olaraq mövcudluğumuz üçün ancaq güclü dövlətimizə və dövlətçiliyimizə xidmət edən milli düşüncə tərzimiz olmalıdır. Bu məqsədlərimiz görə də Yaradan bizə köməkdir, dayaqdır. Millətimizin və etnosumuzun tarixi missiyası dünyada insanlığa qarşı ədalətsizliyinin qarşısını almaqdır. Türkün böyüklüyü də elə bundadır.

## Mündəricat

Rəy ........................................................................ 3
Müəllifdən ................................................................ 5

**Birinci fəsil**
**Rusiya 2-ci Qarabağ müharibəsində ............................. 10**
Rusiya Qarabağa bir başa hərbi müdaxilə edə bilmədi........ 10
Rusiya post sovet ölkələrində də mövqeyini itirib.............. 16
Dünya bölünüb, Rusiya artıq göründüyü kimi
elə də güclü deyil, öz bütövlü sual altındadı... .................... 22
Rusiya BMT-də struktur dəyişikliklərə qarşı çıxır ............. 26
10 noyabr Bəyanatından sonra Rusiyanın "status" oyunu ... 28
Ruslar Qarabağda senzura tətbiq etdi.................................. 32
Zəfər paradı öncəsi Rusiya Azərbaycana qarşı
sanksiya tətbiq etdi ............................................................ 35
Rusların Qarabağda "rus dili" oyunu ................................. 37
Rus sülhməramlıları Azərbaycandan çıxacaq? .................. 39

**İkinci fəsil**
**44 günlük Vətən Müharibəsi. Zəfər ................................ 45**
Azərbaycan məğlubiyyətlə barışmadı................................. 45
Rusiya Azərbaycana qarşı həmişə xəyanətkar olub............. 50
Rusiya Ermənistanı Azərbaycan qarşısında tək qoymadı .... 52
Ermənistanın Tovuzdakı təxribatının ssenaristi Rusiyadır .. 55
Rusiya çox ağır durumda- məcburdur! ................................ 59
Rusiya-Türkiyə məcburi ittifaqı.......................................... 62

Tovuz təxribatından sonra Lavrovun
“məxfi və ədalətli” planı .................................................... 64
Müharibə xəbəri .......................................................... 66
Qafqazın Stalinqradı - Tərtər ............................................... 67
KTMT üzv Dövlətlərinə Ermənistanın Təşkilatdan
xaric edilməsi barədə müraciət edildi .................................. 70
Rus vertolyotunun vurulması, 10 noyabr bəyanatı
və rus sülhməramlıları.......................................................... 71
Rusiyanın Qarabağa sülhməramlı yeritməsi hətta
öz qanunlarına belə uyğun deyildi ....................................... 75
Rusiya prezidentinə və Rusiya aparıcı mətbuat
orqanlarına etiraz ünvanlandı............................................... 77
44 günlük müharibədə din faktoru da oynalındı .................. 79
Azərbaycan əsgərinin qəhrəmanlığı. Şuşa zəfəri!................ 83
Müttəfiqlik haqqında ŞUŞA BƏYANNAMƏSİ.................. 92
İlham Əliyev rəqiblərini necə üstələdi? ............................... 94
Niyə Türk sülhməramlıları Qarabağa girmədi? ................... 99
Türkiyə prezidenti Ərdoğan necə dünya miqyaslı
lider oldu? ............................................................................ 100

**Üçüncü fəsil**
**Daxili və xarici düşmənlər ................................................ 105**
Düşmən heç vaxt yatmır ..................................................... 105
Daxili düşmənlər (sapı bizdən olan baltalar) ....................... 107
İranın Azərbaycan “nümayəndəliyi” ................................... 110
“Tərtər işi”............................................................................ 112

Düşmən maraqlarına xidmət edən yüksək səlahiyyətlilər.... 119
Büdcəni boşaldan "düşünülmüş" qərar verənlərin məqsədi ........ 124
İranın qatı Azərbaycan düşmənçiliyi ........ 126

**Dördüncü fəsil**
**Qənaət ........ 133**
Azərbaycan 1-ci savaşı niyə uduzdu? ........ 133
İran-fars şiəçiliyi niyə Azərbaycanda oturuşa bilmir? ........ 137
Çin təhlükəsi ........ 141
"Xarici düşmən" obrazının vacibliyi ........ 143
Tanrıçılıqığın islam dini ilə ortaq dəyərləri.
İslamın hansı məzhəbi Türk dünyasını birləşdirə bilər? ...... 151
Daha böyük hədəflərə çata bilərik ........ 163
Qiyamət günü gələcəkmi? ........ 165

**Vüqar Dadaşov**
**BİZİM TARİX**
**Bakı – "Red N Line" MMC – 2021, 170 səh.**

**Dizayner: Ramiz Əbilov**
**Korrektor: Samir Əliyev**

**Format: 60x84 1/16**
**Yığılmağa verilmişdir: 18.10.2021**
**Çapa imzalanmışdır: 25.11.2021**
**Tiraj: 500**